www.kitabxana.net
Milli Virtual Elektron Kitabxana

"Çağdaş Azərbaycan bədii nəsri": N 13 (39 - 2016)

Nisə Bəyim

# "Çərxi-Fələk"

Roman

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**YYSQ – 2016**

01.01.2016
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

**www.kitabxana.net**

## Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu e-kitab Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan bədii nəsri"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir. Elektron kitab N 13 (39 - 2016)

**Kulturoloji layihəni maliyyələşdirən qurum:**

**YYSQ - http://www.yysq.org**

# Nisə Bəyim

# "Çərxi-Fələk"

Roman

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı, YYSQ – 2016**




# DİQQƏT

***Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.***

# ÇƏRXİ - FƏLƏK

(Roman)

## *Qərib*

Gəmi sahilə yan alanda gecə yarıdan ötmüşdü. O, göyərtədə dayanıb yaxınlaşdığı, yəqin ki, qalan ömrünü keçirəcəyi şəhərin hələ uzaq görünən, işıqları bərq vuran mənzərəsini seyr edirdi. Şəhərin qoxusunu almağa başladı. Neft, bataqlıq, zibil və dəniz qarışıq havanı sinəsinə çəkdi. Bizim qəhrəmanımızın həyatı elə bu gecədən və bu qoxudan başlayacaq.

Onun kim olduğu, haradan, nə üçün gəldiyi, keçmişi ilə bağlı xatirələrə toxunmaya caq, heç vaxt bu adamı buraya atan müəmmalı səbəbləri xatırlamayacağıq.

Bəlkə də, sonralar müəyyən məqamlarda, düşdüyü vəziyyətlərdə, danışdığı sözlərdən onun haqqında nə isə öyrənə bildik, indi isə yalnız gördüklərimizlə kifayətlənməli olacağıq. Amma nəzərə alsaq ki, əsərimizin qəhrəmanı haqqında heç bir məlumat verməmək də oxuyucuya qarşı ədalətsizlikdir, o zaman onu uzaqdan da olsa, müşahidə edib, özümüz bir nəticə çıxaraq.

Odur ki, xəyalınıza otuz iki (dəqiq 32) yaşında, ciddi və təmkinli, zahirən xoş təsir bağışlayan bir kişi gətirin...əgər nəzərə alsaq ki, hər hansı bir ciddi səbəbdən, o, bütün keçmişindən ayrılaraq, tamam yad bir yerə birdəfəlik gəlibsə, demək, ona qərarlı və güclü adam da demək olar...hər halda, bu bizim ilk təəssüratımızdır. Uzun zaman yol gəldiyindən üst-başı baxımsız idi, əlində heç bir yükü olmadığından onun vəziyyətini müəyyənləşdirmək o qədər də çətin deyildi.

Tərsanədə bir daldanacaq tapıb səhəri birtəhər açdı. Onu görən olmadığından ilk gecəsi macərasız ötüşdü. Adətən, macəra romanları üçün bu xas olan keyfiyyət deyil. Səhər açılanda o da şəhərə daxil oldu. İlk baxışdan bu şəhərlə özü arasında nə isə bir uyarlıq tapdı və bu oxşarlıq ona bir qədər təskinlik gətirdi. Şəhər də onun kimi çirkli idi...

Böyük və uca binalara tamaşa etdi. Bayraqların və bahalı markalı xarici maşınların çoxluğundan anladı ki, bura şəhərin mərkəzi, rəsmi yerləridir. Yavaş-yavaş uzaqlaşdı. Tində dayanıb, zənbilini yerə qoyub qutab satan qadından iki kartof qutabı aldı. Cibində bir neçə quruşu vardı...Gəmidə daşıdığı yükün qazancı idi. Hava qızdıqca şəhəri qəribə -ərimiş qır qarışıq bürkü qoxusu təntidirdi.

Adamları zibilə, zibilləri də adama qarışan bu şəhərdə elə bil hər şey nəfəssizlikdən ləhləyirdi. Yaman susamışdı.Yol üstündəki parka girib ağacları sulamaq üçün qoyulmuş kranı açdı, doyunca su içdi, o tərəf-bu tərəfə baxıb, əl-üzünü də yudu.

Bu şəhərin adamlarının əsas məşğuliyyəti alver idi. Dünyanın başqa şəhərlərindən fərqli olaraq, buradakılar ancaq söz alıb -söz satırdılar...söz satmaq sizə asan bir iş görünməsin. Bizneslə məşğul olanlar çox gözəl bilir, bu-alverin ən çətin və mürəkkəb növüdür...qabağına çıxan, əlinə keçən adama yalan satmaq, bəzən düz sözü sırımaq...lap dəllalcasına, bəzən ölü sözü diri yerinə satışa çıxarmaq adamdan çox böyük bir fərasət və məharət tələb edir.

Adamlara qarışıb avtobus dayanacağına gəldi, gözləməyə başladı, amma hara gedəcəyini bilmirdi. Hara getsin? Saatlarsa keçirdi...İşıq dirəyinə söykənib qəzət oxuyan adamı gözü aldı, ona yanaşdı...söhbət ki, eləmək olardı...

-Salam...

Qəzet oxuyan adam gözlərini qəzetdən çəkib ona baxdı...siması tanış gəlmədiyindən üzünə təəccüb ifadəsi qondu.

- Salam, - deyib, yenidən gözünü qəzetə dikdi.

- Üzr istəyirəm... mən soruşmaq istəyirdim...burada ...yəni, şəhərdə ilk
dəfəyəm... heç yeri də tanımıram...
Adam yenə diqqətlə ona baxdı:
-Yəqin, iş axtarırsan...qalmağa da yer...
O belə asanlıqla söhbətə girdiyi üçün sevindi...
-Elədir...burda heç kimi tanımıram...
Adam ona yox, ətrafa göz gəzdirərək:
-Hmm...onda nə durmusan...başla...
O, təəccüblənərək:
-Nəyə?
-Necə nəyə...alverə...burda hamı söz satır... sən də öz sözünü sat...
Heç nə anlamayaraq, onun üzünə baxmağa başladı. Söz soruşmağa da ürək eləmirdi, ürəyində :” Bu nə danışır? Necə yəni söz sat...hansı sözü...? ”
Onun belə lappa-lappa baxmağından bir şey anlamadığını başa düşən adam:
-Bir söz de... nə istəyirsən... nə olur-olsun... sən sözünü de...almaq istəyən
tapılacaq...
Heyrətdən boğazı qurudu...o yan-bu yana baxıb udqundu. Nə desin, kimə desin..?

Elə durduğu yerdəcə quruyub qalmışdı. Birdən –birə ürəyinə bir kədər çökdü. Baxdı ki, qəzet oxuyan adam da yoxdu daha, çıxıb gedib. Bilmədi neyləsin.

Fikirli-fikirli duruxa getdi, gözləri yol çəkdi...belə bir vəziyyətə düşəcəyi heç zaman ağlına gəlmədiyindən özünü lap itirdi. Qarşısına çıxacaq çox şey təxmin eləmişdi, hər cür heyrətamiz, qəribə hadisələri göz altına almışdı, amma belə bir durumu təsəvvürünə heç zaman gətirməmişdi.

Gözləri uzaqdan ərşə dikilən, dənizin kənarındakı əyləncə yerində fırlanan, uşaqların, bəzən elə böyüklərin də qorxa-qorxa olsa da, sevinərək minib göydə fırlandığı " Şeytan çarxına " sataşdı. Baxdı-baxdı...və nədənsə, kədərli-kədərli pıçıldadı :

-" Çərxi fələk"...

Sonra da bu ifadəni bir az bərkdən səsləndirdi. Dayanacaqda və ətrafdanə qədər adam vardısa, dönüb diqqətlə və təəccüblə ona baxdı. Üzərində cəmləşən bu qədər marağın gərginliyindən yerində gerilədi...hamı ona yaxınlşmağa başlayanda isə əməlli-başlı qorxdu. Adamlar yaxınlaşaraq onun ətrafında sıx bir halə yaratdılar -hərəsi bir söz soruşurdu. Bu qarmaqarışıqda kimin nə dediyini kəsdirə bilmirdi, birdən birə-birə bu adamlar niyə həyəcanlandılar? Üzlərində, gözlərində qəzəb və hiddət peyda oldu... onlar bir-biri ilə mübahisə etməyə

başlayanda vəziyyətin ciddi olduğunu anladı...və qarışıqlıqdan birtəhər sıyrılıb, adamları yardı, özünü sürətlə dayanacağa yaxınlaşan avtobusun qapısından içəri atdı. Pəncərədən boylanaraq gördü ki, dayanacaqdakı adamlar əl-qollarını ölçərək qeyzlənmiş halda, bir-biriləri ilə mübahisə edirlər. Avtobusa heç kim minmədiyindən və düşmədiyindən sürücü yenə də iti sürətlə maşını işə saldı. O keçib boş yerdə oturdu və yalnız bu zaman dərindən nəfəs alaraq özünə gəldi. Artıq hara gedəcəyinin fərqində deyildi. Nə fərqi var...hara gedir –getsin! Axırı bir yerdə dayanacaq ki...O, bir yerdə dayanmalıdı...pəncərənin şüşəsinə yapışdırılmış lövhədəki yazını və avtobusun nömrəsini oxudu: 32.

Avtobus bir saata qədər yol getdi. Deyəsən, şəhərdən uzaqlaşırdı...get –gedə evlər, adamlar seyrəlir, uzaqlarda kiçik, səliqəsiz, əyri-üyrü küçələr, yastı-yapalaq evlər nəzərə çarpırdı. Arada yolun kənarında kiçik gölməçələrə və qamışlıqlara da rast gəlinirdi. Maşın üzü yuxarı qalxdıqca sürəti azalır, köhnə motoru güclə, xırıltı ilə, boğula-boğula işləyirdi. Nəhayət ki, avrobus kiçik bir meydana burularaq dayandı. İçəridə qalan tək-tük adamlar da düşdülər. Anladı ki, sonuncu dayanacaqdır. Durub sürücüyə yaxınlaşdı, əlini cibinə saldı, heç nə qalmamışdı...boş əlini sürücüyə göstərdi...sürücü o qədər yorğun idi ki, ərindiyindən ona bir söz də demədi, laqeyd

halda başı ilə işarə elədi ki, düşsün...yəqin, belə hallarla tez-tez rastlaşırdı.

Meydanda dayanıb ətrafa göz gəzdirdi. Dövrələmə, kiçik dükanlar, bir-birinin ağzının içinə girən köşklər, adamların nisbətən sıxlığı buranın ərazinin mərkəzi olmasına dəlalət edirdi, meydandan bir aşağı, bir də yuxarı istiqamətə yol gedirdi. Avtobusların və maşınların aşağıya getməsindən anladı ki, yuxarıdakı evlər son vaxtlar tikilənlərdir. Şəhər burada bitirdi...həm də aşağı getmək daha asan olduğundan o istiqamətə yol aldı.Yaman yorulmuşdu, ac-susuz idi...şər qarışırdı, hava da durğun su kimi dayanmışdı, istinin rütubəti adama yapışırdı. Yol o qədər dar və təhlükəli idi ki, yanından hər maşın ötəndə hasara qısılmalı olurdu. Əslində, bu hasar deyildi, evlərin qapısı və pəncərəsi düz küçəyə açılırdı, hətta paltarları da kücəyə sərmişdilər. Zibil yeşikləri divarlara söykənsə də, zibil ətrafa səpələnərək hər yeri üfunətə bürümüşdü. Pişiklər, itlər adamlara və maşınlara məhəl qoymadan öz işlərində idi...Xeyli getsə də, küçədə bir dayanacağa, yaşıllığa rast gəlmədi...

Yalnız aşağıda yolun burulan hissəsində bir tut ağacı vardı. Sən demə, bu tut ağacının altı həm də dayanacaq imiş. Şəhərə dönən avtobuslar burda dayanırdı. Bir balaca çörək dükanı, yanında göy-göyərti satan oğlanın çardağı və köhnə çəpərə söykənmiş balaca bir çəkməçi

dükanı...Köşkdə orta yaşlarında üzü tüklü, arıq bir kişi əlində bir qadın başmağını yamayırdı.Yaxınlaşıb salam verdi. Dəvət gözləmədən belə, balaca kətildə oturdu. Kişi onun salamını aldı:

-Əleyküm-salam...

Onun gümrah və güclü səsindən təəccübləndi. Bu səs sahibindən o qədər fərqli və böyük idi ki, bir neçə saniyə kişiyə diqqətlə baxmalı oldu...öz- özünə düşündü ki, belə güclü və gur səsə sahib olmaq yaxşı şeydi, hamı sənə qulaq asar...

Kişi mehribanlıqla:

-Yorulmusan, deyəsən ...

O da eyni səmimiyyətlə :

-Demə tay...yaman...axırımdı lap...

Kişi mənalı-mənalı:

-Hmm...hər şeyin əvvəli-axırı var...amma bunu Allahdan başqa kimsə bilməz...kimin əvvəlidi...ya axırıdı...Mənə Atabəy deyərlər. Adım belədi...Sən kimsən...nəçisən?

Gözlərini yerə dikib susdu...Handan-hana köksünü ötürüb:

-Eh....uzun əhvalatdı...danışmaqla başa gələn deyil...qəribəm mən...gəlmə...

-Həəə...görürəm başın az çəkməyib...fikir eləmə, elə baxanda hamı gəlmədi bu dünyada...kim hardan gəlib...hara gedir...bilən varmı, ay qərib..?

-Kişinin gözünün içinə baxıb kədərlə gülümsündü:

-Yoxdu...

Atabəy əlindəki başmağı bitirib o yan bu yanına baxdı, sonra cütləyib qapının ağzına qoydu.

-Bax...bu başmaqları görürsən, adamlar da belədi...gəlirlər, gəzirlər, dağılırlar...sonra da gedirlər...bu sözləri deyə - deyə küncdəki köhnə əl-üz yuyanda əllərini yudu, quruladı, kiçik kətili ortaya çəkib üstündəki örtüyü götürdü. İki stəkan götürüb yanındakı iri termosdan çay tökdü, birini onun qarşısına qoyub:

-İç...Qərib...ürəyini sıxma...Allah bəndəsini dar gündə buraxmaz...

Kişinin belə səliqə-sahman yiyəsi olmasından, ona ürək-dirək verməsindən xoşhallanaraq sanki təpərləndi. İsti stəkanı götürüb iri bir qurtum aldı ...susuzluqdan ciyəri yanırdı. Gözləri təmkinlə çayını içən Atabəyin əllərinə sataşdı. Bu əllər uzun illərin qabarından düyün-düyün olub şəklini də dəyişmişdi, dərisi quruyub qalınlaşmış, cadar-cadar olmuşdu...

Atabəy gözü ilə ətrafa işarə edərək:

-Bura ki var, qədim yerdi... adamlar burda çoxdan binə salıblar...kənd olub əvvəllər buralıq...elə mal-qara ilə gün keçiriblər...sonralar ki, nöyüt çıxardıblar burdan, olub zibilxana...nöyütünü aparıblar, özü qalıb qamışxana...indi-indi adamlar çoxalıb burda...qaçqınlar gələndən...kim idi

bura gələn yoxsa...olar da gəldi, oldu buranın yiyəsi...hmm...susub fikrə getdi...

Bu zaman dükanın yanından içəriyə ayrılan dar dalandan on iki-on üç
yaşında bir oğlan uşağı çıxdı. Bu- göy rəngli yay maykası, qısa yay şalvarı geyinmiş, arıq bədənli, qaraşın, diribaş bir öğlan idi. Atabəy onu görcək :

-Rizo...ay Rizo...

Oğlan səsi eşidib cəld addımlarla onlara yanaşdı, böyük adamlar kimi əvvəlcə Atabəy ilə, sonra da onunla əl verib görüşdü.

Atabəy mehribanlıqla:

-Nətərsən, kişi, nə var-nə yox..?

-Salamatlıqdı...Allaha şükür...

-Olsun ...olsun təki...həyətdəki o boş otaq dururmu?

-Hə...boşdu.

-Anana de, bir azdan gələcəyik...adam var.

-Yaxşı...Ramilə dəyib qayıdıram.

Oğlan iti addımlarla üzüyuxarı getdi.

-Hə...Qərib, burda yaxinlıqda bir ev var, yiyəsi yaxşı adamdı...könlünə yatsa, qalarsan...

Sevincindən tez kişinin sözünü kəsdi :

-Başımı soxmağa bir koma olsun, vallah heç bilmirəm, bu yaxşılığın əvəzinə nə deyim...

Atabəy asta-asta:

-Adam döyülük, bəyəm...adam-adama nə gündə gərək olar bəs...eh...
o qədər görmüşük, o qədər çəkmişik ki...
Boğazını aritladı... qutudan siqaret götürüb, qutunu ona uzatdı.
-Çəkən deyiləm, çox saq ol...
Ürəyindən keçdi ki, iş barədə də ondan soruşsun...amma səbr elədi...dünyagörmüş adamdı, yəqin, bilir də özü...
Atabəy fikirli-fikirli siqaretini çəkirdi...danışmırdı...amma hiss olunurdu ki, ürəyində nəyi isə götür –qoy eləyir.
Az keçmədi ki, oğlan əlində sellafon torbada aldığı şey-şüylə geri qayıtdı.
-Gəldim, əmi.
Atabəy sakitcə:
-Gəlirik indi, - dedi.

Ayağa durub əynindəki nəm, nimdaş köynəyi çıxartdı, divardan asılmış dama-dama köynəyi geyinib düymələdi. Fikir verdi ki, onun qolları və bədəni müxtəlif döymə şəkillərlə doludur.
-Hə... dur gedək, Allah xeyirlisini eləsin.

Dar dalanla məhəllənin içərisinə doğru qalxmağa başladılar. Burda asfalt belə yox idi. Bəzi yerlərə lay daşlar döşənmiş və qazılmış kiçik arxın içi ilə çirkab su axırdı, yəqin, bu arx böyük küçədəki kanalizasıya sisteminə tökülürdü. Bir qədər yuxarıda küçə nisbətən

genişlənib böyüyürdü. Hər iki tərəfində birmərtəbə, bəzən də kiçik ikimərtəbə evlər vardı. Cəmisi 7-8 ev olardı. İkinci taxta qapıya çatıb həyətə girdilər. Bura tunel kimi bir yer idi. Dar və ensiz yol həyətin o biri başına qədər uzanırdı. Hər iki tərəfində kiçik daxmalar vardı. Yalnız həyətin başında yer bir az genişlənir və ensiz taxta pilləkən ikinci mərtəbəyə qalxırdı. Pilləkənin yanında həyətdə su kranı vardı. Ortada isə stol qoyulmuşdu. Üstü bağlı olduğundan həyətə demək olar ki, gün düşmürdü. Kranın yanındakı taxçada isə xeyli qab-qacaq və boş balonlar yığılmıdı. İri ləyənlərdə isə pomidor, xiyar və xeyli tərəvəz qalaqlanmışdı. Deyəsən, ev sahibəsi qış tədarükü görürdü. Onların gəldiyini görən oğlan anasını səslədi:

-Mama...

Bu zaman aşağı mərtəbədəki alçaq, xırda şüşəli aynabəndən bir qadın çıxdı, tələsik qapının ağzındakı şappıltıları geyib onlara sarı gəldi. Bu, boylu-buxunlu, 30 yaşlarında dolu bir qadın idi. İsti olduğundan əynindəki paltar gen və uzun idi, saçlarını tarim çəkib boynunun arxasında yığmışdı. Qaraşın üzü və boynu tərli, nəm idi...

Atabəy:

-Ay salamün - əleyküm...Nə təhərdi vəziyyət, ay Gülöyşə?

-Xoş gəlmisiz...gəlin...vəziyyətdi də...allaha şükür...salamatlıqdı...dolanuriq Allahın köməkliyinən...
-Bacı, bu adama yer-yurd lazımdı...qəribdi...buralarda bir kəsi yoxdu...sənin evlərindən boş varsa, məsləhətdisə...qalardı burda...
Qadın ona tərəf ötəri bir nəzər salıb:
-Nə bilim,Vallah, o qapının ağzındakı yer boşdu...baxsın...bəyənərsə...tay özü bilər.
Atabəy qapıya tərəf dönərək :
-Ordakımı ? Həə...noolar...gəl görək...
Qapınım yanındakı kiçik daxmanın qapısını açıb içəri girdilər. Bu cəmi 2-3 metrliyində balaca bir yer idi. Bir dəmir çarpayı, kiçik miz və iki köhnə stul, divarda paltar asmaq üçün asılqan və küncdə kamod kimi köhnə bir şey...Çarpayıda döşək də yox idi...yəqin, gələn adam özü gətirməli idi...
-Hə...Qərib...necədi ?
O sevinərək..
-Vallah, lap şahlara layiq bir yerdi...mən elə yerdə də yataram...
-Yerdə niyə yatirsan...Gülü bacı tədarük elər olanından...Allah xeyir versin, qal...yaxşı...düzəlişərik ...
Onlar qapının ağzına çıxanda daha son imkan yeri olduğunu hiss edib Atabəyə:

-Allah köməyin olsun...amma mənim heç pulum yoxdu...səhər bir iş mütləq tapmalıyam, lap hamballıq olsun, nə iş olur-olsun...Allaha şakür, əlim-ayağım salamat...

-İndi dincəl onda, obaşdan gəl dükana, görək neynirik...di salamat...

-Çox sağ ol. Allah səndən razı olsun...

Qayıdıb otağa girdi, stulda oturub dərindən köksünü ötürdü, otağın balaca pəncərəsi vardı, durub onu açdı.

Oğlan gəlib qapının ağzında dayanıb ona baxırdı...gülümsünərək:

-Gəl, Rizo, gəl içəri...

Qğlan gəlib o biri stulda oturdu:

-Sənin adın nədi?

Bir an duruxub gülümsündü:

-Adım Qəribdi...

-Şey-şüyünü nə vaxt gətirəcəksən?

-Mənim heç nəyim yoxdu...elə özüməm...

***

Məhləyə təzə kirayənişinin gəldiyini eşidən qonşu qadınlar məlumat almaq üçün bir- bir Gülünün yanına yığıldılar. Ev yiyəsi heç nə bilmədiyindən hələlik bir söz dedi: ,,Qəribdi”. Rizo içəri girəndə hamı gözünü ona dikdi. Rizo qısaca:

-Deyir,- heç nəyi yoxdu...
Otaqdakılar dönüb Gülüyə baxdılar.
Gülü özünə məxsus canıyananlıqla vaysındı:
-Yazıq...görəsən, başına nə bəlalar gəlib ki, bu gündədi...Atabəy qardaş deyəndən sonra mən nə karəyəm, qalsın də...gəlib buralaracan çıxıb...neyləyim? Durum bir şey hazırlayım, siz də kömək eləyin.

Gülü qalxıb dolabı açdı. Aşağı gözdın qatbaqat yığdığı paltarların arasından seçdiklərini qadınlara verməyə başladı. Bağlamanı açıb bir-iki şalvar –köynək çıxartdı.
- Bunlar bədbəxt Vasifindi, atmağa əlim gəlmirdi, saxlayıb neyniyəcəm, heç olmasa kiməsə yarasın...ağlamsınıb gözünü sildi, burnunu çəkə-çəkə:
-Yuxarıdan döşək də düşürün...Rizo, mama qurban, qalx yuxarı, Nazı xalanla gətir, Nazı, elə ağlar da ordadı, bir dənə adyal da gətir, yaşıl zolaqlı olanı...
Özü isə həyətdəki kirayəşin qadınla şorba tədarükünə girişdi.

Gülöyşə bütün kirayənişinlərinə qarşı qayğıkeş və mehriban idi. Ac olanı doyuzdurur, xəstə olanı həkimə aparır, işi olmayana iş tapır - əlindən gələni edirdi. Sanki onun daxmalarında qalan insanlar ona əmanət edilmişdi, onların bütün dərdləri ilə maraqlanır və çarəsini axtarırdı. Görünür, özü çox ağır həyat keçirdiyindən ağır vəziyyətdə olanların halını anlayır və acıdığı üçün bigana

qala bilmirdi. Buna görə də bütün məhlə onun başına and içirdi, kimsə bir sözünü iki eləmirdi. Kirayədən çıxıb gedənlər belə onu unutmur, əziz adamları kimi əlaqə saxlayırdılar. Gülöyşənin bu dünyada oğlu Rizvandan başqa kimsəsi yox idi. On beş yaşında olarkən, ögey anası onu Vasifə ərə vermişdi. Bir ildən sonra Vasif adam öldürüb türməyə düşmüşdü. Həbsdə də iki qətl törətdiyindən ömürlük həbsə məhkum edilmişdi. Öldüsündən –qaldısından bir xəbər yox idi. Ümidi tamam üzülən Gülü bir gün o ki var ağlayıb ağı deyəndən sonra, qıpqırmızı şişmiş gözlərindən dolu tökə-tökə Rizoya dedi ki, atanın ölüm xəbərini gətiriblər...Bunun nə dərəcədə doğru-olub olmadığını heç kim bilmədi. Bəlkə, bunu ondan ötəri dedi ki, Rizo birdəfəlik gözünü yığsın, daha sorğu-sual eləməsin. Uşaq yazıqdır, gözü uzaqlarda, ürəyi səksəkədə qalmasın. Həyətdə arvadlar ona qoşulub ağlaşdılar, ürəklərini həyətə boşaldıb, daxmalarına çəkildilər.

Bəzi gizlinlərdə isə şübhəli xəbərlər dolaşırdı. Şaiyə gəzirdi ki, Vasif " vor zakondu " Kamçatka türməsində, hökmü-fərmanı buralara qədər işləyir. Bu xəbərin nə qədər doğru olduğunu kimsə bilmirdi. Gülü səhərdən axşamadək iri, isti-soyuq sudan şişmiş əlləri ilə şoraba qoyur, banka bağlayır, bazar –dükana paylayır və bununla dolanırdı. Bir də yan-yana olan iki həyətdə tikilmiş xırda

daxmaları kirayə verirdi. Buraya rayon və kəndlərdən iş, çörək dalınca gələn adamlar yerləşirdi. Çoxu ailəli idi. Həm ucuz idi, həm də elə kənd kimi yer idi, şəhərin bu məhəlləyə dəxli yox idi, şəhər hələ buralara qədər gəlib çıxmamışdı. Gələnlərin hamısına Gülü qahmar çıxırdı. Sanki hər tərəfə səpələnmiş bu insanlar Gülünün qohum - əqrabası idi. Gülü də bu kimsəsiz, şəhərə bir quru canlarını götürüb gəlmiş adamlara sahib çıxmağa borclu idi. İllərlə üstünə düşən bu ağırlıqdan həzz alırdı, ona pənah gətirənlərin tək ümid yeri olmaqdan qürrələnirdi. Uşaqlıqdan ağır işlərə öyrəndiyindən Gülü üçün mümkünsüz iş yox idi. O, erkən yaşlarından həyatın amansız və ədalətsiz üzünü görmüşdü. Heç nədən pul çıxarmağa, çörək qazanmağa, başqalarına da kömək eləməyə öyrənmişdi. Bu məhlənin hamısi olmaq onun xoşuna gəlirdi. Təkcə Atabəydən çəkinir, onu görəndə özünü yığışdırırdı. Atabəyın bu məhləyə necə gəlib düşdüyünü heç kim bilmirdi. Çox qapalı və qaranlıq adam idi Atabəy. Onun tək zəhmi bəs edirdi ki, bu məhlədə hər kəs qayda-qanunu gözləsin, cızığından çıxmasın. Hərəsi bir tərəfdən gələn adamlar bu ağır zəhmin altında məhlənin yazılmamış qayda - qanunlarına riayət etməyə məcbur idi .

Gülü obaşdan iri, üst-üstə yamaq vurulmuş həsir zənbillərlə "pasyolka" bazarına gedir, günortadan xeyli

keçmiş həmin ağır zənbillərlə geri qayıdırdı. Zənbillərdə çox zaman bazarın sonunda  satılmayıb atılan və ya alverçilərin daha gözləmək istəmədiyindən ucuz verdikləri artıq-urtuq  tərəvəzlər, meyvələr olurdu. İkinci qatda balaca  eyvanda, köhnə məhəccərə bərkidilmiş stulda oturub bir az mürgü döyəndən sonra onun əsas işi başlayırdı. Kirayənişin qadınlarla söhbət edə-edə zənbiilləri həyətdəki krantın yanında boşaldır, iri ləyənlərdə, aşsüzənlərdə təmizləyib yığır, sonra gecədən xeyli keçənə qədər banka bağlayırdı. Gətirdiyi tərəvəzlərdən ehtiyacı olan kirayənişinlərə də verirdi. İri bankalar onun möhkəm biləkli əllərində yüngül şar kimi fırlanırdı. Bu işləri görə-görə Gülü o qədər adamın iş-gücünü öyrənir, problemini həll edir, məsləhət verir, yol göstərirdi. Nə vaxt dincəlib yatdığını bilən yox idi. O, gəncliyini və qadınlığını büküb evinin divarındakı sandığa- Vasifin səliqə ilə yığılmış paltarlarının içərisində gizlətmişdi. Bəlkə də, başqalarının diqqətini cəlb eləməmək üçün özünə fikir vermirdi. Diqqətlə baxanda, Gülü yaraşıqlı qadın idi, sanki ciddi-cəhdlə hər zaman bunu gizləməyə çalışır,  yaşlı qadınlar kimi  geyinib – keçinirdi. Həyətdəki ikigözlü köhnə qaz plitəsinin üstündə həmişə iri qəhvədan qaynayırdı. Xəstələnəndə də belini şal ilə sarıyıb işindən qalmırdı.

Paltarları və mələfələri üst-üstə yığıb iri bir bağlama bağladı və Rizoya verərək:
-Apar ver, - sonra gəl, yorğan – döşəyi apar.
Rizo bir söz demədən bağlamanı qucağına götürüb getdi.
Gülü dərindən nəfəs alıb üzünün, boynunun tərini silərək oturdu. Üzünü kirayənişin gəlinlərə tutaraq:
-Qərib adamdı, Allaha da xoş gedər.
Qonşular da onun bu sözlərini təsdiqləyib ona dua elədilər.
Qərib bu təzə adına tez öyrəşdi. İndi ona bundan daha çox yaraşan  ad tapmaq olmazdı. Rizo qucağında hıqqana-hıqqana gətirdiyi yorğan –döşəyi çarpayının üstünə qoydu. Stulda oturub Qəribin yerini düzəltməyinə baxmağa başladı. Qərib döşəyi sərib üstünə mələfə çəkdi. Yastığını üzləyib düzəltdi, paltarlarını asılqandan asdı. Keçirdiyi yorğunluqdan sonra bütün bunlar ona inanılmaz bir rahatlıq idi.
Rizo ayağa qalxıb anasının dediklərini təkrar elədi. Həyətdəki qazın üstündəki çaydan istədiyi zaman içə bilər. Ayaqyolu dalandan o tərəfdəki həyətdədir. Hamam yaxındakı dəmir qapıdır. Açar qapının yanındakı mıxdadır.
Qərib ilk əvvəl yuyunmaq istədi. İsti, tər onu aclıqdan daha çox sıxırdı.Rizoya :
-Göstər görüm?
Bu- içərisinə böyük qır qazanı qoyulmuş bir yer idi, qazanın altında qaz yanırdı. Qazanın krantından isti su

götürmək olurdu. Soyuq su isə divarın dibindəki krandan gəlirdi. Altına iri vanna və birəlli qoyulmuşdu. Yeri beton idi. Daş oturacağın üstündəki vedrədə isti- soyuq su qarışdırıb yuyundu. İki həyətin adamlarının hamısı burda çimirdi. Hamı kimin nə vaxt yuyunduğunu bilirdi.
Çirkli paltarlarlarını büküb geyinmə yerində küncə qoydu. Səhər Rizodan soruşub
yuyardı. Otağına qayıtdı. İçəri girəndə stolun üstündə çay və kasada şorba gördü. Dəsmalla başını quruladı. Şorbanı iştahla yedi. Neçə günün ərzində yediyi ilk xörək idi.

Bir-iki saat bundan əvvəlki ümidsizliyi əriyib getdi. Sevindi ki, mərifətli, xeyirxah insanlara rast gəlib.Təmiz paltar, yemək ona möcüzə kimi göründü. Səhər də, inşaalah, bir iş tapar, sonrasına da Allah kərimdir.

Çarpayıya uzandı. Bədəninin yorğunluğu ağrıya çevrilmişdi. Amma yuxu yorğunluğa və həyətdə söhbət edən qadınların səsinə üstün gəldi. Tezliklə yuxuya getdi.

Yuxuda olsa da, ətrafda baş verənləri görürdü. Çarpayıda uzanmışdı...Otaq yarıqaranlıq idi. Gördü ki, tavandan və divarlardan su axmağa başladı. Su əvvəlcə damcı-damcı , sonra isə güclənərək şiriltı ilə axırdı . Kim isə onun başının üstündə durmuşdu. Gözlərini ona zilləyərək baxırdı. O, gözünü açaraq ətrafa baxdı.

Çarpayının yanındakı kətildə oturmuş bir qadın gözlərini ona zilləmişdi. Ağ, uzun saçları ağ örpək kimi

başından açıq-açıq döşəməyə qədər dağılmışdı. Gözləri qapqara idi. Quru-quru yanırdı. Dodaqları bir-birinə elə sıxılmışdı ki, sanki kilidlənmişdi. Ən qəribəsi isə qadın nəfəs almırdı. Onu vahimə basdı. O, dəhşətlə yuxudan ayıldı. Əl-qol ataraq , onu qovmağa başladı:

-Get, get burdan...çıx get !!! Nə istəyirsən məndən? Mənim günahım yoxdu!

Qadın isə sakitcə kədərlə ona baxırdı, heç nə demirdi, sonra divarlarda axan su kimi qadının da gözlərindən yaş axmağa başladı. Otağı su basırdı.Otağa dolan su onun başına qədər çıxdı. Get-gedə batırdı. Əl-qol atmağa, çabalamağa başladı. Boğulurdu, nəfəsi kəsilirdi. Qışqırmağa başlayanda öz səsinə ayıldı. Ağlı başında deyildi. Qan- tərin içində tövşüyürdü. Ətrafa baxdı, heç kim yox idi. Çöldə səssizlik idi. Hərdən krantdan axan suyun şıtıltısı eşidilirdi.Yalnız indi anladı ki, gördükləri yuxu imiş. Boğazı qup-quru idi. Qalxıb yerinin içində oturdu. Əynindəki suya dönmüş köynəyini çıxarıb bədənini quruladı.

İçəridə sanki hava yox idi. Stolun üstündən stakanı götürüb dibində qalan soyuq çayı içdi. Ürəyi hələ də sürətlə döyünürdü.”Bu, nə yuxu idi, İlahi?”

Yalnız indi anladı ki, yuxuda gördüyü ağ saçlı qəribə məxluq ev yiyəsi idi: Gülü!

Ürəyi sıxıldı. Onu nə isə pis bir duyğu bürüdü. Qalxıb həyətə çıxdı. O tərəf –bu tərəfə baxdı. Gülü hələ də həyətdə, krantın başında idi. Nə isə yuyurdu .

İçəri keçib köynəyini geyindi və həyətdən dalana çıxdı. Burda nisbətən hava var idi.Yolun ortasında dayanaraq, bədəninin tərini qurutmağa başladı. Yola- o hasarla bu hasarın arasına ip çəkilmişdi. Çoxlu paltar sərilmişdi. Sərgidə özünün yuyulmuş paltarlarını da gördü. İçinə dolmuş nigarançılıq keçmirdi. O, nə isə təhlükə hiss edirdi. İçindən bir səs sanki ona buradan tez uzaqlaşmağı, çıxıb getməyi pıçıldayırdı. Əlini paltarlaria vurdu. Hələ yaş idi. Divarın o üzündəki ayaqyoluna getdi. Çıxıb yanındakı krantda əlini sabunladı. Üzünə çoxlu soyuq su çırpdı. Sonra dalanda bir az gəzdi. Başını qaldırıb ulduzlara baxdı. Sanki ulduzlar da istidən öləzimişdi. Qayıdıb həyətə girdi. Gülü işığı söndürüb getmişdi. İçəridən stəkanı götürdü, həyətdəki qazın üstündəki çaynikdən çay süzdü. Qazı söndürməmişdilər. Yəqin, obaşdan işə gedənlər üçün çay olsun deyə, yana-yana qoymuşdular. Daxmaya girərkən buranın tamam havasız olduğunu fərq etdi. Pəncərəni, qapını açıq qoyub uzandı. Damın üstündəki qır gündüz qızaraq, istisini içəri vururdu. Ürəyində özünə toxtaqlıq verdi: ”Belə istidə adam nə desən, görər yuxuda...cəhənnəmin əcinnələri də girər adamın yuxusuna.”

Uzaqdan xoruzların banı eşidildi.Yenidən mürgü onu apardı, amma həyətdən ara-sıra gələn addım səslərini də eşidirdi.Tək-tük pəncərələrdən işıqlar da yanmağa başladı. Obaşdan işə gedənlər oyanmağa başlamışdı. Hava açılanda qapıdan Gülünün iki ağır zənbillə getdiyini də gördü. Qalxıb dalana çıxdı. Paltarları sərgidə idi. Yoxladı, qurumamışdı. Daxmaya girib, özünü səliqəyə saldı. Dünən Rizonun gətirdiyi köynəklərin birini geyindi. Bir stəkan çay içib çıxdı. Yavaş-yavaş Atabəyin dükanına yaxınlaşdı. Hələ gəlməmişdi. Kətilin üstündə oturub gözləməyə başladı. İşə gedənlər ala-qaranlıqda ağacın altında avtobus gözləyirdilər. Səhər açılmamış yerlərindən yorğun duran bu insanlar qaraqabaq və qaşqabaqlı idilər. Bir-birinə salam verən tanışların səsi kal və kədərli idi. Birdən əks tərəfdən Atabəyin gur və güclü səsi eşidildi:

-Sabahın xeyir.

Qərib yerindən qalxıb onun salamını aldı:

-Əleyküm –salam.

Atabəy qapının kilidini açdı. Dükana girdi. Dinməz-söyləməz qoltuğunda gətirdiyi kağız torbadakı əşyaları yerbəyer elədi və yenidən qapını bağladı. Üzünü Qəribə tutaraq:

-Necədi vəziyyət, dincələ bildinmi?

- Allaha şükür...salamatlıqdı...Allah razı olsun sizdən.

Atabəy açarı cibinə qoyaraq:

-Aşağıda, yolun üstündə bir şirkət var, tanış adamdı. Gedək ona dəyək bir, orda iş olmamış olmaz. Bir şey fikirləşər, əli uzun adamdı.
Dayanacaqda avtobusa mindilər.

***

Şəhərin kənarında yol boyu yan-yana düzülmüş tikinti və məişət materialları mağaza və şirkətlərinin birinin qarşısında düşdülər. Açıq havada qalaqlanmış bu materialların çoxu topdansatış idi. Xeyli ərazini tutmuş, üst-üstə, müxtəlif ölçülərdə yığılmış təkərlərin yanında tikilmiş ofisə sarı addımladılar.
Atabəy yalnız bu zaman ona sarı dönərək:
-Buranın sahibi bizim yerlidir. Dişi-dırnağı ilə bu işi qurub. Əvvəlcə Rusiyada başlamışdı, yoxsa burda imkanmı verərdilər...İşçiləri də elə öz qohum-əqrabaları, kəndçiləridir.
Qərib başı ilə təsdiq elədi.
Pilləkənlə ofisin ikinci mərtəbəsinə qalxdılar. Açıq qapıdan xırıltılı kişi səsi gəlirdi. Kiminləsə telefonla danışırdı.
Atabəy qapını taqqıldatdı. Stolun başında, kresloda əyləşmiş, telefonla danışan şəxs onları görən kimi qalxdı. Üzünə təbəssüm yayıldı, o biri qolunu yana açaraq:

-Yaxşı, Sadıq, mən sənə sonra zəng edərəm, indi qonağım gəldi.

Atabəyə sarı yeriyib əlini uzatdı:

- Ay xoş gəlmisiz, nə əcəb səndən ay Atabəy, üzünü görən cənnətlik...

Atabəy da eyni səmimiyyətlə:

-İşdən- gücdən macal yoxdu, Əmir, çıxmaq olmur...səhər naxıra, gecə axura.

Pis zəmanədi, başını salamat saxlayan qəhrəmandı...necəsən, nə var-nə yox?

Əmirxan danışa –danışa Qəribə də əl uzatdı:

-Dədəm rəhmətlik deyərdi, mən heç yaxşı zəmanə görmədim, keçin əyləşin.

Zəmanəyə qalsa, əydaha kimi udar bizi, dirəşə-dirəşə qalmışıq yer üzündə.

Ənənəvi giley-güzarı dinləyə -dinləyə Qərib bu adama diqqət yetirməyə başladı. Otağı, stolunun üstü kimi, bu adamın nəhəng gövdəsi də, geyimi də, səsi də, baxışları da, danışığı da dağınıq idi. Gözləri adamın üzündə qərar tutmurdu. Sanki eyni anda müxtəlif şeylər fikirləşir, müxtəlif qərarlar qəbul edirdi.

Atabəy mətləbi çox uzatmadı:

-Əmir, bu qardaşa iş lazımdı, gəldik, buralarda iş olmamış olmaz...nə iş olur- olsun...

Əmirxan onu süzərək:

-Əcəb eləyib gəlmisiz...iş görənə həmişə iş var. Başlasın bir yerdən.
Atabəy razılıqla başını tərpətdi. Qəribə sarı dönərək:
-Sən də oldun özümüzünkü. Allah xeyir versin. Sağ ol, Əmirxan. Allah hər zaman işini avand eləsin.
Əmirxan kreslosuna yayxanaraq:
-Bu nə söhbətdi, Atabəy, özün bilirsən, sən daş qoyduğun yerə, mən baş qoyaram.
Bir iş nə olan şeydir ki...
-Allah köməyin olsun!
Atabəy qalxdı, Qərib də, Əmirxan da yerlərindən durdular.
Atabəy:
- Bizim Qərib sənə əmanət, mən gedim, siz də işinizdə olun.
Əmirxan:
-Dostumuzun adı qəribdi, ya özü?
Atabəy gülümsünərək:
-Həm adı Qəribdi, həm də özü...
Əmirxan Qəribin kürəyinə vuraraq:
-Atabəy kimi dostu olan qərib olmaz. Biz də düşək aşağı, işlə tanış olaq.

Atabəy onlardan ayrılıb yola tərəf getdi. Əmirxan Qəribi iş sahəsinə apararaq, işçilərlə tanış elədi. Uzaqdan bura kimsəsiz görünsə də, burada nə qədər adamın çalışdığına təəccüb etdi. Çoxu da yük boşaldan, yük daşıyan fəhlə idi.

Əmirxan Qəribi kiçik bir çardağın altına aparıb tapşırığını verdi. Gün ərzində gətirilən və çıxarılan malların hesabını aparacaq, çeşidlərə görə yığılmasını təmin edəcəkdi. Əslində, bu işi görən adam var idi, Qərib ona kömək edəcək, işi öyrənəcəkdi. Bir neçə gün sonra məlum oldu ki, həmin şəxs başqa bir işə keçiriləcək və bütün sahənin işi Qəribin öhdəsinə düşəcəkdi.

***

Həyətə girəndə gördüyü mənzərədən çaşıb qaldı. Rizo yerdə oturaraq bərkdən ağlayırdı. Evə tərəf baxanda Gülünün ikinci mərtəbədə stolda sakitcə oturub göyə baxdığını gördü. Üzü donuq və yorğun idi. Həyətdə qonşulardan və kirayənişinlərdən heç kim yox idi. Bu, Qəribə çox təəccüblü götündü. Adətən, qonum – qonşu Rizoya qarşı çox qayğıkeş idi. Hər kəs onun könlünü xoş etməyə çalışırdı. Gülü isə hər kəlməbaşı “mama qurban”-deyib əzizləyirdi. Rizo ağzını göyə tutmuşdu, yaşsız gözləri ilə Qəribə baxdı, amma səsini kəsmədi. Əksinə, səsini bir az da ucaltdı.

Rizo çox ağıllı və sakit, sözəbaxan uşaq idi, amma bəzən inadı tuturdu, ağlamağa başlayanda kim gəlir-gəlsin, səsini kəsmirdi. Gülü hirslənirdi, yumşalırdı, yalvarırdı – nə edirdisə, xeyri olmurdu. Axırı oturub onun sakitləşməsini gözləməkdən savayı bir əlacı qalmırdı.

Rizonun gözünün yaşı qurtarırdı, yorulurdu, onun hərəkəti ağlamaqdan çox oynamağa bənzəyirdi. Belə anlarda hamı daldaya çəkilirdi ki, Rizo onları görüb bir az da şitləşməsin. Hər dəfə də Rizo ağlamaq üçün bir bəhanə tapırdı. Gülünün gücünün çatmadığı yeganə şey- Rizonun belə oyun çıxartmağı- ağlamağı idi.

Qərib əlindəki sellofon torbanı stolun üstünə qoyub Rizonun yanında- yerdə oturdu. Uşağın üzü tərdən, göz yaşından islanmış, toz- torpağa bulanmışdı. Qərib ona tərəf baxararaq:

- Avtobusda eşitdim futbol var, gedəkmi?

Rizo səsini xırp kəsərək ona sarı döndü, heç nə olmamış kimi:

-Çatarıq?

- Dur, əl-üzünü yu, mən də üzümün qarasını yuyum gedək, tez elə.

Bütün gün təkərlərin qara tozu Qəribin üst-başına hopurdu, torbadan sabun çıxarıb krantda əl-üzünü sabunladı, daxmaya girib paltarını dəyişdi və çıxıb qəhvədandan su tökərək içdi. Rizo geyinərək, yaş saçlarını darayıb daxmanın qarşısında dayanıb onu gözləyirdi.

Alnını dəsmalla sarımış Gülü tələsik pilləkənləri düşə-düşə:

-Rizo, mama qurban, gəl apar.

Rizo yüyürək pilləkənin başında anasının verdiyi pulu alıb cibinə qoydu. Rizonun cibində həmişə cib xərcliyi olurdu. Çöldə-bayırda gəzməklərinin xərcini Rizo çəkirdi, sanki sevinmək və qulluq göstərmək üçün əlinə imkan düşürdü.

Burada yaşadığı bir ay ərzində Qərib məhəllənin və insanların bəzi xüsusiyyətlərini öyrənmişdi. Rizonun futboldan başqa azarı yox idi. Hətta Qərib bir dəfə onunla gedib, başqa məhəllə ilə keçirdiyi yarışa baxmışdı və Rizonun, həqiqətən də, yaxşı oynadığını görmüşdü. Məşğul olan olsa, o, yaxşı oyunçu ola bilərdi. Gülü ilə dava-dalaş çox zaman futbol üzündən olurdu. Oxumağa elə də həvəsi yox idi. Amma dünyanın futbol tarixini, məşhur oyunçuların tərcümüeyi- halını, komandaları, klubları əzbərdən bilirdi. Gülü isə yeganə oğlunun böyüyüb iş-güc sahibi olmasını arzulayırdı. Qərib işdən gələn kimi, Rizo onun yanına gəlir, həvəslə keçirilən və keçiriləcək oyunlardan danışırdı. Çox zaman Rizonun proqnozları düz çıxırdı. Qərib əvvəllər idmanla, futbolla maraqlanmasa da, Rizonun odlu-alovlu söhbətlərinə həvəslə qulaq asırdı. Uşağın bu sevgisi sanki onu gündəlik və ağır həyatdan uzaqlaşdırır, onunla bərabər özünü hay-küylü, ehtiraslı yarışların axınında unudurdu.

Səhər tezdən işə gedir, gün batanda qayıdaraq yuyunub yerinə girirdi. İsti və bütün günü ayaq üstü iş onu çox yorurdu. Bəzən saatlarla ağır təkərləri daşıyıb yığmalı

olurdu. Atabəyi az görürdü. İşdən dönən zaman bəzən Atabəy getmiş olurdu. Bəzən də onun dükanının qarşısında oturaraq hal-əhval tuturdu. Demək olar ki, Rizodan başqa söhbət etdiyi adam yox idi. Rizodan bir neçə dəfə Gülüyə pul göndərmişdi. Səhər çay içib çıxır, gündüz iş yerində fəhlələrlə nahar edir, gecə isə daxmasında Gülünün bişirdiyi, Rizonun gətirdiyi xörəkləri yeyirdi. Yatana qədər Rizo ondan əl çəkmirdi. Bir-iki dəfə axşam şəhərə də getmişdilər. Əvvəllər əjdaha kimi ağzını açıb adamı udmağa hazırlaşan şəhər daha ona təhlükəli görünmürdü. Paltarlarına da Gülü baxırdı. Hər gün çirklənmiş paltarları yuyub ütüləyirdi.

Onlar qapıdan çıxan kimi, Gülü dərindən nəfəs alıb başındakı çalmanı açdı, belini şalla çərtib həyətə düşdü, tığ vurulmuş tərəvəzləri süzgəclərə yığmağa başladı, səs kəsildiyini görən qadınlar da Gülünün başına yığışıb ona kömək etməyə başladılar. Gülü ürəyini boşaltdı:

-Allah köməyi olsun, canımızı qurtardı, tırı tutub yenə, yorulub həkdən düşənəcən ağlayacaqdı. İşim- gücüm tökülüb qaldı.

Axşam düşürdü. Bir azdan işə gedənlər qayıdacaqdı, qadınlar axşama isti qazan asmağa tələsirdi. Ehtiyacı olanlar bu tərəvəzlərdən axşam yeməyi üçün pay götürəcəkdi. Odur ki, cani-dildən işə girişdilər. Gülü isə gecə yarısına qədər balonlarla əlləşəcəkdi.

Əslində, Rizonun Qəribə belə yaxınlıq göstərməsi Gülünun ürəyindən idi. Düşünürdü ki, Rizo böyüyür, onun yanında kişi xeylağının olması vacibdir. Eşitmişdi ki, oğlan uşağı küçədə böyüyər, küçədə tərbiyə alar. Pis, əxlaqsız uşaqlara qoşulmaması üçün, Qərib kimi böyüyə ehtiyacı var idi. Rizo saf və doğrucul uşaq idi, yalan, fırıldaq bilməzdi. Belə uşaqlar asanlıqla təsirə düşürlər. Burda qaldığı müddət ərzində Qəribin bir əskik hərəkətini görməmişdi. Bir az müəmmalı görünsə də, ciddi və abırlı adam idi. Rizonu Qəriblə bir yerdə görən pisniyyətli adamlar da qorxub çəkinər, uşağın tək olduğunu düşünməzlər. Odur ki, Gülü onların yaxınlığına mane olmur, buna şərait yaradırdı.

***

Payız girəndən Qəribin işi daha da çətinləşmişdi. Küləkli və yağışlı havalarda da bütün günü çöldə olurdu. Rizo ilə gedib özünə başlıqlı, su keçirməyən plaş aldı. İşdə əlcək –filan da vermirdilər, hər şeyi özün almalı idin. Əlcəksiz işləmək mümkün deyildi, küləkdən quruyub çatlamış əllərinə təkərin hisi dolur, yumaqla da getmirdi. Gülü vazelin alıb Rizodan ona göndərmişdi, gecələr əlinə sürtürdü. Hərəkət edəndə dartılan çatlardan qan da sızırdı. Bunu görən Rizo anasından dərman soruşmuşdu. Əslində, Gülü ilə Qərib heç danışmırdılar. Qəflətən həyətdə rastlaşanda, Qərib başını aşağı dikir, salam verib keçirdi.

Qonşular təzə kirayənişinin mızı adam olduğunu söyləyirdi.

Qəribin əvvəllər belə ağır işlər görmədiyi aşkar idi. Fəhləçiliyə öyrənmiş adamların bildiklərini bilmirdi. Dilinin şirinliyinə baxmayaraq, Əmirxan əzazil adam idi. Düşündüyü tək öz qazancı idi. Kimsəyə güzəşt etməzdi. İşi keçən adamlarla mülayim, xoş davranar, özündən aşağıları adam yerinə qoymazdı. Daimi işçiləri az idi. Əsasən, mövsüm fəhlələrindən istidadə edirdi. Danışdığı pulu verir, əvəzində qul kimi işlədirdi. Buna görə də işçilər onu sevmirdi. Mal gələndə bəzən gecə yarıya qədər yükü boşaltmalı olurdular. Əvəzində əlavə pul verməz, fəhlələrin könlü xoş olsun deyə, yemək-filan da tədarük etməzdi. Buna görə də daldada ona "cuhud" deyirdilər. Deyəsən, bu ləqəb onun qulağına çatmışdı. Hirslənib kimisə söyəndə adamlara "cuhud köpək uşağı" deyib, ürəyini boşaldırdı.

Aldığı maaş o qədər az idi ki, evin kirayəsinə, yeməyinə, gündəlik xərclərinə zorla çatırdı. Başqa iş axtarmağa nə vaxt var idi, nə imkan. Əslində, şəhərin işsizlik problemindən xəbərdar idi. Yanında işləyən fəhlələrin ən çox danışdığı mövzu - işsizlik idi. Fikirləşirdi ki, az da olsa, ehtiyat üçün pul yığmalıdır. Əmirxanın işləri o qədər yaxşı getmirdi. Qərib bu adamı ürəyində bacarıqsız hesab edirdi. Əgər indiyə qədər bu şirkəti qoruyub saxlaya

bilmişdisə, o da başqalarının sayəsində mümkün olmuşdu. Qərib işi öyrənirdi. Hansı variantda daha optimal gəlir və çevik alış-veriş yollarını arayırdı. Onun təcrübəsinə görə, mal idxalını daha ucuz qiymətlərlə gətirmək mümkün idi. Hələ ki, bu haqda heç kimə bir söz demirdi. Əmirxanla daha yaxından təmas qurmaq və güvənini qazanmaq lazım idi. Bu, uzun müddət davam etməyəcək idi. O öz işini mütləq qurmalı, gələcəyini təmin etməli idi. Bu şəhərdə onun – bunun əlinin altında qul kimi işləməyi özünə sığışdırmırdı. Belə mənasız yaşamaq onun nəyinə lazım idi? Günlər gəlib-geçdikcə Qəribin niyyəti daha da dəqiqləşir və əminləşirdi.

Amma hər şey öz-özlüyündə həll olundu. Söhbətləşərkən Əmirxan mal dalınca getməli olduğunu və kiçik oğlunun əməliyyat olunacağından danışdı. Kişi çıxılmaz vəziyyətdə qalmışdı. Hər zaman işini tapşırdığı qardaşı da beyin qanaması keçirtdiyindən həkim nəzarəti altında idi. Qərib ona qulaq asa- asa fikirləşdi və qəfildən:

-İstəyirsizsə, mən gedə bilərəm.

Əmirxan ona təəccüblə baxdı. Bu qəfil təklifdən çaşdı və duruxa-duruxa:

-Bacararsan?

Qərib gülümsəyərək:

-Niyə bacarmıram, nə var ki burda?

Əmirxan tanış olduqları müddətdə Qəribin işində bir naqislik görməmişdi. Əksinə, dürüst adama oxşayırdı. Başını aşağı salıb, işiylə məşğul idi. Hətta Əmirxanın bu az danışıb, çox düşünən adamdan bir az çəkinəcəyi də var idi. Bəzən onun yanlış hərəkətlərini bir söz demədən düzəldib yoluna qoymağı Əmirxana dəysə də, üstünü vurmurdu. Belə xırda şeylərə baş aparası deyildi, təki işi yola getsin.

İndi Qəribin gözlənilməz təklifini ürəyində götür- qoy edərək bir qəti söz söyləmədi. Düşünmək lazım idi. Odur ki:

-Həəəə....baxaq görək nooolur...

Qərib əmin idi ki, Əmirxan bir neçə gündən sonra onunla danışacaq, razılığını bildirəcək. Odur ki, bu söhbət olmamış kimi davranırdı.

Gün payıza əyildikcə havalar da soyuyurdu. Sən demə, bu şəhərin bir üzü necə isti imişsə, o biri üzü də eləcə kəskin və soyuq imiş. Aramsız küləklər, yağışlar adamı göz açmağa qoymurdu. Işə gedib-gəlmək çox çətinləşmişdi. Saatlarla nəqliyyat olmurdu. Qəribin asudə vaxtı gecə bir neçə saat yatmağı idi. Bəzən bu da ona qismət olmurdu. Yuxusu ərşə çəkilirdi. Nə qədər özündən uzaqlaşdırmaq istəsə də, düşüncələr ondan əl çəkmirdi.

Gecə yarısı səsə yuxudan ayıldı. Yerin içində oturaraq qaranlığı dinləməyə başladı. Deyəsən, yerə düşən damcı

səsi idi. Bu zaman üzünə də su damcısı düşdüyünü hiss elədi. Möhkəm yağış yağırdı. Durub işığı yandırdı. Tavandan bir neçə yerdən damırdı. Hətta küncdən axan su divarda iz qoyaraq döşəməyə tökülürdü. Qərib nə edəcəyini bilmədi. Durub çarpayısını ortaya çəkdi ki, yatacağı islanmasın. Qapını açıb çölə baxdı. Leysan idi. Həyət qaranlıq idi. İndi neyləsin? Səhərin açılmağını gözləmək lazım idi. Bir bu əskikdi. Mağıl bir quru yatağı var idi. Nə qədər əziyyətli olsa da, gecə gəlib rahat dincəlirdi. İndi bu damın təmiri bir neçə gün çəkəcəkdi. Səbrini basaraq bürünüb yerinə uzandı. Divardan axan suya, tökülən damcılara baxmağa başladı. Səhər açılanda yiyəsinə xəbər vermək lazımdır.Yəqin ki, ilk dəfə deyil, belə hallarda nə etmək lazım olduğunu bilməmiş deyillər. Damın üstünü qırlamaq lazımdır. O da olmasa, tir atıb şiferləmək, ya dəmir örtük çəkmək...ev yiyəsi özü bilər.

Işə getməzdən öncə vəziyyəti Gülüyə xəbər vermək lazım idi. Evin işığının yanmağını gözlədi. Gülü onsuz da sübhdən oyanırdı. Hava açılmamış zənbillərini götürüb bazara yollanırdı. İsti –soyuq, qar-yağış bilməzdi. Qərib geyinib evdən çıxdı. Pilləkənləri qalxıb qapını döyərək gözlədi. Gülü pərdəni aralayıb şüşədən çölə baxdı. Ala-qaranlıqda kim olduğunu aydın görmədiyi üçün soruşdu:

-Kimdir orda?

Qərib :

-Mənəm, Qərib. Sizə bir söz deməliyəm.
Gülü tez qapını açaraq hiss olunan təlaşla:
-Xeyir ola?
Qərib sakit –sakit:
-Axşamdan evin damından damır. Dedim, biləsiniz. Mən işə gedirəm. Bilmirəm, necə olacaq. Nə etmək lazımdır?
Gülü duruxaraq:
-Damır? Hmmm...gərək qırçı tapım ...baxaram mən.
Qərib :
-Yaxşı, mən gedim.
Qərib pilləkənləri düşüb şırıltı ilə axan yağış suyunu şappıldada-şappıldada həyətdən çıxdı.
Gülü eyvandan yağışlı göyə baxdı. Fikrini qara qayğı bürüdü. Bu yağışda qırçını, ustanı hardan tapacaqdı? Evə girib Rizonu oyatdı:
-Dur, mama qurban, Qərib gəlmişdi, deyir evdən damır.
Ürəyində bu işin çətinliyini düşünə-düşünə həyətə endi.
Qapını açıb içəri baxdı. Tavanın neçə yerindən, künclərindən dayanmadan axan su artıq ortalıqda göllənmişdi. Gülü vəziyyətin bu qədər ağır olduğunu gözləmirdi. Cəld gedib bir neçə ləyən, qazan gətirib otağa düzdü. Ancaq bu-faydasız idi. Küncdən divar boyi su şırıldayırdı. Tez yuxarı çıxıb geyindi. Rizo yenidən yuxulamışdı. Gülü onu çağırdı:

-Rizo, yağış evi götürüb tamam, dur, mama qurban...mən usta dalınca gedirəm. Gedim soraqlaşım , görüm hardan tapıram.
Anasının səsindəki təlaş və qorxudan Rizo tez ayılıb yerində oturdu:
-Necə yəni?Qəribin evindən axır?
-Hə, hə...divar uçmasa yaxşıdır. Gedim görüm neynirəm. Sən arada düş, boşalt qablardakı suyu.

***

Axşama yaxın Gülü islanmış, əldən – dildən düşmüş halda əliboş geri qayıtdı. Bazarda adamlardan soruşa-soruşa neçə qırçının ünvanını tapmış, soraqlaşa-soraqlaşa evlərinə qədər getmişdi. Bu şəhərdə barmaqla sayılası sayda bir neçə qırçı vardı. Gülü onların birini zorla tapıb danışa bilmişdi. O da qarşısında üslanıb yaprınmış qadına baxa-baxa:
-Ay bacı, oturub bu yağışı niyə gözləyirdiz, indi qır tökmək vaxtıdı? Mən bu yağışda qırı harda qaynadım, necə töküm?
Gülü az qala ona yalvararaq:
-Gəl, hələ bir bax, bəlkə, başqa bir əlacı var?
Ustanı gəlib baxmağa razı salıb, ünvanı verərək, geri – evinə qayıtdı. Həyətə girəndə tələsik damın qapısını açıb baxdı. Hər şey suyun içində idi. Buranı qırlamaqdan da keçmişdi. Tələsik yuxarı çıxıb paltarını soyundu. Alt

paltarına qədər islanmışdı. Səhərdən ac-susuz idi. Rizo evdə yox idi. Çay qızdırıb içdi. Yemək bişirməyə başladı. Düşünə-düşünə qalmışdı. Daxmanın uçmağı cəhənnəm, bir təhər düzəltdirəcəkdi. Bəs bu kişi gecə harda qalsın?

Bir azdan Rizo gəlib çıxdı.

-Nə oldu, mama, bir adam tapa bildin?

Başını yun şalla sarımış Gülü qazanı qarışdıra-qarışdıra:

-Girinc qaldım bütün günü. Birini tapdım. Bəlkə, gəldi baxmağa. Deyir, bu vaxt qır olmaz. Neyləyəcəyik?

-Nə bilim? Qoy Qərib gəlsin.

-Onun nəyinə lazımdı, deyəcək ev sizindi, özünüz təmir edin.

Rizo dinmədi. Anası düz deyirdi. Amma Qərib də burda yaşadığından artıq həyatin adamı idi. Həm də necə olsa, kişi xeylağıdır.

Gülü onun üzünə diqqətlə baxaraq:

-Yorğan- döşəyi də islanıb. Gecə harda qalacaq bu kişi?

Rizo fikrə getdi. Aşağıda boş otaq yox idi. Hamı da ailəlisi ilə birlikdə qalırdı.Üzünü anasına tutub:

-Ev düzəlincə mənimlə qalsın. Nə olacaq ki?

Gülü dinmədi. Cavan kişinin onun evinə girməsi yaxşı deyildi. Adamlar bundan başqa mənalar çıxarar, dedi-qodu yayardılar. Gülü özü haqqında söz-söhbət yayılmasına heç vaxt imkan verməmiş, şərait yaratmamışdı. İndi bir-iki gün kirayənişinin onlarda

qalması  böyüdüləsi hadisə deyildi. Evdə böyük oğlu da var.

Qonşular Gülünü tanımırmı? Bir yandan da içərisindəki səksəkədən narahat idi.

-Nə bilim...qoy gəlsin görək. Bəlkə, bir dostu var, tanışı var, bir neçə gün gedib qalar.

Rizo pəncərədən  Qəribin gəldiyini görüb həyətə endi. Qərib içəridə daxmaya göz gəzdirirdi. Hər şey suyun içində idi. Səsə dönüb baxanda Rizonu görərək:

-Buranı da sel apardı.

-Gərək yayda qırlayaydıq. Anam ustaya deyib. Sabah gəlib baxacaq.

Qərib tavana baxaraq:

-Bundan sonra qır olmaz. Başqa örtük eləmək lazımdır. Şiferləmək  də olar.

-Hə. Nə məsəhət olsa, edərik.

Gülü də açıq qapıdan içəriyə boylanaraq:

-Yağış kəssin, bir əlac edərik. Bir ölümə çarə yoxdu.

Üçü də dayanıb islanmış əşyalara, divara, tavana baxırdı.

Rizo:

-Gedək yuxarı. Düzələnə qədər mənimlə qalarsan.

Qərib dönüb ona və Gülüyə baxdı.

Gülü bir söz demədi. Çarəsiz halda əlini yana açdı.Yəni:”Neyləyək?”

Rizo:

-Gedək.Yaş yerdə yatmayacaqsan ki? Dost deyilik?
Doğrudan da, neyləyəcəkdi ki? Yatağı da islanmışdı. Yerdə gölləmə su durmuşdu.
Gecə vaxtı hara gedəcəkdi ki? Rizo onun divarda islanmış paltarlarını götürərək:
-Heç olmasa bunları aparaq, qurusun evdə.
Qərib dönüb yenə Gülüyə baxdı. Gülü dönüb otaqdan çıxa-çıxa:
-Gəlin gedək, görək sabah neynirik...

***

Dolabdakı paltarları və yorğan-döşəyi götürüb yuxarı qalxdılar. Yaş plaşını, çəkmələrini dəhlizdə soyundu. Rizo ona çəkələk gətirdi. Nəm çorablarını soyunub çəkələkləri geyindi. Dəhlizdə əl-üzyuyan vardı. Qərib əl-üzünü yuyub qurulandı.Yanında dayanıb ona qulluq göstərən Rizo:
-Gəl içəri, xoş gəlmisən.
Qərib aynabəndə keçdi. Gözləmədiyi bir səliqə ilə rastlaşdı. Otağa göz gəzdirdi. Stollar, divan, kreslolar, televizor, pərdələr səliqə və zövqlə bəzənmişdi. Döşəməyə xalça döşənmişdi. Qərib özünə o qədər də fikir verməyən, bütün günü ağır işlə məşğul olan Gülüdən bu zövqü və rahatlığı gözləmirdi. Rizo onu səslədi:
-Gəl, gəl bura.
Qərib Rizonun dayandığı qapıya tərəf getdi. Otağa girərək Rizoya baxdı.

Rizo:
-Bura mənim otağımdır. Burda qalarsan. Bir azdan yerini hazırlayarıq. Indi paltarını dəyiş, yemək yeyək.
Bunu deyib stolun üstünə qoyulmuş paltarı göstərdi. Qərib divarlara vurulmuş şəkillərə baxdı. Bunların əksəriyyəti Rizonun sevdiyi məşhur futbolçuların şəkilləri idi. Renaldonun, Messinin, Xavelin, Alvesin, Ramosun, İbrahimoviçin müxtəlif oyunlardan çəkilmiş, böyüdülmüş şəkilləri idi. Son vaxtlar İbrahimoviç dilindən düşmürdü. Rizo yanında o qədər danışırdı ki, Qərib də məşhur futbolçuları tanımağa başlamışdı.
Rizo qapını örtüb çıxdı. Qərib paltarını dəyişib aynabəndə keçərək Rizonun yanında divanda oturdu. Rizo televizorun səsini azaldaraq:
-Bu gecə matç var. Qalatasaray oynayır. Baxarıq?
-Baxarıq. Gecdir?
-Yooo..12 də.Türkiyədən verəcəklər.
Gülü mətbəxdən Rizonu səslədi:
-Rizo, gəl bura, mama qurban.
Rizo qalxıb mətbəxə getdi. Əlində sini geri qayıdaraq, gətirdiklərini süfrəyə düzməyə başladı. Gülü də ardından sinidə xörəkləri gətirərək Qəribə baxmadan:
-Gəlin, süfrəyə. Nuş olsun.
Gülü siniləri götürərək mətbəxə getdi. Qərib qalxıb stola yaxınlaşdı. Kasalardan küftənin qoxusu və buğu

qalxırdı. Rizo da oturaraq kasanı qabağına çəkdi. Gülünün qabiliyyətinə söz ola bilməzdi.Təzə göyərti, şoraba, ac olan adamı daha da iştahlandırırdı. Qərib də çörək götürüb küftəyə doğradı, noxudla, kartofla qarışdırıb əti əzdi. Gülü mətbəxə çəkilərək öz işi ilə məşğul olmağa başladı. Qərib sıxılmasın deyə, yemək bitənə qədər mətbəxdən çıxmadı.

Gülü başqa kirayənişinləri ilə açıq və səmimi olduğu halda, Qəriblə çox pərdəli dolanırdı. Bu aylar ərzində qarşı-qarşıya durub kəlmə kəsməmişdi. Amma ona qarşı hədsiz diqqət və qayğı ilə yanaşırdı. Qərib buraya gəldiyindən, yemək, paltar, təmizlik sarıdan bir sıxıntı çəkməmişdi. Ev yiyəsinin belə uzaqlıq göstərməsinin səbəbini onun utancaqlığında görürdü. Gülünün nəzərində Qərib subay kişi idi. Başqaları kimi, onunla səmimi olmaq olmazdı. Rizo varkən, Qəriblə danışmaq yaxşı düşməzdi. İndi vəziyyətin birdən – birə dəyişməsi Gülünü həyəcanlandırırdı. Özünü qəribə hiss edirdi. Sanki içində tarazlığı pozulmuşdu. Kiməsə hesab verirmiş kimi, bayaqdan içində çək-çevirdə idi. Hiss olunur du ki, Qərib də utanır, amma hara getsin, nə etsin bu gecə vaxtı. Evdə kişi xeylağı olsaydı, başqa məsələ. Rizo uşaqdır hələ, çox şeyi başa düşmür. Hətta Qəribin onunla qalmasına sevinir. Gülü mətbəxdə qabağına bir topa göyərti töküb təmizləyirdi. Açıq qapıdan Qəriblə Rizonun söhbətinə də qulaq asırdı.

***

Rizo yeməkdən sonra sevdiyi söhbətə başlamışdı. Bayaqdan İbrahimoviçi tərifləyirdi. İndi əvvəlki aşiq olduğu isimlər ona daha sönük görünürdü. Gülü çay süfrəsi hazırlaya-hazırlaya:

-Sən bir az da dərslərindən danışsana.

Gülünün səsində danlaqdan çox, zarafat var idi. Rizo anasına cavab vermədən sözünə davam etdi:

- Bu çempionatda ən çox qol onun hesabındadır. Uşaqlarda disk var, mənə də gətirəcəklər. Baxarıq bir yerdə.

Qərib çayından bir qurtum alıb:

-Mən bir neçə gün olmayacam. Gələndən sonra baxarıq.

Rizo təəccüblə:

-Hara gedirsən ki?

Gülü əlini saxlayararaq, qulaq kəsildi. Qərib:

-İşdən göndərirlər. Gedib- gəlməyim bir həftə çəkər. Xaricdən mal vuracam.

Əslində, Qərib bu sözləri Gülüyə çatdırmaq istəyirdi. Ev yiyəsi onun yoxa çıxdığını görüb təlaşa düşməsin, qaçdığını güman etməsin.

Rizo:

-Nə zaman gedirsən?

-Bir-iki günə. Sənədlərim hazır olsun. Atabəy həll edir.Usta tapılmasa, narahat olmayın, gələndən sonra bir əncam çəkərik. Qır olmazsa, şifer vurarıq, ya kirəmit döşəyərik. Nə çox şey.

Nəhayət ki, Əmirxan qərara gəldi. Qəribin təxmin etdiyi kimi, onun getməyinə razılıq verdi. Amma Qəribin sənədi yox idi. Bu haqda Əmirxana heç nə söyləmədi.

İşdən dönəndə Atabəy ilə danışdı. Fikrini ona bildirdi. Atabəy lazımi adamlarla danışıb, məsələni həll etmək üçün bir neçə gün gərək olduğunu söylədi. Atabəy təcrübəli adam idi, o, Qəribin Əmirxandan ötrü əziyyətə qatlaşıb belə risqli işə girmədiyini, fikrində gizli bir niyyəti olduğunu anlamışdı. Amma fikirləşdi ki, madam Qərib özü üçün iş qurmaq istəyir, qoy qursun, yəqin ki, ağlında tutduğu bir tutarlı fikir var. Ona görə də Qəribi çox da sorğu-suala tutmadı. Tutarsa, qatıq, tutmazsa, nə itirirlər ki? Qəribin öz pulu olmadığı üçün, əli –qolu bağlı idi. Böyük miqdarda borcu isə ona heç kim verməzdi. Odur ki, Qərib fürsəti dəyərləndirib damladan başlamağı qərara gəlmişdi.

Rizo böyüklər kimi:

-Yaxşı, işdən göndərirlər, gedib-gəlmək pulunu da verirlər, yoxsa öz puluna gedəcəksən?

Qərib gülümsəyərək:

-Yol pulumu verirlər. Mənim pulum nə gəzir? Amma olsaydı bir az, yaxşı olardı.
Özüm üçün ayrıca mal vurardım. Sənədim, əmlakım da yoxdur ki, bankdan kredit götürüm.
Rizo maraqlanaraq ciddi-ciddi:
-Doğrudan? Pulun olsa, özün də şirkət aça bilərsən?
Qərib:
-Niyə açmıram? İş qurmaq çətin deyil. Bunun yolları var, bilən adama asandır.
Rizo coşqunluqla:
-Nə olardı amma! Adamın özünü xüsusi şirkəti ola!
-İstəsən hər şey olar. Çalışmaqladı belə şeylər. Ağılla həll olunur.
Rizo:
-Şirkətim olsa, çoxlu pulum olsa, şəxsi klub yaradaram. Ən yaxşı oyunçuları yığaram. Trenerlər gətizdirərəm, öz komandam olardı.
Qərib gülərək:
-İstəsən olar...niyə olmur ki?Yaradanlar belə yaradırlar, əvvəlcə arzulayırlar, sonra yerinə yetirirlər.
Rizo əlini yellədi:
-Eh, hələ uşağam, hələ böyüyüm bir...nə bilim, qismət olar, ya yox?
Qərib:
-Qismət olar, inşallah...

Gülü bu söhbəti dinləyə-dinləyə ürəyində götür-qoy edirdi. Belə qısa müddətdə iş yerində etibar qazanmaq asan məsələ deyil. Ağlı başında adam olduğunu onlar da biliblər. Yoxsa bu çətin işi ona etibar etməzdilər. Özünün də mənfəəti olmasa, bu əziyyətə girməz. Xeyri var, yəqin ki. Yazıqdır, özünə bir gün ağlasa yaxşıdır. Qərib heç kimlə ünsiyyətdə olmadığı üçün bu aylar ərzində kimsə onun keçmişi haqqında bir şey öyrənə bilməmişdi. Adamların marağı keçib getmək üzrə idi. Artıq burada hamı onu olduğu kimi qəbul etməyə başlamışdı. Gülünün arvadlara dediyi kimi, hər kimdir, Allah bəndəsidir, heç kim səbəbsiz yurd-yuvasını, ev – eşiyini tərk etməz, nə olub-olub, özü bilər, Allahı bilər. Burda bizə ki heç bir ziyanı yoxdur.

Gülünün gətirdiyi arqumentlər qarşısında hər kəs susaraq razılaşırdı. Əslinə qalsa, hər kəs bir tərəfdən gəlib yığışmışdı bura. Amma nədənsə Qəribə daha çox maraq var idi. Ola bilsin, bu maraq onun subaylığı və yaxud adama yovuşmazlığı ilə bağlı idi. Onun sirli keçmişi, fərqli təbiəti diqqətdən yayınmırdı. Qərib təkcə Rizonu yaxınına buraxırdı. Bu da, yəqin ki, onun ev sahibinin oğlu olması ilə bağlı idi.

Qərib, həqiqətən, Rizonu çox istəyirdi. Rizo bu şəhərdə onun duyğularını bölüşə biləcəyi yeganə insan idi. Bundan başqa Rizo onun keçmişi haqqında heç nə soruşmurdu,

bəlkə də, soruşmaq ağlına gəlmirdi. Rizo öz yaşıdları ilə necə davranırdısa, Qərib ilə də eyni şəkildə söhbət edirdi. Onun təsəvvüründə hələ qaranlıq dünyalar, sirli saxlanclar yox idi. Qərib də bu üzdən Rizonun yanında rahat və səmimi olurdu. O da həyatını yenidən, Rizonun yaşından başlamaq istəyirdi və bəlkə də, xilasını bunda görürdü. Həyatın insana nələr bəxş edəcəyi əvvəldən bəlli olmaz. Amma insan ən çətin zamanda, ən çıxılmaz vəziyyətdə belə həyata uyğunlaşmağı, yaşamağa davam etməyi bacarmalıdır. Bəlkə də, əsl mübarizə budur: məğlub olduğun zamanda belə, məğlubiyyəti bir sınaq olaraq qəbul edib yoluna davam etməyi bacarmaq əzmi. Bunun üçün insan nədənsə tutmalı və güc almalıdır. Zəif də olsa, Rizo da Qəribin yeganə tutacağı idi.

Həmin yağışlı gecədə - Rizo ilə divanda oturub futbola baxa- baxa Qəribin ağlına belə gəlməzdi ki, bu matç onun həyatının dönüş nöqtəsi olacaq.

***

Gecəni fikir-xəyal içində, yatağında o tərəf- bu tərəfə çevrilərək çabalayan Gülü səhərə qədər yatmadı. Obaşdan qalxıb geyindi və çay tədarükünə başladı. Evində qonağı vardı və onu səhər çaysız işə yola salmaq mərifətsizlik idi. Çay dəmlədi, yumurta bişirdi, çörək doğradı. Bir azdan Rizonun qapısı açıldı və Qərib həyətə düşdü. Gülü

hazırladığı səhər yeməyini stola düzdü. Qərib evə girəndə çay süzüb gətirdi.
-Sabahınız xeyir. Çay hazırdır...
Qərib süfrəyə baxaraq:
-Sabahınız xeyir. Nə zəhmət çəkirsiz?
-Bir zəhməti yoxdu. Rizo da durmalıdır, dərsə gedəcək.

Qərib əl-üzünü qurulayıb, ev yiyəsinin xətrinə dəyməsin deyə, süfrəyə oturub çaydan bir qurtum içdi. Qərib ev yiyəsinə artıq zəhmət verdiyinə görə utanırdı. Bu zəhrimar yağış da kəsmək bilmirdi. Qərib daxmaya da baş çəkmişdi həyətə düşəndə. Bərbad halda idi, uçmasa yaxşıdır. Üstünü bağlamaq asandır, uçsa,işi uzun çəkəcək. Bu soyuqda qaldı yersiz-yurdsuz. Ev yiyəsinin ürəyi yumşaqlığından da istifadə etmək yaxşı deyil. Sənədi bu gün hazır olsa, sabah yola çıxmalı idi. Gələndən sonra bu işlə məşğul olar. Qərib bu fikirdə ikən Gülü otaqdan çıxıb ona yaxınlaşdı, əlindəki bükülünü stolun üstünə qoyaraq oturdu. Çəkinə-çəkinə,Qəribin üzünə baxmadan:
-Axşam söhbəti eşitdim. Bir az pul var məndə. Lazımdırsa, götürə bilərsən. Zəhmət çəkib gedirsən madam, əliboş gedib-gəlmə.

Qərib təəccübündən çeçədi. Çayı boğazından ötürüb:
-Yox, çox sağ olun, götürə bilmərəm. Olmaz.
Gülü yerindən qalxaraq:

-Niyə olmur? Puldu, durub yerində, indi mənə lazım deyil, apar işlət. Bizə də xeyri olar.
Bunu deyib Gülü mətbəxə getdi. Qərib də durub geyindi. Gülü mətbəxin pəncərəsindən Qəribin getdiyini gördü. Otağakeçib baxdı. Pul olan bağlama stolun üstündə idi.

Qərib yol boyu bu haqda fikirləşirdi. Bir yandan qadının ona inanıb pul təklif etməsi xoşuna gəlsə də, o biri tərəfdən heysiyyatına da toxunurdu. Necə olsa, yad qadındır, anası deyil, bacısı deyil, olmadı elə, oldu belə...Qərib riskə də girmək istəmirdi, pul batsa, fikirləşdiyini edə bilməsə, qadının pulunu necə qaytarar? İndi pulu olmasa da, rahatdır, bir kəsə borcu yoxdur. Qərib borclanmaq, bu borcun altında əzilmək istəmirdi. Amma başqa tərəfdən də baxanda, burda utanılası heç nə yoxdur. Gülü demiş, işlənməyən puldu, mal gətirib satar, borcunu da artıqlaması ilə qaytarar. Əli gətirməsə belə, bir yol tapar. Həm Oərib ondan pul istəməyib, qadın özü təklif edir. Nə isə, düşünmək lazımdı, hələ vaxta var.

***

Əmirxanın sevindiyindən əli-ayağı yerə dəymirdi. Qəribin getməsinə naəlac qalıb razı olmuşdu. Keçən on beş gün ərzində bir saat da olsun rahat yuxu yatmamışdı. Qərib tanımadığı birisi idi, nə olsun yanında işləyirdi, pulu da götürüb birdəfəlik yoxa çıxsa neyləyəcəkdi? Hardan tapacaqdı onu? Bu zəmanədə heç qardaş-qardaşa inanmır,

o ki qala yad adam ola. Əmirxan heç belə axmaqlıq etməmişdi. Əli hər yerdən üzüldüyündən Qəribə möhtac qalmışdı. Amma Qəribin gəldiyini biləndə necə sevindiyini bir Allah bilirdi, bir də özü. Özü də necə gəlmişdi! Əmirxan mallarını indiyəcən öyrəndiyi, tanıdığı Rusuyadan gətirirdi. Qərib onu inandırdı ki, bu ən baha və sərfəsiz variantdır. Ortaya başqa variantlar qoydu- Çin, Dubay, İran, Avropa. Əmirxan indiyədək etmədiyi işdən qorxurdu, amma Qəribin inamlı danışması onu fikrindən döndərdi. Düşündü ki, bu adam özünü belə fağır göstərməyinə baxma, bu sahəni yaxşı bilir. Danışığından hiss olunur ki, çox gedib –gəlib oralara. İndi mala baxa-baxa Qəribi az qala bağrına basmaq istəyirdi. Az müddətdə əvvəlkindən çox-çox artıq qazanc götürəcəyi şübhəsiz idi. Qərib Əmirxanın malını yığdırandan sonra, artıq gətirdiklərini də sahəyə yığdırdı. Ondan başqa sayla, haqq-hesabla məşğul olan yox idi. Gedən günün axşamı Rizo Gülünün bağlamasını yenidən Qəribə verdi. Bu dəfə Qərib imtina etmədi. Pulu götürdü. Qayıdarkən daxma düzəlməmişdi. Əksinə, bir az da uçub - tökülmüşdü. Rizo dedi ki, usta deyir, bunu təzədən tikmək lazımdı, divarları çöküb. Qərib yenə də Gülünün evində qalmalı oldu. Üzü qışa getdiyindən havalar da soyumuşdu. Qərib qayıtdıqdan sonra işi daha da artmışdı, əlavə gətirdiyi yüklə də məşğul olmaq, tez satıb Gülünün pulunu da

qaytarmaq lazım idi. Düzdür, bu barədə evdə bir söhbət olmasa da, Qərib bir an da olsun bunu yadından çıxara bilmirdi. Evə gec gəlirdi. Səhər sübhdən də işə gedirdi. Hələlik, daxma ilə məşğul olmağa vaxtı yox idi. Artıq məhlədə Qəribin Gülünün evində qaldığını hamı bilirdi. Bu barədə heç kim bir söz deməsə də, Gülü adamlara yaxşı bələd idi. Kimin nə düşünəcəyini çox gözəl bilirdi. Qadınların susqunluğunda, kişilərin baxışlarında başqa məna hiss edirdi. Daha gözləmək olmazdı, soraqlaşıb usta tapdı. Pul üstə çənələşmədən, daxmanı tezliklə təmiri üçün nə lazımdırsa, Rizo ilə gedib aldı. Ustalar işə başladı. Ay tamam olmamış, Qərib Gülünün pulunu stolun üstünə qoydu:

-Çox sağ olun, bu mənə çox kömək elədi. Allah razı olsun sizdən.

Gülü pula baxaraq:

-Lazımındısa, götür işlət, bizə gərək deyil hələ. Bu, Rizonun oxumaq puludur.

Qərib minnətdarlıqla:

-Yox, həqiqətən, lazım deyil. Mən onsuz da qədərindən çox mal gətirə bilmərəm, hələ ki. Tezliklə yenə getməliyəm. Bu dəfə də yaxşı alınsa, işimi düzəldəcəm.

Qərib tez-tez iş dalınca getməyə başladı. Hər dəfə qayıdanda, Rizoya və Gülüyə hədiyyələr gətirirdi. Artiq pullarını saxlamaq üçün Gülüyə verirdi.

Həyatdə daxmanı təmir edib qurtardılar. Amma Qərib daha oraya köçmədi. Rizo əvvəllər soyuq, tutqun davranmağa başladı. Amma sonra o da vəziyyətə alışdı. Gülü də kirayəşinlərinə və qonşularına söhbət əsnasında Qəriblə evləndiklərini çatdırdı.

-Rizo böyüyür, evə kişi xeylağı lazımdır. Mən tək, arvad xeylağı hər şeyin öhdəsindən gələ bilmirəm. Bu adam da təkdir, baxanı yoxdur. Nə bilim, oldu bitdi, Allahdan xeyirlisi.

Həyatdəki arvadlardan onun sözünə qüvvət verənlər də oldu:

-Yaxşı eləmisən. Allah xeyir versin. Cavan gəlinsən. Günahdır sənin subay qalmağın. Deyir, dul gəlin yeriyəndə, ayağı dəydiyi torpaq da od tutub yanır. Gülü nəyin günah olduğunu dərinliyinə getmədən təsdiqlədi:

- Əsas Rizodur, o indi arxasız deyil.

***

Qərib çox fikirləşdu bu barədə. Evini, qayğısını onun üzünə açan bu insanlara çox minnətdar idi qəlbində. Taledən ağır zərbələr almış insanlar kiçicik bir şəfqətin də qədrini bilərlər. Qəribin bu dünyadan daha böyük gözləntiləri də yox idi. Yaşayırdısa, ayaq üstündə idisə, bu da böyük bir imkan idi. Səhərdən axşama qədər əlləşən, zəhmət çəkən, dinclik- rahatlıq bilməyən bu qadınının xeyirxahlığı Qəribi mütəssir edirdi. Bu qayğını, doğmalığı

o harda, kimdən görəcəkdi ki? Gülünü hələ heç 28 yaşı da yox idi. Özünə baxmağı tamam unudub bütün sevgisini oğluna və başqalarına verirdi. Qərib yalnız onun evində qaldığı müddət ərzində kənardan kobud, cazibəsiz görünən bu qadının nə qədər həssas və duyğusal olduğunun fərqinə vardı. Onun içində gizlənən qadın zərifliyi bişirdiyi xörəklərdə, ütülədiyi paltarlarda, qayğı və şəfqətində özünü göstərirdi. O,Gülünün yanaqlarında allanan həyanı, gözlərinin dərinliyində gizlənən həyat eşqini görürdü. Onu yaxından tanıdıqca, qəlbinin zərifliyini duymamaq mümkün deyildi. Gülü təhsil almasa da, valideyn qayğısı görməsə də, həyat ona çox şey öyrətmişdi. O, zəkalı insan idi, hər şeyi özü düşünüb tapır, ağlı və zəhməti sayəsində həm özünə, həm ətrafındakı insanlara yaşamaq üçün ümid və inam verirdi. Hiss olunmadan bir-birinə yaxınlaşdılar, doğmalaşdılar. Və günlərin birində ikisinin də bildiyi və gözlədiyi gerçəklik qaçılmaz oldu. Rizonun Qəribi çox istədiyini bilən Gülü bu sarıdan narahat deyildi. Belə qərara gəldilər ki, bu barədə Rizo ilə Qərib danışsın. Anasının başqa kişiyə ərə getməsi Rizonun ağlının ucundan belə keçməzdi. O, hər zaman anasını kişi kimi görmüşdü. Onu heç bir kəsə qısqanmırdı belə. Anadan doğulanda özlərini necə görmüşdüsə, həyatlarının beləcə davam edəcəyini düşünürdü. Gələcək xəyaların hamısı özü ilə bağlı idi.

Anası da onun bir hissəsi idi. Rizo hər şeyi anlayacaq qədər böyüməmişdi, o hələ uşaq idi.

***

Gündəlik qayğılar, çətinliklər, gözlənilməyən vəziyyətlər insanları biri-birinə çox yaxınlaşdırır. Belə məcburu ortamlarda hər kəsin öz çəkisi, öz yükü meydana çıxır. Gülü indi özünü daha güvənli, daha güclü hiss edirdi. Qərib göründüyündən və gözlənildiyindən daha fərasətli idi. Heç bir kəsin ağlına gəlməyən məsləhətləri ilə ən müşkül məsələlərin də yolunu asanlıqla tapıb göstərirdi. Gülü daha ağır zənbilləri evdən- bazara, bazardan- evə daşımırdı. Qərib onu başa saldı ki, elə bu turşuları bazarda da düzəltmək olar. Özü gedib bazar müdiri ilə danışdı, onu da şərik etmək şərti ilə bazarda iki böyük quyu qazdırdı. Quyuları betonlatdırıb, içinə böyük sellofon torba hazırlatdı. Bazardan ucuz alınan, satılmayan, tullanan bütün tərəvəzlərini bir neçə adam arıtlayıb, təmizləyib, doğrayıb duzlayır, sirkələyib bu quyuya yığırdı. Quyu hər gün dolub –boşalırdı. Bazarın bir neçə yerində tərəzi qoyulmuşdu. Ən çox gəlir gətirən isə, şəhərin bütün restoranları, şadlıq evləri, yeməkxanaları buradan gündəlik şoraba aparırdı. Gülünün rayondan gələn bütün kirayənişinləri burada çalışırdı. Gülü bazara getməsə də, hər şey əlindən gəlib –keçirdi.

Onun həyatında çox şey dəyişmişdi. Ağlına gətirmədiyi arxayınçılıq, güvənlilik Gülünü güclü bir qadına çevirmişdi. Hər gün səhərdən axşamadək dayanmadan işlə məşğul idi. Qəribin bu qədər fərasətli və işgüzar olması Gülünü daha əhatəli işlərə vadar edirdi. Sanki qarşısında dayanacaq bir qüvvə yox idi. Əvvəllər yalnız həyətdəkilərin, məhəllədəki insanların probləri ilə maraqlanırdısa, indi bütün qəsəbənin, hətta əvvəllər ağlı kəsməyən işlərlə də məşğul olurdu. Qərib onun gözlərində get- gedə böyüyürdü. Sözü –söbəti yalnız Qərib idi. “Qərib elə dedi, Qərib belə düşündü, Qərib belə məsləhət gördü”...O qədər Qəribdən danışırdı ki, hamı Qəribin nə etdiyini, nə fikirləşdiyini bilirdi. Qərib artıq bu qəsəbədə hamının həyatına, evinə daxil olmuşdu. Gülü haqlı idi, əslində. Qəribin gördüyü işlər sayəsində məhəllədəki insanların həyatları, iş-gücləri, dolanışıqları dəyişmişdi.
Bu ağır zəmanədə insanlar evlərinə çörək apara bilirdilər. Uşaqlarını geyindirib məktəbə göndərə bilirdililər. Səhərdən – axşama qədər ağır zəhmət hesabına olsa da, sabaha ümidləri var idi. Bu ümid üçün onların hamısı özlərini Gülüyə borclu hesab edirdilər. Gülü də minnət-filan bilmədən onlarla bərabər çalışırdı. Bəlkə də, bu sevginin əsl səbəbi bu idi: Gülü onlarla bərabər idi, özünü onlardan ayırmırdı.

***

Əmirxan Qəribin işdən getməsini eşidəndə tutuldu. Amma nə deyə bilərdi ki? Kişi ona borclu deyildi, haqq-hesabında da bir kəm- kəsiri yox idi. Əmirxana xeyli yaxşılıq eləmişdi, dar ayağında dadına yetmişdi, ona yaxşı pul da qazandırmışdı. Əmirxan onu əlindən buraxmaq istəmirdi. Odur ki, maaşını artırmağa qərar verdi. Amma Qərib işdən getməyində israrlı idi. Qərib sahənin haqq-hesabını təhvil-təslim edərkən, Əmirxan ona ortaqlıq belə təklif etdi. Bunu heç qardaşına da etməzdi, amma Qərib qətiyyətlə imtina etdi. Əmirxan xeyli bu gedişin səbəbini düşündü. Ha tərəfə çəkdisə, bir şey anlamadı. Ona bir şey aydın idi: Qəribə kimsə daha sərfəli bir iş təklif edib. Yoxsa Əmirxanın yanından niyə getsin ki! Qulağı səsdə idi. İçində bir qırıqlıq da var idi. Dar günündə Qəribə iş vermişdi, tanımadan, bilmədən yanına götürmüşdü. İndi vəziyyəti düzələn kimi, arxa çevirdi Əmirxana. Bunları içində hey fırlatsa da, ağlındakı başqa bir səs: “sənə nə var e, xalx özü bilər, borcu yox, kəsiri yox, nə deyə bilərsən ki ? ” Boynuna almasa da, son vaxtlar işlərini yoluna qoyan, Əmirxanı pis vəziyyətdən qurtaran, daha çox qazanca tamahlandıran Qərib idi. Elə bu tamaha görə də Qəribin getməsinə yanıb-yaxılırdı. Qəribin harada işləyəcəyini maraqla gözləyirdi. Amma onun şəhərin girəcəyində şirkət açdığını eşidəndə, təəccübdən quruyub qaldı. “Qəribin o qədər pulu nə gəzir

şirkət açsın? Bəlkə, bir imkanlı ortağı-zadı var?” Şirkəti Qəribin tək açdığını öyrənəndə Əmirxanın içi qəzəblə doldu.Oturub ölçüb-biçdi, Qəribin dəmir yolu stansiyasında, şəhərin girişində yer tapması böyük bir üstünlük idi. Söz var idi ki, o əraziyə ticarət mərkəzləri köçürüləcək. Bu- heç Əmirxanın ağlına gəlməmişdi. Şəhərə girən də, çıxan da o yoldan keçirdi. Ən başlıcası ərazi dəmir yolunun – stansiyanın yaxınlığında idi. Əziyyətlə şəhərə girincə, elə asanca ordan mal alıb – verəcəkdilər. Əmirxan hirsindən ayağa qalxıb:”Tfu!Aferistin biri, aferist!”-deyib, qəliz bir söyüş söydü.

Atabəyin da şirkətin icraçı direktoru təyin edildiyini eşidəndə, matı-qutu qurudu. İçindəki qəzəb dalğasını bircə sözlə ifadə edə bildi:”Qoca qurd!”

***

Qəribin işləri yaxşı gedirdi. Tez bir zamanda hamı onu ağıllı və fərasətli adam kimi tanımağa başladı. Qərib bütün varlığını işə verirdi. Gecə- gündüz çalışırdı. Məqsədi tək pul qazanmaq deyildi. Vaxt ötdükcə, o bu şəhərə gəlişindən uzaqlaşdıqca, yaşamaq uğrunda apardığı mübarizənin narahatlığı keçdikcə, birdəfəlik unutmaq istədiyi xatirələri- keçmişi tez-tez özünü xatırladırdı. Bəzən yuxuda belə, məkanı və zamanı unudub həyəcanlanırdı. Belə məqamlarda evdən çıxır,

bütün gecəni qəsəbəni dolanırdı, özünü yorurdu ki, uzanan kimi yuxuya getsin, düşünməyə vaxt olmasın. Bəzən Rizonu da götürüb payi-piyada şəhərin kənarındakı şirkətinə gedir, böyük adam kimi hər şeyi Rizoya başa salmağa, anlatmağa çalışırdı. Rizo bütün bunları tam anlamasa da, Qəriblə gəzib –dolanmağı, söhbət etməyi onu sevindirirdi. Anasının ciddi- cəhdlə işə bağlanması Rizonu da bu mübarizənin içinə çəkirdi. Bahalı maşında Qəriblə məhləyə girəndə Rizonun sevincini həddi-hüdudu yox idi. O da maşın sürməyi öyrənmək istəyirdi və bunun üçün Qəribə hər gün yalvarırdı. Gülüdən gizlin şəhərin ətrafına çıxıb təlim keçirdilər. Məhlə uşaqlarını maşında gəzdirən zaman bu dünyada Rizodan xoşbəxt adam yox idi. Heyf ki, maşın özünün deyildi. İcazə almaq üçün Qəribə nə qədər dil tökməli olurdu.

Gülünü son vaxtlar ən çox məşğul edən məsələ - məhlənin kanalizasiyası idi. Çirkab böyük küçəyə qədər üstü açıq axırdı. Zibili, qoxusu hamını bezdirmişdi. Uşaqlar yanında oynayırdı. Dəfələrlə balaca uşaqlar çirkab axan arxa düşmüşdü. Yoxsulluqdan və əlacsızlıqdan hamı susurdu. İndi Gülü bu məsələni Qəribə deyəndə, Qərib düşünərək:

-Bu məsələ ilə bələdiyyə məşğul olmalıdır. Onlarsız olmaz.

Gülü ərizə yazdırmışdı, sakinlərlə bələdiyyəyə getmişdi, çox get-gəldən sonra onlar da adam göndərmişdilər, gəlib baxmışdı. Amma hələ ki, bir söz deyən yox idi. Gülü hər gün bələdiyyəyə ayaq döyməkdən yorulmuşdu. Hətta bələdiyyə sədrinə demişdi ki, siz kağız-kuğuzu hazırlayın, biz öz pulumuza boruları alaq, çəkək. Amma görünən bu idi ki, kimsə Gülünün sözlərini ciddiyə almırdı. Bir gün Qərib özü səhər durub bələdiyyə sədrinin qəbuluna getdi. Məsələni ətraflı danışıb, çəkiləcək kanalizasiyan bütün xərclərini şirkətin ödəyəcəyini bildirdi. Bələdiyyə sədri onu dinlədi və sonra ağır-ağır bildirdi ki, bu məsələ onun səlahiyyətində deyil. Qərib bu adamdan bir şey çıxmayacağını anlayıb evə gəldi. Gülüyə tapşırdı ki, qonum- qonşunu ümidləndirməsin, bələdiyyədən bir fayda olmayacaq. Gülü məyus halda:

-Özümüz çəkə bilmərikmi?

Qərib:

-Yox. Özümüz çəksək də, hökumət icazə verməlidir.

Gülü  məyus halda:

-Bəs, nə edək? Bəlkə, yuxarıya şikayət edək? Qəzetə yazaq?

Qərib:

-Boş şeydir. İstəsələr, özləri həll edər. İstəmirlər.

Gülü təəccüblə:

-Niyə istəmirlər? Bu, onların işidir, deyir, büdcəmizdə pul yoxdur, özümüz veririk də pulu. Nə ağrı dolub canlarına? Qərib bir söz demədən çiyinlərini çəkdi.

Gülünün verdyi son xəbərdən sonra, camaatın ümidi tamamən kəsildi. Adamlar narazı halda gileylənməyə başladılar:

-Kimdir ee, kasıb-kusubun halına yalan?

-Onlar iş görməyə gəlməyiblər, bala, iş verməyə gəliblər...

-Gör kimlər oturub başda, kişi pulunu verir, yenə qoymurlar..nə istəyirlər, görəsən?

-Nə istəyəcəklər, pul iyi alıblar, Qəribə bir şey eləməsələr yaxşıdı..

-Nə edəcəklər? Neyniyib ki?

-Belə adamlar sərf eləmir bunlara...kasıb-kusuba əl tutur, çörək verir...

-İndi orda Qərib otursaydı, gör camaata nələr eliyərdi?

-Camaata gün ağlamaq istəyənləri ora qoymazlar...

-Niyə qoymurlar? Seçki ilə deyil? Gəlin biz də seçək!

Gülü arvadlarla oturub bir söz demədən ürəklərini boşaltmaq istəyən kişilərə qulaq asırdı.

-Hə? Gülü bacı, düz demirəm? Niyə biz öz adamımızı seçmirik ki?

Hamı dönüb nəzərlərini Gülüyə dikdi. Sanki Qəribin seçilməsi Gülüdn asılıymış kimi, o çaşqın- çaşqın:

-Nə bilim, vallah...seçərik seçməyinə, hamı yığışsa, bütün qəsəbə...
- Gülü bacı, desənə Qərib müəllimə...
-Yooox, mən deyə bilmərəm, yığışın, özünüz deyin...
-Razı olar, sən bilən?
-Nə bilim, vallah...genə siz deyin...mən də çalışaram razı salım...

***

Qərib heç zaman siyasətlə maraqlanmamışdı. Ona elə gəlirdi ki, siyasətlə məşğul olanlar hər kəsin əvəzinə düşünməli, hər şeyi bilməli, hər kəsin yerinə qərar verməyi bacarmalıdır. Bu isə ona mümkünsüz görünürdü. Onun işi, tikmək, qurmaq, yaratmaq idi. Konkret bir işlə məşğul olmaq, etdiyin işi əlinin və gözünün altında saxlamaq, öz işinin sahibi olmaq, kimsədən asılı olmamaq onun məqsədi idi. Qərib işgüzar adam idi, işin ağırlığından qorxmurdu. Bəlkə də, buna görə uğur qazanırdı. Məhlədəki insanların, qonum- qonşunun təklifini eşidəndə, əvvəlcə buna təəccübləndi və etiraz elədi:”Mən hara, bələdiyyə hara? Məndən hökumət adamı olmaz!” Amma bir fikir Gülünün ağlına batmışdısa, çətin onun ağlından çıxaydı. Günlər, həftələr keçdi, aylar keçdi və nəhayət, Qərib razılıq verdi. Onun itirəcəyi bir şey yox idi. Madam adamlar təkid edir, niyə də yoxlamasın? Şirkətin işi qaydasında gedir, Atabəy möhkəm intizam

yaradıb, böyük bir ticarət- alqı-satqı müəssisəsi yaradıblar, minlərlə işçisi, obyektləri, şəhərlərin çoxunda filialları- bütün bunları qarantiyə almaq da lazımdır.

Qərarını bildirəndə, elə bil Gülüyə qol- qanad verdilər. Səhər bu xəbər ildırım sürətilə məhəlləyə yayıdı. Adamlar da sevinirdilər. İnsafən, son iki ildə Qəribin sayəsində gündəlik işləri, çörəkləri var idi. İşıq sönürdü, Gülü həll edirdi, boru partlayırdı, Gülü düzəltdirirdi, bir neçə böyük zibil qabı alıb məhlədə küçəyə qoydurmuşdu, zibili də öz pulu ilə daşıtdırırdı. Kimin nə dərdi olsa, Gülünün üstünə qaçırdı. Qərib olsun, ya Gülü, adamlar üçün heç bir fərqi yox idi. Daha Gülü evdə oturmurdu. Səhərdən – axşamadək dükan –bazarda gəzir, adamlarla görüşür, söhbət eləyir və hamısının da bircə qayəsi vardı- Qərib.

Qəribin də imkanları geniş idi. Namizədliyi qeydə alınandan sonra geniş təbliğata başladı. Şəkilləri, slaydları yayılırdı, hər gün məhəllələri gəzirdi, görüşlərə xeyli ərzaqla gedirdi, ehtiyacı olanları dinləyirdi, yardım edirdi. Köhnə bələdiyyə sədrinin belə imkanları, təbliğat resursları yox idi. Qərib çox pul xərcləyirdi. Bağçalara, məktəblərə, xəstəxanalara gedirdi. Hamısına da əlidolu.Qəzetlərdən istifadə edirdi. Bir neçə müxbir onun haqqında davamlı məqalələr yazırdı. Qərib bu məlumatların müqabilində onlara yaxşı pul ödəyirdi.Heç kimi özündən narazı salmaq istəmirdi. Onun üçün yaxşı iş

görürdülər. Bir qədər keçəndən sonra qəsəbədə artıq hamı Qəribdən danışırdı. Qərib reytinqdə bütün namizədləri üstələmişdi. Qəribin sürətlə tanınması və tərəfdar toplaması qəsəbənin, rayonun rəsmi orqanlarının dadiqqətini çəkdi. İcra başçısı Oəribi qəbul etdi. Xeyli söhbətləşəndən sonra başçı bu adamın çox uzağa gedəcəyi qənaətinə gəldi. Belə bir havadarı və kompanyonu olması ona da sərf edərdi. Qərib sərbəst adam idi. Maddi gücü də var idi, dəstəyi də böyük idi. Belə bir güclü adama başçını ehtiyacı var idi. Vəzifəsi böyük olsa da, hər zaman sanki tikan üstündə otumuş kimi idi. Dövlətin vəzifəsidir, nə bilmək olar, aldılar – aldılar, neyləyəcəkdi? Nə qədər pulun olur-olsun, vəzifədən atılanda pul da kömək eləmir. Əlindən tutub almağa nə var ki! Görə- görə gəlib...yıxılana heç kim kömək eləmir, doğma qardaş da üz döndərir bədə-bəddə...Özünü göstərmək istəyir göstərsin, iş görmək istəyir, buyursun görsün, son nəticədə rayon onundur, yaxşı olan da onun ayağına yazılır, pis olan da. Heç olmasa, üzünü ağ eləyən bir adam olar. Yığdığı məlumatdan Qəribin gəlmə olduğu deyilirdi, keçmişi haqqında heç kim heç nə bilmirdi. Bu - daha yaxşı. Yəni tərtəmiz adamdır. Özlüyündə qərar qəbul elədi ki, heç bir şeyə qarışmayacaq. Seçki öncəsi artıq aydın idi, camaat Qəribə səs verəcək.

Bütün bunlar Rizoya oyun kimi gəlirdi. Dəstə ilə gəzən adamların içində Rizo da Qəribdən bir an olsun ayrılmırdı. Sanki onlar bir komanda idilər, futbolda olduğu kimi başqa bir komanda ilə oynayırdılar və mütləq udmalı idilər. Rizo axşamlar sevinclə olub bitənləri Gülüyə danışırdı.

Nəhayət ki, seçki günü gəlib çatdı. Gözlənildiyi kimi, Qərib bütün məntəqələrdə böyük səs fərqi ilə irəlidə idi. Bəlkə də, bu qəsəbədə indiyədək keçirilən ən düzgün və real seçki idi. Məhlə Qəribin qələbəsini böyük şadyanalıqla qeyd edirdi. Gülünün əli-ayağı yerə dəymirdi. İçi fərəhdən titrəyə-titrəyə uçurdu. O, bu hadisənin siyasi mahiyyətini və ciddiliyini o qədər də anlamırdı. Sadəcə, Qərib qələbə qazanmışdı və bu qələbə Qəribdən çox, Gülüyə lazım idi. Qərib gecəyarısı evə qayıdanda bütün məhlə onu gözləyirdi. Onlar da Gülü kimi, elə hesab edirdilər ki, Qəriblə birlikdə qələbəni onlar qazanıb. Necə olsa, öz adamları idi. Qərib həyətə girəndə səs- küy qopdu, hamı sevinclə onu təbrik edirdi. Səs- küyə qonşular da yığışdı. Qərib də onları qucaqlayaraq minnətdarlığını bildirirdi. Yer dar olduğu üçün hamı həyətə sığmadığından küçədə toplaşanlar Qəribi görmək, onunla sevincini bölmək istəyirdilər. Belə coşqu ilə qarşılanmağı Qəribi çox təsirləndirdi. Qəlbi həyəcanla doldu. Hiss etdi ki, o bu insanlara borcludur. Məhz bu

adamların sayəsində o özünü güclü və qalib sayırdı. Şadyanalıq bitəndən sonra pillələri qalxıb evə keçdi. Yorğun halda pencəyini soyundu. Rizo ona yaxınlaşıb boynuna sarıldı.

Gülü əllərini qaldırıb:

-Allah, sənə min şükür! Bu günü də göstərdin bizə!

Qərib divanda oturub arxayınlıqla gülümsündü və qeyri - ixtiyari dodaqları pıçıldadı :

-Çərxi – fələk...

***

RİZO

Hər kəsin başı işə qarışsa da, kimsə fərqində olmasa belə, Rizo böyüyürdü. Gülünün bitib-tükənməyən tapşırıqlarını yerinə yetirə-yetirə, məhləni aşağı- yuxarı gündə yüz dəfə qaça- qaça iş dalınca gedə- gedə Rizo hər gün bir az dəyişilirdi. O artıq qarayanız, arıq uşaq deyildi, boyu uzanmış, bədəninin əzələləri möhkəmlənmiş, idmançı görkəmli yeniyetmə idi. Saçlarını uzatmışdı, sevdiyi futbolçuları təqlid edən köynəklər geyinirdi. Gülü məhlənin ən yuxarı hissəsindəki zibilliyi daşıtdırmış, bir az aralıdakı, çirkab qamışlığı maşınlarla torpaq gətizdirib qurutdurmuş, hasara alıb təzə ev tikdirməyə başlamışdı. Məhlənin suyunu, kanalizasiyasını, elektrik xəttini təzədən çəkdirmişdi. Həyətdəki daxmaları sökdürmüş , sıra ilə kiçik evlər tikdirib kirayənişinləri ora köçürtmüşdü.

Təzə tikdirdiyi ev Rizonun idi. Gülü bütün gün bu həyətdə ustalarla əlləşir, gecə ayaqları sızıldaya-sızıldaya Qəribə yeməklər hazırlayır,onun pal-paltarı ilə məşğul olurdu. Rizo bu işlərin arasından sıyrılaraq yenə də futbola qaçırdı. Məktəbə zorla gedirdi. Belə görünürdü ki, get-gedə dərsdən uzaqlaşacaq. Amma əksinə oldu. Qəfildən Rizo hər səhər özü durub yuyunur, saçlarını darayır, geyinib həvəslə məktəbə gedirdi. Bu qəribə həvəsin səbəbi tezlklə əyan oldu. Rizo məktəbdə bir qıza vurulmuşdu.

Rizo dərs oxumağa o qədər həvəsli olmasa da, sinif yoldaşları ilə, xüsusən oğlanlarla yaxşı yola gedirdi. Qızlarla işi olmazdı. Lap aşağı siniflərdən sanki qızlarla aralarında bir görünməz pərdə var idi. Oxumaqdan savayı, qalan bütün işlərdə aktiv idi. Müəllimlər də onunla mehriban rəftar edirdilər. Xüsusən sinif rəhbəri Rizonu çox əzizləyirdi. Çünki dərsdən kənar tədbirlər keçirilən zaman Gülbikə müəllimənin ən yaxın köməkçisi Rizo olurdu. İdman yarışlarında üzünü Rizo ağ edirdi. Sinifdə bir şey təşkil etmək gələndə Rizo irəli dururdu. Qəribin bələdiyyə sədri seçilməyindən sonra Rizo məktəbin dirəyi olmuşdu. Nə lazım olsa, Rizonun vasitəsilə həll olunurdu. Amma Rizo bu üstünlüyündən heç zaman istifadə eləmirdi. Lovğalıq eləmək, özünü üstün saymaq heç onun ağlının ucundan da keçmirdi. Sadəcə o sinfin mehriban və səmimi uşağı idi. Dava- dalaşla arası yox idi. Amma

kobudluq edəni, ona sataşmaq istəyəni də yerində oturtmağı bilirdi. Onun cəsurluğunu bilən yoldaşları Rizoya daha da hörmətlə yanaşırdılar. Xüsusən , imkansız uşaqları heç zaman pərt olmağa qoymazdı. Lazım olan zaman onların da xərcini öz üzərinə götürərdi. Bu ildən siniflərinə təzə qız gəlmişdi. Hansısa Aran rayonundan idi. Rizogildən aşağı məhlədə kirayə qalırdılar. Əvvəllər anası hər gün onu və qardaşını məktəbə özü aparıb- gətirirdi. Kənd qadınları kimi başını örtürdü. Atası da sakit, fağır bir kişi idi. Nofəlin mağazasında işləyirdi. Yəqin ki, başqaları kimi, buraya işsizlikdən köçüb gəlmişdilər. Lilpar də çox sakit bir qız idi. Sinif uşaqlarına qaynayıb-qarışmırdı. Amma bütün fənləri çox yaxşı oxuyurdu. Kənardan baxan onun bu qədər zəkalı oluğunu söyləməzdi. Az keçmədən müəllimlər onun çox zehinli bir qız olduğunu gördülər. Sinifdə bütün fənlərdən “əla “ qiymət alan tək Lilpar idi. Arıq, çəlimsiz qız idi. Xurmayı saçlarını tarım darayıb daldan bir hörük hörürdü. Yəqin ki, bunu anası edirdi. Ağ, solğun üzündə qızılı çillər var idi. Ağıllı baxışları, həssas dodaqları onun dərin daxili aləmindən xəbər verirdi. Dindirən olmasa, saatlarla dinməzcə otururdi, tənəffüsdə dəhlizə də çıxmırdı. Əlin çənəsinə dayayaraq gözünü kitaba zilləyərək otururdu. Sinif qızları onu sevmirdi. Bəzən dərs danışanda ona söz atır, lağa qoyur, o da bunları hiss edərək qızarır, çaşırdı.

Uşaqlar sanki onun pərt olmağından həzz alırdılar. O isə gözlərini yerə dikərək dərsi tamam danışıb bitirirdi. Riyaziyyat müəllimi isə onu hər gün lövhəyə çağırıb çətin misalları həll etdirirdi. Lilpar misalları həll elədikcə İbrəhim müəllim eynəyini burnunun üstünə çəkir, az qala yeni düstur kəşf edibmiş kimi sevinərək deyirdi:

-Sən riyaziyyatçı doğulmusan, sən Eynşteynsən, mənim balam!

Uşaqlar yerdən pıqqıldaşıb gülüşürdülər. Lilpar da qızararaq, başını aşağı dikir, heç kimə baxmadan daldakı partaya – yerinə gedib tək oturaraq, gözünü kitaba zilləyirdi. Uşaqların Lilpara haqsız münasibəti Rizoya xoş gəlməsə də, heç kimə bir söz deyə bilmirdi.

Yay tətilindən sonra dərslər başlayanda şagirdlərdə hər zaman dəyişiklik olur.

Dərs zamanı bir-birilərini hər gün gördüklərindən dəyişiklik o qədər də hiss olunmur. Üç aylıq tətildən sonra isə sanki hər kəs birdən-birə boy atmış kimi görünürdü. Oğlanların çoxu bir- birilərini tez-tez görürdülər, qızlar isə tətildən sonra lap böyümüş görünürdülər. Xüsusən, Lilpar daha çox dəyişmişdi. Boyu uzanmış, üzü göyçəkləmişdi. Hətta sinif rəhbəri Gülbikə müəllimə sinifdə hər kəsə göz gəzdirib Lilpara demişdi:

-Nə qəşəng qız olmusan, maşallah ! Amma oxumağından geri qalma, ha!

Bu - sinif qızlarını daha çox qıcıqlandırırdı. Rizo da bu dəyişikliyi hiss edirdi.
Dərs danışan zaman onu başdan –ayağa süzmüş və sonra utanaraq gözünü qızdan çəkərək, dəftərini qaralamağa başlamışdı.
Bir neçə gündən sonra Rizo sinfə girərkən nə isə bir dəyişiklik hiss etdi. Qızlar bir- birilə pıçıldaşır, oğlanlar yığışıb irişirdilər. Gözücu Lilpara baxdı. Başını aşağı salıb oturmuşdu. Deyəsən, ağlamışdı. Gözləri şişkin və qırmızı idi. Yanındakı oturan Hidayətdən soruşdu:
-Nə olub?Niyə hamı birtəhərdi?
Hidayət ona tərəf əyilib qulağına pıçıldadı:
Dünən sən gəlməmişdin. Nahid Lilparın çantasına məktub atıb.
-Rizo təəccüblə:
-Niyə?
-Nə bilim, uşaqlarla mərc gəlib, ağlına gələni yazıb , guya sevgi məktubudur.
Rizo:
-O heç yerindən durmur axı, harda atıb?
Hidayət :
-Qızlardan biri qoyub.
-Kim?
-Mənə demədilər, evdə görüb Lilpar,verib anasına. O da gətirib məktubu verib direktora.

Rizo daha dinmədi.

Tənəffüzə çıxanda uşaqlarla birlikdə həyətə düşdülər. Rizo Nahidə yanaşıb qolundan tutdu və məktəbin böyrünə doğru çəkdi. Rizonun əvvəldən Nahiddən xoşu gəlmirdi, cığal uşaq idi. Nihad qolunu onun əlindən çəkmək istədi:

-Nə var, nə olub?

Rizo onun yaxasından tutaraq:

-Sənin qarnının ağrısı nədir hələ, onu de görüm?

-Nə istəyirsən?

Sinif uşaqları onlara çatıb dövrəyə aldılar.

Rizo:

-Yox, de görüm sən nə istəyirsən? Qıznan nə işin var ?

-Sənə nə var? Məktub yazmışam, əcəb eləmişəm, heç kimə dəxli yoxdu.

-Sən məktub yazmamısan, nakişilik eləmisən, gücün bir fağır qıza çatır, hə?

Nahid köynəyini onun əlindən almağa çalışaraq:

-Burax ee, buna bir bax,vəkil çıxmısan?

Rizo onun üzünə bir yumruq ilişdirdi. Nahid səndirləyib yerə yıxılsa da, tez qalxdı, Rizonun üstünə cumaraq əl-qol atdı. Rizo onun qolundan tutub altına basdı :

-Dilin çox uzanıb sənin, bir də o qıza tərəf baxsan, gözünü çıxardaram. Alçaq!

Bayaqdan qarışmadan baxan uşaqlar onları ayırmağa başladılar. Rizo qalxaraq:

-Sənə dedim sözümü. Bir də eşitsəm, bir də bilsəm, özündən küs !
Rizo onu tutmağa çalışan yoldaşlarının əlini itələyərək:
-Çəkilin siz də ! O nakişidir, ağlını itirib, başından böyük pox yeməyə qalxıb, sizə nə gəlib? Alə, xalxın qızından mərc gəlirsüz? Kişi olun, alə...
Nahid yerdən durub burnunun qanını əli ilə silə-silə:
-Yaxşı...görərsən sən...
Rizo əlini yelləyərək:
-Yeri, yeri... görəcəm hələ, bu harasıdır...
Zəng içəri vurulduğundan üst-başını səliqəyə salan Rizonu uşaqlar sinfə gətirdilər.
Sinfin oğlanlarının çoxu Rizonu çox istəyirdi. Çoxu Nahidin küyünə düşdüyü üçün peşman olmuşdular. Sanki Rizonun sözlərindən sonra bu hərəkətin mahiyyətini başa düşmüşdülər.
Tənəffüsdə uşaqlar xəbər gətirdilər ki, Nahid dəstə yığıb küçədə Rizonu gözləyir.
Rizo gülərək:
-Dəstə yığıb... özünün duxu yoxdu, onu-bunu gətirir savaşmağa dəyyus. Qoy gözləsinlər, cavablarını alacaqlar.
Dərsin bitməsini gözləmədən küçəyə çıxdılar. Nahid qohumlarından, qonşularından, dostlarından bir neçə nəfər çağırıb Rizonu gözləyirdi. Rizo onların üstünə gedərək:

-Nooldu, qeyrətün buracan idi? Sinif yoldaşlarını döyməyə qoomlarıvu yığıb gətirmisən? Alə, duxun var, özün gəl, xalxı davaya salma.

Nahid qəzəblə ona cumaraq:

-Sən çox qudurmusan. Indi payıvi alarsan!

Rizo qollarrını qaldırıb onu vurmaq istəyən Nahidin dizindən möhkəm təpiklə vurdu. Üzü üstə yerə sərilən oğlan tərpənmədi.

Rizo dəstəyə tərəf baxaraq:

-Bunun ağlı çaşıb, aparın, bir az sərinləsin.

Tərəddüd içində qalan Nahidin tərəfdarları bilmədilər nə etsinlər. Savaşmağa başlasalar, döyüləcəkləri aydın idi. Odur ki, heç biri yerindən tərpənmədi.

Bu zaman Əlikram müəllimin, Fəxrəddin müəllimin tövşüyə-tövşüyə onlara yaxınlaşdığını görən uşaqlar dağılışmağa başladılar. Kimsə dava xəbərini direktora çatdırmışdı.

Fəxrəddin müəllim onlara çatmamış qışqıra-qışqıra:

-Bu nədir, tamaşa düzəltmisiz burda? Haydı, sinifə! Üzümüzü çevirən kimi bir hoqqa çıxardırsız. Dur ayağa, oğlan, haydı məktəbə!

Gələn uşaqlar yavaş-yavaş uzaqlaşdılar. Əlikram müəllim Rizogili qabağına qatıb sinəfə gətirdi. Gülbikə müəllimə həyəcanla sinifdə oturan uşaqları danlayırdı. Rizogil oturana qədər sözünü kəsdi. Əlikram müəllim:

-Sabah valideynlərinizlə gəlirsiz! Valideynsiz gələni özüm verəcəm polisə! Orda ağlınız başınıza gələr! Bu boyda məktəb qalıb bir yanda, işim-gücüm tökülüb qalıb, mən bunların davasını ayırıram. Müəllimə, xahiş edirəm, məşğul olun. Tərbiyəsizlik edəni rədd edin, getsin!

Əlikram müəllim əsəbi hərəkətlə qapını örtüb getdi.Gülbikə müəllimə:

-Bəyəndiniz etdiyiniz hərəkəti? Innən belə dava ilə məşğul olarıq. Rizo,səndən heç gözləməzdim. Nə davasıdır bu?

Rizo başını aşağı salıb dinmədi.

Müəllimə:

-Son günlər mən çox narazıyam sizdən. Görünür, hər birinizlə ayrıca məşğul olmalı olacam. Siz bir sinifdə oxuyursuz, hamınız bir ailə olmalısız. Bəs, sizin elədiyiniz nədir? Hə, Yasəmən? Sən heç utanmadın, sinif yoldaşının çantasına məktub qoyanda?

Yasəmən deyilən qız:

-Müəllim, mən qoymamışam... mənim xəbərim yoxdu...

-Kəs səsini, ayıb olsun sənə, xəbəri yoxmuş! Heç olmasa o qızın tərbiyəsindən, oxumağından utan! Sən bura niyə gəlirsən?Ara düzəltməyə? Sabah valideynin cavab verər, başqa birinin çantasına sevgi məktubu qoymaq nəymiş? Mən bilirəm, üzünüzə vurmuram, sizin Lilpardan xoşunuz gəlmir. Bilirsiz niyə gəlmir? Çünki siz onun kimi

ola bilmirsiz! Sinfimin başını uca eləyən yeganə şagirddir, siz isə birləşib ona qarşı cəbhə açmısız! Guya öz aləminizdə bəyənmirsiz, hə? Niyə bəyənmirsiz? Sizin kimi evdən çantasına qısa ətək qoymur, yolda dəyişmir, ona görə? Valideynlərinizi aldadırsız, evdən başqa paltarla çıxıb, məktəbə ayrı paltarla gəlirsiz. Çantanızda kitab əvəzinə kosmetika var. Açaq yoxlayaq? İstəyirsiz, bu dəqiqə yoxlayaq! Həə, elə bilirsiz, çox ağıllısız, nə etdiyinizi, nəylə məşğul olduğunuzu bilən yoxdu. Məsələ gör nə qədər böyüyüb ki, dəstə davası gedir. Nahid, sən bu davranışının cavabını verəcəksən. Çox güzəşt getmişəm sənə, sinifin faizi düşməsin deyə sənin ikilərini yalvarıb düzəltməyimin axırı belə olmalı idi. Biz sizinlə sabah-valideyn iclasında danışacağıq!

Dərs bitəndən sonra Rizo məktəbin qapısında dayanıb gözləməyə başladı. Bir azdan Lilpar qardaşı Kamranla gəlib onun yanından keçdilər. Rizo arxadan onları müşayət etməyə başladı. Nahid yeni bir hoqqa çıxara bilərdi. Onları evlərinə qədər ötürdü.

Axşam otağına tez çəkildi.

Gülü onun köynəyinə, cırmaqlanmış üzünə baxan kimi savaşdığını başa düşdü. Adətən, Rizo dalaşqan uşaq deyildi. Amma Gülü nigarançılıqla:

-Nə olub Rizo, kiminlə savaşmısan?

-Ay maaa...savaşmamışam...zarafatlaşırdıq...

Gülü əlinəki köynəyə baxa-baxa:
-Əcəb zarafatdır...
Axşam Qərib gələndən sonra Gülü girəvəyə salıb:
-Bu gün savaşıb, soruşdum, demədi...öyrən gör, nə məsələdi?
Qərib qapını döyüb Rizonun otağına girdi. Rizo qalxıb çarpayıda oturdu. Qərib onun üzünə baxaraq gülümsündü, yanında oturub, yumruqla onun sinəsinə vuraraq, üzünə işarə ilə :
-Nə olub?
Rizo gülümsəyib:
-Heeeç...bir az cırmaqlaşmışıq...
-Qız məsələsidi?
Rizo pörtüb başını buladı:
-Əlikram müəllim fürsəti fövtə verməyib, deyəsən?
Qərib:
-Əzişdirdin?
-Qorxağın biridi, bir yumruğa verdi təkərə... sabah səni çağırırlar...
-Danışdım direktorla.
Əlini uzadıb Rizonun saçlarını qarışdırdı.
Otaqdan çıxanda Gülüyə:
-Bir şey yoxdu, narahat olma. Oğlan uşaqlarıdır, hərdən tullanıb-düşürlər.

***

Səhər Rizo dərsə gecikmişdi. Qapını açıb:
-İcazə olar? - deyə soruşdu. Gülbikə müəllimə onu süzərək:
-Gəl, gecikməyin adət olub.
Rizo:
-Bir də olmayacaq.
Rizo uşaqların baxışları altında öz yerində deyil, arxaya-Lilparın yanındakı boş yerdə oturdu. Nəinki uşaqlar, müəllimə də əlində təbaşir lövhənin qarşısında donub qaldı. Bir neçə saniyəlik sükutdan sonra özünə gələrək təbaşiri lövhəyə vuraraq:
-Deməli, inşamızın adını yazıram. Diqqətli olun, bu bizim keçdiyimiz son mövzuları əhatə edir. Rizo, dəftərini gəl götür.
Rizo yerindən qalxıb müəllim stoluna yaxınlaşdı, adı yazılmış dəftəri götürərək, yenə Lilparın yanında oturdu. Qız ona tərəf baxmadan mövznun adını yazırdı. Rizo ona tərəf əyilərək:
-Mən inşa yaza bilmirəm, səndən köçürəcəm.
Lilpar gülümsədi, bir söz demədən dəftərini Rizoya tərəf çəkdi.
Həmin gün bütün dərslərdə Rizo Lilparın yanında oturdu. Dünənki hadisədən sonra heç kəs Rizoya bir söz deyə bilmədi. Əslində, bu hər kəsə qarşı meydan oxumaq idi. Rizo tənəffüslərdə o qədər ciddi oldu ki, hətta ən yaxın

dostları da ondan bir şey soruşmadı. Dərsdən sonra Rizo Lilparı evlərinə qədər apardı. Səhərlər əvvəlkindən tez durur, Lilpargilin evinin tinində onu gözləyir, dərsdən də evə aparırdı. Elə olurdu ki, bir işi olanda belə, dərsə girmədən Lilparı aparıb- gətirirdi. Bu hadisə bir-iki günə Gülünün qulağına çatdı. Gülü oturduğu yerdə xeyli dinməz-söyləməz qaldı. Onun körpə Rizosu nə tez böyüdü? Nə tez qızlarla maraqlanacaq yaşa çatdı? Axı, Gülü heç Rizonu doyunca bağrına basa bilmədi, doyunca qoxusunu çəkə bilmədi...Gülü heç Rizonun uşaqlığından doya bilmədi! Nə zaman böyüdü Rizo? İndi budur, qız sevir Rizo...başqa birini...Gülünün tanımadığı birini...bu, necə ola bilər? Gülü bir xeyli içindəki duyğularla çarpışdı. Sonra qadınlardan onların kim olduğunu öyrəndi. Səhərisi gizlində məktəb yoluna gedib öz gözləri ilə Rizo ilə Lilparı gördü. Qəribədir ki, bu haqda Rizoya heç nə deyə bilmirdi, heç nə soruşa bilmirdi. Rizonun isə otağı futbolçu şəkilləri ilə yanaşı, Lilinin də şəkilləri ilə dolurdu. Bu evdə Qəriblə, Gülü ilə, Rizo ilə bərabər, artıq Lili də yaşayırdı. Gülünün ilk işi pay-parça alıb, zənbil tutub, Liligilə gedərək ailəsi ilə tanış olmaq oldu. Gülü hər kəslə olduğu kimi, Nərminlə də asanlıqla dil tapdı. Gözlərini Lilpardan çəkmədən söhbət eləyirdi. Qız utanaraq başını aşağı salıb, gözünü yerə dikmişdi. Gülünün verdiyi suallara “hə” yaxud ”yox” – deyə cavab verirdi. Qızın

utancaqlığı, davranışı Gülünün xoşuna gəlmişdi. Onun sifətində, gözlərində Rizonun baxışlarını tapmağa çalışır, qəlbindəki əriyib gedən təşvişin yerini xoş bir duyğu – sevgi doldururdu. Qız nə baş vardiyini dərinliyi ilə anlamırdı. Rizo bir neçə gün idi, onu ötürürdü. Son günlər onun gənc qəlbi yeni duyğularla, həyəcanlarla çırpınırdı. İndi Eizonun anasının birdən- birə onlara gəlməsi Lilini çaşdırmışdı. Gülü üçün sadə görünən şeyləri o hələ dərk edə bilmirdi. Nərmin tələsik süfrə açdı. Uzaqdan-uzağa Gülünü tanıyırdı. Gözlənilməz olsa da, o bu qəfil gəlişə xüsusi bir məna vermirdi. Rizo Gülünün gözünün ağı-qarası idi və Lili ilə bir sinifdə oxuyurdu. Son günlər baş vermiş hadisə bütün valideynləri qayğılandırmışdı, yəqin ki, Gülü də bu hadisədən xəbərdardır. Qohum- əqrəbadan uzaq olan, dərdini bölüşmək üçün bir adam tapa bilməyən Nərmin üçün Gülü bir fürsət idi. O, narahatlığını bu qadınla bölüşə bilərdi. Necə olsa, yerlidir, hamını tanıyır, hörmət qazanmış biridir. Nərmin kimi qərib, tənha deyil ki...Bir neçə gündən sonra məsələdən xəbərdar olduqda, Nərmin nə edəcəyini bilmədi. Qızı hələ uşaq idi, indidən ayılmağı onu məktəbdən, dərsdən yayındıracaqdı. Amma Gülünün bu işə necə həvəslə və ürəklə yanaşdığını görəndə bir az sakitləşdi. Şəhər yerində, özü də qərib yerdə qız saxlamağın nə qədər çətin olduğunu anlayaraq narahatlığını Gülüyə bildirdi. Gülü:”Oxudacam, ikisini də

oxudacam, sən heç narahat olma “. Həqiqətən, Lili çox zəkalı şagird idi, məktəbdə müəllimlərin hamısı ondan razılıqla danışırdılar. Az keçmədən, Gülü ilə Nərmin bacı kimi oldular. Onların sıxıntı ilə yaşadığını görən Gülü Qəriblə danışdı. Artıq qızın atası Əkbər bələdiyyədə öz ixtisası üzrə mühasib işləyirdi. Gülü Nərmini də bağçaya işə düzəltdi. Gülü Lilini gəlincik kimi bəzəyirdi. Öz üşaqlığı, gəlinliyi məhrumiyyətlər, ehtiyac içində keçmişdi. O, yoxluğun, ehtiyacın nə qədər acı hisslər doğurduğunu çox gözəl bilirdi. İndi oğlunun sevdiyi qıza hədiyyələr almaq ona böyük zövq verirdi: Hətta Liliyə bir üzük də alaraq:”Qızım, məktəbə taxma, başqa yerə gedəndə tax ki, sözlü olduğunu bilsinlər”. Nərminə də başa saldı ki, Rizo ilə bir gedib-gəlirlər dərsə, camaat artıq -əskik söz danışmasın. Məktəbi bitirəndə nişan edəcəyik, inşallah.”

Onların məktəbi bitirməyinə isə hələ iki il qalırdı.

Rizo Liliyə doğru ilk addımını atarkən məsələnin tezliklə belə ciddi şəkil alacağını təxmin edə bilməzdi. Q, qeyri - ixtiyari olaraq haqsızlığa uğramış sinif yoldaşını, zəif, köməksiz bir qızı müdafiə etmək, qorumaq istəmişdi. Rizo qəlbində baş qaldıran duyğuları, varlığını bürüyən cazibəni hələ anlaya bilmirdi. Siniflərində başqa qızlar da var idi, amma o gizlində Liliyə göz qoyur, onu düşünürdü. Qarşılaşdığı anlarda həyəcanlanır, qızın üzünə baxa

bilmirdi. Məktəbdə, məhəllədə bir- birini istəyən oğlan – qız görmüşdü, amma belə bir hadisənin öz başına bu tezliklə gələcəyini gözləmirdi. Son günlər ətrafda baş verənlər sanki onu Liliyə sarı itələyir, daha da yaxınlşdırırdı. Xüsusən, anasının  təşəbbüsləri, qonaq getmələr, qonaq dəvət etmələr iki ailəni daha doğma, daha məhrəm etmişdi. Rizo da artıq Liligilə gedib-gəlirdi. Bəzən Lilini də özü ilə evə gətirirdi. Onların münasibətində hər şey aydın idi, təmiz, saf idi. Dünya Lilinin ətrafında dönürdü. Ətrafdakı insanlar da onların sevgisinə səmimi, uşaq sevgisi kimi baxır, hər işdə yardımçı olurdular. Onlar biri-birilərini acı çəkmədən, iztirab keçirmədən, qayğı və nəvazişlərin əhatəsində sevirdilər. Rizo xoşbəxt idi, həyəcanla günlərin üzərindən uçub keçirdi. Duyğuları onu qanadlandırıb böyüdürdü.

***

## GÜLÜ

Gülünün nə xəstələnməyə, nə qocalmağa vaxtı yox idi. Ümumiyyətlə, onun vaxtla əlləşməyə vaxtı yox idi. Hamı onu gözləyirdi. Küçə, ev, adamlar...Əvvəl küçənin qaydaya salınması, kanalizasıya, su, qaz xəttinin çəkilməsi, daxmaların sökülüb, yerində sıra ilə təzə evlərin tiikilməsi, zibilliyin təmizlənib, yaxındakı mazutlu gölməçənin qurudulması, yerinə torpaq daşınması, yaxşı mühəndis tapıb Rizo üçün yeni evin tikilməsi – hər gün yaranan

yeni- yeni problemlər Gülünü gözləyirdi. Sübh çağı yerindən qalxaraq iş sahəsinə gedir, ustaların üstündə durur, lazım olan məsələləri həll edirdi. Təzə ev artıq hazır idi. Hasara alınmış böyük üç mərtəbəli, yeni, orijinal stildə olan bu evdə Rizo gələcək ailəsi ilə yaşayacaqdı. Öz həyətindəki daxmaları sökdürmüş, evlərini təmir etmişdi. Gülü sanki böyük bir tikinti sahəsinə rəhbərlik edirdi. İndi şəhərdən Rail adlı bir dizeyner tapmışdı, Avropada təhsil almış, Türkiyədə işləmiş bu dizeyner kompyüteri açaraq saatlarla Gülüyə nümunələr göstərir, Rizonun evi üçün Gülüyə aboy, aksessuar, mebellər bəyəndirməyə çalışırdı. Gülü də hər şəklə diqqətlə baxır, birini o biri ilə müqayisə edir, ən sonda yenə Raildən soruşurdu:

-Hansı sonuncu dəbdədir?

Rail iə Gülünün seçimi üst- üstə düşməsəydi, məsələ saatlarla uzanırdı. Rail deyirdi:

-Gülü xanım, bunların heç biri əbədi deyil, hansını seçsək belə, 3-4 ilə köhnələcək...yenisini hər zaman əvəzləmək olar...əsas odur, siz rahatlığınıza baxın. Gülü əvvəlcə bu uzunsaçlı , saqqal saxlayıb, əndrəbadi paltarlar geyinin bəzəkli cavan oğlandan xoşu gəlməsə də, işini gördükcə fikrini dəyişir,ona inanmağa başlayırdı. Bu qədər qəliz sözləri yadında saxlayıb, asta-asta səbrlə danışan, Gülünün bütün istəklərini tapıb yerinə yetirən adamla doğmalaşır, hər işdə ona etibar edirdi.

Gülü isə Rizo üçün ən yaxşısını istəyirdi. Seçdiyi hər bir əşyada Rizonu və Lilini görürdü. Əlindən çıxan işin qüsursuz olmasını istəyirdi. Nə qədər ora-bura çəksə də, axrı yenə də Raillə razılaşırdı:

-Neynək, sən deyən olsun. Amma elə et ki, bundan yaxşısı olmasın heç yerdə.

Rail də gülümsəyərək:

-Baş üstə, Gülü xanım, ən yaxşısını eləmək bizim işimizdir. Siz darıxmayın, səbirli olun, sonda baxıb qiymət verərsiz.

Gülü istəyirdi Rizo məktəbi bitirənə qədər ev hazır olsun. Səhərlər Raillə görüşüb söhbətləşəndən sonra, mütləq, məhəllənin yuxarısında Qəribin tikdirdiyi şadlıq evinin tikintisinə də baş çəkirdi. Qərib onun çox yorulduğunu, get-gedə səhhətinin pisləşdiyini görərək:

-Özünə bu qədər əziyyət vermə, iş icraçıları var, onlar nəzarət edirlər, arada özüm də baxıram, bir şey yaxşı olmasa dəyişdirirəm, sən özündən muğayat ol, dincəl, istirahət elə, uşaqlara bax, qalan şeylərlə işin yoxdu.

Gülü qan sızmış ayaqlarını, biləklərini ovuşdura-ovuşdura:

-Onları başına buraxmaq olmaz, bir gün gedib baxmasam, bildiklərini edirlər.

Qərib:

-Canından artıq deyil ki...sən həkimə get, bir özünü yoxlatdır, Allaha şükür bir ehtiyacın yoxdu daha, özünə qulluq elə.

Son zamanlar Gülü əvvəlki kimi yüngül deyildi. Bədənində, ətraflarında şişkinlik var idi, əvvəldən az yatmağa öyrəncəli olsa da, indi yuxusu heç yox idi. Qərib hiss edirdi ki, bunun nəticəsi yaxşı olmayacaq, amma Gülü sözə qulaq asmırdı, özündən başqa, hər kəsi fikirləşirdi.

Neyləsin ki...O qədər fikir eləyirdi ki, kaş imkan olaydı, onu edəydi, bunu edəydi, əli- qolu bağlı olan günlərdə, ehtiyac içində boğulduğu vaxtlarda, kimsədən kömək gözləmədiyi, tənhalıqdan bağrı çatlayan zamanlarda , əli hər yerdən üzülən anlarda o qədər Allaha dua edirdi, yalvarırdı... budur, indi Allah imkan yetirib, iş nədir ki? Təki iş olsun işləməyə, bircə övladı üçün yorulmayacaq, əziyyət çəkməyəcəksə, nəyə lazımdır, kimə lazımdır o? Hələ ki, canı var, gücü çatır, əli-ayağı yerindədir, insanların ümidlərini qırmağa haqqı yoxdur. Nə qədər adam gözünü Gülüyə dikib. Hamısına iş lazımdı, çörək lazımdı, hamısına ev –eşik lazımdı, balalarını böyütmək, yer-yurd etmək lazımdır. Gülüsüz onlar neyləyə bilər axı?

Öz-özü ilə, içində danışaraq , sanki yüngülləşir, səhər tezdən yerindən duraraq, Qəribi yola salır, sonra gündəlik işlərinin dalınca gedirdi. Hələ onun nə qədər yoluna

qoymalı işi vardı! Günlər tez-tez gəlib ötürdü. Dan atmağı ilə günün batmağı bir olurdu. Rizonun evi hazır olmaq üzrə idi. Uşaqlar orta məktəbi bitirirdilər. Belə qərara gəlmişdilər ki, tezliklə nişan eləsinlər. Sonra ali məktəbə imtahanlar başlayacaqdı. Lili yenə əvvəlki tək bütün fənlərdən "əla"qiymətlər alırdı. Gecə- gündüz oxumağında idi. Vaxtı olanda Rizo onu gəzməyə aparırdı . Rizonun da işi ağır idi. Həm şirkətə gedir, Qəribin tapşırıqlarını yerinə yetirir, həm Gülünün bitib-tükənməyən buyuruqlarının dalınca qaçırdı. Hər necə olsa gecə mütləq Lilingilə gedir, onunla söhbətləşib evə gəlirdi. Lili nə qədər çalışsa da, Rizonu dərsə , oxumağa bağlaya bilmirdi. Rizo gülərək:

-Sən oxu, sənə oxumaq vacibdi. Mənim artıq işim var, Qərib deyir ki, elə şeylər var ki, onu oxumaqla deyil, işləməklə öyrənmək olur. Bizim işimiz tam başqadır.

Lili:

-Məncə, sən də oxumalısan. İş hər zaman var. Oxumaq üçün sənə uzağa getməyə ehtiyac yoxdu ki... hər şəraitin də var. Tələbə olmaq istəmirsən?

Rizo başını bulayaraq:

-Düzünü deyim ki , yox...tələbə olmaq nəyi dəyişir ki? Əgər sən istəyirsənsə, mən də girərəm məktəbə, bu problem deyil... diploma nə var ee... hazırını da satırlar.

-Ona görə demirəm, necə istəyirsən, elə də elə. Sənin diplomun oldu, ya olmadı, nə fərqi var? Rizo olmağın bəsdir mənə...
Rizo onun  zarafatını tutaraq:
-Nədi, Rizo olmaq asandır, elə bilirsən?
-Yooo...Rizo olmaq kimin həddinədir?
Gülüşərək zarafatlaşırdılar.

Gülü isə qərarını çoxdan vermişdi. Rizo istəsə də, istəməsə də ali məktəbdə oxuyacaqdı. Nə olsun ki, şirkət var, şadlıq evi var, böyük super- marketi,dükanları var, necə ola bilər ki, Gülünün bircə oğlu ali məktəbi bitirməsin? Bir halda ki, gəlini ali məktəbə girəcək, Rizo da oxumalıdır! İndi sırada nişandır. Bircə, sağ-salamat bu nişan işini başa çatdırsın, sonra ali məktəb işi ilə məşğul olar. Son günlər Gülü Lilparı da dinc buraxmırdı. Nişanla əlaqədar alış- verişlər, paltarlar, bəzək əşyaları- hamısını Lilinin istəyi ilə  alırdı. Qız nə qədər təvazökarlıq etsə də, "hər şey sadə olsun" desə də, Gülü öz bildiyi ilə gedirdi. Təzə şadlıq sarayı Rizo ilə Lilinin nişanı ilə açılacaqdı. Odur ki, Gülü həm sarayın, həm də nişanın bütün təfərrüatını düşünməli,  təmtəraqlı, layiqli bir məclis qurmalı idi. Şadlıq evinin bir neçə böyük zalı var idi. Bu rayonda ən iri, təmtəraqlı bina idi. Bu sarayı işlətmək, nəzarətdə saxlamaq  çətin bir məsələ idi. Qəribin oraya baş çəkməyə vaxtı belə yox idi, Gülünün işi başından

aşırdı. Odur ki, sarayı işlətməyi qudalarına həvalə etdilər. Şadlıq evində işləmək üçün xeyli adam lazım idi, tanıdıqları, güvəndikləri insanlar olmalı idi. Bütün bunları qudaları həll edəcəkdilər. Nərminlə Əkbərdən başqa Gülünün inanacaq başqa adamı yox idi.

Nəhayət ki, həmin gün gəlib çatdı!

Son zəng günü!

Rizo çox həyəcanlı idi. Bütün günü ora- bura qaçmaqdan özünə baxmağa macal tapa bilməmişdi. İş çox idi. Gecəyarısı Liligildən gələndə Gülü ilə Qərib onu gözləyirdi. Yaxşı ki, Gülü onun kostyumunu, köynəklərini ütüləyib hazırlamışdı. Qərib sabahkı tədbirlərin vaxtını təzədən Rizoya xatırladırdı.

Məktəbdə “son zəng” tədbiri günortaya qədər davam edəcəkdi. Rəsmi hissədən sonra məktəbin müəllimləri və məzunlar gəzintiyə gedəcəkdilər. Saat 5 də isə hamı şadlıq sarayında olmalı idi. Gülü Rizonun bütün dostlarını, sinif yoldaşlarını, müəllimləri, məhəllədəki adamları dəvət etmişdi. Qız tərəfin elə də çox qohum-əqrabası yox idi. Gülü xonçaları qırmızı lentlə bağlayıb hazır etmişdi. Şirniyyat ustalarına növbənöv şəkərburalar, paxlavalar, tortlar bişirtdirib xonçalara yığdırmışdı. Çiçəklər isə səhər təzə-tər gətiriləcəkdi. Nişanın bütün tərtibatını Rail hazırlamışdı. Şəhərin ən yaxşı fotoqrafları dəvət olunmuşdu. Çəkilişlər üçün hər şey hazırlanmışdı. Rail,

hətta, onların geyimlərinin dizaynını da vermişdi. Bir neçə dəfə Gülüyə, Rizo və Liliyə nişanın ssenarisini başa salmışdı.

Gülü Rizoya son tapşırıqlarını verib hamama saldı. Bir az uzanıb yorğunluğunu almaq istəyirdi. Onsuz da gözünə yuxu getməyəcəkdi.

Səhər tezdən çay süfrəsini hazır edib Rizonu oyatdı. Rizo yuyunana qədər özü də geyinib-keçindi. Qərib tələsik geyinib otağından çıxan Rizoya:

-Gəl, çay iç, bir-iki tikə ye, tələsmə.

Rizo saçlarını arxaya daraya-daraya:

-Kostyumumu Liligilə aparmalıyam, ordan geyinib bir gələcəyik saraya, evə gəlməyə vaxt olmayacaq.

Qərib:

-Otur, apararsan. Çayını iç. Biz də indi ananla çıxacağıq. Məktəbdən evə gəlib gedəcəyik saraya, sizi orda gözləyəcəyik.

Rizo:

-Hə, onu deyəcəkdim axı... sən maşınını günorta verə bilərsən mənə?

Qərib:

-Yox, verə bilmərəm.

Rizo alınmış kimi oldu. Təəccüblə Qəribə baxdı:ilk dəfə idi Qərib ona belə soyuq cavab verirdi, xahişindən imtina

edirdi. Özü də belə bir gündə! Belə bir gündə Qəribin bu davranışı  ağlasığan deyildi!
Rizo incik tövrlə:
-Onda biz taksi ilə gələrik.
İçəridən çıxan Gülü gülə-gülə:
-Sən öz maşınında gələrsən.
Rizo təəccüblə:
-Öz maşınımda?Mənim maşınım yoxdu axı.
Qərib:
-Yox idi, indi var. Cibindən açarı çıxarıb stolun üstünə qoydu. Rizo çaşqınlıqla bir açara, bir də Qəribə baxdı.
Qərib:
-Götür...götür ...sənindir. Maşın küçədədir, get bax.
Rizo üzü təbəssümdən işıq saçan Gülüyə baxaraq, Qəribdən soruşdu:
-Zarafat edirsiz?
Qərib müəmmalı tərzdə gülümsünərək bir söz demədi.
Rizo açarı stolun üstündən götürərək, aşağı cumdu. Gecə evə gələndə  küçədə maşın yox idi.
Həyətdən çıxıb darvazadan küçəyə baxdı. Heyrətdən donub qaldı.
Küçədə Qəribin maşınının yanında bir gümüşü “Mersedes” dayanmışdı. Rizo yaxına gəlib əli ilə maşını yoxladı. Sanki onun gerçək olub-olmadığını bilmək istəyirdi. Onun ardınca düşüb gələn Qəriblə Gülü Rizoya baxıb gülürdülər.

Gülü sevinclə, gümrah səslə:
-Çox mübarəkdir, oğlum! Sağ-salamat sür!
Qərib yaxına gələrək, əlini onun çiyninə qoydu:
-Çox mübarək! Sağlıqla sür! Bu - bizim sənə nişan hədiyyəmiz.
Rizo onu qucaqlayaraq:
-Çox sağ olun! Gözümə inanmıram! Özü də mən istədiyimdən. Çox sağ ol, Qərib.
Gülü də onu qucaqlayıb üzündən öpdü:
-Özün bilirsən, mən qorxağam, istəmirdim, amma Qərib aldı. Maşınsız da olmur, nə edim? Ehtiyatla sür, mama qurban. Dayan bir, aşağı əyil, maşallah, daha əlim də çatmır boyuna, bu da mamanın hədiyyəsidir.
Rizo Gülünün əlindəki qızıl zəncirə baxaraq, qollarını yana açdı:
-Oooo...Gülü xanım, bu nə dəm-dəsgah? Bu qədər xərclə lap xəcalətli elədiz məni. Gülü kənarları brilyant qaşlarla haşiyələnmiş "Quran" medalyonu onun boynuna bağlayaraq:
-Allah bu günü də mənə göstərdi. Məktəbi bitirdin, nişanındı...gözəl, ağıllı gəlinim var, Allah sizi qorusun. Allah başacan versin.
Rizo Gülüyə sarılaraq:
-Anaların gözəli anam! Sənsiz bizim bir günümüz, bir anımız olmasın. Hər zaman var ol, yanımda ol!

Gülü oğlunun o üzündən – bu üzündən öpdü. Gözünün yaşını əli ilə silərək:
-Di, sağ – salamat sür!
Rizo da dolmuş gözlərini gizlədərək, maşına sarı döndü. Maşının gah arxasına, gah qabağına keçib baxdı, əli ilə sığalladı. Qapını açıb oturdu. İçinə göz gəzdirdi, sonra işə saldı.
Qəriblə Gülüyə əl edərək küçəyə sürdü. Onun dalınca baxan Gülü:
-Liliyə göstərməyə getdi. Allahım, sən özün balamı qoru. Amanında saxla!
Qərib :
-Gəl daha... tez çıxaq, işimiz çoxdu.

***

Lilpar

Dünyanın gözəllikləri nə uca dağlarında, nə axan sularında, nə açan çiçəklərində deyil. Nə möhtəşəm malikanələr, nə qiymətli hədiyyələr, nə zinətli saraylar insan qəlbinin bir sızıltısını, bir titrəyişini, bir doğumunu əvəz etməyə qadir deyil. Dünyanın gözəlliyi duyğularda və sevgilərdədir. Bir-birini sevən iki insanın gözlərindəki işıq günəşi əks etdirir, bir-birinə dartınan iki insanın cazibəsi kainatın gücünü ifadə edir. Lilpar bir eşq mücəssəməsi idi. Dupduru, saf, bütün riyalardan uzaq, bütün pisliklərdən xəbərsiz, düşüncələrində, hisslərində

Rizo ilə başlayıb –bitən sevgi idi- Lilpar. Səhərləri Rizo ilə başlayırdı, yuxuları Rizo ilə qapanırdı. Bütün bunların nə qədər böyük bir xoşbəxtlik olduğunu anlamadan, varlığını bürüyən  eşqi dərk etmədən sevirdi Lilpar. Taleyin ona bəxş etdiyi anadangəlmə instinqlərlə təslim olaraq, ahənglə -  üsyansız, fırtınasız, sarsıntısız sevirdi Lilpar. Rizo onun həyatının xoş, sevincli  melodiyası idi. Onun gənc qəlbində şaqraq xəyallar, qanadlı arzular dalğalanırdı. Bu güclü dalğalar onu və Rizonu götürüb naməlum yerlərə, uzaq, əlçatmaz sonsuzluğa aparırdı. Lilpar həyatı sorğulamadan, hər günün canlı lövhələrini yaşayırdı. O var idi, Rizo var idi, ikisi bir nəfəs idi. İkisi bir tam idi, ikisi bir yerdə sevgi idi. Ətrafına çəkilmiş sevgi və qayğı hasarından o biri tərəfindəki dünyadan xəbərsiz idi Lilpar. Uzanan səssizliklər, üzücü ayrılıqlar, yolsuz,  çıxışsız döngələr onun təsəvvürlərindən çox kənarda idi. Nəfəssiz yürüyəcəyi  zamanlarda bu anların xatirəsinə sığınaraq  dayanacaqdı Lilpar. İndi yanan sevgi işığı onun bütün ömrünə düşəcək qədər aydın və parlaq idi. Bu həyatda nə olur-olsun, sevgisinin heç zaman tükənməyəcəyinə, sonsuzluğa qədər əminliklə sevirdi Lilpar...Rizo onun qəlbinə də , ruhuna da hakim idi...və bu, hər zaman belə olacaq idi...

“Vağzalı” çalınanda Rizo ilə Lilpar qol-qola zala daxil oldular. Qara kostyumda, kəpənəkli ağ köynəkdə Rizo çox

yaraşıqlı idi. Sevdiyi futbolçular kimi saxladığı uzun saçları çiyninə qədər tökülmüşdü. Lili zərif, qolları və sinəsi açıq, gümüşü işləməli mavi rəngli uzun libasda daha da incə görünürdü. Burulmuş xurmayı saçları çiynindən belinə qədər tökülmüşdü. Ağ bənizi həyəcandan qızarmış, dodaqlarında təbəssüm şölələnirdi. Gözlərindəki xoşbəxtliyin işığı ətrafa nur kimi saçılırdı. Alqış sədaları altında onları ilk qarşılayıb dövrəyə alan Rizonun futbol komandasındakı dostları oldu. Bu, gənc oğlanların çoxu Rizonun uşaqlıq dostları, futbol məsləkdaşları idilər. Nə olur-olsun, heç bir şey Rizonun futbola olan ehtiraslı sevgisini azalda bilməzdi. Onlar xüsusi olaraq Rizo üçün hazırlanmış simvolik futbol topunu Rizoya hədiyyə verərək, dövrə vurub rəqs etməyə başladılar. Rizo parlaq, üstü yazılı topu yuxarı qaldırıb hamıya göstərib stolun üstünə qoydu. Təbriklər, rəqslər davam edir, dostlar, qohumlar- hər kəs sevinclərini, arzularını bəyan edirdi. Gülü bu tünlükdə hər kəsə diqqət göstərməyə çalışırdı. Qərib qonaqlarla görüşür, hər şeyə nəzarət edir, arada göstərişlər verirdi. Hər zaman Qəribə qarşı çox diqqətli olan Gülü onun halında bir dəyişiklik sezdi. Şad görünməyinə baxmayaraq, Gülü onu gözlərində bir gərginlik, bir kədər hiss etdi. Bəzən olurdu, Qərib özünə qapanır, dərinliyə çəkilirdi. Onu belə vəziyyətlərdən ən çox Rizo çəkib çıxarırdı. Gülü hiss edirdi, Qərib

gerçəkdən Rizonu çox istəyirdi. İndi ona baxarkən Gülünün ürəyindən keçdi ki, bəlkə, bu kövrək anlarda Qərib Rizonun doğma övladı olmadığı üçün dalğınlaşdı. Biruzə verməsə də, Gülü Qəribin içindəki kədəri hiss edirdi. Rizo onu nə qədər sevsə də, onun ən yaxın dostu olsa da, oğlu deyildi. Gülü bir az özünü itirən kimi oldu.Sanki ağlına gələn bu qəfləti fikirdən içi titrədi. Gözü Qəribin gözünə dikilib qaldı. Qərib ona diqqətlə baxaraq:

-Nə olub?

Gülü özünə gələrək :

-Heç nəəə. Yaxşıdır hər şey...Allaha çox şükür...

Qərib:

-Mən bir çölə dəyim. Səs düşdü başıma.

Gülü onun arxasınca baxa-baxa düşündü ki, yorulub yəqin, neçə gündür dincəlmədən ora-bura qaçır. Mənim də ağlıma qara – qura fikirlər gəlir elə. Qalxıb qonşularına yanaşdı:

-Qalxın oynamağa, nəyi gözləyirsiz? Belə getsə, bizə növbə çatmayacaq, durun, durun...

***

Hər şey Gülünün ürəyincə oldu: üzüklər taxıldı, şirnilər paylanıldı, dualar oxundu, təbriklər, arzular söylənildi. Bəlkə də, həyatında ilk dəfə olaraq, Gülü xoşbəxtlikdən doya-doya gülümsündü, dərindən köksünü ötürüb, rahat nəfəs aldı. Bir neçə il qabaq belə təmtəraq Gülünün ağlına

belə gəlməzdi. Onun arzuları da, təsəvvürləri kimi sadə, dar və məhdud idi. Oğlunu böyüdüb xoşbəxt görmək onun ən böyük arzusu idi. İndi budur, nağıl kimi bu gecənin qəhrəmanı onun oğludur, onun Rizosudur, yanındakı mələk kimi bu qız da onun can yoldaşıdır. Gecəyarısına qədər davam edən nişan mərasimindən sonra dəvətlilər dağıldı, Rizogilin sinif uşaqları son zəngin davamını səhərə qədər şənlənmək üçün Rizonun evinə yığışdılar. Gənclərin məclisi burada davam edəcəkdi. Qərib bütün günü o qədər yorulmuşdu ki, evə gələn kimi, otağa çəkilib uzandı. Gülü divanda uzanıb olanları xatırlayır, bu gözəl günün ləzzətini çıxarırdı. Xoşbəxtliyindən qorxmuş kimi, fikrə gedir, təşvişlə Allaha dua edirdi. Son zamanlar onun içində bir xof yaranmışdı, tez-tez diksinir, nəyi isə itirəcəkmiş kimi, həyəcanlanırdı. Sonra özü-özünə toxdaqlıq verir, içindəki narahatlığı uzaqlaşdırırdı. Şişmiş ayaqlarını ovxalaya-ovxalaya küçədən gələn səslərə qulaq kəsildi. Yorğunluq ona güc gəldi, gözləri biixtiyar qapanaraq onu dərin bir aləmə çəkib apardı...Qəribi uzaqdan görürdü. Qara – boz daşların üstü ilə yuxarı qalxırdı. Ətraf da tutqun idi, heç bir yerdən işıq gəlmirdi. Gülü uğuldayan qulaqlarını əlləri ilə qapayaraq, Qəribin dalınca gedir, ona çatmaq istəyirdi. Nəfəsi təngidiyindən səsi çıxmırdı. Q, Qəribi çağırmaq istədikcə, nəfəsi daha çox təntiyirdi. Zorla Qəribin dalınca qayalığa çıxırdı.

Qayalıqların arasında kaha kimi bir yer gördü. Heç kim yox idi. Vahimə içində yavaş- yavaş içəri girdi. Qaranlıq, işıqsız kahada Rizonu görüncə ürəkləndi, ona tərəf addımladı. Rizo ağ köynəkdə, dağınıq saçları çiyninə tökülmüş halda ortalıqda dayanmışdı. Gülünü görcək, açıq rəngli gözləri alacalandı, əlindəki parlaq futbol topunu ona sarı uzatdı. Gülü də gözlərini topa zillədi, bu zaman Rizonun əlindəki top yerə düşdü. Gülü yerdə Rizonun kəsilmiş, qanı axan başını gördü. Rizo da dəhşətlə öz başına baxırdı. Lili kənarda divara qısılıb bürüşmüşdü. Gülüyə ağlamsına-ağlamsına, baxaraq günahkarcasına:

-Nə qədər dedim, sözümə baxmadı.

Gülü dəhşətdən qışqırmaq istədi, səsi çıxmadı. Gülü çırpınaraq xırıldayırdı. Əl-qolunu atır, çabalayırdı. Qərib onun çiynindən tutaraq silkələyir, oyatmağa çalışırdı:

-Aç gözünü...Gülü, Gülü...Oyansana...

Nəhayət, Gülü diksinib hövlank halda, gözünü açdı. Harda olduğunu anlamadan qışqırdı. Qərib:

-Bismillah...bismillah... yuxu görürdün, qorxma, özünə gəl.

Gülü böyümüş, hədəqəsindən çıxmış gözləri ilə ona baxaraq, əlini tövşüyən sinəsinin üstünə qoydu.

Qərib mətbəxə gedib stəkanda su gətirdi. Ona uzadaraq qayğı ilə:

-İç, özünə gəl, toxta bir az...yuxu görürdün?

Gülü sudan bir neçə qurtum alaraq:
-Bu nəydi, Ay Allah! Ürəyim partlamışdı. Hanı Rizo?
Qərib stəkanı ondan alaraq:
-Gəlməyib ki, hələ.
Gülü yerindən qalxaraq:
-Gedim baxım, bu vaxtacan neyləyirlər?
Qərib:
-Evdədirlər də, niyə narahat olursan?
Gülü canfəşanlıqla:
-Yox, gedim baxım mən. Çox pis yuxu gördüm. Allah özü xeyir eləsin!
Qərib:
-Allah xeyrə calasın, yorğunsan, ona görə qarışıq yuxular görürsən. Sən uzan, mən baxıb gəlirəm. Cavandılar də, son zəngi səhərəcən bir yerdə olmaq istəyirlər.
Qərib qapıdan çıxdı, Gülü yenidən uzansa da, nigançılığı keçmədi. Narahat halda, Qəribin qayltmasını gözlədi. Ev yaxın idi, Qərib bir neçə dəqiqəyə qayıtdı. İçəri girmədən, həyətin ğözətçisi Balabəydən vəziyyəti soruşdu.
Baləbəy uşaq kimi ayağının birini götürüb, o birini qoyaraq:
-Məəlim, hər şey qaydasındadı.
Qərib pəncərədən baxaraq, sakitliyə əmin olduqdan sonra evə qayıtdı. Gülüyə:

-Onlar kefdədi...sən boş yerə üzülürsən. Rahat yat, dincəl bir az. Balabəyə tapşırdım, bir səs olsa, xəbər verəcək mənə.
Gülü hələ də ötüb keçməyən həyəcanla:
-Bu, nə yuxu idi, ay Allah!

***

Nişanın təəssüratı dağılıb getməmiş qəbul imtahanlarının vaxtı gəlib çatdı. Gözlənildiyi kimi, Lili yüksək bal toplayaq tibb unuversitetinin müalicə - profilaktika fakültəsinə qəbul olundu. Hər kəsdən çox Rizo sevinirdi buna, çünki həkim olmaq Lilinin ən böyük arzusu idi və Rizo da çox istəyirdi ki, Lili arzusuna çatsın. Əgər Gülünün inadı olmasa idi, Rizo heç ali məktəbə sənəd də verməyəcəkdi. Qərib də bu məsələyə laqeyd yanaşırdı." Rizonun böyük bir şirkəti var, onu işlətməyi öyrənsin, ən vacib olan budur."-deyə , münasibətini bildirərək kənarda qalaraq, Rizoya heç bir təzyiq göstərmirdi. Rizo işdə onun yanında idi, çox fərasətli gənc olduğundan hər şeyi Qəribdən öyrənirdi. Gülü isə bütün bacarığını və əlaqələrini işə salaraq Rizonu biznes universitetinin qiyabi fakültəsinə düzəltdi. Onun öz düşüncəsi var idi, necə ola bilər ki, onun bicə oğlu heç bir məktəb bitirməmiş olsun? Nişanlısı ali məktəb tələbəsi olduğu halda, Rizo ali savadsız qalsın? Bu fikri Gülü heç cürə qəbul edə bilməzdi. Anasının xətri xoş olsun deyə,

bir söz demirdi, hər şeyi zarafata salıb gülürdü. Hər səhər Lilini universitetə aparandan sonra şirkətə gedirdi. Lili dərsdən özü qayıdırdı və axşamlar görüşür, gecədən xeli keçənə qədər söhbətləşirdilər. Gülüdən olsa idi, onların toyunu da edərdi. Amma payızda Rizonun əsgərlik yaşı çatırdı. Bu məsələdə Gülünün öz məntiqi var idi. Hələ Rizo körpə olarkən, Gülünün gözünün qabağına onu əsgər olması gəlirdi. Gülü həsrətlə onun böyüməsini gözləyirdi. “Oğlum böyüsün, əsgər gedən günü qurban kəsəcəm “- deyə arzu tutmuşdu. Əsgərlik çəkməmək üçün saxta sənədlər düzəldənlərə Gülü nifrət edirdi. Elə məsələlər var idi ki, Gülü bu yöndə heç güzəştə getməzdi. Rizo üçün hərbi xidmətə çağırış gələrkən , Gülü fəxrlə, sinəsi fərəhdən genələ - genələ, bunu hamıya xəbər verdi. Rizo da sevinirdi əsgər getməyinə. O, həyatının gözlədiyi bu mərhələsini yaşamağa tələsirdi. Onun təsəvvürü belə idi: ”Kişi əsgər gedər də!” Təkcə Lili sarıdan narahat idi. Çox darıxacaqdı. Necə dözəcəkdi bu ayrılığa? Doğrudur, telefon var, skupe var, orda danışacaqdılar, amma bu- Rizo üçün heç nə ifadə etmirdi. Lili:

-Necə qalacam mən sənsiz? İndidən darıxdım.

Rizo onu sinəsinə sıxaraq:

-Hər gün danışacam. Sən ismarış yazarsan, imkan tapan kimi oxuyacam.

-Mamayla gələcəm yanına.

-Yox, gəlməyin. Ona da deyəcəm, gəlməsin. Lili gülərək:
-Ay - hay... mamanı kim saxlaya bilər? Gedəcək o, nə qədər desən də...mən də gələcəm. Qala bilmərəm sənsiz, ürəyim partlayar.
Rizo Lilinin üzünü ovuclarının içinə alaraq, dolmuş gözlərinə baxdı. Bir söz demədən üzünü qızın üzünə yaxınlaşdı. Lili çəkilmədi, gözlərini Rizonun gözlərinə zillədi. Rizo ilk dəfə Lilini dodaqlarından öpdü. Qız utandığından və həyəcandan titrəyərək üzünü Rizonun sinəsində gizlədi.
Rizo gözlərini yumaraq gülümsündü.

***

Rizo əskər gedəndən sonra Gülünün də əskər həyatı başlandı. Karantin müddəti keçəndən sonra Gülü hər həftəbaşı ya Qərib ilə, ya da Qəribin sürücüsü ilə Rizonu görməyə gedirdi. Rizonun yeri çox yaxşı idi. Sərhəd qoşunlarında xidmət edirdi. Mülayim və mehriban xarakteri olduğundan hər kəslə yaxşı yola gedirdi. Komandirləri də ondan razı idi. Bir az keçəndən donra ona çavuş rütbəsi də verildi. Rizo da imkan tapan kimi zəng edirdi. Gecələr Lili ilə danışırdı. Çətinlik –filan Rizonun vecinə də deyildi, hərbi məşqlər zamanı ən ağır hərəkətləri Rizo asanlıqla yerinə yetirirdi. İdmanla məşğul olmağı indi onun köməyinə daha çox yarayırdı. Təkcə, sevimli

saçlarından ayrılmaq Rizoya ağır gəlirdi. Hər gün qırxılmış başının şəkillərini Liliyə yollayırdı. Arada bir neçə dəfə Gülü Lilparı da özü ilə aparmışdı. Rizodan çox Lili darıxırdı. Gülü hər gün onu yoluxmağa gedirdi. Lilinin günləri, saatları saymağı Gülünü çox kövrəldirdi. Payız , qış gəlib keçmişdi. İl tamamında Rizo 10 günlük məzuniyyətə gəlib-qayıtmışdı. Artıq qulluğunun bitməsinə aylar qalırdı . Payızda birdəfəlik dönəcəkdi. Bu təsəlli ilə Lili özünə toxtaqlıq verirdi. Rizonun yoxluğunu yalnız dərsləri ilə doldururdu. Universitetdə də “əla” qiymətlərlə oxuyurdu.

Axşamüstü idi. Gülü mətbəxdə xörək bişirməklə məşğul idi. Ət çəkib qovurmişdu. Ədəva qatılmış qiyməni tərəvəzlərin içinə doldurub say-say tavaya səliqə ilə yığırdı. Qəribin badımcan- bibər dolmasından xoşu gəlirdi. Qəribə sevdiyi yeməkləri hazırlamaq Gülünün ən sevdiyi iş idi. Nə qədər çox işi olur-olsun, Qəribib yeməkləri həmişə qaydasında olmalı idi. Telefonu zəng çaldı. Gülü əlini saxlayıb telefonu açdı. Lilinin anası Nərmin idi. O, salamlaşıb-hal- əhval tutandan sonra, Lilini soruşdu. Lili bəzən Gülünün yanına gəlir, saatlarla oturur, söhbət edirdilər.

Sakit tonla danışsa da,Gülü Nərminin səsindəki gərginliyi və narahatlığı hiss etdi:

-Yox, bizdə deyil. Bugün heç danışmamışıq. Elə fikrimdə vardı ki, yemək bişirim, sonra sizə gəlim. Evə gəlməyib?
-Yox, bu vaxta qalmazdı axı, bayaqdan səbrimi basıram ki, narahat eləməyim, amma telefonu qapalıdır. O heç zaman telefonunu bağlı saxlamır.
-Hara gedər , balam, gedəsi bir yeri yoxdu axı...kitabxanaya gedəndə də zəng edir.
Yoldaşlarından nömrəsi olan var səndə?
-Bir Ramilənin var. Ona zəng etdim. Deyir, dərsdən çıxandan sonra, o ayrı klinakaya gedir təcrübəyə, Lili ayrı. Bilmir o da...
Gülü:
-Gözlə, gəlirəm indi.
Gülü qazanın altını söndürüb, qapını bağlayaraq çıxdı. Həyətdə Qəribə zəng edərək, Lilinin dərsdən evə dönmədiyini bildirdi.
Qərib onu dinəyib, bir azdan gələcəyini söyləyərək telefonunu qapatdı.
Hamısı aynəbənddə narahat halda oturub, telefonla danışan Qəribə baxırdılar. Qərib universitetin rektoruna, dekanına, kimin nömrəsini öyrənə bilirdisə, ona zəng edirdi. Axırda klininkada onunla bir yerdə olmuş tələbələrdən birinin nömrəsini tapa bildi. O da Lilparın klinikada olduğunu təsdiq etdi, dərs bitəndən sonra onu

görmədiyini bildirdi. Qərib danışığını bitirəndən sonra gözlərini ona dikmiş Gülüyə:

-Səhəri gözləyək. Başqa əlacımız yoxdu. Tezdən gedərəm universitetə, onunla bir yerdə olmuş tələbələrlə danışaram. Kimsə görməmiş deyil,onun oradan çıxdığını.

Gülü:

-Bəlkə, başına bir şey gəlib, dilim-ağzım qurusun. Xəstəxanalara zəng vuraq.

Qərib:

--Xəstəxanaya düşsə, zəng edərdilər,telefonunda nömrələr var.Tutaq ki, özü danışa bilmir, həkimlər bir yol tapardı.

Gülü:

-O zaman polisə gedək. Nə bilim bir şey edək, elə- belə oturmaqla olmaz ki...

Hava tamam qaralmışdı. Lilparın başına bir iş gəldiyi artıq şübhəsiz idi. Nərmin səssizcə gözünün yaşını silirdi. Əkbər dinməzcə Qəribə baxırdı. Nə fikirləşdisə üzünü Nərminə sarı tutaraq:

-Son zamanlarda sənə bir söz deyirdimi? Nə bilim, bəlkə, onu narahat edən –filan ola bilərdimi?

Nərmin təəccüblə:

-Yox... elə bir müəmmalı şey hiss eləməmişəm. Hər zaman olduğu kimi, dərsdən gəlirdi, kitab oxuyurdu. Bir də Rizo ilə danışırdı, ya da mesajlaşırdı.

Gülü:

-Nə olacaq idi ki? Bir şey olsa idi, deyərdi mənə. Burda nə isə bir iş var. Bilir ki, narahatıq, imkan olsaydı, nə yolla olur –olsun bir xəbər verərdi. Deməк, bu imkanı yoxdur, Qərib, polisə getmək lazımdır, nə qədər gec deyil.
Qərib susub fikrə getmişdi. Birdən ayılaraq:
-Yox, polisi qatmaq lazım deyil. Onsuz da onlar heç nə eləmirlər. Səhərədək bir xəbər çıxmasa gedərik.
Bu zaman Gülünün telefonuna zəng gəldi, diksinərək tələsik telefonu götürü baxdı:
-Vaxseyy, Rizodur, nə deyim indi mən ona, yəqin, Liliniyə zəng getməyib.
Hamısı təlaşla bir- birinə baxdı.Qərib astadan:
-Aç, şübhələndirmə. Lilini soruşsa, de, yatıb yəqin, eşitmir, bir şey de...
Gülü özünü toplayaraq gözü Qəribdə ola-ola:
-Hə Rizo... yaxşıyıq, sən necəsən? Hə, salamatlıqdı, hər şey yaxşıdı. Lili? Götürmür? Nə bilim vallah. Yəqin yatıb-eləyib, nə bilim, hamamda –zadda olar. Yaxşıdırlar. Bayaq görmüşəm Nərmini, bir azdan gedəcəm onlara. Hə, sonra zəng edərsən. Yaxşıdı, çox sağ ol, mama qurban. Özündən muğayat ol. Zəngləşərik. Yaxşı, deyərəm, açar telefonunu.
Gülü telefonu söndürüb Nərminə tərəf:

-Deyir, Liliyə zəng vururam açmır. Bir azdan yenə zəng edəcək. Nə deyəcəm mən ona , ay Allah? Başımıza gələn işə bax sən!
Qərib yerindən qalxıb:
-Mən getməliyəm indi, vacib işim var. Sən qal burda. Bir xəbər olsa, zəng edin.
Əkbər Qəribi ötürmək üçün çıxdı.
Gülü saata baxaraq:
-Evi yıxılan canım, on ikiyə işləyir, nə oldu bu uşağa?
Nərmin dəsmalı üzünə sıxaraq hönkürdü.

***

Səhərə qədər üçü də oturdu. Nərmin durub çay hazırladı, nə qədər israr etsə də, Gülü otağa keçib bir hovur uzanmadı.
-Ay Allah, səhərə qədər bizə səbr ver, bircə səhər açılsaydı, gedərdik klinikaya, biz gərək gözləməyəydik, axşamdan gedəydik ora.
Qərib arada bir dəfə gəlib dəydi, sonra harasa getdi. Gülü Qəribin dilxor olduğunu hiss edirdi. Qərib çox təmkinli və səbrli adam idi, hələm- hələm əsəbiləşməzdi. Indi onun bir yerdə qərar tuta bilməməsi Gülünü də qorxuya salırdı. Nə səhər, nə də günorta Lilidən bir səs-soraq çıxmadı. Sanki, yer yarılmışdı, qız yoxa çıxmışdı. Tələbə yoldaşları Lilinin hər zamankı kimi avtobusa mindiyini görmüşdülər. Avtobus sürücüsü qızın şəklinə

baxıb tanıdı. Onunla əlaqədar bir şey görmədiyini söylədi. Əgər Lili avtobusa minmişdisə, yarı yolda niyə düşsün ki, demək , evin yanındakı dayanacağa qədər gəlib. Nə olubsa, burda- məhəllədə olub.Universitetdə tələbələrin hamısı dekanlıqda sorğuya çəkildi. Qəriblə Əkbər piyada məhəllədə, küçədə o baş-bu baş düzülmüş bütün dükanlardan, köşkdə alver edənlərdən Lilparı soruşdular. Burada hamı Lilparı tanıyırdı, Rizonun nişanlısı, Gülünün gəlini olduğunu bilirdilər. Heç bir izin tapılmaması onu göstərurdi ki, bu qaçırılma diqqətlə hazırlanıb, heç bir iz, şahid buraxmadan qız oğurlanıb. Ən pisi bu hadisəni daha Rizodan gizləmək olmurdu. Gecədən bəri israrla Lilinin niyə telefona cavab vermədiyini, harada olduğunu soruşurdu. Axırı Qərib vaxt qazanmaq üçün yalan danışmağa məcbur oldu. Lilinin boğazının şişdiyini, əməliyyata alındığını söylədi. Telefona buna görə cavab verə bilmədiyi dedi:

-Hamımız burdayıq, sən narahat olma, danışmağa başlayan kimi, ilk səninlə danışacaq.

Rizonun Qəribə inanmaqdan savayı bir çarəsi qalmadı. Bütün bunlar ona çox şübhəli gəlsə də, razılaşdı:

-Yaxşı, ayılan kimi mənə zəng edin.

Gündüzə bəslənilən ümidlər puç oldu, heç nə öyrənə bilmədilər. Onların üstünə gələn vahiməli gecəni birtəhər ötürmək üçün Gülü yenə də Nərmingildə qaldı. Necə olsa,

bir yerdə olmaq onlara güc, təsəlli verirdi. Gülü evinə getmədi ki, onsuz da başım evə sığmır. Axşamüstündən bəri Qərib də yoxa çıxmışdı. Neçə dəfə cəhd eləsə də, Gülü Qəriblə danışa bilməmişdi. Bu da bir yandan Gülünü darıxdırırdı. Naəlac qalıb Atabəyın telefonuna zəng elədi. Atabəy təmkinlə:

-Bir az məşğuldu, Gülü bacı, narahat qalma, işini bitirib gələr. Yaxşı, zəng elədiyini deyərəm.

Gülü artıq narahat olmağa başlamışdı, Qəribin səssiz-səmirszi yox olmalarının altında Lili olmasın? Bəlkə, Qərib nə isə gizlədir? Lili tələbədir, nişanlı qızdır, ağlı başında uşaqdır, kimin onunla nə işi ola bilər axı? Başqa yerdən istəyəni-zadı da yoxdu, qisas almaq istəyə və yaxud götürüb qaça. Belə bir şey olsa idi, gündüz qızların danışığından nə isə tutardı. Rizo da elə uşaq deyil ki, düşməni olsun, acığa düşüb nişanlısını qaçırsınlar. Əgər belə bir şeyin olmasının ehtimalı olsa belə, heç kim Qəribin qorxusundan ona yaxın gələ bilməz. Qıza zərər toxundurmaq istəyən kimlərdisə, Qəriblə əlaqədardır. Dünən Qərib onlardan ayrılmırdı, yanlarını kəsdirib durmuşdu. Bu gün gündüz gələn zəngdən sonra Qərib getdi və daha dönmədi. Deməк, onlardan gizlədiyi bir məsələ var. Kimlərdisə, onların işi Qəriblədir. Gəlini oğurlamaqla Qəribi qorxutmaq istəyirlər. Gülü öz şübhələri , mülahizələri haqqında Nərmingilə heç bir söz

demədi. Bircə, Qəribi görsəydi! Hər dəfə Rizodan zəng gələndə Gülü nə edəcəyini bilmirdi. Səhərədək qızı tapmasalar, Rizonu heç kim orda saxlaya bilməyəcək. Qaçıb gələcək. Ay Allah, bircə bu bəladan salamat qurtarsaydılar!

Nərminin ağlamaqdan ürəyi də üzülmüşdü, Əkbər ayaq üstə ölüb qalmışdı. Yazıqlar başlarına gələn bu müsibəti çəkə bilmirdilər. Nə etsinlər, kimə desinlər, harda axtarsınlar? Bəlkə, elə, təsadüfən, bir axmağın rastına çıxıb? Nə çox ağlı başında olmayan narkoman, manyak...onlar nə bilir nişanlı qız nədir, namus nədir, tərbiyə nədir? Nərmin fikirləşdikcə, az qala, dəli olurdu. Allah betərindən qorusun, amanında saxlasın.

Gecənin bir yarısı Gülü qalxdı ki, bəs evə gedirəm. Ağlına gəldi ki, Nərminin, Əkbərin yanında olmağı Qəribi ondan uzaqlaşdırır. Bəlkə, deməyə bir sözü var, onların yanında Gülüyə də deyə bilmir. Əkbər onu küçədən ötürdü. Gülü zülmətə bürünmüş həyətin işıqlarını yandırdı, evə girib, paltarını dəyişdi. Mətbəxdəki tör-töküntünü yığışdırmağa başladı. Başını bir şeylə qarışdırmaq istəyirdi. Oturub gözləməkdən, gərginlikdən bədəni uyuşmuşdu. Özünə çay töküb divanda uzandı, Qəribi gözləməyə başladı. Düşündükcə qəlbi daralırdı. Bu Qərib hardadır belə?

Axırı səbr edə bilməyib Qəribi yığdı. Telefon qapalı idi.

-Nə etdiyindir, ay Qərib, bağrım çatladı...Deməzsənmi ki, evdəki öldü axı...

İçində özü ilə danışmaqdan da usandı. Naəlac qalıb başını divanın yasdığına qoydu.

-Səbr...ya Allah səbr ver!

Qəfil telefonu çaldı. Diksinib tələsik telefonu açdı.

Qərib idi:

-Gülü, darıxma. Çox vacib işim var. Salamatlıqdır, gələ bilmirəm. Neyniyir onlar?

-Mən evdəyəm. Heç nə, neyniyəcəklər. Qərib, nə olub axı?

-İşi bitirib gələcəm. Sən məni gözləmə, sağ ol.

Gülü ağzını açmaq istəyirdi ki, Qərib telefonu bağladı. Hansı işi? Səhərə az qalıb, bu nə deyir belə? Qızı tapıb yoxsa? Niyə Gülüyə heç nə demir? Fikirləşə-fikirləşə uzaqlara daldı. Yuxusuzluq, yorğunluq güc gəldi. Gülünü xəf apardı.

Telefonun səsinə diksinb gözünü açdı. Nərmin idi. Kal, xırıltılı səslə:

-Sabahın xeyir. Dayana bilmədim, dedim səndən bir soraq alım.

Gülü:

-Sabahın xeyir. Yox, vallah, bir xəbər olsa, uça-uça gəlmişdim. Qərib də yoxdur. Gecə gəlmədi. Gəlsin, görək neynirik, polisə deməkdən başqa bir çarə qalmadı.

-Nə bilim , elə bil, yer yarıldı, qız yerə batdı.
Gülü:
-İstəyirsən gəl bizə.
-Nə bilim, deyirəm, birdən evə bir xəbər gələr, evdə qalsam, yaxşıdı. Əkbər də tək qalmasın. Ürək dərmanı vermişəm. Xəstə adamdı, bir şey olar, yenə yanında olsam yaxşıdı.
-Yaxşı, bir səs-səmir çıxsa, zəng elə. Mən də Qəribi gözləyirəm.
-Ürəyim partlamağa qalır, bu gün də tapılmasa neyləyəcəyik?
-Elə demə, Allah kərimdir.
-Yaxşı, sağ ol.
Gülü telefonu qapayıb, fikrə getdi. Hava işıqlaşmışdı.Sanki əli-qolu bağlanmışdı. Ürəyi üzülsə də, durub bir tikə yeməyə amanı yox idi. Məcburən qalxıb çay qoydu, bəlkə, Qərib gəldi.

Bir azdan onun evdə olduğunu bilən qonşu qadınlar gəldi. Hər biri təsəlli,toxtaqlıq verməyi özünə borc bilsə də, bir söz deyə bilmirdilər, bu hadisədən heç kimin ağlı bir şey kəsmirdi. Qonşular əlləri qoyunlarında susub yerə baxırdılar. Nə desinlər? Xalxın bu boyda gəlini itkin düşüb, kim bilir, başına nələr gəlib...Allah uzaq eləsin.

Gülünün ürəyi sıxılırdı. Başqalarının bi çətinliyi olanda canıyananlıqla kömək edirdi hamıya, indi əli-qolu bağlı halda otumuşdu. Qəlbindən qopan fəryadla:
-Kaş gələn bəla mənə gəleydi, uşağım necə qaldıracaq bu dərdi? Tapılmasa, gedə özünü öldürəcək,. Şəksiz-şübhəsiz! Başıma nə boyda daş düşüb, heç kim bilə bilməz... deyirdim, elə...ürəyimə dammışdı, qorxurdum bir şey olacağından...
Arvadlardan biri:
-Səbr elə, ay Gülü,indidən şər-həşir qoparma, bilmək olmaz Allahın işini, bir də gördün, görünməzdən-bilinməzdən bir səs-səda çıxdı. Dua elə sən, dua elə ki, sağ-salamat olsun.
Başqa bir qadın:
-O körpənin nə günühı vardı, Allah mərdimazara lənət eləsin! Allah cavanlığına bağışlasın, Allah Rizoya qıymasın, öz böyüklüyü xatirinə.
Gülü dəsmalı üzünə sıxaraq, sinəsini döyəclədi.
-Allah mənim canımı alsın, ona bir şey olmasın. Balam bədbəxt olmasın. Nə bilim, hansı Allahsıza tuş gəldi. Məktəbə gedirdi-gəlirdi, ağlı –fikri başında uşaqdı, mələk kimi tərtəmiz, onun kimlə nə işi? Kitab əlindən düşmür, zorla yedizdirməsən, yemək yadına düşmür...nə bilim, çəkəcəyimiz varmış...
Yaşlı qadınlarda biri:

-Başa gələn çəkilir, ay Gülü, özünü üzmə, Allah aydınlığa çıxarsın tezliklə...sən də yazıqsan, ata-anası da yazıqdı...
Gülü:
-Əşşi, bizim üzümüz bərkdi, bizə heç nə olmaz, uşağa bir şey olmasın, yazıq olan odu...
Üzünü yanındakı gəlinə tutaraq:
-Kübra, sən bir mətbəxə keç, çaydan- zaddan rahla, vallah, mənim taqətim yoxdu.
Oturan qadınların etirazlarına baxmayaraq, Kübra və başqa bir gəlin çay hazırlamaq üçün mətbəxə keçdilər.
Qonşular Gülüyə bir kömək edə bilmədikləri üçün pərt idilər. Gülü elə bir adam idi ki, hamının dərdini, problemini özününkü kimi bilirdi. Kiminsə uşağı xəstələndə, həkimdən qabaq Gülünün üstünə qaçırdılar. İndi o əli-qolu bağlı çarəsiz halda susub otumuşdu. Hərdən sükütu pozaraq:
-Allaha pənah!-deyə dua edirdi.
Gəlinlər oturanların qarşısına kiçik mizi çəkib çay qoydular.
Gülü:
-Boğazım bağlanıb elə bil, tikə keçmir, elə çayla-suyla dalanıram. Çayınızı için,
Ordan-burdan danışa-danışa Gülünün başını qatmağa çalışırdılar. Telefon zəng çalanda hamı gözünü Gülüyə dikdi. Gülü telefonu götrüb açdı:

-Hə, Qərib...hay? Yox , evdəyəm. Nə?
Gülünün üzü elə bir ifadə aldı ki, hamı yerindən qalxdı. Gülü də yerindən yarı qalxmış halda:
-Bıy! Allaha çox şükür! Çox şükür! Həəə, yaxşı, gəlin!
Telefonu qapamadan:
-Deyir, qızı tapıblar, gətirir, Allaha şükürlər olsun. Mən Nərmini yığım.
Qadınlar tələsik çay süfrəsini yığışdırıb həyətə düşdülər. Gülü də Nərminə bu şad xəbəri deyib, gözaydınlığı verəndən sonra həyətə düşüb, qonşularla birlikdə qapının ağzında gözləməyə başladı.

Qapının ağzında xeyli adam toplaşmışdı. Hər kəs maraq içində idi, Lilini kim qaçırıbmış, niyə qaçırıbmış, hardan, necə tapıblar? Əvvəlki gərginliyin yerini indi maraq tutmuşdu. Qəribin maşını görünəndə hamı susdu. Maşın gəlib onların bərabərində, darvazanın qarşısında dayandı. Qəribin sürücüsü Fikrət cəld maşından düşdü, dal qapını açıb Qəribin yanında oturan Lilparın düşməyinə kömək elədi. Gülü irəliləyib maşından düşən Lilparı qucaqladı. Lilpar da Gülü də hönkürüb ağlamağa başladılar. Onları seyr edən qadınlar da kövrələrək gözlərinin yaşını saxlaya bilmədilər. Hər kəs gözaydınlığı verirdi. Qərib Lilinin qolundan tutaraq, Gülü ilə bərabər həyətə apardılar.

Adamlar:

-Gözünüz aydın!-deyərək onları müşayət edirdi. Pilləkənləri qalxıb evə girdilər. Gülü Lilparı divanda otuzdurdu.
-Qurban olaram, qorxma daha, keçdi...otur, otur...
Gülü maraqla Qəribə baxdı. Qərib başını bulayaraq:
-Tanımır adamları. Tapacağıq.
Gülü Lilparın yanında oturub onu qucaqladı.
-Qorxdunmu? Allah lənət eləsin onlara.
Lili başı ilə təsdiqləyərək ağladı.
Gülü Qəribə:
-Həkim çağıraq.
Qərib oturaraq:
-Lazım deyil. Keçib gedəcək. Bir az qorxub. Dincəlsin, iki gündür heç nə yeməyib. Duru yeməklər hazırlayın, yenə də həkim gətirərəm...
Lilpar Gülünün sinəsinə sığınaraq toxdadı.
Lili yavaş səslə:
-Bilmədim kim idilər. Dərsdən gəlirdim, evimizə dönədə qəfil maşından düşüb məni tutdular.
Gülü:
-Üzləri yadında qalmadı?
-Yox... onları görmədim heç. Bir otaqda saxlayırdılar. Bir arvad bir neçə dəfə, yemək-zad, su gətirdi.
Gülü:
-Bəs, nə deyirdilər, nə istəyirdilər?

-Bilmirəm. Mənə heç nə demədilər. Sonra Qərib əmi gəldi.
Gülü Qəribə baxdı.
Qərib:
-Tapılacaqlar, narahat olma.
Bu zaman Nərminlə Əkbər hövlank halda otağa girdilər. Nərmin özünü Lilinin üstünə atdı. Qızını qucaqlayıb ağladı:
-Canım ...gözəl qızım, Allah səni yenidən bizə bağışladı...
Əkbər onu sakitləşdirərək divanda otuzdurdu. Qızını qucaqlayıb yanında oturdu.
Gülü otaqdakılara göz gəzdirərək:
-Lili, qızım, qorxma, düzünü de, sənə dəyib eləyən oldumu? Qorxutdularmı ?
Lili gözünün yaşını silərək:
-Yox. O arvaddan başqa heç kimi görmədim. Bir də evimizin yanındakı kişiləri. Onlar da gözümü bağladı. Heç birini görmədim.
Qərib:
-Yaxşı tay, yormayın qızı. Dincəlsin. Mən çıxıram, axşam həkim gətirəcəm. Yatsa yaxşıdır.
Adamlar da tünlük olmasın, ev sahibləri dincəlsin deyə, dil-ağız edib çıxdılar.
Nərminlə Gülü Lilparı yedizdirdilər. Gülü qızı hamama salıb çimizdirdi. Bədənində bir iz olub-olmadığını yoxladı. Təmiz paltar geyindirib sakitləşdirici verdilər. Gülü:

-Bax, yat, quzum, heç nə fikirləşmə. Hər şey arxada qaldı. Qərib onları mütləq tapacaq, cəzalarını alacaqlar. Bir az yat, Rizo dəmbədəm zəng edir, sənin əməliyyat olunduğunu demişik, elə bilir xəstəxanadasan. Yat, axşam danışarsan.

Qapını örtüb çıxdılar. Nərmin Gülüdən işin əslini öyrənmək istədi.Gülü:

-Vallah, bilmirəm, ağlım heç nə kəsmir, belə düşünürəm ki, bizi qorxutmaq istəyiblər. Onların qızla nə işi? Qərib heç nə demir hələ.

Nərmin:

-Bəs harda olduğunu nədən biliblər, kim deyib?

-Bilmirəm. Qərib dünəndən yoxdur, indi də çıxıb getdi. Hər nəsə, uşaq tapıldı, əsas budur, gerisini həll edəcəklər.

Lilinin gəlişindən sonra sanki, Gülüyə güc gəldi, mətbəxə girib həvəslə:

-Gəl, şorba bişirək, acdır uşaq, özümüzün də qursağımız qurudu, yanında söhbət salma tez-tez, özünə gəlsin bir az.

Axşamüstü Qərib bir həkimlə gəldi. Hadisədən məlumatlı olan həkim yoxlama aparandan sonra, bir-iki sakitləşdirici yazdı:

-Bir az uzaqlaşsa yaxşıdır buralardan.

Gülü axşam Nərminə:

-Bizdə qalsın...bura yaxşıdır, sən işə-zada gedirsən, həm qonşular görsün ki, burdadır, küncdə- bucaqda artıq-əskik danışmasınlar. Nərmingil razılaşıb getdilər.

Səhəri gün Gülü Balabəyə beş qurban kəsdirtdirib paylatdırdı.. Sonra  Lilparı da götürüb, Fikrətlə Rizonun yanına getdilər. Həm Rizo onu görüb sakitləşər, həm də Lili özünə gələr. Yaxınlıqdakı rayonda, oteldə Fikrət yer aldı,  Qərib tapşırmışdı ki, bir addaım da olsun, aralanma onlardan, gözün üstlərində olsun. Gülü Lilpara  tapşırdı ki, çatan kimi əhvalatı Rizoya danışmasın.

Lili:

-Yox, ondan gizləyə bilmərəm, onsuz da deyəcəklər dostları, özüm desəm, yaxşıdır.

-Çatan kimi demə, bir az keçsin, qanı qaralmasın, deyərsən sonra.

- Ötüb keçib hər şey...

-Rizo bunu elə- belə buraxmaz, fikri qalacaq şəhərdə.

Lili:

-Hələ bir xəbər yoxdu? Tapmadılar?

Gülü başını buladı, gözləri yol çəkdi. O da ürəyində çox fikir eləyirdi, bu zırıltının altında kim var? Kimdir bu naməlum düşmən? Onun Qəribdən alıb-verəcəyi nədir? Gülü artıq dəqiq bilirdi, bütün bunlar  Qəribə görədir. Qərib bu məsələlərdən onları uzaq tutsa da, onun tövründən anlayırdı Gülü. Qərib son zamanlar daxili

sarsıntılar keçirirdi. Yəqin, sonda məlum olacaqdı. Heç bir şey gizli qalmır həyatda.

Rizo onların gəlişindən çox sevindi. Şadlığından neyləyəcəyini bilmirdi. Bir neçə gün qalacaqlarını biləndə Gülünün üzünə baxaraq:

-Nə olub, məndən nə gizlədirsiz?

Gülü:

-Nə gizlədəcəyik? Dedik, biz də bir az havamızı dəyişək. Sən əsgərliyi bitirəndən sonra kimdi buralara gələn? Nə qədər ki, burdasan, biz də gəzək.

Amma Rizo əhvalatı öyrənən kimi kefi pozuldu. Şəhərdə, Qəribin yanında olmadığına heyfsləndi. Əgər o şərəfsizlər acıqlarını qız qaçırmaqla çıxırlarsa, cavablarını da layiqincə alacaqlar. O, Lilnin nələr çəkdiyini, nələr keçirdiyini düşündükcə, dəli olurdu. Nə Gülü, nə də Lilpar onu heç cürə sakitləşdirə bilmirdilər. Bir neçə gün qaldıqdan sonra Rizo onların şəhərə getməsini təkid etdi.

-Gedin evə, siz burda qaldıqca, mən də narahat oluram. Az qalıb onsuz da. Üzünü Liliyə tutaraq:

-Qorxursansa, dərsə getmə, özüm gəlib aparacam hər gün.

-Yox, qorxmuram, bundan sonra heç nə edə bilməzlər. Az qalıb...atamla gedərəm sən gəlincə.

Gülü onların qarasına deyinə-deyinə:

-Ürəyim darıxdı, mən buralarda fırlanım bir az, söhbətinizi eləyin. Allah mərdimazara lənət eləsin.

Gülü istəyirdi onlar bir az təklikdə qalsın, bəlkə, deyəcəkləri var bir-birinə.

Anasının uzaqlaşdığını görən Rizo Lilinin əlindən tutaraq:

-Çox darıxıram səndən ötrü, bu 2 ay da gəlib keçsə idi...

Lili:

-Mən də darıxıram, amma bir dəlilik eləmə... orda olanda elə bilirdim, səni görməyəcəm daha, hər şeydən çox buna üzülürdüm...Allah dualarımı eşitdi...

-Əsgərlik bitsin, biz heç ayrılmayacayıq, bir gün də, bir saat da...əslində, nə eləsəm, nə danışsam, sən elə fikrimdən çıxmırsan. Sanki oturmusan başımın içində. Bəlkə elə, doğrudan da, ordasan, hə?

Lili gülüb başını Rizonun çiyninə dayayaraq:

-Elədir də...bir –birini çox sevənlərin ruhu o birinin bədəninə girir...

-Doğrudan ? Elə şey var? Onu- bunu bilmirəm, amma sən mənim içimdəsən , dəqiq...

Lili onun əlini sığallayraq:

-Sənin yerində yatıram, rahat, güvənli...orda bütün qorxular yox olur. Bilirsən ən çox nədən ötrü darıxıram? Saçların heç fikrimdən çıxmır...

Rizo onun çiynini qucaqladı, boynunun qoxusunu içinə çəkərək:

-Bu da bir sınaqdı, biz heç vaxt ayrı qalmamışdıq, bir-birimizi tanıyandan. Həmişə elə ola bilməzdi ki...Ayrı olanda adam daha çox sevdiyini bilir, çox şey anlayır. Darıxma, az qalıb...təki sağlıq olsun...saçım yenə də gələcək yerinə, mən də çaşıram ee hərdən, səhər açılanda əlimi atıram başıma, boşa çıxır. Uzanacaq yenə, darıxma... dur, görək , Gülü xanım hara getdi...

Rizo Lilinin əlindən tutub qalxdı, ətrafa baxaraq:

-Siz gəldiniz, çox sevindim, ürəyimə nəfəs gəldi elə bil...o üç günü nə çəkdim bir Allah bilir, amma gedin artıq, siz burda qaldıqca, narahat oluram.

-Niyə?

-Yanınızda qala bilmirəm, ona görə.

-Fikrət əmi burdadır də, yanımızdan heç ayrılmır ki...

-Bilirəm, amma gedin...əsgərlikdə olanların heç birinin anası, nişanlısı gəlib yanında qalmır. Uşaqlar birtəhər baxır mənə...odur, mama orda dayanıb Fikrətlə, gedək.

***

Gülügil yığışıb səhəri gün şəhərə döndülər. Bu az müddət ərzində Lili xeyli yaxşılaşmışdı. Üzü gülür, zarafat edirdi. Nərmin də, Əkbər də artıq özlərinə gəlmişdilər. Gülügilin gəldiyini bilib onlara gəlmiş, Nərmin xeyli yemək hazırlamışdı. Qara buludlar get-gedə üzlərindən çəkilib gedirdi. Bu zaman Gülü çox qəribə bir xəbər eşitdi. Əmirxanın şirkəti tamam yanıb kül olmuşdu.

Əmirxan da tapılmırdı. Deyirdilər ki, yanğın zamanı Əmirxan orda olub. İşi aparan müstəntiqlər təsdiq edirdilər ki, şirkətdə bir neçə adam yanıb. Bu xəbəri eşidəndə, Gülünün içində sanki qaya uçdu. Heç kəsə bir söz deməsə də, bu işin Qəriblə əlaqəsi olduğunu güman edirdi. Gecəyə qədər özündə olmadı. Səbrlə Qəribi gözlədi. Yalnız gecə ikisi tək qalan zaman pıçıltı ilə soruşdu:

-Qərib, Əmirxanın şirkəti yanıb deyirlər.

Qərib bir qədər susduqdan sonra:

-Hə, yanıb, sən hardan bilirsən?

-Qonşular danışırdı. Niyə yanıb, görəsən? Əmirxan da ölüb, deyirlər.

-Bilmirəm.

-Sən Əmirxanı görürdün sonralar?

-Yox. Harda görəcəkdim ki, onu?

Gülü Qəribib səsinin tonundakı soyuqluğu və kəskinliyi anladı və daha sual vermədi.

Qərib böyrü üstə uzanıb üzünü çevirdi.

Gülünün içindəki narahatlıq daha da artdı. Qəribin Əmirxandan başqa düşməni kim ola bilərdi? İlk dəfə bura gələndə onun yanında işlədi, sonra çıxdı. Sonraki işində hamı Qəribə tabedi, kim ona qarşı çıxacaq ki? Uzun – uzadı suallar onu yorurdu, heç birinə də cavab tapa bilmirdi. Bu son olanlardan sonra yuxusu ərşə çəkilmişdi.

Qəribin hadisələri ondan gizli saxladığı aydın idi. Bəlkə, onu da, Lilini də qorumaq istədiyi üçün belə edirdi. Amma bu sirlər get-gedə onu uzaqlaşdırırdı. Gülünün sirr saxlamaqla arası yox idi. Hər şey onun üçün sadə və aydın idi. İndi isə çaşıb qalmışdı. Kaş Rizo burada olaydı. Anlaşılmaz bir qorxu onun bütün varlığına hakim kəsilirdi. O isə tənha idi.

***

Əmirxan Qəribin bələdiyyə sədri olmasını, biznesdə qazandığı uğurları heç cürə həzm edə bilmirdi. İşləri pisləşdikcə, qurduğu şirkət tədricən dağıldıqca qəzəbi də artırdı. O, uğursuzluğunun səbəbini öz bacarıqsızlığında deyil, Qəribdə axtarırdı. Qəribin işləri genişlənib rövnəq tapdıqca, Əmirxan daha təhlükəli olurdu, onun içində qisas, intiqam qaynayırdı. Bir gün Qəribin şirkətinə gedərək Atabəy ilə görüşdü. Atabəy onu görcək, təəccüblənsə də, içində damarı qaçsa da, özünü o yerə qoymadan, Əmirxanı xoş üzlə qarşıladı:
-Baaaa, kimi görürəm , xoş gəlibsən, ay Əmirxan.
Ayağa qalxıb, ona sarı yeriyərək əlini uzatdı. Əmirxan da onun əlini tutaraq salamlaşdı.
Atabəy ona yer göstərərək:
-Vallah, köhnə adamlar yaşamağı bilirmişlər. Nə şirkətləri varmış, nə biznesləri. Çaxdan –çuxdan edib oturturmuşlar döşəkcənin üstündə, bozbaşlarını yeyib yığışırmışlar

birinin evinə, ya məscidə, ya meyxanaya. Dərdləşirmişlər, yaşayırmışlar özləri üçün.

Əmirxan:

-Nə olub , Atabəy, sənin nə dərdin var, belə yana-yana danışırsan.

-A kişi, dərddən deyil e, vaxt bizi yeyib tükətdi, baxıram, səni gördüyüm yadıma gəlmir. Haralardasan, nə var- nə yox?

-Əziz olasan. Ürəyi istəyən vaxt tapar, Atabəy.

-A kişi, deyirsən də, ürəyi istəməklə deyil, vallah. kənddən əziz yerim yoxdu ki, dədəmin göru haqqı, iki ildir ayağım dəymir. Obaşdan işə, gecə yarısı evə. Doyunca yatanın atasına lənət. Bir bazar günü var, onun da o qədər yiyəsi var ki, olduğuna da peşmansan.

- Nə bilim, vallah sən işdən gileylənirsən, biz işin dalına düşmüşük. O, atlı olub, biz piyada.

-Mən işdən  yox, vaxtdan gileylənirəm. Xeyir ola,  sənin işinə-gücünə nə gəlib. Allaha şükür, şirkətin-filanın, bazarın...

-Yox əşşi, bir şirkətlik qalmayıb. Adı var, özü yox,- buna deyiblər. Vəziyyətim ağırdır, Atabəy.  Allah əlacımı elə kəsib ki, durub bura gəlmişəm.

Atabəy bu sözdən alınsa da, ciddiləşərək  diqqətlə ona qulaq asmağa başladı.

-Nə qədər borcum var, banklara, adamlara. Qalmışam çabalaya- çabalaya, suda batan saman çöpündən yapışan kimi, mən də bura bir ümidlə gəldim. Köhnə dostlarıq, bəlkə, kömək eləmək istədiniz. Allaha şükür, sizin vəziyyətiniz yaxşıdır.
Atabəy onun üzünə diqqətlə baxaraq:
-Yəni, bu qədər pisdi vəziyyət? Niyə bu hala gətirdin işi?
-Demək asandır, kimsəsiz adamam, köməyim –zadım da yox, bata-bata gəldim, indi də işim fırıqdır. Borc xirtdəkdən.
-Əmirxan, bu, ciddi məsələdir, buranın yiyəsi var. Sən də onunla işləmisən, bir-birinizi yaxşı tanıyırsız. Gəlsin, oturaq, danışaq. Görək, sənə necə kömək eləmək olar. Sənin konkret bir fikrin varmı?
-Gecə- gündüz fikirləşməkdən başım da xarab olub. Daha neyləyəcəyimi bilmirəm.
-Qoy, Qərib gəlsin, danışaq.
-Hardadır ki, gələcək bu gün?
-Yox, gəlməyəcək. Amma gələn kimi mən məsələni deyərəm ona. Sənə də zəng edərəm, gələrsən. Mən biləni özün danışsan, daha yaxşıdır. O bu işləri daha yaxşı bilir.
-O zaman mən gedim. Səndən xəbər gözləyəcəm.
Əhadağa da onunla bir qalxaraq:
-Otursaydın, bir çay içərdik.

-Yox, çayı sonra içərik. Gedəsi yerim var. Bank haqq-hesabıdır.

-Yaxşı, arxayın ol. Qərib müəllim gələn kimi danışacam.

Atabəy oturub fikrə getdi. Əmirxanın bu dərəcədə dağılmasını gözləmirdi. Qəribə iş lazım olanda, onun üstünə getmişdi. O zaman Atabəyin sözünü yerə salmayıb, Qəribə iş vermişdi. İndi bunun əvəzini istəyir. Amma Qəribin vəziyyəti belə deyildi. Fəhləlik edib, haqqını alırdı. İndi  boğaza qədər bataqlığa batmış bir adamı Qərib necə çıxartsın? Yenə də Qəribə demək lazımdır. Görək, nə deyəcək?

***

Qərib işə gələn kimi Atabəy onun kabinetinə getdi. Hal-əhvaldan, şirkətin son durumunu müzakirə edəndən  sonra Əmirxaın gəlişindən söz açdı:

-Vəziyyəti çox ağırdır. Bura gəlib bizdən kömək istəməyinin səbəbi məlumdur. Düzü budur ki, biz ona iş üçün ağız açanda , bizi qırmadı, hər nə idisə, iş verdi. Indi əvəz istəyir. Mən bilmirəm ona necə kömək etmək olar.

Qərib:

-O batıb artıq. Biz nə eləsək də, onun şirkətini qurtara bilmərik. Onun vəziyyətində ən yaxşı hal  şirkəti satıb borclarını ödəməkdir. Satmaq da asan deyil, kimdi onun zibilini alan? Onun şirkətində dəyərli olan heç nə yoxdur, özü də bilir.  Banka borclarını ödəməsə, həbsə girəcək.

Atabəy :
-İndi mən nə deyim ona?
Qərib bir az fikrə getdi:
-De, gəlsin. İşləmək istəyirsə, bir iş verərik. Bank borclarını ödəyərik. Bir şərtlə- uzun müddətli kredit verə bilərik. Bu da, keçmişin xatirinə, sənin xatirinə.
Atabəy:
-Bundan böyük nə kömək olar ki.  O bunu eşidəndə heç inanmayacaq da. Doğrusunu deyim ki, mən də inanmazdım.
Qərib:
-O, yaxşılıq bilən adam deyil, bunu da bilməyəcək. Necə deyərlər, balıq bilməsə də, xaliq bilər. Çox yekəxana adamdır.  Gözün üstündə olsun. Bir yanlışı olanda de mənə. Onun indi belə astadan getməyinə baxma, qoy quyruğu çıxsın qapı arasından, o zaman əsl simasını görəcəksən. Yaxşı...mən getməliyəm. İclasım var, bələdiyyədə.  Gələn həftə biz xaricdən gələn təkliflərə baxaq, onlara bir cavab vermək lazımdır.

Qəribi yola salandan sonra Atabəy zəng edib Əmirxanla danışdı. Qəribin təkliflərini ona bildirdi. Bu təklif Əmirxana fantastik yuxu kimi göründü. Sevincindən kəkələyə-kəkələyə:
-Gəlirəm indi, orda danışarıq.

İnanılmaz təklifdən Əmirxan çaşıb qalmışdı. Durumu o qədər ağır idi ki, evini, azadlığını belə itirə bilərdi. Fürsəti fövtə vermədən şirkətə gəlib Atabəy ilə görüşdü. Atabəy Qəribin dediklərini ona çatdırdı.

-Razısansa, səhərdən işə gələ bilərsən. Borc kağızlarını gətir, biz banka ödəmə edəcəyik. Səninlə də müqavilə imzalayacağıq. Bu gün göstəriş verəcəm, sənədləri hazırlayacaqlar.

-Mən necə təşəkkür edəcəyimi də bilmirəm, özü yoxdur, sən mənim əvəzimə dil-ağız edərsən.

-Qərib müəllimin boş vaxtı olmur. Bura da gəlib təlimatlarını verir, gedir, dövlət işində işləmək də çətindir.

Əmirxan bu anlarda, bəlkə də, gerçəyi söyləyirdi. O, doğrudan da, böyük bir bəladan qurtardığı üçün Qəribə, Atabəyə minnətdar idi. Son vaxtlar adamlar ondan qaçırdı, bəzilərindən də özü qaçırdı. İndi borclarını ödəməyə əlinə düşən bu fürsət ona həyatının xilası kimi gəlirdi. Evə baxa bilmirdi, ailə yemək- içmək, pal-paltar istəyirdi. Uşaqlar oxuyurdular. Hər gün onların yol pulu, kitab-dəftər pulu, nə vaxtacan ondan-bundan borc al, borcla yaşamaqmı olar? Özünə də adam içinə çıxmağa əyin-baş lazımdır. Elə bil qarğışa düşmüşdü, bu hala necə düşdüyünü hələ də anlaya bilmirdi. Qəriblə heç rastlaşmırdı. Təlimatları Atabəy verirdi. Əslində, Qərib onunla üz-üzə gəlmək istəmirdi. Atabəyə demişdi ki, elə et, məni görməsin. İş

istəyirdi, verdik, borcunu ödədik. Yaşasın özü üçün, qurban olsun balalarına və bizə verdiyi bir tikə çörəyə. Çox zalım adamdı, Atabəy, qul kimi işlədirdi adamları, bir udum su da vermirdi. Maaş verəndə nə olar ki,verdiyi maaş heç o əziyyətin bir saatına dəyməzdi. Elə bilir, adamları soymaqla var- dövlət qazanmaq olar, Allah götürməz o zülmü. Ona görə bu hala düşüb bu. Bir təhər yola verin getsin.

Əmirxan işin içinə girdikcə bu şirkətin əzəmətindən, əhatəsindən dəhşətə gəldi. Şirkət deyəndə özününkü kimi gəlirdi təsəvvürünə. Qəribin sahib olduğu dövriyyə yüz milyonlarla ölçülürdü. Yaxın və uzaq xarici ölkələrlə onlarla müxtəlif çeşidli mal dövriyyələri var idi. Minnətdarlıq hissini yenidən həsəd və paxıllıq əvəz elədi. Aylar keçdikcə,vəziyyəti düzəldikcə, acgözlüyü daha da artdı. Gecələr yerində rahat yata bilmirdi. Nə qədər ki, əlində imkan var, bir yolla bir az pul qazanmalıdır. Şirkətin bütün alqı satqı –maliyyə işlərini ixtisaslı maliyyəçilər banklarla aparırdılar. Kiçicik bir əskiklik bir anın içində komyüterlərdə əks olunurdu. Sahə rəislərinin hamısı Atabəyə tabe idi, hesabatı ona verirdilər. Əmirxan da ona tapşırılan sahənin gündəlik vəziyyəti haqqında Atabəyə məlumat verirdi. Atabəy ortaq deyildi, sadəcə Qəribə çox sadiq həmkar idi və deyilənə görə, çox yüksək əmək haqqı alırdı. Şirkət isə Rizonun adına idi. Qərib

onun ortağı idi. Bank hesabları ödənsə də, Əmirxanın keçmiş dostlarına da böyük həcmdə borcları qalırdı. Qəribin bunlardan xəbəri yox idi, o adamlar Əmirxanın vəziyyətindən xəbər tutsa idilər, qətiyyən elə böyük miqdarda pul verməzdilər. Son vaxtlarda bir konsern rəhbəri onu çox sıxışdırırdı. Onun da vəziyyəti,deyəsən, yaxşı deyildi, odur ki, hər gün Əmirxandan borcunu tələb edirdi. Əmirxan yalan söyləməkdən, gizlənməkdən bezar olmuşdu. Həmin şəxslər daha artıq vaxt vermək istəmirdilər. Açıq- aydın hədəyə keçmişdilər. Son günlər isə onu məhkəməyə verməklə qorxudurdular. Dünənsə qəfildən onu evlərinin qarşısında tutdular, içəri-həyətə salıb uşaqlarının yanında boğazından yapışıb, ölümlə hədələdilər. Ya 3 günə pulu qaytar, ya da borcunu həyatınla ödə! Başına dirənən tarançanın yeri hələ də ağrıyırdı. Əmirxan nə edəcəyini bilmirdi, arvad- uşaq qorxu, ağlaşma içində idi. Bunu Atabəyə deyərsə, onu işdən də qovardılar. Borc da istəməyə dəyməz, o qədər bank borcunu qaytarıblar, müqavilə ilə ona kretit veriblər. Daha istəməyin adı da yoxdur, onsuz da verməyəcəklər. Ailəsini təhdid edən təhlükə get-gedə reallaşırdı. Gecə evdə keçirilən gizli ailə məşvərətində qardaşı və qardaşıoğlu, Əmirxan və Zahid- Əmirxanın böyük oğlu iştirak edirdi. Məsələni tezliklə çözməsələr, hər iki ailə

qurbanlar verəcəkdi. Qardaşı oğlu Polad dedi ki, bu pulu yalnız Qəribgil verə bilər, başqa kimdə bu qədər pul var?
Əmirxan:
-İstəsəm də verməzlər. Bank hesablarımı ödəyiblər. Verməzlər!
Polad:
-Verməzlər, zorla al!
-Əmirxan təəccüblə:
-Zorla necə alım. Şirkətdə pul saxlamırlar. Elə bil kinodur. Çakkaçuk hamısı kompyüterdə, maaşı da kartla verirlər.
-Qərib heç gəlmir şirkətə?
-Hərdən gəlir, tez də gedir, vaxtı bilinmir, kefi istəyəndə.
-O qədər var tək onundur?
-Yox. Oğulluğu var, o da əskərlikdədir.
-Başqa keç kimi yoxdur?
-Mən biləni yox, heç kimi yoxdur, deyəsən, gəlib burda da o arvadı alıb, oğlan da onundur.
-Hmmm...oğlan burda olsaydı ! Bəs arvad? O hardadır?
-Harda olacaq, evində. O, Qəribdən də qurddur, özünün ayrı biznesi var. Şadlıq evi ,super marketi- filanı, bazarı...eh , zirək arvaddır, bizimkilər kimi böyürlərini veriblər yerə , elə əmr verirlər, gətir! Oğluna bir nişan elədi ki, həmin şadlıq evində, qudaları işlədir.
-Gəlini də var?
-Həə.

-Bax, bu yaxşı oldu.
Əmirxan onun üzünə diqqətlə baxaraq:
-Bunun nəyi yaxşıdı? Cəhənnəmə olsun! Bizə nə var?
-Əmi, qulaq as da, o dəqiqə hirslənirsən. Gəlini qaçırarıq, pulu alarıq ,vəssalam. Heç kəs bilməz, heç kəsə də deməzlər.
Əmirxan:
-Ağıllı ol, bala, bizi bir gün də yaşatmazlar. Pulun varsa, bütün kriminal sənin ovcundadır. Bir dəqiqəyə “hopp” eləyib udarlar bizi.
-Onlar bilməyəcək, heç kim bilməyəcək, qızı qaçıracaqlar. Pullarını alıb gedəcəklər. Nə ad biləcəklər, nə ünvan. Sən mənə burax, bu işi, mən həll edim. Ağzında 2 milyon deyirsən, borcunu ver, canını qurtar, biz də sıxıntıdan qurtaraq. İki milyon nədir ki, Qərib üçün, canı çıxa-çıxa verəcək qız üçün. Sən də heç nə olmamış kimi, işinə davam et. Sənin heç nədən xəbərin olmayacaq. Heç nəyə qarışmayacaqsan. Qıza da heç nə olmayacaq. Bir az qorxacaq, qoy qorxsun, ağlı başına gələr tay da.
Əmirxanın qardaşı sözə qarışdı:
-Sözdə asandır, nə varmış, qızı qaçırtdın, pulu da aldın. Başın belə yaxşı işləyirsə ,bunun cinayət olduğunu da bilməlisən. Otur yerində! Bunun içəri girməyi var, orda ağlın gələr yerinə.
Polad:

-Oturaram yerimdə. O zaman siz gedin tapın pulu. Guya Qərib deyilən o əbləh halallıqla qazanır o milyonları. Deyirəm ki, biz əlimizi bulaşdırmayacağıq. Başqaları edəcək. O qədər anasının əmcəyini kəsənlər var ki. Pullarını alacaqlar, yox olacaqlar. Nə siz onları görəcəksiz, nə onlar sizi. Ad-filan olmayacaq. Əmi, sən bir milyonuna dur, borclarını ver, qalanını uşaqlara sərf elə, böyüyüblər. Sənin indi onun-bunun təpiyini yeyən vaxtın deyil axı, qalanı ilə işin olmasın.

Əmirxan:

-Allah bizi bu günə salanlara min lənət eləsin! Əlacımız gör nəyə qalıb. Bu qanmazlara da min dəfə deyirəm,işim düzəlir, bir az möhlət verin, qaytaracam pulunuzu. Məni küncə sıxışdırmaqla pul balalayacam?

Polad :

-Əmi, onlar səni çoxdan nəzarətə götürüblər, bilirlər ki, Qəribin burnunun dibindəsən, ona görə sıxışdırırlar.

Əmirxan:

-Bilmirəm, bu vaxtımda gedib türmədəmi yatım? Bu boyda külfətin çörəyini kim verəcək?

Polad:

-Allah eləməmiş, iş pozulsa, yenə tutulan mən olacam, rahat olun, hər şeyi öz üzərimə götürəcəm. Amma heç bir şey olmayacaq. İki nəfər tanıyıram, işi onlar görəcək.

Mənə qızın adresini verin. Qəribin nömrəsi var səndə, əmi?
-Yoxdur. Atabəyin nömrəsi var. Qərib mobilini heç kimə vermir. Qız da nə bilim, o aralıqda yaşayır elə. Tələbədir. Dərsə gedib-gəlir.
Polad:
-Bax, bu - əla oldu! Əmi, adını bilirsən?
-Adı Lilpardı, Əkbərin qızı. Tibb universitetində oxuyur.
-Vəssalam! Daha bu əhvalatı unudun. Burda bitdi.
Əmirxanın razılaşmaqdan savayı başqa əlacı yox idi. Madam ki, özü heç bir şey eləməyəcək, bu Allahın bəlası olan qardaşı oğlu nə istəyir, eləsin. Onun burnu pul iyi alıb, onsuz da dinc dayanmayacaq. Əmirxanın canı borcdan qurtarsın, kim nə qazanır , qazansın. Cəhənnəmə ki!

Polad əvvəldən atası demişkən "cələqırmışın" biri idi. Heç kəsin sözünə baxmazdı, nə istəsəydi onu da edərdi. Erkən özübaşnalığı onu tez yetişdirmişdi. Hər cür adamlarla əlaqəsi olduğundan, nə vaxt, harda olduğu bilinməzdi. Özü qazanıb, özü xərcləyirdi. Necə qazandığını da özündən başqa bilən yox idi. Nə özünə, nə də başqalarına hesabat verməyi xoşlamırdı. Ən böyük arzusu çoxlu, lap çoxlu pul qazanmaq idi. Əmisinin düşdüyü vəziyyət onu məqsədinə yaxınlaşdırmışdı. Uğurlu bir əməliyyat və ömürlük qayğısız həyat. Bu qədər

pulu o, kimdən qazana bilərdi? Ən yaxın dostu ilə oturub plan çəkdilər. Saniyəsinə qədər hesabladılar. Polad dediyinin əksinə, başqa bir adamla əlaqəyə girmədi. Bu təhlükəli işi heç kimə həvalə etmək olmazdı. O, dostundan başqa, kimsəyə etibar eləmirdi. Heç kim ziyan çəkməyəcəkdi. İş tərtəmiz görülməli idi. Bircə iz buraxılsa idi, hər şey alt-üst olardı.

Bir neçə gün Lilparı təqib edib, hara, nə vaxt gedəcəyini öyrəndilər. Qızı qapılarının önündə götürüb, əvvəldən hazırladıqları evə apardılar. Bu, şəhərdən uzaq, kimsənin tanımadığı gizli bir ev idi. Sahibi keçmişi qaranlıq olan yaşlı, kimsəsiz bir qadın idi. Qızı bir otaqda saxladılar, özləri isə başqa bir otaqda sakitcə gözlədilər. Lilparı qaçırdıqları günün səhərisi gizli nömrədən Atabəyə zəng edib, qızın müqabilində iki milyon pul istədilər. Atabəy tez Qəribə zəng vurub Lilinin oğurlandığını bildirdi. Qərib tələsik şirkətə gəldi. Qərib həyəcanla:

-Niyə mənim özümə zəng etmədilər?

-Ola bilsin, nömrəni tapmayıblar, şübhə doğurmamaq üçün heç kimdən də soruşmayıblar.

-Kimdir onlar?

-Bilmirəm. Pul qazanmaq istəyənlər.

-Nə dedilər?

-Lilparın onlarda olduqlarını və iki milyon pul istədiklərini. Dedilər ki, sənə çatdırım. Zəng edəcəklər.

-Hmmm. Zəng edəndə ver mənə. Bizim iki milyon nağd pulumuz var?
-Vaxt lazımdır. Banklardan götürməyə.
-Sən Rüstəmi çağır tez. Bununla məşğul olsun. Pulu hazırlayaq.
-Atabəy tərəddüdlə:
-Verəcəksiz?
Qərib ona kəskin bir nəzər salaraq:
-Qız əllərindədir. Verəcəm. Onlar hər şeyi dəqiqliklə hesablayıblar. Kim olduqlarını, harda olduqlarını tapa bilmərik. Əvvəlcə qızı alaq, sonra taparıq onları. Kimdirsə, burnumuzun dibinə qədər gəliblər. Sən köhnə dostlarınla əlaqə yarat, kimlər ola bilər? Bir də mənə iki adam tap. Peşəkar. Onlar pulu bizdən almayacaqlar, əlaqəçi lazımdı.
Atabəy çıxmaq istəyərkən Qərib:
-Telefonunu mənə ver. Həll edən kimi qayıt.
Atabəy durub çıxdı.
Qərib əsəbiliklə fikirləşməyə başladı. Kim olar, bu dəllallar? Neçə ildir, belə bir hadisə olmur. Şirkətə işə aldıqları mütəxəssislər yoxlanır, saf-çürük edilir, fəhlələr isə belə şey eləməzlər. Bunlar ayrıdır.
Az keçmədən Atabəyın telefonuna zəng gəldi. Qərib cəld götürüb açdı:
-Mənəm, Qərib.

-Çox yaxşı. Mesajimiz çatıb deməк. Məbləği verin, əmanətinizi götürün.
-O qədər hazır yoxdur əlimizdə, bir neçə saat lazımdır. Hazır olan kimi...
Bağlantı kəsildi. Qərib telefonu yerə qoydu.
-Şərəfsizlər! Elə bil pulu əlimdə hazır tutmuşam. Əclaflar!!!
Hirslə yumruğunu stola vurdu.
Atabəy Rüstəmlə içəri girdi.
Qərib üzünü Rüstəmə tutub:
-Bütün imkanlardan istifadə edin.Təcili 2 milyon düzəldin. Təcili! Bankda nağd hesabımızda nə qədər varsa, çıxarın, olmasa, borc götürün, faizlə alın, hardan tapırsız-tapın!
Rüstəm:
-Baş üstə ! - deyib çıxdı.
Atabəy:
-Mən getməliyəm, bəzi adamları görməliyəm. Iki saata dönərəm.
Qərib ona baxaraq:
-Zəng elədilər.
-Nə dedilər?
-Heç nə. Pulu verin, əmanətinizi götürün. Siz pulu düzəldin. Zəng edəcəklər bir-iki saata yenə.
-Yaxşı...mən çıxım. Onları bura gətirim?
Qərib fikirdən ayılıb:

-Həəə. Bura gətir,  gözləyirəm.

Atabəy çox keçmədən iki nəfərlə döndü. Onları Qəribə təqdim edərək:

-Bu adamları dostum məsləhət gördü. Bizə kömək edəcəklər. Məbləğini özünüz danışıb razılaşın.

Qərib onlara yer göstərərək:

-Mənim gəlinimi götürüblər. Iki milyon istəyirlər. Pulu siz aparacaqsız, bu aydındır. Amma mən istəyirəm siz onlardan bir iz gətirəsiz. Necə edirsiz-edin, bilmirəm, qızı sağ-salamat gətirin. Siz qızı aldıqdan sonra ordan ayrılın, başqa biriləri onları izləsin. Nə olur- olsun, biz onların kim olduğunu öyrənməliyik. Yəqin ki, şəhərdə belə qaçaqçılıqla kimin məşğul olduğunu bilirlər. Onların adını mənə gətirin. İstədiyiniz məbləği alacaqsız.

Oturanlar bir-birinə baxıb, başları ilə təsdiq elədilər.

Qərib:

-Bir azdan onlar zəng edəcəklər. Görüş yerini deyəcəklər. Sizin vaxtınız var fikirləşməyə. Dostlarınızla əlaqəyə girməyə.

Gələnlərin biri:

-Zəng etməyəcəklər.

Qəribgil təəccüblə ona baxdılar.

-Hava qaralıb.  Qaranlıqda risk edib görüşməzlər. Ətraf görünmür, onlar da izlənəcəklərini təxmin edirlər. Odur ki, səhəri gözləyəcəklər.

Qərib:
-Ola bilər. Hər halda, biz  hazır olmalıyıq hər hansı dəyişikliyə, gözləyək.
-O zaman bizə müsaidə. Zəng gələn kimi bu nömrəni verin onlara, bizimlə əlaqəyə girsinlər. Biz də hazırlığımızı qaydaya salaq. Pulu gəlib götürəcəyik.
Qərib düşündü ki, belə daha yaxşıdır. Onların öz dairəsi var. Bəlkə, nəsə öyrəndilər. Adamlardan sonra Atabəylə tək qaldı.  Atəbəy sakitcə oturub fikrə getmişdi.
Qərib:
-Başım yaman ağrıyır. De, mənə bir ağrıkəsici tapsınlar.
Atabəy qalxaraq:
-Gərginlikdəndir...deyim, çay da hazırlasınlar. Aclığın varsa, bir şey gətizdirim.
Qərib:
-Yox, lazım deyil... yemək istəmirəm. Bilirsən, nəsə bu Əmirxandan dalağım sansır. Bir öyrən gör, onun kimlərə borcu vardı?
Atabəy:
-Deyirsən, yəni...
Qərib:
-Yox, demirəm, bir ehtimaldır, min də bir... neçə ildir bu şirkət var, indiyəcən belə haqq –hesab olmayıb. İndi o gəlib bura çıxıb, dalıyca da bu hadisə...borc, qorxu adamı hər şeyə sürükləyər...əlbəttə, onun kimilərini. Normal

adam əvvəlcə necə qaytaracağını fikirləşib, sonra borc alar. Faiz dirənib boğazına, nə bilim, görəcəyik də...
Atabəy bir söz demədən otaqdan çıxdı.

Döğrudan da, həmin gecə zəng olmadı. Qəriblə Atabəy kabinetdə gecələdilər. Hər şey hazır idi. Səhərin açılmasını gözləyirdilər. Hava işıqlananda zəng gəldi. Qərib tez telefonu açdı:
Xəttin o başından həmin səs gəldi:
-Deyəsən, çox gözlətdik.
-Hər şey hazırdır. Dediyiniz kimi.
-O zaman bizdən zəng gözləyin.
-Bizə yox, əlaqə nömrəsini verirəm. Onlarla görüşəcəksiz.
-Ağıllı adamsan.
Qərib nömrəni dedi.
Üstündən ağır daş götürülübmüş kimi:
-İndi qalır gözləmək.
Atabəy :
-Gözləməkdən başqa nə əlacımız var ki. Sən darıxma daha, bu əbləhlərə təkcə pul lazımdır. Biz də bir tikə çörək yeyək. Dünəndən acsan sən də. Can boğazdan keçər,- deyib, otaqdan çıxdı. Çay qoyub, səhər yeməyi hazırlamağa başladı. Sürücünü yaxınlıqdakı kafeyə göndərdi.
Qərib könülsüz çay içib, bir az pendir çörək yedi. Atabəyə baxaraq:

-Görəsən, onlar nə plan cızdılar? İzlərinə düşə biləcəklər? Sən bilən, etibarlı adamdılar?
Atabəy:
-Belələrindən etibar gözləmək olmaz. Bunlar qaydalarla iş görür, maşın kimi. Qaydanı pozmağın nə demək olduğunu hamısı gözəl bilir. Bu işdə orta deyilən bir şey yoxdur.Ya edəcəksən, ya öləcəksən.
-Təlimatdan xəbərin var?
-Məncə, onlar üz-üzə gəlməyəcək. Pulu qoymaq üçün sakit, adamsız bir yer deyəcəklər.Uzaqdan izləyəcəklər, heç kimin olmadığına əmin olandan sonra pulu götürəcəklər. Təhlükəsiz yerdə olduqdan sonra zəng edib qızın yerini bildirəcəklər. Qızı da hansısa parkda, ya yolda bir yerdə qoyacaqlar. Heç kim bir-birini görməyəcək.
-Bəs?
-İkinci maşındakılar, telefonla izləyəcəklər. Harda olduqlarını onlar təyin edəcək.
-Edə bilməsələr?
-Bir iz mütləq olacaq. Darıxma, səbrli ol. Mütləq tapılacaqlar.
Qərib inamsız halda ona baxdı.
-Onda mən Atabəy deyiləm.
Bu zaman zəng gəldi. Qərib bir anda telefonu götürdü:
-Qızı götürdük. Parkdayıq. Gələk?
Qərib:

-Yox, orda qalın, biz gəlirik. Hansı parkdır?
Yerindən cəld qalxaraq, Atabəyə:
-Mən gedim, qızı evə aparım. Burda qal, məni gözləyin. Bir azdan qayıdıram.

***

Araşdırma zamanı məlum oldu ki, Əmirxanın banklardan başqa, iş gördüyü şirkətlərə də xeyli borcu varmış. Bunlardan ən böyüyü inşaat şirkəti idi. Atabəy söylədi ki, bu inşaat şirkəti əhalini aldatmaq, çirkli pulları silmək, şantaj və fırıldaqla biznes aləmində məşhurdur. Sahibi Elşad adlı bir fırıldaqçıdır. Qərib məsləhət gördü ki, nəzarətdə saxlayıb öyrənsinlər, yaxın günlərdə şirkətin hesabına pul ödəniləcəkmi? Və yaxud izləsinlər, Əmirxan Elşadla görüşəcəkmi?
Atabəyin dediyi kimi, qızı qaçıranlar heç kimin olmadığına əmin olanda sonra , yolda qoyulmuş zibil yeşiyindən pul bağlamasını götürüb getmişdilər, beş dəqiqədən sonra Lilparın əks istiqamətdə olan bir parkda olduğunu söyləmişdilər. Onların izinə düşmək mümkün olmamışdı. Bağlantılarda qeydiyyatsız telefonlardan istifadə olunmuşdu. İşə cəlb olunan adamlar Əmirxanın əhatəsindəki bütün adamları araşdırmaqla məşğul idi. Onların ən şübhəlisi Polad idi. Əmirxanın öz oğlu sakit, əlindən bir şey gəlməyənin biri idi. Polad isə qaranlıq, gizli işləri ilə məşhur idi. Atasından ayrı yaşayırdı. Evli

deyildi, günü kazinolarda keçirdi. Bir neçə məşuqəsi olsa da, evində daimi saxladığı Rina adlı bir rus qızı idi. Rina model kimi səhnələrdə çıxış edirdi. Məşhur olmasa da, şou aləmində yetərincə tanınırdı. Poladın "Jeep" markalı qara maşını vardı. Bunu eşidəndə Qərib:

-Maşının nömrəsini öyrənin.

Qəribin yadına düşdü ki, Lilinin itdiyi ilk gün küçədəki dükan sahiblərini, yaxınlıqdakı köşk satıcılarını sorğulayan zaman, tində köşkdə meyvə satan oğlan qara rəngli "Jeep" gördüyünü xatırlamışdı. Bura məhəllənin sonu olduğuna görə, adətən, yol maşınları, təsadüfi maşınlar bura gəlmirdi. Taksilər və maşın sahibi olan sakinlərdən savayı dalana qədər başqa heç kim gəlmirdi. Odur ki, bura gələn "Jeep" oğlanın diqqətini cəlb etmişdi. Nömrəsini xatırlamırdı. Qərib düşündü ki, bəlkə, indi nömrəni görsə, yadına hansısa rəqəmlər düşə bilər.

Bir gün sonra Əmirxanın Elşadla gecə saatlarında görüşdüyü xəbəri gəldi. Artıq Qərib əmin oldu ki, bu işin içində Əmirxan var. Özü yaşlı idi, belə bir oğurluğu özü edə bilməzdi. Məlumdur ki, Polad kimilərinin yardımından istifadə edib. Bununla belə, izləməyi və araşdırmanı davam etdirməyi tapşırdı.

Atabəy ondan soruşdu:

-Neyləyəcəyik, fikrin nədir?

-Hələ heç nə. Qoy rahat olub üzə çıxsınlar. Əmirxan işə gəlirmi?
-Hə, şübhə doğurmamaq üçün hər gün gəlir.
-Bu adamları əldən buraxma. Lazım olacaqlar.
-Yaxşı... Biz də şübhələndiyimizi aşkar etməyək. Elşadla əlaqə yarat. Borc məsələsini dəqiqləşdirək, əmin olaq. Sonra görüş təyin edərik.
-Yəqin ki, borclarını qaytarıb.
-Həə...o dünyaya borclu getmək yaxşı deyil.
Atabəy bir söz demədən ona baxdı. Əmirxanın işə götürülməyində özünü günahkar bilirdi. Bu adamın bu qədər rəzil olduğunu ağlına sığışdıra bilmirdi. Bu haqda Qəribə deyəndə, Qərib onu sakitləşdirib:
-Sənlik bir iş yoxdu, Atabəy, biz ona borclu idik, borcumuzu adam kimi verdik. Dağınıq adamdı o. Çox dağınıq. Heç özü də bilmir, harda başlayır, harda qurtarır. Belə adamın etibarı olmaz. Gəlib adam kimi danışsaydı, yenə kömək edərdim. Amma o səhv elədi, çox böyük səhv elədi. Məsələyə qadın, namus qatdı. Gərək bunu etməyəydi. Mən evdə başımı qaldırıb qızın üzünə baxa bilmirəm. Nə günahı vardı o uşağın? Qolunu-qanadını vurub yaraladılar. Bütün bunların mənə görə baş verdiyini düşünəndə dəli oluram.
Atabəy:

-Bu, sənin günahın deyil, hər şeyi üstünə götürmə. Sən bu adamın nakişi olduğunu nə biləydin? Mən nə biləydim? Oldu, bitdi. Günah bizdən getdi. Cəzasını layiqincə alacaq.
Qərib:
-Mən onu görmək istəmirəm. Özün danışarsan. Onları öz şirkətlərində bitir ki, şübhə doğurmasın. Pul barədə çalış ki, söz-söhbət yayılmasın. Bu birilərin də pulunu artıqlaması ilə ver, başqa yerdə çərənləməsinlər. Amma tələsmə, əmin ol, sonra. Mən bir-neçə gün burda olmayacam.  Xaricdə ortaqlarımla görüşüm var. Sabah yola düşürəm.
-Yaxşı yol. Həm də bir az dincəl. Buralardan da narahat qalma. Hər şey qaydasında olacaq.

***

Əmirxan təlaşla telefonu açdı. Bir anın içərisində rəngi bəmbəyaz oldu. Bu gecə vaxtı  Atabəynın zəng etməsi heç xeyir əlaməti deyildi. Tərəddüd içində telefonu açdı:
-Alo...
Atabəynın gur səsi eşidildi.:
-Axşamın xeyir, Əmirxan, necəsən?
-Axşamın xeyir... salamalıqdır, şükür Allaha...
-Evdəsənmi? Səninlə görüşmək istəyirdim. Bir məsələ var, danışmaq lazımdır.
- Xeyirdimi? Danışaq də, gəlimmi indi şirkətə?

-Lənət şərə, xeyirdir, xeyirdir... yox, mən indi sənin şirkətin tərəfdə, yoldayam...sən bura gəl, çox uzağa getməyək.

-Həə, noolar...gəlirəm indi.

Atabəyin səsi sakit olsa da, Əmirxan bu zəngin xeyir olmadığını anladı. Sözü var idi, işdə çağırıb deyərdi. Bu gecə vaxtı görüşün altında başqa şey olmasın? Geyinə-geyinə gümanı min yerə getdi. Özünə toxtaqlıq verərək, xofu özündən kənarlaşdırdı. Mən də hər şeydən şübhələnirəm. Qərib burda yoxdur, bəlkə, işdə bir çətinlik olub? Evdən çıxdı, bir taksiyə oturub şirkətinə gəldi. Atabəynın maşını burdaydı, özü də yolun kənarındakı daşın üstündə oturub siqaret çəkirdi. Əmirxan onu görcək sakitləşdi. Yaxınlaşıb salam verdi:

-Salam əleyküm. Səni gözlətdim, deyəsən.

-Əleyküm. Yox, elə indi gəldim mən də. Hava aldım bir az sayəndə.

Əmirxan arxayınlıqla gülümsəyib:

-Keçək içəri.

Atabəy siqaretini daşa basıb söndürdü. Kötüyünü kənara atıb Əmirxanın arxasınca həyətə keçdi. Şirkətin qapısını açıb otağa daxil oldular. Əmirxan işığı yandırdı:

-Keç otur. Buralar baxımsız olub getdi. Gəlmirəm daha buralara.

-Gəlmirsənsə niyə saxlayırsan. Sat getsin.

-Nə bilim, ürəyim gəlmir, bura o qədər zəhmət çəkmişəm ki...deyirəm, bəlkə, nə vaxtsa işlədə bildim.
-Hə, indi imkanın var. Borclarını verdin, kreditlərini qapatdın. Qalan pulu da təzə işə sərf elə.
Əmirxan donuq-donuq onun üzünə baxaraq:
-Nə pulu? Pul nə gəzir?
-Qəribdən aldığın iki milyonu deyirəm. Onun yarısı sənin deyildi?
Əmirxan dili topuq çala-çala:
-Atabəy, sən nə deyirsən? Nədən danışırsan? Bir səhvin olmasın?
-Səhv deyil... Qızı qaçırıb, əvəzinə iki milyon aldığınızı bilirik. Ta başdan bilirik. Qıza görə pulu verdik. Ortada Rizo var. Qərib istəməz ona bir şey olsun. Pul nədir, canından keçər. Eh...Əmirxan...Əmirxan...adam da borcunu belə qaytararmı? Üzümü qara elədin, hər iki dünyada.
Əmirxan:
-Atabəy, oğlumun ölmüşünə, mən eləmədim. Nə qardaşım, nə mən belə şeyin olmasını istəmədik.
-Nə sən, nə də qardaşın istəmədi, amma qardaşın oğluna da mane olmadınız. Sizdən gizli elədi yoxsa? Yoxsa gətirdiyi pulu almadın? Hə?
-O dəyyus heç birimizi dinləmədi. Atabəy, oğlumun ölmüşünə, bizə qulaq asmadı.

-Zəng elə çağır, gəlsin!
-Nə bilim , indi hansı cəhənnəmdədir ?
-Əmirxan!
-Vallah , o gündən sonra onu görməmişəm.
Atabəy  telefonu onun əlinə verdi:
-Zəng elə.
Atabəyin təhdidindən qorxuya düşən Əmirxan əli əsə-əsə Poladın nömrəsini yığdı.
-Alooo...
-Əmi? Xeyir ola bu vaxt?
-Polad, şirkətə gəl. Bir problem var, təcili danışmalıyıq.
-Nə şirkəti? Hansı şirkətə? Bu  gecə vaxtı nə olub, sabah danışarıq də...
-Polad, gəl deyirəmsə, gəl! Bir dəfə də adamın sözünə qulaq as! Təcili danışmalıyıq. Öz şirkətimdəyəm, gözləyirəm.
-Yaxşı...  gələrəm.
-Tez elə!
Atabəy ona baxaraq:
-Hə, maraqlı söhbət olacaq.
Əmirxan əldən düşmüş, heysiz  halda:
-Gələcək indi.
Qapı açıldı. Dörd-beş nəfər idmançı görkəmində olan cavan kişilər içəri girdi. Əmirxan təəccüblə Atabəyya baxaraq:

-Bunlar kimdi?
Atabəy sakit tərzdə:
-Bizim adamlardır. Narahat olma. Mən gedirəm, Əmirxan. Söhbəti bu oğlanlar davam etdirəcək.
Əmirxan məsələnin nə yerdə olduğunu anlayaraq:
-Getmə, Atabəy... Mənim bir günahım yoxdur. Qoy gəlsin, Pöladın özündən soruş.
-Heyf ki, mən sənin qardaşoğlunla tanış ola bilməyəcəm. Istəmirəm yaddaşım zibillənsin. Əmirxan, mən səni adam hesab elədim.Mənim sözümü yerə salmamışdın, mən də əvəzini verdim, Qərib də artıqlaması ilə... Sizsə xalxın namusuna sataşdınız. Təkcə pul məsələsi olsa idi, heç bura qədər zəhmət etməyə də dəyməzdi. Pul dedin, bankda kredit borclarını qapatdı. Gəlib desəydin, səni hədələyirlər, yenə kömək eləyərdik. Bəs sən neylədin? Sən, sənə yaxşılıq edən adamın gəlinini qaçırtdırdın. Və elə bildin ki, bu oğraşlığın cavabsız qalacaq. Yox, Əmirxan, belə olmur, heç vaxt belə olmur. Çaqqal kimi hərəkət edib, özünü tülkülüyə vurma!
Atabəy gələn oğlanlara baxıb qapıya tərəf getdi.
Arxadan Əmirxan onu səslədi:
-Atabəy, getmə...qurban olum, dayan, bir məni dinlə...Atabəy!!!

Atabəy qapını çırparaq pilləkənləri düşdü. Həyətdən keçib küçəyə çıxdı. Maşınına minərək küçənin başına sürdü. Qaranıq döngəyə girib saxladı və gözləməyə başladı.
Az keçmədən küçənin başında qara "Jeep" göründü. Gələn Polad idi. Maşınını şirkətin qarşısında saxlayıb düşdü və cəld addımlarla binaya girdi. Saatına baxdı, beş dəqiqə gözləyib, maşınını işə saldı və buradan uzaqlaşdı. Yalnız uzaqdan göyə yüksələn alovun şölələrinə baxaraq öz-özünə:
-Ehhh, çərxi fələk...

***

Rizonun gəlişindən sonra Gülüyə sanki qol-qanad gəldi. Hər şeyi unudaraq toy tədarükünə başladı. Həm Qəribə, həm də Rizoya "nə qədər tez olsa, yaxşıdır",- deyib,qudalarını da razı saldı . Lili hələ də Gülügildə qalırdı. Əslində, hər şey hazır idi. Rizonun evini Gülü bəzəyib səliqəyə salmışdı. Mebellər, pərdələr, xalçalar - hər dəstgahı ilə zövqlə seçilib tamamlanmışdı. Tezliklə toy edib onları öz evlərinə köçürmək istəyirdi. Məhlənin həndəvərində, küncdə-bucaqda xısın-xısın danışılan şaiyələrə birdəfəlik son qoymaq lazım idi. Toy gününü qərarlaşdırıb təyin etdilər. Gülü "uşaqlar nəzərə gələr"- deyə, çox da təmtəraqlı məclis istəmirdi. Rizo Lilparla

mağazaları gəzib gəlinlik və bəylik kostyumu aldılar. Gülünü qarışmayacağı tək şey- onların geyimi idi:

-Könlünüz necə istəyir, nəyi bəyənirsiz, onu da geyin.

Lilpar utana-utana:

-Rizoya da dedim, mən evimizdən çıxmaq istəyirəm. Qırmızı kəlağayı da almışıq. Restorana üzü duvaqlı gəlmək istəyirəm.

Gülü onu qucaqlayıb öpərək:

-Mənim gözəl gəlinim, ağıllı gəlinim...danışanda ürəyimin içindən danışır. Nə təhər arzu edirsiz, o cür edin. Mən demirdim ki, deyəcəksiz, bu geridə qalıb, indi dəb başqadı...Madam özünüz istəyirsiz, biz beşəlli razı...qoy, görsünlər ki, abır-həya dəblə dəyişmir.

Rizo:

-Lili həmişə deyir elə, gəlin duvaqlı olar.

Lilpar:

-Bilirəm, restoranda üzü duvaqlı oturmazlar. Amma heç olmasa, gəlib oturana qədər.

Gülü:

-Allah könlünüzə görə versin. Allah xoşbəxt eləsin. Bir yerdə qarıyıb- qocalasız!

Özünü nə qədər tox tutsa da, çox kövrəlirdi Gülü. Sanki içindən əriyib gedirdi. Uzaq olmasa da, küçənin başı da olsa, elə bil Rizonu uzaq bir yerə yola salırdı. Bir tərəfdən sevinir, o biri tərəfdən onu gözləyən dəyişiklikdən içi

titrəyirdi. Toy günü yaxınlaşdıqca Rizo da darıxırdı elə bil. Bu dəyişikliyin astanasında özünü itirən kimi idi. Anasından ayrı evdə yaşayacağını düşündükcə, nigaran duyğular ürəyini sıxırdı. Bu dünyada anasından başqa heç kimi yox idi. Qəribi də çox istəyirdi. Amma Qərib atası deyildi, ən yaxın dostu, sirdaşı idi. Gülünün qucağına sığınaraq:

-Sən də gəl bizimlə, sənsiz getmək istəmirəm heç...

Gülü onun saçlarını sığallayaraq:

-Boooyy..., a bala, mən hardayam ki, iki addım uzağa gedirsən,  yaxşı ki, qız olmamısan, kəsdirərdin dizimin dibini...

Sonra qəhərini udub:

-İndidən ayrı olsan yaxşıdı, evin yiyəsi olduğunu, hər şeyə cavabdeh olduğunu da  öyrənərsən. Mən də sabah-axşam gələcəm. Səni görmədən yaşaya bilərəmmi heç? Hələ bir nəvələrim olsun, ehhh...

Son günlər tək qalanda Gülünün yadına Rizo doğularkən keçirdiyi həyəcanlar düşürdü. O zaman gənc, kimsəsiz, qucağında körpə, kasıb komada, yerdən salınmış yataqda səhərlər ona o qədər ümidsiz gəlirdi ki! Uşağı yanında qoymaq üçün bir adam belə yox idi. Soyuqda, yağışda, qarda o, Rizonu dalına bağlayaraq  ağır işlər görür, uşağını və özünü doyuzdurmaq üçün səhərdən –axşama qədər əlləşirdi. Gündüzlər evdə heç nə yandırmırdı. Gecə

maşınkaya tökmək üçün bir litr neft və ya salyarka tapanda sevinirdi. Gecələr Rizonu sinəsinə sıxaraq qorxuları və dəhşətləri özündən uzaqlaşdırmağa çalışırdı. Ətrafda hamı kasıb, yoxsul idi. Uşaq bir-iki yaşına çatdıqdan sonra onunla bazara gedir, gündəlik çörək pulu qazanmaq üçün bazarın içindəcə tərəvəz alıb-satırdı. Bir gənc qadının görəcəyi ən ağır işləri görərək, çətinliklə yaşamışdı. İndi o günlər geridə qalıb, onun Rizosu maşallah böyük, laydivar kişidir. Amma hələ də içində köməksiz, kövrək bir uşaq var. Ana-bala bağından başqa, bu dünyada bir-birinə həyan, arxa, arzu və güvən olan iki yalqız insanın biri-birinə ehtiyac bağları var aralarında. Birlikdə yaşadıqları ağır günlərinin bölünməz xatirələrində onlar ruhən ayrılmaz idi. Bəlkə, bu səbəbdən Gülü başqalarına qarşı bu qədər mərhəmətli və şəfqətli idi. İndiki imkanı, zənginliyi, malı-pulu Gülünün həyatında dərin iz buraxmış ehtiyac narahatlığını, sabahkı günün qorxusunu, təlaşını yox edə bilməmişdi.

Amma Gülü bu günkü həyatı üçün, Rizo üçün, Rizonun xoşbəxtliyi, sevgisi üçün Allaha dualar edirdi. Onun böyük arzuları, böyük planları yox idi, həyatının mənası tək Rizo idi. İndi, budur, Rizo evlənir, ailə qurur, öz sevdiyi, könlünə yatan bir qızla həyatını bağlayır. Gəlini də, Allaha çox şükür, halal süd əmmişin biridir, ağıllı, tərbiyəli, savadlı. Bir-iki ilə həkim olacaq, inşallah...Daha

Gülüyə nə lazımdir? Qudaları var, Qərib var... Hərçənd ki, xoşbəxtlik haqqında uzun –uzadı xəyallara dalmaq ona xas deyildi, amma öz aləmində Gülü çox xoşbəxt idi.

Toydan sonra Rizo ilə Lilpar öz evlərinə getdi. Gülü şişmiş ayaqlarını ovxalaya-ovxalaya yorğunluqdan divanda düşüb qaldı. Yalnız səhər açılanda hər şey ona çox sıxıntılı göründü. Yerindən durub Rizonun evinə getmək istədi. Amma bu fikir ona yersiz göründü. Darıxdığından mətbəxə keçib yır-yığışla məşğul olmağa başladı. Qərib yuxudan duranda Gülünü səliqə ilə bəzənmiş stolun arxasında oturmuş görüb:

- Yatmamısan, deyəsən. Qonağın gələcək?

-Yooox... Elə-belə...

Qərib ona diqqətlə baxaraq:

-Darıxma. Yuxudan duran kimi, Rizo qaça-qaça gələcək.

Gülü dolmuş gözünü gizlədərək:

-Nə var gələndə...qoy öyrənsin yurd- yuvasına.

Qərib gülümsəyib stəkandan bir qurtum çay alaraq:

-Gəlməsə, bil ki, utandığındandır...təzəbəydir də...

Gülü qımışaraq başını aşağı saldı. Bu an üzü xoşbəxtliklə şölələndi.

Qərib:

-Axşam onlara baxanda ürəyim açılırdı. Maşallah, çox yaraşırlar biri-birilərinə. Xoşbəxt olsunlar.

Gülü köksünü ötürüb:

-Amin!- dedi.

***

Süräyya

Son aylar bələdiyyə xətti ilə şəhərin kənarındakı qocalar üçün nəzərdə tutulmuş sanatoriya təmir olunurdu. Qərib vaxtaşırı obyektə baş çəkir, təmir işlərinin gedişatı ilə maraqlanırdı. Əlavə olaraq, hər gedişində şəxsi hesabından xeyli miqdarda ərzaq, dərman,tibbi ləvazimat aparırdı. Son tamamlama işləri də başa çatmışdı. Təmir olunan otaqlara yeni avadanlıq alınmış, səliqə -sahman işləri başa çatmışdı. Açılışa bir gün qalmış Qərib yenidən sanatotiyaya baş çəkib əyər-əskiyi özü yoxlamağı qərara aldı. Sabah açılışda hakimiyyətin yüksək səviyyəli məmurları iştirak edəcəkdi. Sanatoriyanın həyətində onu baş həkim qarşılayıb içəri dəvət etdi. Qərib əvvəlcə həyəti dolaşdı, tikinti icraçısına bəzi göstərişlər verib içəri keçdi. Dəhlizi gəzərək otaqlara baş çəkdi. Bəzi otaqlara girib sakinlərlə hal-əhval tutub, ehtiyaclarını öyrənirdi. Otaqların birinin qarşısından keçəndə açıq qapıdan içəridəki adamlara baxdı. Birdən elə bil qanı dondu, ayaqlatı yerə mıxlanıb dayandı. Ola bilməz! Bu- mümkün deyil! Baş həkim ona məlumatlar verirdi. O isə heç nə eşitməyərək içəridəki gənc qıza baxırdı.

-Buyurun,-deyərək baş həkim onu qarşıdakı otağa dəvət etdi.
-Bura inzibati hissədir. Həkim personalı burada yerləşir, qarşıdakı hissə isə labarotoriyadır. Qərib onunla otağa keçdi, amma fikrini heç cür toplaya bilmirdi. Sarsıntı içində baş həkimə:
-Bir dəqiqə... indi gəlirəm,- deyib, həmin otağa qayıtdı. Burada çarpayıda oturmuş yaşlı qadına yardım göstərən tibb bacısına:
-Bağışlayın, siz kimsiz? Qızın ona təəccüblə baxdığını görərək:
-Üzr istəyirəm, yəni adınız nədir?
Qız ona diqqətlə baxaraq, tərəddüdlə:
-Adım Sürəyyadır. Burda işləyirəm. Tibb bacısı.
Qərib:
-Siz məni tanıyırsızmı?
Qız bir qədər utancaqlıqla:
-Xeyr. Ilk dəfədir görürəm.
Bu zaman onun ardınca dabanbasma gələn baş həkim:
-Bu, bizim çox bacarıqlı tibb işçimizdir...Sürəyya.
Qərib gözünü qızdan çəkməyərək:
-Buralısızmı?
Sürəyyə başı ilə təsdiq etdi.
-Bəli.

Baş həkim bu sorğunu sırf işlə bağlı olduğunu hesab edərək:
-Süräyya xanım yeddi ildir bizimlə çalışır. Qərib ona baxaraq daha bir sual vermədi. Pencəyinin cibindən vizit kartını çıxarıb qıza verərək:
-Lütfən, mənə zəng edin. Mən sizinlə danışmalıyam. Oldumu?
Süräyya kartı ondan alaraq təəccüblə baxdı, heç nə anlamayaraq:
-Oldu,-dedi.
Baş həkim başqa xəyallara düşməsin deyə, Qərib dəhlizdə:
-Bizim bir xəstə var, ona baxıcı axtarırıq. Razılaşsaq, onu işə götürərərəm.
Baş həkim:
-Təbii. Bu barədə nə lazım olsa, biz kömək etməyə şad olarıq.
Qərib:
-Çox sağ olun.

Gecə evə gəldikdən sonra da Süräyya Qəribin ağlından çıxmırdı. Bu görüş onun içini, yaddaşını büsbütün silkələyib sarsıtmışdı. Bu- necə ola bilər axı? Qız burada anadan olub. Təcili araşdırmadan öyrəndi ki, qız xəstə, yaşlı anası ilə bərabər yaşayır. Atası uşaqkən rəhmətə gedib. Texnikumu bitirəndən sanatoriyada işləyir.

Subaydır. Buradan başqa ayrı yerə də getməyib.Uzaq qohumlarından başqa kimsəsi də yoxdur. Amma insanın başqasına bu qədər oxşarlığı da ağlasığan deyil. Boy-buxunu, gözlərinin rəngi, dodaqları, təbəssümü , dalğalı gur saçları...yalnız qız anaya , xalaya, ya nənəyə bu qədər bənzəyə bilərdi. Bəlkə, özü bilmir, anasını görmək lazımdır. Evdə o qədər fikirli idi ki, Gülünün verdiyi sualları ya eşiitmir, ya da qısa cavab verərək fikrə dalırdı. Gülü onun xasiyyətinə öyrənmişdi. Belə dalğın vaxtlarda onu narahat eləmirdi. Qərib özü söhbətə başlayanda, danışmaq istəyəndə çox səmimi və diqqətli olurdu. Fikirli olanda, neyləsən də, onu söhbətə çəkmək, nə olduğunu, nə baş verdiyini öyrənmək mümkün olmurdu. Gülü süfrəni yığışdırıb:

-Qərib, mən uşaqlara bir baş çəkim, sən də dincəl.

Gülü getdikdən sonra durub uzandı. Xəyalında yenə Sürəyya canlandı. Yəqin ki, zəng eləyər. Etməsə, səhər yenə ora gedəcək , orda imkan edib söhbət edər. Bəlli ki, qız bir şey bilmir, bəlkə, anasını görməyə getsin? Narahatlıqdan ürəyi sıxıldı, qalxıb pəncərəni açdı. Bu zaman telefonu çaldı. Açıb baxdı.Tanış nömrə deyildi:

-Bəli, eşidirəm.

-Axşamınız xeyir. Qərib müəllim, mənəm, Sürəyya. Dediniz zəng edim sizə.

-Hə, Sürəyya xanım. Axşamınız xeyir. Mənim sizinlə danışmaq istədiyim bir məsələ var. Olarmı sizinlə sakit bir yerdə görüşüb danışaq?
-Nə məsələdir ki?
-Bu, telefon söhbəti deyil. Vaxtınızı çox almayacam.
-Nə bilim,vallah...madam ki, ciddi məsələdir, danışaq.
-O zaman sabah açılışdan sonra mən sizi arayaram. Lütfən narahat olmayın. Mən razı olmaram sizə bir ziyan toxunsun. Sadəcə, mənim öyrənmək istədiyim bəzi şeylər var. Bəlkə,  məlumatınız var deyə, düşünürəm.
-Yaxşı, olsun. Danışarıq.
-Sağ olun, gecəniz xeyrə.
-Siz də sağ olun.
Sürəyya gündüz baş verən hadisəni anasına danışanda :
-Ay qız, Qərib müəllimin səninlə nə söhbəti ola bilər?
-Nə bilim, ay ana, soruşdu ki, mən onu tanıyıram, ya yox?
-Onu kim tanımır ki? Bələdiyyə sədridir. Varlı-hallı adamdır. Onun səninlə nə işi? Başım çıxmadı bu işdən.
-Nəsə soruşmaq istəyir. Burda nə var ki? Danışıb biləcəyik. Quldur –zad deyil ki, ondan qorxaq. Hökumət adamıdır. Sağ olsun, bizim binanı necə gözəl təmir etdirib, nə qədər yardım da edir, sabah da gələcək açılışa.
-Ehtiyatlı ol. Kim olur –olsun, heç kimə inanma. Sən qız xeylağısan, cavansan, göz

əlsən. Bir Allah bəndəsi qəhət oldu bizə, bircə səni köçürtsəydim, arxayın olardım, gözüm arxada qalmazdı. Xəstə adamam, bu gündən sabaha ümidim yoxdu.

-Yenə başlama, ay ana.

-Allahın işinə də mat qalmışam, əyrilər-üyrülər, korlar-keçəllər ərə gedir, mənim gül kimi işıq saçan qızımın baxtı yatıb. Bilib deyiblər də, gözəl taxtım olunca, gözəl baxtım olsun. Nə bilim, qurban olduğum özü bilər. Özü yaradıb, özü də qaydına qalsın. Mən nə deyim?

Sürəyya bir söz demədən qalxıb çölə çıxdı. Anası deyinməsin deyə, telefonu gizlində cibinə qoydu. Artıq neçə illər idi, bu sözlərə öyrənmişdi Sürəyya. Artıq özü də qəlbində incik idi bəxtindən. Gözəl idi, yaraşıqlı idi, hər kəsə hörmət edirdi, qayğıyla yanaşırdı. İşdə başına and içirdilər. Qız dostlarının hamısı ailə qurmuşdu. Uşaq böyüdürdülər. Sürəyya isə gözləyirdi. Sanki həyat ona toxunmadan axıb gedirdi. Sanki zaman onu görmürdü. O, içindən solduğunu hiss edirdi. Qəlbi qırılırdı. Bəzən insanların diqqətsizliyini öz kasıblığında, atasızlığında görürdü. Üzdə tərbiyədən, mənəvi zənginlikdən bəhs edənlərin hamısı ,əslində, varlı, imkanlı ailənin qızı ilə evlənirdi. Məktəbdə də, texnikumda da, qızların ən gözəli o idi, qızlar onun boyuna, qamətinə, saçlarına, qaş-gözünə həsədlə baxırdılar. Ağır təbiətli olduğundan hər kəsə üz də vermirdi. Onun sığınacaq heç kimi yox idi. Uşaqlıqdan

anası onu göz-bəbəyi kimi qoruyurdu, dünyada o qədər haramzada adam var ki...arxasız idilər, kimsələri yox idi, odur ki, Mənzər onu baş verə biləcək bütün təhlükələrdən uzaq tuturdu. Anası məktəbdə xadimə işləyirdi, sonra şəkər xəstəliyinə tutuldu. İşdən çıxmalı oldu. Sürəyya yaxşı oxuyurdu. Amma imkansızlıqdan texnikuma girməli oldu. Yaxşı ki, bunu edib bir sənətə yiyələndi. İndi özünü də anasını da pis-yaxşı dolandıra bilirdi. Kiçik, yoxsul da olsa, evləri var idi. Amma hər gün səhərləri ümidlə açırdı. Sevgisini gözləyirdi. Onun ürəyi sevgi acı idi.

Bu gün baş verən hadisə onu çaş- baş salmışdı. Qəribin qəfil marağı ona çox təəccüblü gəlirdi. O, gedəndən sonra iş yoldaşlarından onun haqqında soruşub öyrəndi. Hər kəs onu tanıyırmış. Sürəyya siyasətlə maraqlanmırdı, qəzet oxumağa da heç vaxtı olmurdu. İşdən gedəndən sonra da yaxınlıqdakı evlərdə passientləri olurdu. Onlara ya iynə vurur və başqa tibbi müalicələr edirdi. Əlavə qazancı olmasa idi, tək maaşla dolana bilməzdilər. Anasının təqaüdü kommunal xərclərə və dərmanlarına zorla çatırdı. Sürəyyanın az miqdarda olan maaşı yeməklərinə gedirdi, osa gənc qız idi, paltar, ayaqqabı, gündəlik xərclər üçün Sürəyya əlavə də işləməli olurdu. Bütün bunlar ona ağır gəlmirdi. Həyat dolu, zirək qız idi. Əvvəldən çətinliklərə alışmışdı. Bilrdi ki, həyatda nəyə isə nail olmaq üçün, yaxşı yaşamaq üçün insan daim zəhmət çəkməli, mübarizə

aparmalıdır. Onun yüksəkliklərdə gözü yox idi, həyatından razı idi, tək arzusu, yaxşı bir insana rast gəlib, ailə qurmaq idi. Qəribin evli olduğunu, böyük şirkət rəhbəri olduğunu biləndə marağı daha çox artdı. Bu kişinin onunla nə işi ola bilər axı? Telefonla danışandan sonra evə girib yatmağa hazırlaşdı. Anası artıq yuxulamışdı.

Səhər açılış bitəndən sonra Qərib Sürəyyaya zəng edib danışdı, küçənin başında onu gözləyən qızı da götürüb maşınını gözdən uzaq, sakit bir restorana sürdü. Bura ağaclarla əhatələnmiş, get-gəli az olan bağ idi. Heç kimin görmədiyi guşəyə çəkilərək əyləşdilər. Qərib ofisianta sifarişlər verib Sürəyyaya:

-Bura gözəldir, deyilmi?

Qız ətrafa nəzər salaraq:

-Çox...adam heç inanmır ki, şəhərdə belə bağlı-bağatlı yer var.

Qərib gülümsəyib qızı süzdü.

Sürəyya, ən yaxşı paltarını geyinib, bəzənmişdi. Əynində zoğalı və qara rənglərin qarışığından ibarət, zövqlə tikilmiş paltar var idi. Saçları kürəyinə, sinəsinə tökülmüşdü. Parlaq, hamar dərisi, məxmər kimi adamı özünə hopduran gözləri, zərif qaməti, incə beli, açıq sinəsi o qədər cazibəli idi ki, Qərib gözünü ondan zorla çəkərək qarşısındakı boşqaba baxdı. Qəfildən:

-Sevgiliniz və ya nişanlınız varmı?
Sürəyya əvvəl bu birbaşa sualdan çaşdı, sonra gülümsəyərək:
-Yoxdur,-dedi.
Qərib onun dolğun dodaqlarına baxıb gülümsəyərək:
-Niyə? Belə gözəl, cazibədar qızsız, nə əcəb sizi rahat buraxıblar.
-Nə bilim... ağ atlı oğlan hələ gəlib çıxmayıb. Belə getsə, deyəsən, heç gəlməyəcək...gülərək, əlavə etdi, -hardasa yolunu azıb, deyəsən...
Qərib ciddiləşərək:
-Yəqin, təəccüb edirsiz ki, sizinlə nə danışacam. Siz mənə, çox sevdiyim birini xatırladırsız...o qədər bənzəyirsiz ki, sizin başqası olduğunuzu qəbul etmək belə çətindir. Bilirəm, o deyilsiz, ən azından yaş fərqi var arada, sizdən çox böyük idi...məsələn, ananız yaşında, ya xalanız...siz əminsizmi başqa yerdə yaxın qohumunuzun olmadığına?
Sürəyya onun gözlərinin içinə baxaraq:
-O sizin sevgiliniz idi?
Qərib narahatlıqla yerində qurcalandı.
-Necə deyim...yaxınım idi, sonra mən onu itirdim. Deyirəm, bəlkə, hardasa qohumunuz olar...üzr istəyirəm, belə oxşarlıq ancaq qan qohumluğundan olar...
Sürəyya:

-Anam burada anadan olub, yaxın kənd var, sonra atamla evlənib, şəhərdə olduğumuz evə köçüblər. Atam mən uşaqkən qəzada öldü. İşdə. Xalam isə olmayıb. Anam da mənim kimi tək olub. Sonra anam xəstəliyi ucbatından işə gedə bilmədi. Şəkərdir. Həm də yüksək təzyiqi var. Yaxşı ki, mən tibb işçisiyəm, ona qulluq edirəm. Əslində, arzum həkim olmaq idi. Amma mənim vəziyyətimdə olan qız gərək böyük xəyallar qurmasın. İnanmıram ki, bizim hardasa yaxın qohumumuz olsun. Olsaydı, mütləq sözü keçərdi söhbətlərdə. Yay tətillərində gedib kənddə nənəmlə qalırdım. Nənəm keçmişlərdən danışmağı sevirdi. Bəzən bir şeyi dəfələrlə danışırdı. Amma mən hər dəfə maraqla qulaq asırdım. Yenə də anamdan soruşaram, bəlkə, nənəm tərəfdən başqa yerə gəlin gedən olub? Oxşarlığa gəlincə, bəzən olur belə şeylər. Məndə də olur bəzən, ilk dəfə gördüyüm adamı hardansa tanıdığımı düşünürəm. Hə, anam da, qohumlarımız da mənim ata nənəmə, bibimə daha çox bənzədiyimi söyləyirlər. Bibim yazıq çox gənc, uşaq üstə ölüb. Nənəm də övladlarının itkisinə tab gətirə bilmədi. Nədəndirsə, heç bizdə qocalıb ölən yoxdur, hamısı cavan- cavan gedib. Uzunömürlülük də genlədir.

Ofisiant yaxınlaşıb gətirdiyi yeməkləri stolun üstünə düzərkən, Süreyya susub ətrafa baxmağa başladı.

Qərib  Sürəyyaya baxa-baxa düşündü ki, insan kim olur-olsun,  hər kəsin öz dünyası var. Sürəyya da öz həyatı, taleyi ilə təkbaşına mübarizə aparan, ayaqları üzərində özü durmağı bacaran isanlardandır. Həyatda az şey görməyinə baxmayaraq, yaşından böyük təcrübələrdən danışır. Bəlkə, bu daxili qüvvə onun arxasızlığından irəli gəlir?

Qərib:

-İşindən xoşun gəlirmi?

Sürəyya canlanaraq:

-Əlbəttə. Mən insanlarla ünsiyyətdə olmağı sevirəm. Bizdə, xüsusən köməksiz, xəstə, aciz insanlardır.  Əsl, onlara qayğı və kömək lazımdır. Orda biz ailə kimiyik.

-İş barədə  sizə kömək edə bilərəm. Fikirləşin, əgər istəsəniz, daha rahat, qazanclı iş tapa bilərəm sizin üçün.

Sürəyya:

-Yox... mən öyrənmişəm artıq onlara... heç təsəvvür edə bilmirəm, hardasa, başqa yerdə işləyə bilərəm.

-Hə, öyrəşdiyin şeylərdən ayrılmaq çətin olur, amma hər işə də öyrənmək mümkündür. Buyurun, başlayın. Nahar vaxtı çoxdan keçib, mən çox acmışam. Sizə nə verim, su, ya şirə?

-Su, zəhmət olmasa.

Qərib onun və özünün qədəhinə su tökdü. Sürəyya qaşığı götürüb boşqabına salat qoyaraq:

-Mən də nahar eləməmişəm. Biz orda mətbəxdə yeyirik. Həmişə isti çayımız var.
Süreyyanın sərbəstliyi və səmimiliyi Qəribə xoş gəlirdi. Ağlından keçirtdi ki, bu qız özünə çox arxayındır. Qəribə inamlı davranması, heç bir şübhə biruzə verməməsi onun daxili gücünü göstərirdi. Qəribə heç bir sual vermirdi, əlavə şeylər soruşmurdu. Yemək zamanı yalnız işi ilə bağlı şeylərdən danışırdı.
Qərib fikir verdi ki, barmaqlarında, boynunda heç bir bəzək əşyası yoxdur. Təkcə qulaqlarında ametist qaşlı sırğa var idi. Ola bilsin bürc daşı olduğu üçün bunu seçmişdi. Qadınlar belə şeylərə çox önəm verirlər, üstlərində qoruyucu əşyalar, talismanlar gəzdirməyi sevirlər.
Qərib anladı ki, işdə yaşlı, problemli insanlarla ünsiyyət Süreyyanı vaxtından əvvəl böyüdüb. Belə gözəl gözlərin, dodaqların sahibi özünü doğrudanmı unudub, doğrudanmı yalnız başqalararı haqqında düşünür? Bəlkə, yad kişinin qarşısında bu məsafə qoymaq, yaxına buraxmamaq üçün düşünülmüş bir üsuldur? Necə olsa, Qərib onun üçün yad , tanımadığı bir kişidir. Hər qarşısına çıxana şəxsi həyatından, istək və arzularından danışmayacaq ki?
Çaydan sonra Qərib:
-Sizin vaxtınızı aldım, amma deyim ki, tanış olmağımıza hədsiz məmnunam. Xahiş edirəm məni özünüzə yad

bilməyin. Bir çətinliyiniz, probleminiz olsa, çəkinmədən zəng edin. Sizin kimi şəfqətli, ağıllı dost qazanmaq çox xoşdur mənə.
Sürəyya gülümsəyərək:
-Mən də məmnun oldum. Düzü, əvvəl bir az narahatlığım var idi. Keçdi. Həm burada, gözəl məkanda xeyli dincəldim. Nahar üçün təşəkkür edirəm. Yenə də sizə bir köməyim dəyə bilsə, şad olaram.
Yolda Qərib işindən, planlarında danışırdı. Sürəyya diqqətlə qulaq asır, arada öz münaibətini də bildirirdi.
-Bizim də sanatoriyanın sahəsi böyükdür. Həkimlər də deyir, passientlər də, orda gözəl bağ salmaq olar, xarici filmlərdə görmüşəm, belə yerdə passientlərdə özünü əlil, xəstə kimi hiss eləməz, bağda dincələrlər, ağaclara, güllərə qulluq edərlər. Baş həkimsə,orda heç nə bitməz,-deyir. Su yoxdur, şoranlıqdır.
Qərib:
-Niyə bitmir, istəsən, hər şey eləmək olar. Bizə müraciət eləsəydi, kömək edərdik. Ağac da alıb verərdik, su çəkdirərdik. Mən bunu nəzərimdə saxlayaram.
Sürəyya sevinərək:
-Nə gözəl olardı bu. İnanırsız, bunu nə qədər adam arzulayır?
Qərib ona baxaraq gülümsündü. Həyatla dolu olan bu gənc qız onda xoş hisslər oyadırdı.

Evlərinə çatanda Sürəyya:

-Burada saxlayın, küçəyə girməyək, mən burda ensəm yaxşıdır. Bizim qonşular çox maraqlıdır. O qədər sual verəcəklər ki, mən də yalan danışmaq məcburiyərində qalmayım.

Qərib:

-Aha. Necə istəyirsiz. Təkrar məni qırmadığınız üçün, söhbət üçün təşəkkür edirəm. Sizinlə çox xoş oldu mənə.

Sürəyya maşından düşərək:

-Siz də sağ olun.

Sürəyya gülümsəyərək qapını örtdü.

Qərib maşını işə salıb uzaqlaşdı. Güzgüdən Sürəyyanın onun ardınca baxdığını gördü.

Öz-özünə:

-Yaxşı qızdır, – deyə düşündü.

***

Bu görüşün üstündən bir neçə gün keçməsinə baxmayarq, Qərib ona daha zəng etmədi. Gündüzlər başı işinə qarışır, gecələr onu xatırlasa da, zəng eləməyi düşünmürdü. Gənc qızı narahat etmək, duyğulandırmaq istəmirdi. Keçmiş keçmişdə qaldı. Bu qızın onun xatirələri ilə heç bir əlaqəsi yox idi. Həyat, zaman öz axıarında idi. Bəlkə də, bu təsadüf də unudulub gedəcəkdi, Qərib bir daha Sürəyya ilə görüşməyəcəkdi. Amma gözləmədiyi halda, bir gün Sürəyya ona zəng vurdu.

Qərib telefonu açaraq:
-Bəli.
Xəttin o başından tərəddüdlü, həyəcanlı səs gəldi:
-Qərib müəllim, sizsiz? Mənəm, Sürəyya. Salam.
-Salam, Sürəyya. Necəsiz?
-Qərib müəllim, zəng edib sizi narahat etmək istəməzdim. Amma çox çətin vəziyyətdəyəm. Ağlıma sizdən başqa kimsə gəlmədi.
Qərib tələşla:
-Nə olub, Sürəyya?
-Anamın halı pisləşib. Amma onu klinikaya qəbul etmirlər.
-Necə yəni qəbul etmirlər?
-Yəni, vəziyyəti çox ağırdır. Şəkəri çox yüksəkdir. Ayağı qanqrena edib. Nə bilim, heç bilmirəm, neyləyim?
-Yerini söylə, indi gəlirəm.
Sürəyya klinikanın ünvanını söylədi. Qərib kabinetindən çıxaraq, tələsik həyətə düşdü, maşınını xəstəxanaya sürdü. Klinikaya daxil olduqda foyedə Sürəyyanı görüb yaxınlaşdı.
-Hardadır ananız?
-Burda, palatada. O, otura bilmir, halı pisdir, amma qəbul etmirlər. Müayinə etdilər, dedilər evə getsəniz yaxşıdır, ona isə indi təcili yardım lazımdır.
Qərib:

-Yaxşı, sən gözlə burda, mən baş həkimlə danışım, vəziyyəti öyrənim. Qərib yuxarı qalxıb, inzibati hissədə baş həkimlə görüşdü. Vəziyyəti izah edib həkimdən açıqlama istədi. Baş həkim müayinə edən həkimi kabinetinə çağırıb, Mənzərin vəziyəti haqqında ondan məlumat istədi. Həkim:

-Vəziyyəti çox ağırdır. Şəkəri ən yüksək həddədir, təzyiqi də düşürə bilmədik, ayağının qanqrenası çox irəliləyib. Biz onu götürsək də, belə vəziyyətdə çox davam gətirməyəcək.

Qərib təəccüblə soruşdu:

-Belə ağır vəziyyətdə olan xəstəni qəbul etməmək nə deməkdir? Müalicə üçün heç bir təşəbbüs göstərmədiyiniz adamı ölümə məhkum edirsiz. İnana bilmirəm, bu cinayətdir axı.

Baş həkim:

-Səbrli olun, Qərib müəllim. Mən indi göstəriş verərəm, onu reanimasiyaya götürsünlər.

Müalicə həkimi:

-Biz bütün analizləri etdik. Qanqrenanı dayandırmaq üçün tək bir yol var, əməliyyat eləməliyik. Onun da nəticələrinə zəmanət verə bilmərik. Qızı da kəsməyə icazə vermədi.

Qərib:

-Siz onu reanimasiyaya götürün, ilkin müalicəni edin, şəkərini, təzyiqini salın, sonra əməliyyat barədə danışın. Heç bir şey etmədən xəstənin ölüm qərarını verirsiz.
Baş həkim yerindən durub:
-Gedək, siz də xəstəni təcili reanimasiyaya köçürün. Nə lazımsa edin, madam, əməliyyat qaçılmazdır, onu da edərik.
Qərib aşağı düşdü. Sürəyya onu görüb qabağına yüyürdü:
-Nə deyirlər?
-Vəziyyəti ağırdır. Çox təəssüf edirəm. İndi reanimasiyaya qaldıracaqlar. Niyə birdən-birə bu vəziyyətə düşüb?
- Axır üç gündə qəfil şəkəri qalxdı, həmişəki dərmanlarını verirdim, iynəsini də vururdum, kömək eləmədi. Ardınca ağaqları şişdi, dünən gəldik həkimə, o da müalicə yazdı. Axşam ayağı sürətlə qızarmağa başladı. Şəkər belədir, qəfil artır. Bu gün səhərdən də buradayıq, analızləri götürdülər, sonra dedilər, gedin evə. Mən onu evə-hara aparım ki, bu vəziyyətdə?
-Narahat olma, nə lazımdır, edəcəklər. Ayağını əməliyyat etmək istəyirlər.
-Hə. Onu etsələr, yerinin sağalmağına heç bir zəmanət yoxdur.
-Başqa variant da yoxdur, kəsilməsə, daha pis olacaq...
Sürəyya başını aşağı salıb:
-Biliрəm. Amma...

-Bəlkə, izn verəsiz, yaşaması üçün yeganə şansdır,- deyirlər.

-Bilmirəm. Başqa əlac yoxsa, nə edim?

Əlləri ilə üzünü örtərək oturdu. Qərib də onun yanında əyləşdi.

-Bu qədər  həyəcanlanmayın, özünüzü ələ alın. Siz güclü qızsınız. Hər şeyin yaxşı qurtaracağına ümid edək.

Sürəyya başını tərpədərək:

-Çox sağ olun.

-Mən bir həkimlərlə danışım, indi gəlirəm.

Qərib reanimasiya  şöbəsinə gedərək, müalicə həkimini tapdı. Onu dəhlizə çağıraraq:

-Doktor, necədir vəziyyət, doğrudanmı heç bir ümid yoxdur?

-Hansı həkim xəstənin ölümünü istər? Onun göstəriciləri çox kritikdir. Belə halda yüzlərlə xəstəmiz olub. Azacıq ümid olsaydı, biz onu səhər götürərdik, yenə Allaha pənah. Əlimizdən gələni edəcəyik, amma yenə deyirəm, siz ən pis xəbərə də hazır olun.

-Siz hər şey edin, əlinizdən gələni də, əlinizdən gəlməyəni də. Lazım gəlsə, cərrahi əməliyyat da edin. Nə yardım gərək olsa, çəkinmədən söyləyin.

-İndi reanimasiyadadır. Qanqrena əleyhinə iynələr vurmuşuq, hər şey saatlardan asılıdır.

Həkim bunu söyləyib içəri getdi. Qərib Sürəyyanın yanına gələrək:
-İynələr vurublar. Gözləyək görək nə olur?
-Sizi də işinizdən elədim. Siz gedin, bir xəbər olsa, mən zəng edib deyərəm.
Qərib ona diqqətlə baxaraq:
-Siz məni bu vəziyyətdə qoyub gedərdizmi?
Sürəyya qəmli-qəmli gülümsəyərək:
-Getməzdim,- dedi.
Yaşla dolmuş gözlərini gizləmək istəsə də, alınmadı. Göz yaşları yanaqlarından yuvarlanaraq süzüldü.
Qərib şəfqətlə onun çiynini qucaqlayaraq:
-Üzülməyin... hər şey yaxşı olacaq.

***

Gecə Qərib həyətə çıxaraq, Gülüyə zəng edib, işlə əlaqədar başqa yerdə olduğunu, evə gələ bilməyəcəyini söylədi. Belə ağır vəziyyətdə Sürəyyanı xəstəxanada tək qoyub getmək olmazdı. Hər dəqiqə bir şey ola bilərdi. Bu gənc qız tək-tənha neyləyə bilərdi?
Sürəyyanı təkidlə klinakanın bufetinə apardı, çay içdilər. Sonra Qərib növbətçi həkimlə görüşdü. Vəziyyət təhlükəli olaraq qalırdı. Gecəyarısı növbətçi tibb işçilərinin vurnuxaraq ora-bura qaçmasından şübhələnib, yenidən reanimaiyaya getdi. Növbətçi həkim bildirdi ki, xəstə koma vəziyyətinə düşüb.

Qərib:
-Doktor, bu çoxmu pisdir?
-Pisdir. Xəstə komadan çıxa da bilər, çıxmaya da bilər. Belə vəziyyətdə ayılmağı çətin...Allaha pənah.
Qərib aşağı düşərək Sürəyyaya bu barədə heç bir şey demədi.
Sürəyya:
-Qərib müəllim, danışın, məni buraxsınlar anamın yanına. Axı, mən də tibb işçisiyəm, yanında oturum, lazım olan dərmanları verim.
Qərib:
-Heç kimi buraxmırlar. Mən də doktorla dəhlizdə danışdım. Desəm də, icazə verməzlər. Siz ki, qayda-qanunu yaxşı bilirsiz.
-O zaman siz gedin. Doğru sözümdür, iş adamısız, evdə də narahat qaldılar, yəqin ki.
Mən yaxşıyam. Səhər də rəfiqəmə deyərəm, gələr, burda olduğumu bilmir.
-Bu barədə danışdıq artıq. Səhərə qədər gözləyək.
Səhər vəziyyət dəyişmədi. Sürəyya anasının komaya girdiyini öyrənəndə rəngi sapsarı saraldı:
-Vəssalam. Çətin o bu vəziyyətdən çıxa bilə.
Qərib bir şey edə bilmədiyi üçün çox kədərli idi.
Sürəyya:

-Mənim ondan başqa heç kimi yoxdur. O getsə, mən neyləyəcəm?
Qəribin gözlərinə baxaraq əlacsız halda susdu.
Qərib ona ürəkdən acıyırdı. Doğrudan da, tək doğma adamını itirmək dəhşətli hissdir. Nə edəcəyini, nə deyəcəyini bilmədən susdu.
Həyətə çıxıb işə zəng etdi. Atabəydan vəziyyəti soruşdu. Atabəy:
-Qərib, səni gözləyirik, sənədləri imzalamaq lazımdır.
-Yaxşı, bir azdan gəlirəm.
Süräyyanın yanına qayıdaraq:
-Mənim işə getməyim lazımdı. Təxirəsalınmaz işlər var. Onları qaydaya salıb gələcəyəm.
Süräyya:
-Gedin, lütfən, mənə görə işinizdən qalmayın. Kim bilir, bu koma vəziyyəti nə qədər davam edəcək.
Qərib baş həkimlə danışıb getdi. Onların hamısı vəziyyətin ümidsiz olduğunu söyləyirdi.

Qərib işə gedib,telefonla sanatoriyanın baş həkimi ilə danışdı. Necə olsa, Süräyya oranın işçisi idi. Müavininə dəfn işləri məşğul olmağı tapşırdı. Sonra evə gedib paltarını dəyişdi. Çörək yeyib bir qədər uzandı. Nə zaman yuxuladığını hiss etmədi.

Günorta işə dəyib, oradan klinikaya yollandı. Süräyya tək deyildi, yanında bir rəfiqəsi və kənddən gəlmiş iki

qohumu var idi. Vəziyyət dəyişməz olaraq qalırdı. Sürəyya çox yorğun və üzülmüş görünürdü.
Qərib onun yanında oturaraq:
-Sürəyya, sən bir evə gedib bir az dincəlsə idin. Biz burdayıq. İstəyirsən, səni aparım.
Sürəyya başını buladı. Zəif səslə:
-Onu qoyub gedə bilmərəm. Qərib müəllim, anamı görmək istəyirəm. Deyin, icazə versinlər mənə.
Qərib bir söz söyləmədi. Sürəyya artıq vəziyyətin çıxılmaz olduğunu qəbul etmişdi.
Qərib qalxıb baş həkimin kabinetinə getdi. Baş həkim onu görcək yerindən qalxdı:
- Qərib müəllim, xəstə nəzarətimdədir, amma çox təəssüf edirəm, biz bir şey eləyə bilmədik.
Qərib:
-Bilirəm. Vəziyyət pisdir. Amma mən sizdən başqa bir şey xahiş etmək istəyirəm.
-Buyurun.
-Xəstənin qızı burdadır, nə halda olduğu məlumdur. Anlaşılan ki, sona qədər buranı tərk etməyəcək. Şərait yaradın, anası ilə vidalaşsın. Bir də, imkan varsa, bir palatada bir qədər dincəlsin. Taqəti qalmayıb daha.
-Bu asan məsələdir, göstəriş verərəm indi, maraqlanarlar.
-Çox sağ olun. Əlimizdən başqa şey gəlməz, heç olmasa, qayğı göstərək.

- Əlbəttə.
Qərib aşağı düşüb Sürəyyaya:
-İndi səni aparacaqlar reanimasiyaya. Ananla görüşə bilərsən. Həm bir az dincəlsən, yaxşı olar. Hələ vəziyyəti bilmək olmaz. Hə, sənə bir şey də demək istəyirəm. Bu gecə xaricə uçmalıyam. Bağışla...bu məcburiyyətdir.
Sürəyya minnətdarlıqla ona baxaraq:
-Siz, həqiqətən, çox şey etdiniz, çox minnətdaram sizə. Həm də tək deyiləm daha. Məndən nigaran qalmayın.
-Zəng edəcəm amma. Çox təəssüf edirəm.
Qərib xəstəxanadan çıxıb evə gəldi. İş səfəri vardı, bir az dincəlib hazırlanmağa başladı. Gülü onun paltarlarını, lazım olan əşyalarını səliqə ilə çantaya yığdı.
-Çox yorğun görünürsən, xəstə deyilsən ki?
Qərib ona baxaraq:
-Yox, yaxşıyam, bir az yorğunam, dincəlsəm, keçəcək...
Bir azdan Rizo gəldi. Qəribi hava limanına aparıb yola salacaqdı. Qəribin işləri artdıqca Rizo şirkətə rəhbərlik edir, idarəçiliyi öyrənirdi. Bunu ən çox Qərib istəyirdi. İşlərin əhatəsi genişləndikcə Qəribə daha çox sədaqətli, etibarlı adamlar lazım olurdu. Onlar artıq həmyaş dostlar kimi idilər. Rizo Qəribdən çox şey öyrənirdi. Qərib hava limanında Rizo ilə görüşüb ayrıldıqdan sonra Sürəyyanı aradı. Telefonu qapalı idi. Baş həkimin nömrəsini yığdı:

-Salam. Qərib müəllimdir. Xəstənin vəziyyətində bir dəyişiklik varmı?
-Axşamınız xeyir, Qərib müəllim. Xeyr, heç bir irəliləyiş olmadı. Vəziyyət həmin olaraq qalır.
-Süräyya telefonu açmayınca, başqa şey düşündüm.
-Həkimlər ona sakitləşdirici vurublar, palatadadır. Dedik gecəni yatsın, bir az dincəlsin.
-Hə, bu, yaxşı oldu.
-Səhər ayılacaq bir də.
-Yaxşı, çox sağ olun. Gecəniz xeyirə qalsın.
-Gecəniz xeyirə.

***

İş görüşmələrindən, toplantılardan vaxt tapan kimi Qərib zəng edib Mənzərin vəziyyətini soruşurdu. Qadın üç gün komada qaldıqdan sonra dünyasını dəyişdi. Qərib bunu bilən kimi, müavininə zəng edib dəfnin bütün xərcini və ehtiyaclarını öz üzərinə götürməyi tapşırdı. Süräyyaya zəng edib, başsağlığı verdi. Uzaqdan da olsa, onun bu diqqəti Süräyya üçün böyük təsəlli idi. Dəfnin bütün ağırlığını üzərinə götürdüyü üçün ona minnətdarlığını bildirdi. Qərib olmasaydı, bütün bunların öhdəsindən necə gələcəyini düşünəndə dəhşətlənirdi. Iş yoldaşları, qonşular, qohumlar bacardıqları qədər ona yardımçı oldular. Süräyya üçün bu çox böyük, yeri həmişə göynəyəcək bir itki idi. Atası vəvat edərkən uşaq

idi, hiss etdikləri yadına gəlmirdi, təkcə onun yoxluğunun acısını çəkirdi. Anası isə onun həyatının yeganə sevgisi idi. Hamı dağılandan sonra gecələr daha dəhşətli olurdu. Tək-tənha neyləyəcəyini bilmirdi. Özü də hiss eləmədən Qəribi düşünürdü. Belə ağır vaxtda onun təsəllisi yalnız Qərib və Qəribin ona göstərdiyi qayğı idi. Amma bu- yalnız mərhəmət, şəfqət, qayğı və diqqət idi. Gənc qızın qəlbi isə daha dərin duyğularla döyünürdü. Özündən uzaqlaşdırmaq istədikcə biixtiyar onu xatırlayır, içində onunla danışırdı. Hiss edirdi ki, bu düyğuların içində əriyib gedir, özünə, hisslərinə gücü çatmırdı. Gecələri səhərə qədər bu bağlantının, əlaqənin doğru olmadığını düşünsə də, bir an keçməmiş özünü duyğularının, hisslərinin axınında görürdü. Qərib evli kişi idi, onunla heç bir gələcək mümkün deyildi. Süraəyya bir qadın instinkti ilə hiss edirdi ki, Qərib ona biganə deyil, gözlərində, baxışlarında, təbəssümündə güclü cazibə onları bir-birinə doğru çəkir, amma eyni zamanda, arada bir məsafə, keçilməsi mümkün olmayan bir sədd var idi. Bütün bunları düşünsə də, Süraəyya saatları, dəqiqələri saya-saya Qərib üçün darıxırdı. Onunla göz-gözə gəlmək, nəfəsini hiss etmək, baxışlarında ərimək istəyirdi. Heç kim ona Qərib kimi baxmırdı, heç kimin gözlərində o qədər istilik yox idi. Bilirdi ki, Qərib xaricdən gələn kimi, onu görməyə gələcək. Ən azından anası üçün başsağlığına

gələcək. Ona bu qədər ehtiyac hiss etsə də, zəng etməyi qüruruna sığışdırmırdı. Belə hüznlü vaxtda ona zəng eləmək özünü yerlə-yeksan etmək demək idi. Sürəyya bir tərəfdən də yad kişiyə duyduğu bu yaxınlıqdan utanırdı. Onları təsadüf görüşdürmüşdü. Klinikada olan qayğı isə adi insani hisslər də ola bilərdi. Kim olsa idi, tək bir qızı xəxtəxanada yalqız qoyub getməzdi. Bəs, dəfn üçün etdikləri? Yox, Qərib özü onun haqqında düşüncələrə dalmaq üçün səbəblər, şəraitlər yaradırdı. Bu düşüncələrdən Sürəyya çox yorulurdu, əzilirdi.

Hüzür bitəndən sonra, həm iş yoldaşları, dostları, həm də müdiri ona işə çıxmağı məsləhət gördülər. Evdə tənhalıqdan daha çox sıxıldığı üçün özü də bunu istədi. Adamlarla ünsiyyətdə olmaq, dərdləşmək, söhbətləşmək onu bir qədər yüngülləşdirər, qarışıq fikirlərdən uzaqlaşdırardı. Odur ki, işə çıxmağı qərara aldı. Bir neçə gündən sonra, Qərib zəng vuraraq, onu görmək istədiyini bildirdi. Hüzür bitdiyi üçün evə gəlmək yaxşı düşməzdi. İşdə isə hamı Qəribi tanıyırdı, onun xüsusi olaraq, Sürəyyanı görməyə gəlməsi artıq söz-söhbətə çevrilə bilərdi. Şərtləşdikləri kimi, iş bitdikdən sonra onu qapıda gözlədi.

Sürəyya qapını açıb maşına oturdu, Qərib maşını işə salıb uzaqlaşdı. Sürəyya solub-soluxcamışdı. Qərib onun çox sıxıntı çəkdiyini hiss edərək:

-Bu ağır vaxtda uzaqda olduğum üçün üzgünəm. Yanında ola bilmədim.

Sürəyya başını aşağı salıb oturmuşdu:

-Uzaqda olsanız da, hər şeyi siz yola verdiniz. Siz də, işçləriniz də sağ olun, mən çox minnətdaram. Bunlar çox ağır işlər idi.Mən tək bu işlərin öhdəsindən gələ bilməzdim.

-Nə demək..halal xoşu olsun.

Qərib  şəhərdən uzaq, sakit bir  yerdə maşını saxladı.

-Bura sakit bir yerdir, bir az dincələk burda, yaxşı yeməkləri də olur.

Sürəyya bir söz demədən maşından düşüb onunla birlikdə içəri girdi. Menecer Qəribi tanıyıb yaxına gəldi. Qərib:

-Bizə sakit bir yer... xanım narahat olmasın.

Menecer işgüzarlıqla:

-Bəli. Buyurun.

Qəribgil qapalı bir yerdə oturdular. Qərib sifarişləri verib Sürəyyaya baxdı:

-Belə hadisələr heç vaxt unudulmur. Boşluq, kədər, itkilərin acıları adamı bütün həyatı boyu izləyir. Hamımızın başına gəlib. Amma insan hər vəziyyətə öyrənir. Ən doğma, ən əziz adamın yoxluğu belə zamanla adamın içinə sinir. Ağlama, üzülmə - demirəm, amma özünü bu qədər tükətmə.

-Mənim ondan başqa heç kimim yox idi. O, hamını əvəz edirdi. Həm atam idi, həm anam, həm dostum, sirdaşım. Bütün bunların hamısını birdən itirmək çox ağırdır. Başım evə sığmır. Necə olacaq, bilmirəm...

-Keçəcək hər şey... undulmayacaq, amma keçəcək. Həyat davam edir...Sən də özünü topla, hər şeyə rəğmən yaşamalısan...

Sürəyya:

-Ehhh...yalqız qalanda sözlər adamın köməyinə gəlmir.

Qərib əlini onun stolun üstünə qoyduğu əlininin üstünə qoydu:

-Fikir eləmə, hər şey yaxşı olacaq.

Ofisiant əlində sini  yaxınlaşıb, yeməkləri stolun üstünə düzdü.

Qərib:

-Yeməklərimiz üçün darıxmışam. Başqa yerlərin xörəklərini yemək olmur. İnsan xisləti belədir, alışdığın şeyləri istəyirsən.

-Orda yeməklər yaxşı deyildi?

-Avropada nəsə uyğun bir şey tapırsan. Çinə gedəndə aclıqdan ölürəm.

-Bəs, deyirlər, dünyada ən zəngin olan Çin mətbəxidir?

-Deyirlər də...zəngin də olsa, o zənginlikdə heç nə yemək olmur.

Qərib Sürəyyanın boşqabına  seçdiyi tikələri qoyaraq:

-Heç bir yerdə kababı bizdəki kimi bişirə bilmirlər.
-Ola bilsin, adamlara öyrəşdiyimiz kimi, dadlara da öyrəşirik.
Qərib gülümsəyərək:
-Dadlara, qoxulara, səslərə...
Sürəyya ona baxaraq dinmədi. Ağzındakı tikəni udaraq, qədəhdən su içdi:
-Amma maraqlıdır, başqa yerləri görmək, tanımaq, başqa yeməkləri dadmaq...Çox ölkədə olmusuz, eləmi?
-Hə. İşim elədir ki, mütləq getməliyəm. Bunların hamısı iş səfərləri olub. Amma hər birində insan təzə şeylər öyrənir.
-Maraqlıdır.
-Getmək istərdinmi  sən də?
-Mənmi?  Nə bilim, bu haqda heç düşünməmişəm. Yəni, mənim heç zaman harasa, uzaqlara gedəcək imkanım olmayıb deyə heç arzulamamışam da. Amma təbii ki , səyahət etmək çox maraqlıdır.
- Getmək istəsən, bu dəfə səni də apara bilərəm. Mənimlə gedərsənmi?
Sürəyya əlindəki çəngəli yerə qoydu. Qədəhdən su içdi.
Qərib uzanan sükutdan narahat olaraq:
-Əlbəttə, əgər istəsən. Buralardan da bir az uzaqlaşmış olarsan. Fikrin dağılar.
Sürəyya ona diqqətlə baxaraq:
-Bilmirəm heç...

Qərib onun dalğınlaşdığını görərək:
-Niyə yemirsən, sən bir şey yemədin?
-Nəsə iştaham çəkmir...son vaxtlar yeməkdən də kəsilmişəm.
Qərib onun gözlərinə baxaraq:
-Süräyya, əgər təklifim yersiz oldusa, bağışla...mən səni incitmək istəmədim. Sənin üçün bir dəyişiklik olar,-deyə düşündüm.
-Yox, ondan deyil...nə zaman gedəcəksiz?
-Yaxın günlərdə. Ayda bir, ya iki dəfə getməli oluram. Bunlar maliyyə məsələləri olduğuna görə, ancaq özüm getməliyəm. Bu, bizim öz şirkətimizlə bağlı məsələdir.
-Fikirləşərəm bu barədə. Bir az tez qalxsaq olarmı? Nəsə yaxşı deyiləm, evə getmək istəyirəm.
-Yaxşı. Sən get maşına, hesabı verib gəlirəm mən də.
Yol boyu Süräyya susurdu. Qərib bunu dediyi sözlərlə bağlayıb peşmançılıq çəkirdi. Həqiqətən, Qərib onun kədərini dağıtmaq üçün belə bir təklif etmişdi, fikrində xüsusi bir niyyəti də yox idi. Görünür, belə bir təklif üçün onlar kifayət qədər yaxın deyil. Süräyya Qəribin sözlərindən pozulmuşdu. Onun könlünü almaq üçün çarə axtarırdı. Astadan soruşdu:
- Evdə bir çətinliyin varmı?
-Yox. Səhər işə gedirəm, bütün günü işdə, axşam da bir məşğuliyyət tapıb başımı qarışdırıram.

Maşını döngədə saxlayıb:
-Yaxşı, hələlik. Zəngləşərik.
Sürəyya düşərək:
-Sağ olun, təşəkkür edirəm hər şey üçün.
Qərib onun solğun üzünə baxıb heç nə demədi. Onun gözlərindəki qüssəni, məyusluğu görməmək, acımamaq mümkün deyildi. Qərib özünü qınayıb, əsəbi halda, maşını işə saldı, sürətlə küçədən uzaqlaşdı.

Sürəyya evə girib üzüqoyulu çarpayıya yıxıldı. İçini çəkə-çəkə, hönkürtü ilə ağlamağa başladı. Ağladıqca göz yaşları içindəki acığı, yanğını yuyub təmizləyirdi. O, kimə daha çox acıqlı olduğunu bilmirdi. Özünəmi, Qəribəmi? Qərib onu zorla heç nəyə vadar eləmirdi. Onunla görüşmək, yanında olmaq Sürəyyanın öz istəyi idi. Qəribin onu dəvət etməsi adi təklifdir, bəlkə də... Getmək istəmirəm desən, bitib gedəcək. Kimdi səni zorla xaricə aparan? Amma Sürəyya bu münasibətin bitməsini istəmirdi. Qərib onun həyatındakı ən işiğlı, ən xoş, ən güclü bir duyğu idi. Sürəyyanın ona ehtiyacı var idi. Bu maddi ehtiyacdan çox, mənəvi aclıq idi. Amma digər tərəfdən Qərib ona heç bir işarə, ümid vermirdi. Qərarı Sürəyya verməli idi: ya Qəriblə münasibəti davam etdirmək, özünü qeyri-müəyyən axına buraxmaq, ya da tək qalıb əzabların, iztirabların içində məhv olmaq. Heç bir halda onu parlaq gələcək gözləmirdi. İndiyə qədər

yaşadığı sıxıntılı həyat onu bezdirmişdi. O, Qəribə aşiq idi! Nə yazıq ki, bu, belədir, bu gerçəyi qəbul et artıq. O evlidir, amma xoşbəxt deyilsə? Bu qədər məşğul bir adamın sənin arxanca dolanması normaldımı, səncə? Sürəyya özünə o qədər cavablı-cavabsız suallar verirdi, amma bunların heç biri onun halını yüngülləşdirmirdi. O özünün bu qədər vasvası, xırdaçı olduğuna da hirslənirdi. Əvvəllər oxşar hadisələri-cavan qızların evli kişiyə aşiq olmasın eşidəndə, təəccüblənər, heyrət edərdi. Belə bir hadisənin öz başına gələcəyini heç zaman güman etməzdi, Evli adamla münasibət ona mümkünsüz götünürdü. Anası olsaydı, o, Qəriblə görüşməyə, planlar qurmağa cəsarət edə bilməzdi. Amma işə bax! Anası yoxdur, əvəzində qəflətən onun həyatında Qərib peyda olur və tərslikdənmi, təsadüfdənmi, yaxud zərurətdənmi Sürəyya bu adama aşiq olur. İndiyədək düşündükləri, qaydalar, qanunlar yox olur. Sürəyya bu böyük duyğuların qarşısında aciz olduğunu anlayaraq təslim olmaqdan başqa çıxış yolu tapmır. İndi başqaları, onların nə düşündüyü Sürəyya üçün heç bir şey ifadə etmir. Demək, bu - sevgidir, taledir. Onlar artıq bir-birinin cəzbindən kənarda yaşaya bilməzlər. Hər ikisi bunu bilir. Amma Qərib də, Sürəyya da sadəlövlük, məsumluq oyunu oynayır. Süni bəhanələr, saxta iltifatlar... Sürəyyanı acıqlandıran, bəlkə də, bu qapalı oyun idi. Hər ikisi bu səfərin mənasını bilirdi.

Razılıq vermək,  tək səfərə getmək istəyi olmaycaq, daha yaxın əlaqənin başlanğıcına razılıq vermək olacaqdı. Qərib də bunu bilirdi. Ona görə də qərarı Sürəyyaya buraxırdı.

Bu zaman telefona zəng gəldi. Sürəyya başını qaldırdı. Qaranlıq idi. Zülmət kimi otaqda heç nə görmədi. Telefon, yəqin ki, çantasındadır. Zorla qalxıb səndələyə-səndələyə işığı yandırdı. Çantasını axtardı, onu dəhlizdə atmışdı. Gedib çantanı açdı, telefonu axtarıb tapana qədər zəng bitdi. Açıb baxdı: Qərib idi.

Hamama keçib əl-üzünü yudu, güzgüdə özünə baxdı. Üzü-gözü ağlamaqdan qızarıb şişmiş, tuluqlanmışdı. Çay qoyub, paltarını dəyişdi. Gözü telefonda qalmışdı. Zəng gözləyirdi. Amma Qərib zəng etmədi.

-İncidi,-deyə Sürəyya düşündü.

Saata baxdı. Gec idi. Bu vaxt Sürəyya onu arasa, bəlkə də, yerinə düşməzdi. Arvadı yanında ola bilərdi. Bu fikirdən ürəyi sıxıldı.

Qalxıb özünə çay süzdü. Televizoru yandırdı. Eybi yox. Səhər zəng eləyərəm.

Qərib nə səhər, nə də sonrakı gün zəng etmədi.  Üçüncü gün Sürəyya artıq dözə bilmədi. Gündüz özü Qəribə zəng vurdu. Telefon qapalı idi. Fikirləşib mesaj yazdı: ”Salam. Sizinlə danışmaq istəyirəm. Mənə zəng edin.”

Bir saat keçmiş Qərib zəng elədi:

-Sürəyya?

-Hə, Qərib müəllim, zəng eləmişdim, telefonunuz qapalı idi.

-Hə, iclasda idim. Mesajını indi gördüm. Bir şeymi olub?

-Yox. Heç nə olmayıb. Ara verib:

- Zəng etmək üçün mütləq bir şeymi olmalıdır? –deyə güldü. O gün mən danışmaq iqtidarında deyildim, sonra da gec qaldım. İncidinizmi?

-Yox. Nədən inciyim? Fikirləşdim, yəqin, yatmısan. Sonra da imkan olmadı,

bilirsən də, bizim rahatlığımız yoxdu.

-Eləmi? Mən də sizi çaya dəvət edəcəkdim. Vaxtınız yoxsa, qalsın başqa vaxta.

-Vaxta qalsa , gərək heç kimlə görüşməyək. Elə adamlar var, onlar vaxt xaricindədir.

Hardasan indi?

-İşdəyəm.

-İki saatdan sonra olarmı?

-Aha, olar.

-Yaxşı, gələndə zəng edəcəm, çıxarsan.

Həyəcandan, az qala sinəsinindən çıxacaq ürəyinin döyüntüsündən qulaqları tutuldu. Ağır bir yükdən qurtarıbmış kimi dərindən nəfəs alaraq:

-Belə...Qərib müəllim.

***

Qərib son günlər Sürəyyanın gərginliyinin fərqində idi. Zənginə cavab verməməsini
inciklik kimi qəbul edərək, bir qədər zaman keçməsini gözləyirdi. Gənc qızdır, anasının yoxluğu onu daha da həssaslaşdırıb, yaxında elə bir dayağı olacaq adamı yoxdur. İşlərini sahmanlayıb onun könlünü necə alacağı barədə düşünəcəkdi. Özünün zəng etməyi vəziyyəti asanlaşdırdı.

Rizoya:

-Mənim bir az işim var idarədə, bir az gec gələcəm.

İki yerdə işləməyi, həqiqətən, onun bütün vaxtını alırdı. Çox az dincəlirdi. İstədi Sürəyya üçün hədiyyə alsın, sonra yanlış anlayar deyə, vaz keçdi. Onu işdən götürüb :

-Hara getmək istəyirsən?

-Fərqi yoxdur, sakit yer olsun, yetər. Çay içib, bir az söhbət edək.

Sürəyya bir az yaxşılaşmışdı. Üzündəki üzücü sıxıntı yox idi.

Qərib:

-Vallah, mənim dincəlməyə daha çox ehtiyacım var. Iş barədə düşünmək belə istəmirəm. Çox yorğunluq mənasızlığa gətirib çıxarır.

-Stress,- deyə Sürəyya gülümsündü.

-Hə, bax, bu stresdən uzaqlaşmaq lazımdır. İş -həyat uzunu qurtarmır, arada dincəlmək də lazımdır. Yaxında gözəl təbiəti olan bir yer var. Ora gedəkmi?
-Siz bilərsiz. Mən onsuz da heç yeri tanımıram.
-Belə, qəşəng mənzərəli yerdir, süni göldür, kənarında oturacaqlar qoyublar. Bu gün hava da yaxşıdır. Nəfəs alaq bir az.
Sürəyya ona baxaraq dinmədi.
Qərib:
-Niyə danışmırsan? Bir sıxıntınmı var?
Sürəyya başını buladı:
-Yox. Sizi dinləyirəm və düşünürəm...
-Nə barədə?
-Məsələn, siz iş adamısız, daim məşğulsuz, böyük, əhəmiyyətli problemlər, çoxsaylı məsələlərlə məşğulsuz, amma bununla belə, mənə çox diqqət göstərirsiz...
Qərib gülərək davam etdi:
-Yəni ki, niyə səninlə maraqlanıram? Səni narahat edən bumu?
Sürəyya ona baxaraq dinmədi. Qərib ciddiləşərək fikrə getdi. Bir qədər susduqdan sonra:
-Desəm ki, bütün bu saydıqlarının içində mənə təzə nəfəs kimi gəlirsən, rahatlanıram,
özümü asudə, azad hiss edirəm, ən əsası, özümü daha çox özüm kimi hiss edirəm... bu-səni qənaətləndirərmi?

Sürəyya gülərək:
-Tamamilə.
Başını bulayaraq gülümsündü, yola baxmağa başladı. Ürəyində fikirləşdi ki, bu- səndən xoşum gəlir,- deməkdir elə, amma söyləmədi.
Qərib:
-Nəyə gülürsən belə?
-Heç... hər şeyin daha sadə izahının olmağına.
Qərib:
-Yox. Həyat o qədər qəribə və çoxşaxəlidir ki, insanın hissləri çox mürəkkəb və zəngin dir, bəzi duyğuların heç izahı olmur, bəzilərini insan heç anlaya bilmir. Bu – həyatdır. Sadə olsaydı, yaşamaq çox asan olardı. Biz öyrəndiyimiz, adət etdiyimiz hisslərə sadə deyirik. Bizdən kənarda olanları bəzən dərk etmirik.
Sürəyya ona qulaq asaraq:
-Ola bilər. Mənim həyatım sadə olub. Gördüklərim də sadədir. Siz isə başqasınız, mənə elə gəlir ki, siz sirlərlə dolusuz. İndi danışırsız, hər şey aydın görünür, uzaqdan isə belə deyil.
Qərib:
-Bu, səni qorxudurmu?
Sürəyya:
-Məsələ qorxuda deyil. Qorxmuram, amma anlamaq istəyirəm.

Qərib:
-Göründüyü kimi, təhlükəli deyiləm. Sənə də heç zaman zərərim dəyməz. Bundan əmin ol ...
Sürəyya başını aşağı salıb dinmədi.
Qərib ona uzun-uzadı baxaraq:
-Bəzi şeyləri deməyə ehtiyac olmur, adam özü hiss edir, deyilmi?
Sürəyya qızararaq:
-Doğrudur,-dedi.

Gəldikləri yer gerçəkdən çox mənzərəli idi. Yamyaşıl orman, kölgəli ağaclar, çətirlənmiş köşklər, gölün kənarını dövrələmiş kolluqlar, rəngbərəng güllər adamın gözlərini oxşayırdı. Çiçəklərin qarışıq qoxusu tərtəmiz havaya qarışaraq adamın köksünü genişləndirirdi. Qərib gölün yaxınlığında bir yer seçdi, oturdular.
Sürəyya:
-Bura, doğrudan da, çox gözəlmiş. Heyran oldum lap.
Qərib:
-Hələ havası necə təmizdir, həm də sakitlikdir. Səssizliyi adamın yorğunluğunu alır. Vaxt tapmıram, gəlim burda azca dincəlim, sağ ol ki, məni çıxartdın o səs-küyün içindən. Yemək yeyib bir az gəzmək də olar, bu tərəf lap meşə kimidir, bax...
-Hə... gerçəkdən adam valeh olur bu gözəlliyə.

Axşama qədər gölün kənarında gəzdilər, yemək yeyib, söhbətləşdilər. Qaranlıq qarışanda Qərib:

-Getmək lazımdır. Bura nə qədər gözəl olsa da, qayıtmalıyıq. Necədir, dincələ bildinmi?

-Çox...əməlli-başlı dirildim.

-Görürsən, hərdən dəyişiklik lazımdır. Qapalı mühit adamı iflic edir.

-Mən qapalı yaşamıram ki, işim var, işə gedirəm, nə qədər adam görürəm.

-Gündəlik gördüyün işə vərdiş eləmək də qapalılığın bir növüdür.

-Siz səfərdənmi bəhs edirsiz?

-Ümumiyyətlə, deyirəm. O barədə bir də danışmayacam, hiss etdim ki, təklif xoşuna gəlmədi.

Sürəyya:

-Mən düşünəcəm,- demişdim.

Qərib maşına oturaraq:

-O zaman qərarını bildirərsən.

Sürəyya qapını çəkib örtdü:

-Nə vaxtdır səfəriniz?

Qərib:

-Gələn həftə.

Şəhərə çatanda axşam düşmüşdü. Qərib Sürəyyanı evinə qoyub maşını şirkətə sürdü. Əslində, onun təxirəsalınmaz işləri vardı. İçəri girəndə Rizo səbrsizliklə:

-Hardasan, qardaşım, öldük tay biz burda gözləməkdən, telefonun da qapalı...
Qərib gülə-gülə:
-Həmişə sən qaçmayacaqsan ki, bir dəfə də mən qaçım...
-Hardaydın?
-Vallah, qaçmışdım. Bir az nəfəs aldım, şəhərdən çıxmışdım.

***

Sürəyya uzun-uzadı düşündü. Artıq duyğularının hökmündən qaça bilmirdi. Sanki Qərib bu dünyada tanıdığı yeganə insan idi. Ondan başqa, fikrində heç kim yox idi. Hərdən öz-özünə sual verirdi: Qəribi tanımamışdan əvvəl necə yaşayırdı, nə barədə düşünürdü? İnsan da başqasının varlığına bu qədər hakim ola bilərmi? Artıq duyğuların gerçəkliyini qəbul edirdi. Nə olur –olsun, kim nə deyir- desin, o, Qəribdən uzaqda, onsuz yaşaya bilməyəcəkdi. Şərtlər nə qədər ağır olur-olsun, o, Qəribə aşiq idi, onu sevirdi. Bunu gizləməyin artıq bir anlamı yox idi. Qərib düz deyir, həyat çox mürəkkəbdir, taleyin kimə nə qədər yazdığını heç kim bilə bilməz. Yaşamaq üçün cəsarət lazımdır, ürək lazımdır, sürünə-sürünə , iztirablar içində solub getməkdənsə, qəlbinin hökmünə qulaq asmaq daha yaxşıdır. Sürəyya

Qəribin zəngini gözləyirdi. Bir neçə gündən sonra Qərib zəng edib ondan hal-əhval tutdu. Sürəyya:
-Mən də zənginizi gözləyirdim.  Getmək üçün nə lazımdır?
Qərib əvvəl anlamadı:
-Getmək üçün?
-Hə də, yəni, nə sənəd tələb olunur, xaricə gedəndə?
-Həə, onu soruşursan. Xarici pasportun varmı?
Sürəyya:
-Yoxdur.
-O zaman şəxsiyyət vəsiqəsini ver mənə.
-Vəsiqəm evdədir.
-Yaxşı, gəlib evdən götürərəm .
-Küçənin başında market var, görmüsüz də, gətirərəm ora.
-Yaxşı. Saat 8-də gəl ora, gələrəm.
 Sürəyya  dedyilən vaxtda marketin qarşısında dayanıb Qəribi gözləyirdi. Az keçmədən Qəribin maşını gəlib onun yanında dayandı. Qərib maşından düşüb ona yanaşdı:
-Salam. Gətirdinmi?
-Aha. Budur.
Vəsiqəsini Qəribə verdi. Qərib ondan vəsiqəni alıb baxdı.
-Səhər pasport aldıraram.
Sürəyya ona əlindəki kiçik bükülünü də uzatdı.
Qərib :

-Bu nədir?
Sürəyya çəkinə-çəkinə:
-Puldur, biletin qiymətini bilmirəm. Bir az pulum var idi, odur.
Qərib gülümsünüb pulu onun ovcuna qoyaraq:
-Bunu saxla burda, qayıdandan sonra xərcləyərsən. Marketdən nəsə alacaqsanmı?
Sürəyya utandığından qızararaq:
-Bir-iki şey alım, boş qayıtmayım.
İçəri girdilər. Ərzaq rəflərinin arası ilə dolaşaq Sürəyya çörək, başqa bir-iki ərzaq götürdü. Qərib də götürdüyü sellafon torbaya, çay, kofe, müxtəlif növ şokaladlar, şirələr, meyvələr yığdı. Sürəyyaya yaxınlaşıb, əlindəkinə işarə ilə:
-Onları da qoy bura. Sürəyya onun əlindəki torbaya baxaraq:
-Neynirsiz bunları?
Qərib:
-Gəl, çıxaq.
Qərib ərzaqların pulunu ödəyib çölə çıxdı, yolda torbanı Sürəyyanın əlinə verərək:
-Bağışla, evinə qədər apara bilməyəcəm, mənim toplantıya yetişməyim lazımdır. Sənə zəhmət olacaq.
Sürəyya təəccüblə:
-Qərib müəllim...

-Bərk tut. Bax, belə.  Yaxşı, mən qaçdım, görüşərik sonra. Qərib tələsik maşına minib  getdi. Süræyya yerindəcə donub, onun dalınca baxa-baxa qaldı.

***

Hava limanına ayrı –ayrılıqda getdilər. Qəribin etirazına baxmayaraq, Rizo onu, həmişəki kimi, hava limanınacan apardı. Qəribi yola salıb –qarşılalamaq Rizo üçün əhəmiyyətli bir iş idi. Bir dəfə Qərib demişdi ki, səfərləri sevmir, harasa getmək onun yaralarını tərpədir elə bil. Bu söz Rizonun içinə işləmişdi. Rizo onu ötürüb-qarşılamaqla Qəribin tək olmadığını, hər zaman kiminsə onu gözlədiyini hiss etdirmək istəməsi idi. Rizo fikirləşirdi ki, Qəribin övladı yoxdur, bəlkə, bu –ona pis təsir edir. Özünü tənha bildiyi üçün belə deyir. O vaxtdan bəri, əlində nə vacib işi olsa belə, Rizo Qəribi ötürməyə və qarşılamağa gedirdi. Salona girərkən  Qərib Süræyyanı gördü, amma Rizo yanında olduğu üçün yaxınlaşmadı. Süræyya telefonda :”Qərib müəllim, sizinlə getdiyimi bilməsinlər”,- demişdi. Aydın məsələdir, Süræyya Qəriblə münasibətini hər kəsdən, xüsusən iş yoldaşlarından gizlədirdi. Hər kəsin bu əlaqəyə necə yanaşması məlum idi. Əslində, Qərib daha ehtiyatlı davranırdı – onun gənc bir qıza rəğbəti, xüsusi diqqəti xoş qarşılanmayacaq idi. Artıq söz-söhbətləri, şayiələri eşitməyə Qəribin

təhəmmülü yox idi. Həm də Sürəyyanın gələcəyini fikiləşir, ona bir ziyan toxundurmaq istəmirdi. Sürəyya çox həssas və duyğusal qız idi. Onu qorumağı Qərib özünə borc bilirdi. Gözləmə salonunda Qərib Rizo ilə qucaqlaşıb- öpüşdü. Təyyarəyə minik başlanmışdı. Rizo çıxandan sonra Sürəyyaya yanaşıb, bileti ona verdi. Qeydiyyatdan keçib, təyyarəyə tərəf getdilər. Yerləri də ayrı-ayrı idi. Qəribi tanıyan çox idi. İş adamı kimi tez-tez şəkilləri qəzetlərdə çıxırdı. Çoxları elə onu üzdən tanıyırdı. Təyyarədən enəndə, telefonda danışdıqları kimi, otelə də ayrı-ayrı taksilərdə getdilər. Salonda Qərib Sürəyyanı gözlədi. Bir neçə dəqiqədən sonra o salona daxil oldu, Qəribə yaxınlaşdı. Bir yerdə liftlə qalxdılar. Nömrələri yanaşı idi.Qərib onu öz otağına ötürdü. Sürəyya ürkək – ürkək otağı nəzərdən keçirdi, Qəribə baxaraq gülümsədi:

-Bura nə gözəldi?

Qərib:

-Xoşuna gəldi? Mənimki də o biridir. Divarın o biri üzündə olacam, heç nədən qorxma. Burada sən izn verməsən heç kim nömrəyə girə bilməz. Qapını bağla, rahatlan. Məndə çantamı otağa qoyum, gedək nahar eləyək.

Qərib çıxdıqdan sonra Sürəyya çantasını dolaba qoydu. Hamama baxdı. Hər şey çox təmiz, səliqəli idi. Əl –üzünü yudu, özünü səliqəyə saldı. Qərib qapını döyəndə

çıxdı.Qərib kostyumunu dəyişib, dama-dama köynək, cins şalvar, yüngül gödəkcə geyinmişdi.
Qərib:
-Yorulmamısan? Burda aşağıda da restoran var, burada yeyə bilərik, amma şəhərdə daha yaxşıdı, gəzmək üçün, baxmaq üçün.
Süräyya:
-Əlbəttə, şəhərə çıxaq. Restoran hər yerdə var. Əsas şəhəri görməkdir.
Küçəyə çıxan zaman piyada getməyə başladılar. Qərib onun çətinliklə yeridiyini görərək:
-Sən bu hündürdabanlı çəkmə ilə çətin uzağa gedə biləsən. Bununla gəzə bilməzsən. Bax, qızların çoxu idman ayaqqabısındadır.
Süräyya:
-Nə bilim, belə çətin olacağını düşünmədim.
-Əvvəl sənə bir ayaqqabı alaq, sənin heç hündür dabana ehtiyacın da yoxdu, qoy balacaboy qızlar dərdini çəksin, maşallah, sən ki, ucaboylusan.
Süräyya gülərək:
-Siz hər şeyə diqqətlisiz, bundan sönra çıxanda nə geyinəcəyimi gərək əvvəldən soruşum.
Qərib də gülərək:

-Təbii ki, diqqətli olacam, mən cavabdehəm hər şeyə, əlli metrədən sonra çəkmələrini çıxarmalı olacaqsan, onda neyləyəcəm?
-Onda ayaqyalın gəzəcəm.
-O zaman həmrəylik üçün mən də çəkməmi çıxarmalı olacam.
Sürəyya gülə-gülə:
-Bu çox maraqlı olar, turistlərin ayaqyalın macəraları...
Qarşılarına çıxan ilk mağazadan Sürəyyaya yumşaq idman ayaqqabısı aldılar.
Sürəyya:
-Off, dünya var imiş! İndi məni heç kim saxlaya bilməz.
-Bu, yaxşıdır. Yüngül, rahat. Cins şalvarla da yaraşır, gəz, istədiyin qədər.
Nahar edəndən sonra da xeyli gəzdilər. Şəhərin görməli, gözəl yerlərini Qərib Sürəyyaya göstərirdi. Gecə otele qayıdanda Qərib dedi:
-Səhər durma. Yat, yorğunluğun çıxsın. Durandan sonra aşağı en, bir şey ye, televizora bax. Bir yerə çıxma, azarsan, dili də bilmirsən. Vacib bir şey olsa, zəng et mənə. İşimi bitirən kimi, gələcəyəm.
-Yaxşı. Narahat olmayın, sözünüzdən çıxmayacam. Gecəniz xeyrə qalsın. Şirin yuxular.
-Sənə də.

Sürəyya otağa keçib qapını bağladı. Paltarını soyunub yuyundu. Çarpayıya uzanıb gözlərini yumdu. Üzünə təbəssüm yayıldı. Qəriblə bərabər gəzmək, zarafatlaşıb deyib-gülmək onu çox sevindirirdi. Bir yerdə necə rahat, necə gözəldir. Sanki min ilin doğmalarıdırlar, tay-tuşlarıdırlar, arada heç bir uzaqlıq, heç bir məsafə, heç bir sədd görünmür. Qərib çox diqqətcil, çox həssasdır. Sürəyyanın qəlbindən, ağlından keçənləri duyur, qayğı ilə, şəfqətlə yanaşır. Son vaxtlar ürəyini sıxan şübhələr, sıxıntılar yox oldu, rahatlıq və xoşbəxtlik içində yuxuya getdi.

Səhərisi günorta Qərib zəng elədi:

-Nahar fasiləsinə çıxmışıq, neynirsən?

-Televizora baxıram.

-Bir şey yedinmi?

-Hə, narahat olmayın, yemişəm.

-Yaxşı, iş bitən kimi gələcəm.

-Sağ olun.

Qərib əvvəldən də onu xəbərdar eləmişdi, üç gün gərgin rejimdə olacaqdı. Bəlkə, axşam yeməyindən və yaxud nəzərdə tutulmuş gecə tədbirlərindən yaxa qurtara bildi. Gecə saatlarında harasa gedib gəzə bilərdilər. Gündüz tək qaldığı üçün Sürəyya darıxırdı. Bir az çıxıb küçədə dolaşır, uzağa getmədən otelə qayıdırdı. Gecə isə Qəribi yormaq heç insafdan deyildi. Gündüz işdən, danışıqlardan,

oturmaqdan yorğun gəlib, dincəlmək yerinə, Süräyyanı şəhərin qədim, tarixi yerlərinə aparırdı. Gecə muzeylər, bağlı olduğundan, eləcə kənardan tamaşa edir, Qərib bildiyi məlumatları danışırdı. Restoranda gecə yeməyi yeyib otaqlarına dönürdülər. Qərib hər gün səhər tezdən getməli olurdu. Nəhayət, Qəribin işi bitdi. Üç gün artıq qalıb, Süräyya ilə başqa yerlərə də gedəcəkdilər.

Qərib maşın kirayələdi. Yaxındakı şəhərlərə getmək istəyirdi. Hətta deyirdi ki, sərhəddi də keçəcək. Qərib:

-Bu, əsl səyahət olacaq. Üç günə qayıdarıq. Birinci gün dönməliyik işə.

Bütün bunlar Süräyya üçün çox maraqlı idi. Xüsusən , Qəribin yanında olması hər şeyə dəyərdi. Bütün yol boyu ikisi olacaqdı. Müxtəlif yerlər, şəhərlər, yeməklər- bütün bunlar Süräyya üçün ağlagəlməz yenilik idi. Yolların özü o qədər mənzərəli, rahat idi ki, yol getməyin özü adama ləzzət eləyirdi. Acanda rast gəldikləri kafelərdə, restoranlarda yeyirdilər. Bu da bir rəngarənglik idi. Mağazaları gəzirdilər. Süräyya heç nə almaq istəmirdi. Qərib isə təkid edirdi:

-Məsələ geyimdə deyil, aldığın, sonra geyinəcəyin paltarlar gəzdiyin şəhərləri xatırladacaq, onların ətrini saxlayacaq. Özü də hədiyyələr alırdı. Məndən hədiyyə gözləyənlər çoxdur. Ən çox da Rizo üçün geyimlər alırdı.

Süräyya:

-Oğlunuzdur?
Qərib:
-Sayılır.
Telefonu açıb şəklini ona göstərdi.
Sürəyya:
-Yaraşıqlı oğlandır. Saçları lap aləmdir. Hələ gözlərinə bax! Çox qəşəngdir, neçə yaşı var?
-İyirmi birdədir.
-Aaaaa...məndən kiçikdir ki...
Qərib onun toy şəklini göstərdi:
-Bu da Lilidir. Gəlinim.
-Nə tez evlənib?
-Həəə...yaxında ata olacaq. Onlarınki başqa sevgidir. Məktəbdən başlayıb. Leyli-Məcnun yalandı onlarınkının yanında.
Sürəyya şəklə baxa-baxa:
-Gözəl qızdır. Xoşbəxt olsunlar!
Qərib ona baxaraq:
-Çox sağ ol.
İki gün oradan-oraya, buradan-buraya dayanmadan gəzdilər. Ayrı-ayrı şəhərlərdə gecələdilər. Qərib hər dəfə Sürəyya üçün ayrı nömrə sifariş verirdi. Bernə dönərkən Qərib çox yorulmuşdu. Dayanmadan maşın sürdüyünə görə, kürəyi ağrıyırdı. Dümdüz yolda maşın çölün ortası

ilə şütüyürdü. Sürəyya ətrafı seyr edirdi. Yolun hər iki tərəfi ağ, sarı, qırmızı çöl çiçəkləri ilə dolu idi. Sürəyya:
-İlahi, nə gözəllikdi...elə bil çiçək dənizidi.
Qərib maşını yolun kənarına verib saxladı. Düşüb çiçəkliyə girdilər. Qərib:
-Doğrudan da qeyri –adi gözəllikdir. Təbiətin möcüzələri tükənməzdir.
Sürəyya:
-Havanı qoxulayın. Adamın burda lap ölməyi gəlir.
Gülərək qollarını açıb çiçək dənizinnə sarı yüyürdü.
Qərib də bir az gedib dayandı. Ətrafa baxdı.Yerə uzanıb qollarını açdı. Kürəyi ağrıyırdı. Bir az uzansa, keçəcəkdi. Göy təmiz, mavi idi , adda-budda ağ buludlar uzaqlarda dağılaraq sürünürdü. Baxtlarından, havalar bir həftə yaxşı keçdi.Yağış, soyuq olmadı. Gözlərini yumub çiçək qoxusunu içinə çəkdi. “Adamın burda ölməyi gəlir”... gülümsədi. Qəribinsə yuxusu gəlirdi. Bir az yatsa, pis olmazdı. Sakitlik idi. Sürəyyanın səsi gəlmirdi. Qoy, bir az gəzsin, - deyə Qərib düşündü.
Sürəyya çiçək yığırdı, ağ və sarı çiçəklərin ən təzələrini yığıb dəstə bağlayırdı. Arada kiçik bənövşəyi, qırmızı çiçəklərəda rast gəlirdi. Sürəyya bu çöl çiçəklərinin adını bilmirdi, bəzilərinin şəkillərini görmüşdü. Başını qaldırıb o tərəf- bu tərəfə baxdı. Qərib görünmürdü. Yenə başı

çiçək yığmağa qarışdı. Qucaq dolusu çiçək yığıb geri qayıdırdı. Gözləri ilə Qəribi axtararaq görmədi.
-Qərib müəllim!
Səs gəlmədi. Bir az da irəlilədi. Necə oldu, bu?
-Qərib müəllim, hardasız?
Qəribi, deyəsən, xəf aparmışdı. Sürəyyanın səsinə durub oturdu:
-Burdayam.
Əlini qaldırıb yellədi. Sürəyya onu görüb yanına gəldi. Yerə oturaraq:
-Bunları yığdım, aparacam özümlə, saxlayacam.
Qərib:
-Hə, çox gözəl çiçəklərdi. Apararsan.
Sürəyya uzun gövdələri qırıb dairə düzəldirdi, bir- birinə bağlayaraq hörürdü. Aralarına ağ, sarı çiçəklər düzürdü.Qərib onun əllərinə diqqət edərək:
-Neyləyirsən?
Sürəyya gülümsəyib:
-Çələng hörürəm.
Qərib durub otudu.
-Ver bura, onu elə hörmürlər.
Sürəyyanın əlindən alıb, budaqları bir birinə keçirməyə, aralarına çiçəklər hörməyə başladı .
-Sən çiçəkləri seç,ver mənə, uzun saplaqları olsun.
Sürəyya oturduğu yerdən çiçəkləri qoparırdı, birdən:

-Bıy, pişpişə... burda da pişpişə var imiş ki... şalvarının ətəyinə yapışan pişpişəni qoparıb təmizlədi.
-Uşaq vaxtı bundan özümüzə bığ düzəldirdik, gizlicə uşaqların bədəninə atırdıq, qaşınırdı.
Qərib:
-Mənim də pişpişə bığım olub. Yeri bir gün qızarıb qaşınırdı, bığı götürəndən sonra. Bax, necədir?
Sürəyya:
-Aman allah, necə gözəl oldu !
Qərib çələngi onun başına qoydu, əli ilə düzəltdi.
Sürəya telefonunu çıxarıb :
-Çəkib baxım, görüm...
Şəklini çəkib telefonun ekranında baxaraq:
-Hə, çox gözəl oldu.
Qərib telefonu onun əlindən alaraq:
-Ver, mən çəkim...
Qərib onun saçını üzündən kənara sığalladı , bir neçə dəfə başqa-başqa pozalarda çəkdi, baxaraq:
-Əla!  Çox gözəl oldu.
Sürəyya :
-Sizinlə də...
Qərib ona tərəf əyilərək:
-Başını yaxına elə...
Üzünü ona yaxınlaşıraraq telefonu qarşılarına tutdu, bir neçə kadr çəkib yoxladı.

-Al, bax... prinsessa... çox gözəlsən...
Süräyya telefonu alıb, şəkilləri çevirərək bir-bir baxmağa başladı.
Qərib ona diqqətlə baxır, az qala nəfəsini hiss edirdi. Dodaqları həssaslıqla titrəyir, gülümsəyərək şəkillərə münasibətini bildirirdi.
Qərib :
-Mənim də telefonuma göndər, heç bu qədər maraqlı şəklim olmamışdı.
Süräyya:
-Aha...atıram. Yadigar saxlayarıq bu səfərdən.
Qərib onun səsindəki kədəri hiss edərək:
- Hər dəfə baxanda bu çöldəki çiçəklərdən danışarıq. Çölü də çəksənə. Gedəndən sonra bu şəkli mütləq portret kimi böyütdürəcəyəm. Asarıq divardan.
Süräyya ona baxaraq dinmədi. Kameranı çölə tutaraq lentə aldı, sonra Qəribin üzərində saxladı. Qərib ona baxırdı. Gözlərinə, dodaqlarına. Üzü o qədər yaxın idi ki, saçları ona toxunurdu.
Qərib uzanaraq:
-Hə, məni belə çək, çiçək dənizində batmışam... adamın burada lap ölməyi gəlir...
Süräyya gülümsünərək:
-Adamın burda şeir yazmağı gəlir...

-Adamın burda yuxusu gəlir... prinsessa, sən keşiyimi çək, mən bir az yuxulayım...
Sürəyya:
-Doğrudan, yatmaq istəyirsiz?
-Hə, vallah, gözüm qapanır, yola çox baxmışam, gözüm acışır...
-Yaxşı, bir az yuxulayın, mən sizi hər həşaratdan qoruyaram...
Qərib gülümsəyərək gözlərini yumdu:
-Iyirmi dəqiqəyə ayılmasam, məni oyat...
Sürəyyaya elə gəldi ki, Qərib daha nəsə dedi, amma anlamadı...söz dodaqlarının arasında donub qaldı, eşidilmədi.

Kənara çəkilib yenidən dəstə bağladı. O tərəf- bu tərəfə baxdı, yaxınlıqda bir kənd-filan görünmürdü. Hərdən bir şossedən maşın keçirdi. O da yerə uzanıb gözlərini göyə dikdi. Düşündü ki, bir neçə ay bundan əvvəl, onun ağlına da gəlməzdi ki, belə uzaq yerdə, başqa bir adamla çiçək dəryasında uzanıb göylərə baxacaq. Bir az aralıda uzanıb yuxuya gedən kişi onun üçün bu yer üzündə, bu göylərin altında qəlbinə, ruhuna ən yaxın, ən doğma adamdır. Ona elə gəldi ki, yer üzündə Qəriblə ondan başqa heç kim yoxdur. Bütün canlılar harasa çəkilib gedib, harasa yox olub, bu dünyada bir Qərib, bir də Sürəyya qalıb və onlar

bu çiçək dəryasında azıb qalıblar. Sürəyya Qəribə sarı baxaraq:

-Mən sənin yuxunda olmaq istərdim. Hər zaman! Bu qədər yaxındasan, amma yenə uzaqsan. Qəribin bayaqkı baxışlarını xatırlayıb gülümsündü. Məndən uzaq qalmaqdan ötrü nələrdən keçirsən? Bu, nə qədər davam edəcək? Ehh...Qərib müəllim...

İyirmi dəqiqə çoxdan keçmişdi, Sürəyya onu oyatmırdı. Qoy yatsın, bəlkə, həyatında ən şirin yuxu budur, hara tələsirik, sabah bu vaxt evdə olacağıq. Bəlkə də, daha bir yerdə bu qədər yaxın, kimsəsiz, rahat olmayacağıq.

Qərib oyanıb o tərəf-bu tərəfə baxdı, Sürəyyanı görmədi.

-Sürəyya...

Sürəyya onun səsini eşidib qalxdı:

-Oyandınız?

-Çox yatdım, deyəsən. Niyə durquzmadın?

-Qıymadım. Bir də belə bir yerdə yatmayacaqsız, yəqin ki...

Qərib əl-qolunu ataraq, idman hərəkətləri edərək:

-Kürəyim uyuşub lap. Amma dincəldim, başım açıldı. Yaman da acmışam.

Sürəyya yola sarı gedə-gedə:

- Maşında var peçenyeden- zaddan...şirə də var, su da...

-Sən neylədin, bəs?

Sürəyya arxaya qanrılıb:

-Keşiyinizi çəkirdim də, bəs...
Qərib gülə-gülə ona çatıb, qucağındakı çiçəklərə işarə ilə:
-Bunların hamısını aparacaqsan?
-Əlbəttə. Bunlar mənim üçün çox qiymətlidir.

Şəhərə çatanda hava qaralmışdı. Oteldə yemək yeyib otaqlarına gəldilər. Sürəyya paltarını soyunub duşa girdi. Bir az dincəlib saçlarını qurutdu. Çiçəkləri, çələngini səliqə ilə stolun üstünə yığdı. Bunları saxlamaq üçün qurutmaq lazımdı. Kiflənib çürüməməsi üçün suya qoymadı. Düşündü ki, hələ tezdir, Qərib yatdı yəni? Səhər gedəcəklər. Bir də , Allah bilir, nə zaman görüşəcəklər? Yəqin ki, zəngləşəcəklər,qısa müddətli görüşləri olacaq, amma belə təklikdə qalmayacaqlar.

Bu zaman qapı döyüldü. Gedib baxaraq qapınını açdı.Qərib içəri girərək:
-Əslində, tezdir, aşağı düşüb barda otura bilərdik.
Sürəyya gülümsünərək:
-Əslində, gələcəyinizi bilirdim.
Qərib:
-Bax, sən? Nə çox bilirsən sən?
Sürəyya otağa qayıtdı.Qərib onun arxasınca gələrək:
-Çiçəkləri bura düzmüsən? Nə xoş ətri gəlir..
-Üst-üstə kiflənməsin deyə sərdim. Niyə dincəlmədiniz, yorğun idiniz?

-Sabah gedəcəyik, orda dincələrik. Düşək aşağı? Musiqi dinləyərdik, söhbət edərdik.
-Nəsə istəmirəm. Oturaq da burada, mən səs –küylü yerləri  xoşlamıram. Həm doyunca gəzdik. Gör haraları dolanıb gəldik.
Qərib çələngi əlinə götürərək:
-Onda deyim, bura gətirsinlər, meyvədən- zaddan. Çay istəyirsən, yoxsa kofe deyim?
-Fərqi yoxdur, nə istəyirsiz deyin.
Qərib telefonla sifariş verib kresloda oturdu. Sürəyya paltarlarını səliqə ilə qatlayıb yığırdı. Qərib:
-Niyə kefin yoxdu, yorulmusan? Yatmaq istəyirsənsə, mən tez gedərəm.
Sürəyya ona baxaraq gəlib yanında oturdu. Qəribə diqqətlə baxdı, sonra yavaşca:
-Yorğunam. İçimdə danışmaqdan, mücadilə etməkdən, hər şeyi yozmaqdan, gerçəklə xəyalları bir-birindən ayırmağa çalışmaqdan yorğunam. Qərib, mən sənə gördüyüm gündən aşiqəm, səni sevirəm. Sən də bunu bilirsən. Bilirsən, amma bilmirsənmiş kimi davranırsan.
-Sürəyya...
-Yox. Qoy danışım, xahiş edirəm, içimdə danışmaqdansa, qoy, səninlə danışım. Mən artıq içimdə tükənmişəm, gücüm yoxdur. Sən bu qədər yaxınkən, mən görmürmüş kimi,  hiss etmirmiş kimi davrana bilmirəm.

-Sürəyya!

-Mən sənin kimi ola bilmirəm. Adam hisslərində də, davranışlarında da dürüst olsun gərək. Məndən xoşlanırsan, sevirsən demirəm, sadəcə xoşlanırsan, bu qədər yaxınına buraxıb, niyə uzaq kimi davranırsan?

Qərib onu sakit-sakit süzərək:

-Sürəyya, dediyin kimi deyil, mən səni çox sevirəm, çox dəyər verirəm, sən mənə çox əzizsən. Sadəcə, sənə heç nə vəd eləyə bilmədiyimdən...önünü kəsmək istəmirəm...

-Qərib, mən səndən heç nə istəmirəm, heç nə! Amma sevdiyimi də gizlətmək istəmirəm, sən bu dünyada yeganə insansan ki, mən səni itirmək istəmirəm, sənsiz yaşaya bilmirəm...

Sürəyya başını aşağı saldı, gözlərini yerə dikib susdu. Qərib onun əllərinin necə titrədiyinə baxaraq:

-Sən belə desən də, mən sənin gələcəyini məhv edə bilmərəm, buna haqqım yoxdur. Bu dünyada o qədər çəkə bilmədiyim günahlarım var ki...Mən sənin sevginə, fədakarlıına layiq deyiləm...

-Hansı gələcəyimi? Hansı gələcəkdir o? Yalqızlıq, kədər, qüssə dolu tənha gecələrimdənmi danışırsan? Sevgisiz, üzüntülü, bitmək bilməyən həsrətdən, ayrılıqdanmı bəhs edirsən? Sabah nə olacaq, heç kəsə məlum deyil...yaşayacağammı, qəzaya düşüb öləcəyəmmi?

Sürəyyanın üzü pörtmüşdü, gözləri yaşla dolmuşdu, həyəcandan dodaqları səyriyirdi.

-Belə danışma, sən gəncsən, qarşında tam bir ömür var. Sevəcəksən, seviləcəksən...

-Mən sənsiz olan o ömrü istəmirəm. Sənin vəziyyətin əvvəldən də belə idi, niyə məni yaxınına buraxdın? Bu sevgini sən yaratdın məndə. Sən aşiq elədin məni özünə. Niyə axı? Mən sənə kimi xatırladıram? İlk eşqinimi? Hələ də sevdiyin o qadınımı? O yoxdur artıq, mən isə varam, əzab çəkirəm.

Qapının zəngi çalındı. Qərib gedib qapını açdı. Xidmətçini yola salıb, qapını bağladı. Üstü dolu xidmət stolunu sürüb içəri gətirdi.

Sürəyya əlini üzünə tutub hıçqırırdı. Qərib stəkana su töküb onun yanına gəldi. Əyilib əlindən tutdu. Onun yanında oturub çiynini qucaqlayaraq:

-Al iç... dəli qız...mən də səni çox sevirəm, hər kəsdən daha çox...amma səni incitməmək üçün...səni itirməkdən qorxduğum üçün...sənə toxunsam, acığın tutar deyə, uzaq dururam. Mən duyğularımdan danışa bilmirəm, onları ifadə edə bilmirəm. Qarşımı kəsən çox şey var. Səninlə birlikdə olmağı mən də çox istəyirəm, amma bunun ağırlığını da bilirəm, səni çidarlamaq, ayağıma bağlamaq istəməməyim buna görədir. Sən fikir çəkməyəsən, başqalarından utanmayasan deyə. Gizli sevgili olmaq çox

çətindir, çox ağırdır. Mən bunu sənə rəva görə bilmirəm. Bəsdir daha, ağlama...iç bu suyu. Sən ağladıqca, ürəyim parçalanır.
Salfet götürüb Sürəyyanın üzünü sildi. Stəkanı onun dodaqlarına toxundurdu. Sürəyya iki qurtum su içib, əli ilə stəkanı kənar elədi.
-Qəlb bu şeylərin heç birini qəbul eləmir. Bu sözlərin heç bir əhəmiyyəti yoxdur. Nə qədər danışırsan- danış, o öz bildiyini deyir. Qərib, sevgim məndən çox güclüdür, bunu görmürsənmi? Məni çəkib haralara gətirdiyini bilmirsənmi? Mən onu ata bilmirəm. Çox çalışdım, sən buraxmadın. Dilin başqa sözlər deyir, amma məni buraxmayan sənsən. Sənsən. O, səndən də güclüdür.
Qərib onun yaşlı gözlərinə, islamış üzünə baxaraq:
-Bu qədər üzüləcəyini bilsəydim...Sürəyya, mən səni itirməkdən çox qorxuram, çox...
-Mən aşiq olduğum üçün üzülmürəm, əksinə, bu möcüzəli duyğuları yaşadığım üçün, səni sevdiyim üçün, sənin üçün xoşbəxtəm mən. Sənə qədərki, rəngsiz, boz həyatımın dəyişdiyi üçün xoşbəxtəm. Məni üzən aramızdakı qeyri-səmimilikdir. Bayaq çöldə mənə necə baxdını görmək, sonra da heç nə olmamış kimi, özümü abdal qız kimi göstərmək məcburiyyətində qaldığım üçün üzülürəm.
Qərib onu özünə tərəf çəkərək:

-Gəl bura, dəli qız, sən məni öldürürsən. Ağlına da gəlmir ki, səni itirmək qorxusundan az qala məhv oluram. Səni uzaqdan-uzağa, gözlərimlə sevmək belə, mənə dünyaları bağışlayır. Hər şeyi bildiyini zənn edirsən, hə? Amma mənim içimdəki fırtınalardan xəbərin yoxdu.

Sürəyya onun sinəsinə sığınaraq:

-Heç nə bilmək istəmirəm. Fırtınalardan da qorxum yoxdu, əgər məhv olacamsa, sənin ürəyində ölüb qalmağı hər şeydən daha çox istəyirəm.

Qərib onun saçlarından öpərək, qoxusunu içinə çəkdi.

***

Səhər təyyarədən enib salona daxil olanda, Qərib uzaqdan Rizonu görərək Sürəyyaya:

-Rizo gəlib.

Sürəyya gözləri ilə Rizonu axtardı. Onlara tərəfəf gələn Rizonu görcək:

-Yaxşı, Qərib, hələlik, mən gedim.

-Səni evinə aparaqmı?

-Yox. Taksi ilə gedəcəm.

-O zaman yükünü taksiyə aparmağa kömək edim.

-Lazım deyil, sən get.

Rizo onlara yaxınlaşdı. Gülə-Gülə qucaqlaşdılar.

-Xoş gəldin. Necə keçdi?

-Sağ ol, qaydasında. Nə var –nə yox buralarda?

-Sağlıq-salamatlıqdı. Yükün var?

-Hə.

Onlar yüklərini götürdülər. Qərib Sürəyyanın da yükünü götürdü. Çölə çıxanda Qərib:

-Rizo, xanımı yola salım, gəlirəm.

Rizo Qəribin yükünü maşına qoydu, keçib oturdu. Sürəyyanı taksi ilə yola salıb, maşına minəndə Rizo soruşdu:

-Kimdi bu qız?

-Heç... təyyarədə yanımda oturmuşdu. Bir az söhbət elədik, kömək elədim yükünə. Evdə nə-var –nə yox, Lili necədir?

-Yaxşıdır.

Gülümsəyərək:

-Qorxur.

Qərib təəccüblə:

-Niyə?

-Az qalıb vaxtına.

Qərib də gülümsəyərək:

-Hə...inşallah.

Gülü süfrə açıb, növbənöv xörəklər hazırlamışdı. Lili də, qudalar da burda idi. Yemək yeyiləndən sonra Qərib hədiyyələrini payladı. Paltarını dəyişib Rizoya:

-Gedəkmi? Bir sənədləri yoxlayaq. Gülüyə tərəf dönərək:

-Sonra da bələdiyyəyə gedəcəm. Orda da işlər tökülüb qalıb.

Rizo tez qalxaraq:
-Gedək. Atabəy ordadır. Liliyə tərəf dönərək:
-Sən burda qal mən gəlincə.
Lilinin vaxtı idi. Hərəkəti çətinləşmişdi. Tək qalmaq istəmirdi. Ağrısı tutanda yanında adam olmasını istəyirdi.
Gülü:
-Siz rahat işinizə gedin, burdayıq də biz.
Qəribgil son işlərlə əlaqədar iclas keçirdilər. Qərib bütün məlumatları dinləyib göstərişlər verdi. Sonra şirkətdən çıxdı. Maşından Sürəyyaya zəng etdi.
Sürəyya telefonu açaraq:
-Hə, Qərib...
-Necəsən? Sahmanlandınmı?
-Yaxşıyam. Hə, evi səliqəyə salıram. Sən hardasan ki?
-Bələdiyyəyə gedirəm. Orda işlər tökülüb –qalıb. Sabah görüşəkmi?
-Səhər işə gedim. Axşam zəngləşərik.
-Yaxşı. Hələlik.

***

Hər gün görüşə bilmirdilər. Qəribin işi çox olurdu. Həm də başqa, uzaq yerlərə getmək üçün çox vaxt lazım idi. Bir dəfə oteldə görüşdülər, bu- heç birinin xoşuna gəlmədi. Belə vəziyyətdə Sürəyya çox sıxılırdı. Qəribi də çox adam tanıyırdı, hara gedirdisə, adamların baxışı onu izləyirdi.

Bir dəfə çox darıxdığından gecəyarı Qərib Sürəyanın evinə getdi. Sürəyya qapıda onun görərkən çaşqınlıqla:
-Dəlisən nədir? Sənin bu vaxt burda nə işin var? Görən olar axı...
Qərib:
-Cəhənnəmə görsünlər! Darıxdım, dayana bilmədim. Səni görmək istəyirdim, neynəyim ,bəs? Sürəyya ona sarılaraq:
-Belə eləmə bir də, sən çıxıb gedəcəksən, mənsə burada qalacam.
Məhəllədə evlər bir-birinə çox yaxın idi. Pəncərələr, eyvanlar göz-gözə dayanmışdı.Qapılar cırıldayanda da qonşu evlərdə eşidilirdi. Qərib səhv etdiyini bilirdi, amma Sürəyyanı görmək üçün başqa yol da yox idi. Vəziyyət get- gedə çətinləşirdi. Növbəti səfəri gözləməyə səbri çatmadı. Gecə gəldiyi kimi, gecə də getdi.
Sürəyyaya söyləmədən, Qərib şəhərin mərkəzi hissəsindən, yeni tikilən evlərdən Sürəyya üçün mənzil aldı. Ev tam hazır deyildi, təzə köçənlər də bir-birini tanımırdı. Qərib evi tez təmir etdirib, mebellərini aldı. Hər şey hazır olandan sonra Sürəyyanı bura gətirdi.
Sürəyya gördüyünə inanmadı. Həyəcanla:
-Qərib, bu nəyə lazım idi, bu qədər böyük xərc...mənim evim var idi...
-Evin var, amma mən ora gələ bilmirəm. Nə vaxta qədər qorxa-qorxa görüşəcəyik? Ay gördülər, ay baxdılar...

açarın biri məndə qalsın. Burda adamlar bir-birini tanımır. Məndən olsa, işdən də çıx, yaxın klinikaların birində sənə iş tapım, özü də yarımştat, gecə-gündüz orda qalıb yorulmayasan.
-Yox, işdəkilərə öyrənmişəm.
- Sən bilərsən. Evdən lazım olan əşyalarını gətirək. Bax gör, çatışmayan nəsə qaldımı?
Qərib buraya tez-tez gəlirdi. Hər ehtimala qarşı, maşınını yaxın dayanacaqda saxlayırdı.
Süreyya özünə məxsus əşyalarını gətirdi. Çox keçmədən Qəribə işdən çıxmaq istədiyini də bildirdi. Son vaxtlar rəfiqələri ondan artıq şeylər soruşurdular. Dəyişmisən, həmin Süreyya deyilsən,- deyirdilər Heç nə biməsələr də, Süreyyanın təhər-tövründən nəsə anlayırdılar. Qərib Süreyyaya bahalı hədiyyələr, zinət əşyaları alırdı. Xaricə gedəndə onu da aparırdı. O, işə nə qədər sadə geyinib getsə də, baş verən bu dəyişiklər iş yoldaşlarının nəzərindən qaçmırdı. Bunları Süreyyadan eşidəndə Qərib:
-Sənə deyirdim də, o işdən çıx. Darıxma, bir soraqlaşım, sənə yaxşı yerdə iş taparam.
Süreyya evdə çox sıxılırdı. Bəzən Qərib gələ bilmirdi və yaxud gəlib- dəyib çıxırdı. Belə vaxtlarda Süreyya nəylə məşğul olacağını, neyləyəcəyini bilmirdi. Qəriblə çöldə çəkdirdiyi şəkli böyüdüb divara vurmuşdu. Çiçəkləri də qurudub güldana qoymuşdu. Çox darıxanda gündəlik

yazırdı. Əslində, yazmağa məktəb vaxtlarından başlamışdı, sonralar işin çoxluğundan vaxt tapa bilmirdi. İndi də qəlbində çox şey vardı, bölüşməyə isə kimsə yox idi. Qəribin yanında çox danışmırdı bu barədə, bu həyatı özü seçmişdi, nə qədər darıxsa da, bunu biruzə verməməyə çalışırdı. Qərib ona qarşı çox diqqətli idi, hətta gözlədiyindən də artıq. Günün müxtəlif saatlarında zəng edirdi. Bütün fikirlərini və duyğularını Sürəyya ilə bölüşürdü. Sürəyya onun ətrafındakı, münasibətdə olduğu hər kəsi tanıyırdı. Sanki Sürəyya da qiyabi olaraq onlarla birlikdə yaşayırdı, amma onların bundan xəbərləri yox idi. Hətta Rizonun oğlu olarkən, Qərib uşağın şəklini xəstəxanada çəkib ona göndərmişdi. Sürəyya uşağı görərkən, qəribə hisslər keçirmişdi. Onun da uşağı ola bilərdi. Görəsən, Qərib buna razı olarmı? Artıq bilirdi ki, Rizo Qəribin oğlu deyil, onun öz övladı yoxdur, bunu heç istəmirmi? Bu barədə danışmağa utanırdı. Nə qədər yaxın olsa da, Qərib çox sirli adam idi. Sürəyya çox düşünürdü bu barədə. Qərib heç vaxt uşaqlığından, ata-anasından danışmırdı. Adətən, insanlar öz uşaqlıq xatirələrindən danışmağı sevirlər. Valideynlərindən, bacı-qardaşlarından. Bir yerdə çox qalanda belə, Qərib keçmişi haqqında heç nə danışmırdı. Bir dəfə o Qəribdən bu barədə soruşmuşdu. Qərib isə gözlərini yumaraq:

-Yuxum gəlir, nə vaxtsa danışaram.

Sürəyya təkidlə :
-Danış, nə olar, mənə çox maraqlıdır.
Qərib ona baxmadan zarafatla:
-Mənim heç uşaqlığım olmayıb, elə bu boyda doğulmuşam.
-Hər kəsin uşaqlığı olur özünə görə. Götürəndə heç mənim də bir öyünüləsi uşaqlığım olmayıb. Atam tez öldü, anam da heç mənə uşaq kimi baxmadı. Elə iş tapşırdı.Onu eləyərsən, bunu eləyərsən. Elə o vaxtdan mən təkliyə öyrəndim.
Qərib ona tərəf dönərək:
-Sən indi təksən?
-Yox, elə demədim.
-Dedin. Təkliyə öyrəndim,- dedin.
-Yəni ki, tək qalıram çox vaxt, darıxıram sənsiz.
-Sürəyya, mən də səni, sən məni gördüyün qədər görürəm, mən də darıxıram, amma özümü tək hiss etmirəm. Çünki sən varsan. Çünki elə ağlımdasan, qəlbimdəsən. Bütün günü səninlə danışıram telefonla.
-Sən çox məşğulsan, başın işə qarışır, gör hər gün nə qədər adam görürsən, mən isə ancaq səni gözləyirəm, darıxıram, hətta yanımda olanda da darıxıram, gözüm qalır saatda, indi gedəcəyin başımdan çıxmır.
-Ona qalsa, mən heç evdə də olmuram. Kişi belədir də, kişi işdə olar, evdə oturmaz.

-Mənim səndən başqa heç kimim yoxdur.
-Tezliklə sənə elə iş tapacam ki, başını qaşımağa vaxtın olmasın, mən də yadına düşməyəcəm.
Sürəyya gülərək:
-Lap yaxşı olar. O zaman sən mənim üçün darıxarsan, bilərsən nə çəkirəm.
Qərib onu qucaqlayaraq:
-Nə çəkirsən, hə?
-Dayan bir...burax, qolum sındı...

***

Biznesi böyüdükcə, ortaqları çoxaldıqca, əhatəsi genişləndikcə Qəribin işi çətinləşirdi. İqtisadi yüksəliş onu siyasi əlaqələr də qurmağa vadar edirdi. Get-gedə anlayırdı ki, bunsuz mümkün deyil. Əlaqədə olduğu qurumlar da Qəribi siyasi bağlantılara təhrik edirdilər. Hakimiyyətin yüksək pilləsində olmadıqca, pul dövriyyələrinə süni əngəllər yaradılır, işlər ləngiyirdi. Yüksək səviyyədə keçirilən görüşlərin birində Qəribə qarşıdakı milli məclis seçkilərinə qatılmaq tövsiyyəsi verildi. Qərib çox düşündü və anladı ki, bundan sonrakı fəaliyyətində bu mərhələ qaçılmazdır. Xaricdən və daxildən siyasi və iqtisadi dəstək veriləcəkdi. Qəribin edəcəyi tək şey, namizədliyini irəli sürmək idi. Heç bir

partiyada olmadığı üçün müstəqil namizəd olaraq, qeydiyyatdan keçdi. Əvvəlki kimi həvəsli olmasa da, seçki kampaniyasında görüşlər keçirir, təbliğat çıxışları edirdi. Təbliğat üçün ağlasığmaz dərəcədə yüksək məbləğ ayrılmışdı. Bu qədər pulu əlaqədar olduğu, onun seçilməsində marağı olan qurumlar təşkil etmişdi.

Şirkətin işi Rizonun və Atabəynın ütünə düşmüşdü. Nəvəsi olandan dünya Gülünün gözündə deyildi. Qəribin milli məclisə namizədliyini eşidəndə fikrə getdi. İşi- gücü , hər şeyi var, Qəribin nəyinə lazımdı bu? Böyük başın ağrısı da böyük olar. Qərib heç kimlə məsləhətləşmədən belə ağırlığın altına girib, özü bilər. Narazılıqla Rizoya:

-O bu qədər işin öhdəsindən necə gələcək?

Rizo:

-Daha bələdiyyədə işləməyəcək, şirkətdə də biz varıq, tək özü işləməyəcək ki, köməkçiləri olacaq.

Gülü çiynini çəkərək:

-Nə bilim...

Son vaxtlar Qərib evdə az olurdu, hər zaman işdə, iclaslarda, tədbirlərdə, səfərlərdə, indi vəzifəsi böyüdükcə, işi də çoxalacaq. Gülünün başı nəvəsinə - Vasifə qarışdığından, bəzən Qərib yadından çıxırdı. Rizo oğluna atasının adını qoymuşdu. Lili uşaq ağlayanda neyləyəcəyini bilmirdi, çox zaman Gülü səhərə qədər Rizogildə qalırdı. Gündüzlər qaçıb Qəribin yeməyini

hazırlayır, sonra uşağa baxırdı. Qərib səfərə gedəndə arxayınlaşır, evinə getmir, Rizogildə qalırdı. Bəzən Rizo da haralardasa itib-batır, evə gec gəlirdi. Rizo şirkətə nə qədər bağlansa da, futbola olan sevgisi azalmamışdı. İndi o, futbol federasiyasının vitse –prezidenti idi. Şirkətdən kənar vaxtını orada keçirdir, hərdən özü də komandaya qoşulub oynayırdı. Evdə  Gülü deyinəndə Rizo:

-Qoy Vasifin 3 yaşı olsun, onu da aparacam futbola.

Gülü onun sözündən hirslənəndə  Lili:

-Sözdü də deyir, sən də inanırsan.

Rizo:

-Söz niyə olur, mənim oğlum futbolçu olacaq, görərsiz! Yeriyən kimi, aparacam oynamağa.

***

Təbliğat başlayandan Qərib üçün çoxlu görüşlər təşkil olunurdu. Boş günlərində vaxt tapıb Sürəyyanın yanına gəlirdi. Sürəyya  biruzə verməsə də,  ürəyində Qəribin  bu yüksək  məclisə seçilməyindən narazı idi. Bunun əsas səbəbi qorxu idi. Sürəyyaya elə gəlirdi ki, belə yüksək vəzifədə olmaq Qəribi ondan uzaqlaşdıra bilər. Qərib onun səsindən, ürkək baxışlarından bunu sezərək:

-Sən nədən qorxursan ki?

-Nə bilim, ürəyim narahatdır. Sonra vaxtın olmayacaq, get-gedə uzaqlaşacaqsan məndən...soyuyacaqsan...

-Nə danışırsan? Seçilsəm də, seçilməsəm də, bunun bizim sevgimizə heç bir təsiri yoxdur və olmayacaq da. Bu fikri çıxart ağlından. Biz heç zaman ayrılmayacağıq. Bunu anla birdəfəlik. Sən belə danışanda hər dəfə, bununla məni nə qədər incitdiyinin fərqində deyilsən. Əksinə, əgər seçilsəm, bizim bir yerdə yaşamaq imkanımız daha çox olacaq. Sən yanıma gələrsən işləməyə, bir yerdə işləyərik, hər yerə bir gedərik. Kim bilir, sabah nələr olacaq? Heç vaxt bədbin olma. Biz artıq ailəyik. Sən mənim qadınımsan, ailəmsən. Nə olsun rəsmi bir kağız yoxdur. O sənə lazımdırmı? Nə dəyişəcək o olsa? Əgər çox istəyirsənsə, vaxtında o da olacaq. Amma daha bir də sən belə sözlərlə ürəyimi sıxma. Səbirli ol!

Sürəyya peşman-peşman ona sığınaraq:

-Mən ürəyini sıxmaq istəmirdim, sadəcə narahatlığımı bölüşmək istədim. Sən ki bilirsən, ağlımdan keçən hər şeyi heç vaxt səndən gizləmirəm. Sənin üçün yaxşı olan hər şey mənə də yaxşıdı. Səndən başqa mənim heç bir amalım, məqsədim yoxdur. Amma səninlə bir yerdə işləmək necə gözəl olardı. Doğrudan, belə bir şey mümkündür?

-Niyə mümkün olmasın? Biz istəyiriksə, hər şey mümkündür.

-Çox sevindim buna. Gecə qalacaqsanmı?

-Yox, bir azdan çıxacam. Bu gün axşam gənclik parkında görüş var. Nə zaman bitəcəyi bəlli deyil. Gecə də biznes-oteldə görüşüm var. Qonaqlarım var. Sabah səhər saatlarında gələcəm. Saat 3-qədər burdayam.

-Nə bişirim sənə? Nə istəyirsən?

-Yüngül yemək elə. Amma piroq da bişir, adı nədi onun...

Sürəyya onu qapıyadak yola salaraq:

-Baş üstə, bildim... gülə-gülə onu öpərək:

-Sənə yaxşı yol.

Qərib onu öpərək çıxdı. Liftə minənədək Sürəya ona baxdı. Qərib liftə minib düyməni basdı, qapı örtülənədək ona təbəssüm öpüşü göndərdi. Sürəyya qapını çəkib bağladı.

Qərib evdə darıxmasın deyə, Sürəyyaya təzə iş tapmışdı. Yaxınlıqdakı klinikada yarım ştat tibb bacısı işləyirdi. Palatada xəstələrə qulluq etmirdi, sənədləşmə işinə baxırdı. Bunu Qərib belə istəmişdi. Təzə işinə, işdəki adamlara hələ isnişməmişdi. Qəribin təkidi ilə hərdən çıxıb gəzir, havasını dəyişir, mağazadan ərzaqlar alır, ev işləri ilə məşğul olur, qalan vaxtını kitab oxumaqla keçirirdi. Kitabları ona Qərib gətirirdi. Sən demə, Qərib çox mütaliə edənin biriymiş, Sürəyya bunu heç bilmirdi. Ona elə gəlirdi ki, Qərib yalnız iqtisadiyyatla maraqlanır. Özü əvvəllər çətin işdə işlədiyi üçün kitab oxumazdı. Buna nə vaxtı vardı, nə də kitab almağa pulu. Gecə vaxtlarında

televizora baxıb yatardı. Ona görə də Qəribin gətirdiyi kitabları maraqla oxuyurdu. Sürəyya indi başa düşürdü ki, Qərib ondan nə qədər məlumatlı və savadlı imiş. Amma onun sadəliyi və səmimiyyəti bu fərqin üzə çıxmağına imkan vermirdi.

Gündəliyini yazıb siyirməyə qoydu. Sonra dünən başladığı kitabı götürüb oxumağa başladı.

***

Qonşuların arasında Almaz adlı bir qadın Gülüyə yaxınlığı ilə seçilirdi. O da keçmiş kirayənəşinlərdən idi. Gülünün ona çox yaxşılığı keçmişdi, məhz onun sayəsində ev-eşik sahibi olmuşdu. Tez-tez Gülü ilə söhbətləşmək üçün gəlirdi, çay içib dərdləşirdilər.Gülü pəncərədən Almazın gəldiyini görüb qapını açıb gözlədi. Pilləkənləri ağır-ağır çıxan Almaz Gülünü görüb:

-Ürək qalmayıb e, iki addım atan kimi, nəfəsim kəsilir.

-Ehh, dağın dərdini duman bilər...Gəl içəri, xoş gəlmisən.

Divanda oturub ordan-burdan söhbət elədilər.Gülü qalxıb çay gətirdi.

-Ay Gülü, içmişəm e, çay lazım döy...

-Sən allah, qoy bir rahatlıqnan çay içim, gedə qoymur ki...Deyir, yeməyin –içməyin, yatmayın, elə məni tutub durun.

-İndiki uşaqlar elə bələkdən ərköyün olurlar, sonrasını allah saxlasın.

-Rizo yazığı kürəyimdə böyütdüm, uşağın heç rahatlığı da olmadı.
-Allah saxlasın, min budaq olsun.
Almaz çayından bir qurtum içib:
-Qərib neyləyir?
-Heeç, işində-gücündə. Seçki olacaq də... bu da namizəddir.
-Bilirəm, eşitmişəm ,- Almaz susub fikrə getdi.
Gülü:
-Nə olub, nəsə birtəhərsən...
-Vallah bilmirəm , heç demək də istəmirəm, amma səndən də keçə bilmirəm, üstümdə o qədər haqqın var ki...
-De görüm, nə məsələdi?
-Sizin bu Qəribi bir qızla görüblər.
-Nə qız? Kim görüb?
-Mənim qardaşımın qızı var ha, Mətanət. O sizi tanıyır də, elə bizim məhlədə böyüyüb, Qəribi də tanıyır. İndi o köçüb, ərdədir.
-Hə...
-Xəstəxanada işləyir, özəldə, deyir bizə bir qız gəlib işə təzəliklə, təsadüfən, görüb bu da Qəribi, həmin qız maşınındaymış...
-Harda görüb?
-Deyir, yolda marşrutdaydım, baxırdım, Qəribin maşınını gördüm, yanında da bu qız. Başqa şey demir a, deyir elə

təəccüb elədim, Qərib hara, bu qız hara?  Məndən soruşdu ki, qohum-zad deyillər ki?

-Bilir qız kimdi?

-Adı Sürəyyadı. Bir yerdə işləyirlər də elə.

-Nə bilim,  Qərib məşhur adamdı, o qədər tanışı, dostu var ki.

-Hə, mən də dedim elə,  adam hər gördüyünə məna verməz.

-Boş şeydi, görüb-görüb də, bəlkə, dostlarından kiminsə qızıdı, qohumudu, yolunun üstü olub, aparıb. Siz də hər şeyi böyütməyin. Qəribin bir dəqiqə vaxtı yoxdu, o boyda seçkiyə hazırlaşır. Beş dəqiqə çörək yeyəndə yüz dənə zəng gəlir.

Almaz dediklərini  Gülüyə xoş gəlmədiyini hiss edib:

-Dedim xəbərin olsun, bir az ayıq ol, indi belə kişilərin ovçuları çox olur. Mən də gedim daha, səni də yolundan elədim.

-Nə isə... hə, nəvəm gözdüyür, mən olmasam yatmır ki, Allah sizə də qismət eləsin.

Almaz gedəndən sonra Gülü divanda oturub qaldı. Üzdə özünü sakit göstərsə də, içində sanki göy uçmuşdu. Eşitdiklərini tam anlaya bilmirdi. Qərib başqa qadınla... Kimdi bu, görəsən? Belə şey varsa, bundan Gülünün niyə xəbəri yoxdu? Olmaz, belə şey olmaz! Durub evin içində fırlanırdı, ora-bura vurnuxa-vurnuxa nə etdiyini bilmirdi.

Taqəti qalmadığından durub Rizogilə gedə bilmədi. Bir azdan Lili zəng elədi:

-Mama, bayaq zəng elədin gəlirəm, nə oldu? Səni gözləyirik.

-Hə, indi gəlirəm.

Qalxıb evdən çıxdı, pilləkənləri düşəndə hiss etdi ki, bədəni uçunur.

Onun rənginin avazıdığını görən Lili:

-Xəstələnmisən? Nə olub?

-Heç nə, nəsə bir az ürəyim sıxıldı elə bil.

Lili tez durub təzyiq ölçəni gətirib onun qoluna bağladı. Diqqəti Gülüdə idi. Onu heç vaxt bu halda görməmişdi. Əqrəblər çox yuxarını göstərirdi. Lili təkrar ölçdü.

-Mama, sən uzan bir az, mən sənə bir dərman verim, bir az çoxdu təzyiqin. Yəqin, soyuqlamısan, ya həyəcanlanmısan nədənsə.

- Nə bilim, elə san ürəyim tez-tez döyünür.

-Narahat olma, dərman içən kimi keçəcək. Amma Rizoya da deyirəm, sən əməlli-başlı yoxlamadan keçməlisən. Ayaqların, oynaqların şişməsi çox pisdir, bax, topuqlarında qan yığılıb.

-Əşi, elə həmişə şişir də əlim-ayağım, iş görməkdən, ağırlıqdan.

-Yox, belə olmaz, əvvəllər belə olmurdu, indi başqa cürdür. Etiraz eləmə, sabah səni həkimə aparırıq.

Gülü dərmanı alıb su ilə içdi,uzanaraq gözlərini yumdu. Lilinin nə dediyini eşitmirdi. Elə bil ağlı uçub getmişdi. Nə etsin? Qəribdən soruşsunmu? Kimdən soruşsun? Nə soruşsun? Ay allah, oturduğum yerdə bu, nə bəladı?

Bir az keçmiş qalxdı:

-Lili, qızım, bu gün mənsiz keçin, mən gedim evə.

-Uzan burda, şorba bişirirəm sənə, limon sıxmışam, heç olmasa onu iç.

Gülü limon suyunu alıb içdi. Vasif yatmışdı.

-Axşam gəldim, bəlkə.

-Getməsəydin, uzansaydın burda, baxardım da...

-Sən işində ol, qızım, uşağa bax, keçib gedəcək, narahat olma.

Rizogildə özünə yer tapmayan Gülü, evində də rahat ola bilmədi. Mətbəxə keçib itburunu dəmlədi. Xörək bişirməyə başladı. Əti çəkib, soğanını, duzunu –istiotunu vurdu, şüyüdü xırda-xırda doğrayıb qarışdırdı, yarpaq yuyub oturdu dolma bükməyə. Bir də onda ayıldı ki, ətə düyü, nanə vurmayıb. Dalxıb düyü yudu, nanə qatdı. Bükdüklərini açıb təzədən qarışdırdı. Bu səhər nə yaman açıldı üzümə? Kimə deyim, kimə danışım? Deməli dərddimi bu?

Qazanı plitəyə qoymuşşdu ki, həyətdə Rizonu gördü. Rizo pilləkənləri qoşa-qoşa çıxaraq, içəri girdi:

-Mama, neynirsən?

-Xoş gəldin evinə. Dolma bişirirəm. Nə yaxşı gəldin?

-Təzyiqin qalxıb? Niyə durub gəlmisən bura?

-Yaxşıyam e, Lili deyir qalxıb, mən bilmirəm.

-Hazırlaş, gedirik həkimə. Günü günə satırsan. Ağrıyırsan, həkim var, dərman var, bir az müalicə edək. Dur, tez elə.

-Hara, ay bala? Adam elə hər başı ağrıyanda doxtura gedər?

-Təzyiqin var, özü də dolma bişirirsən.

-Bunu sizinçün bişirirəm, özüm qatıq yeyəcəm, dovğa bişirəcəm indi, bilirəm, Lili deyib nə yemək olmaz, nə olar...

-Ay ma, bax da, ayaqların gör necə şişdi, niyə tərslik eləyirsən, elə eləmə ki, zorla dalıma götürüm aparım.

-Yaxş- yaxşı...gedərik...Qərib gəlsin bir.

-Qəribi neynirsən? Başı qarışıb seçkiyə, nəfəs almağa vaxtı yoxdu onun. Burdayam da mən.

-Gedərik, vallah. Allah səni mənə çox görməsin. Günorta yemisən?

-Yox, gəldim elə evə dəyim, Lili zəng eləmişdi. Gəldim bura.

-Otur onda. İndi bişəcək dolma. Liliyə də apar.

-Yox, mən aptekə dəyəcəm, Vasifə dərman alacam, sonra şirkətə qayıtmalıyam, Qərib yoxdu.

-Get onda, bişsin mən gətirərəm, axşam yeyərsən. Gedəcəm onsuz da uşağın yanına, bayaq mən gedəndə yatmışdı.
Rizo qapıdan çıxa-çıxa:
-Sabah da həkimə gedərik. Nərmin qalar uşaqla, Lili də gedər, belə şeyləri o yaxşı bilir.
- Yaxşı... get...

***

Axşam Qərib evə gəlib yuyundu, paltarını dəyişdi. Gülü süfrə hazırlığına başladı. Qərib onun üzünə baxaraq:
-Nə olub, özünü pis hiss edirsən? Bikef görünürsən. Rizo dedi təzyiqin qalxıb.
Gülü ona baxmadan:
-Lili ölçdü səhər, dərman atmışam. Keçdi, yəqin ki.
-Səhər gedərik həkimə. Təzyiqlə zarafat olmaz.
Gülü yeməkləri süfrəyə düzdü. Qatıq, salat, göyərti gətirdi.
-Sən ye, rahatlan, mən Rizogilə gedəcəm, həm dolma aparım, həm uşağı bu gün görməmişəm. Çay da dəmləmişəm.
Qərib:
-Gəl, otur, birlikdə yeyək. Mən də gedəcəm. Nə vaxtdır Vasifi görmürəm, darıxmışam.
Gülü:

-Mən yedim bayaq, dovğa içdim. Lili deyir, dolma yemə. Sən ye, nuş olsun, mən hazırlıq görüm.
Qərib oturub yeməyə baladı. Gülü onunla üz-üzə, göz gözə gəlmək istəmirdi. Qəhər boğasına qalxmışdı. Sanki Qəribin üzünə baxsa, özünü saxlaya bilməyib ağlayacaqdı. Ürəyindəkiləri biruzə vermək istəmirdi. Bəlkə, yalandır. Almazın o qohumunu da düz əməlli tanımır, bəlkə, özündən düzəldir.
Qərib televizora baxa-baxa yeməyini bitirdi. Gülü mətbəxdən boylanaraq:
-Çay gətirim?
-Çayı Rizogildə içərik. Mən geyinim.
Gülü sini gətirib süfrəni yığışdırdı. Od kimi qabları yuyub yerinə yığdı. Zənbili götürüb çıxanda Qərib:
-Ver mənə, sən ağır götürmə.
-Ağır deyil, nə var ki burda.
-Ver,ver,-deyə zənbili Gülüdən aldı.

***

Səhəri gün Gülü dözə bilmədi. Gecəni gözünü də qırpmamışdı. Səhər Qəribi yola salandan sonra Rizogilə getdi. Bir az oturur uşağı oynatdı. Liliyə dedi ki, klinikaya gedir. Lili:
-Bəs,danışdıq axı, bir yerdə gedəcəyik. Rizo işləri qaydaya salıb gələcək.

-Hələ bir gedim analizləri verim də. Analiz verməyə də adam lazımdı? Bu qədər vaxtı gözləyəcəklər çöldə. İş-güc adamıdılar, analizlərin cavabını alaram, sonra baxarıq ki, hansı həkimə gedək.

-Yaxşı, nə deyirəm. Deyim onda maşın göndərsin.

-Yox. Taksi ilə gedəcəm.

Gülü durub çıxdı. Dünəndən klinikanın yerini təxmini bilirdi, küçəyə çıxıb taksiyə oturaraq ünvanı dedi. Sürücü başı ilə təsdiq edib tanıdığını bildirdi. Gülü kirayənişinlərini o qədər həkimə aparmışdı ki, az qala şəhərdəki klinikaların hamısını tanıyırdı. Bu- təzə tikilmişdi. Klinikanın sahibi xaricdə yaşayırdı. Gülü içəri girib doktor Məlahəti soruşdu. Ona kabineti gösrərdilər. Həkimlə söhbət etib şikayətini bildirəndən sonra, həkim onun ürəyinə qulaq asdı, təzyiqini yoxladı. Sonra ondan qan analizlərini götürmək üçün labaratoriyaya göndərdilər. Gülü burdakı qızların birindən Sürəyyanı soruşdu.

Tibb bacısı:

-Hə, işləyir, inzibati şöbədə oturur. İkinci mərtəbədə, sağ dəhliz.

Gülü analiz verdikdən sonra ikinci mərtəbəyə çıxdı. Sağ tərəfə gedib dəhlizdə oturdu. O tərəf –bu tərəf gedənlərə baxmağa başladı. Xadiməni görəndə çağırdı. Yanında otuzdurub,ürəyi ağrıdığını, təzyiqi olduğunu söylədi.

Ondan məsləhət kimi hansı həkimin daha yaxşı olduğunu soruşdu. Qadın həkimlərin adlarını çəkməyə başladı.
Gülü:
-Bəs , Məlahət doxdur necədir?
-O da yaxşıdır, çoxdanın doxdurudu, təcrübəlidir. Onun da yanına çox gələn olur.
-Sizdə bir qız var Sürəyya, o kimdir?
-Hə, təzə gəlib bizə. O, palatada deyil.
-Bilirəm, necə qızdı?
-Başıaşağı qızdı, işində- gücündə.
-Hə, gedim analizin cavabını götürüm.
Qadın qalxaraq:
-Allah şəfa versin. Gəlib- eləsən, buralardayam.
-Çox sağ ol. Gülü çantsını açıb pul çıxartdı və onun cibinə basdı.
-Allah razı olsun,-deyib, qadın ayağını sürüyə-sürüyə getdi.
Gülü qalxıb dəhliz boyu irəlilədi, ehtiyatla şüşə arxasında kağız yazan qıza baxdı. Kimsənin onu görməsini istəmirdi. Yaxına getmədən qızı izləməyə başladı. Çox cavan idi. Qamətli, göyçək qız idi, qaşı-gözü, saçları, əlləri- Gülü bir-bir nəzərdən keçirtdi. Yaraşıqlı idi. Qız yerindən qalxanda, Gülü tez geri qayıtdı. Pilləkənləri düşüb labaratoriyaya düşdü. “Yəqin ki, odur.” Bu

mərtəbədə ondan başqa cavan qız yox idi. Gülü əmin olmaq üçün pilləkəndə bir cavan oğlandan da soruşdu:

-Oğlum, Sürəyya xanım harda oturur?

-Çıxın yuxarı, ikinci mərtəbə, sağ dəhlizə gedin, görəcəksiz .

-Çox sağ ol.

Odur elə.

Labaratoriyada analizləri hazır deyildi.

Tibb bacısı:

-Sabah saat 11 – də gəlin, hazır olacaq.

Gülü küçəyə çıxdı. Bir az açıq havada dolaşdı. Qarşıdakı mağazaya girib xeyli gəzdi. Buradan klinakanın həyəti və qapısı görünürdü. Gülü öz-özünə düşündü ki, əgər belə şey varsa, Qərib işdən gəlib onu aparacaq. Heç yerə getməyəcək, gözləyəcək. Onsuz da başı evə sığmırdı. Ən yaxşısı gözləyib əmin olmaqdı. Bilirdi ki, xəstəxanalarda həkimlər 4-də işdən çıxır. Növbətçi həkimlər qalır. Yəqin, qız da bu vaxtlarda gedəcək. Az qalıb. Bir az da küçədə dolaşdı Tində, avtobus dayanacağında oturub qapıya baxmağa başladı. Dördə işləmiş həkimlər getməyə başladılar. Çoxu maşınla idi. Həyətdən maşınla çıxırdılar. Bəziləri isə piyada gedirdilər. Ara-sıra qadınlar da çıxırdı. Birdən Sürəyyanı da gördü. Ürəyi həyəcanla döyünməyə başladı. Qız qapıdan çıxıb, piyada üzüyuxarı getməyə başladı. Başını aşağı salıb sakit-sakit yeriyirdi. Birini

gözləyənə oxşamırdı heç. Gülü onu diqqətlə nəzərdən keçirdi. Mütənasib bədəni, biçimli ayaqları, incə beli, ahəngdar yerişi...ürəyində:cazibəlidir,- deyə qeyd etdi. Süräyya gözdən itəndən sonra Gülü dayanacaqdakı taksilərdən birinə minib evə gəldi. Başı ağrıyırdı. Dərman içib uzandı. Birdən yadına düşdü ki, telefonu bağlıdır. Vay! Gedənin ürəyi partladı ki, tay deynən! Tez durub telefonunu açdı. Rizo da, Lili də, Qərib də ona dalbadal saysız zənglər etmişdilər. Gülünün alnına tər gəldi. Allah sənə lənət eləsin, kor şeytan!

Tez Rizonu yığdı. Elə ilk zəngdən Rizo açaraq partladı:

-Mama, sənin neylədiyindi? Telefonu niyə bağlamısan? Bağrımız çatladı ki!

-Rizo, bala,vallah unutmuşam, bu zəhrimar da bağlı qalıb.

-Necə yəni unutmuşam? Bu qədər vaxtda heç yadına düşmədi ki, səni axtaran bir itin var?

-Rizo...

Rizo hirsindən telefonu söndürdü. Gülü utandığından lap əridi. Kül başına, Gülü, bir dəmdəkinin sözü ilə düşmüsən ortalığa. Uşağın ürəyi partladı, cəhənnəmə olsun, qara yola olsun! Qapını bağlayıb pilləkənləri düşdü, Rizogilə getdi. Lili onu görüb təəccüblə:

-Hardasan, mama, Rizo aləmi dağıdırdı.

-Demə, qızım, içəri girəndə telefonu söndürdüm. Xırppadan çıxıb yadımdan. Abrımı aldı indicə.

-Çox narahat olduq. Dedik, iraq-iraq başına bir iş gəldi nədi?

-Çaysız-çörəksizəm, denən mənə yemək hazırlasınlar. Analizlərə görə ac getdim ora.

Lili uşaqla, dərslə bir iş görə bilmədiyindən, Gülü ona iki köməkçi tutmuşdu. Biri mətbəx işinə baxır, o biri yır-yığış, təmizliklə məşğul olurdu.

Lili:

-İndiyəcən acsan, niyə gec gəldin? Bu dəqiqə deyim, hazırlasın.

Lili mətbəxə getdi. Əlində çay qayıdaraq:

-Sən çayını içincə hazırlayarlar. Danış görək nə oldu?

-Heç nə, qanımdan analiz verdim, cavabı sabah deyəcəklər.

-Ürəyinə bir söz demədi? Kim baxdı?

-Nə bilim e, sabah ayrı yerə gedərik. Xoşum gəlmədi ordan.

-Yaxşı, sabah özüm apararam.

Gülü həmin gecə Rizogildə qaldı. Qərib axşam gəlib onu yoxladı, yeməyini yeyib getdi yatmağa. Bu –ilk dəfə idi ki, Gülü gecə evdə qalmırdı. Qərib çox yorğun idi. Dalbadal keçirilən görüşlərdən çox yorulurdu. Sürəyyaya zəng edib, bir az danışdıqdan sonra yuxuladı. Səhər oyananda Gülü evdə idi, səhər yeməyi hazırlayırdı.

***

İndiyədək Gülü Qəribin hərəkətlərinə, davranışlarına fikir vermirdi. Son günlər isə danışdığı hər sözdən bir məna çıxardırdı. Tez gəlirdi, şübhələnirdi, gec gəlirdi, şübhənirdi, hər zəng gələndə danışığına fikir verirdi. Onu güddüyü üçün özünə nifrət edirdi. Üzünə baxa bilmirdi, sanki baxsa, gözlərində həmin qızı- Sürəyyanı görəcəkdi. Əgər o qızdısa, hər kəsin başını döndərər. Qızda nə isə bir hal var, adam gözünü çəkə bilmir. Güzgünün qarşısında durub özünə baxırdı, şişkin bədənini həm öndən, arxadan, yandan seyr etdi. Özünün gen paltarda daha da iri görünən bədənindən dəhşətə gələrək, otaqdan çıxıb, qapını örtdü. Sürəyyanın incə beli, dolu sinəsi gözünün önündə canlandı. Doluxsunub şişkin ayaqlarına baxdı. Son zamanlar topuqlarında, biləklərində qan laxtalanırdı. Bu, hər kəsi - Qəribi, Rizonu, Lilini narahat edirdi, amma özü gönüqalınlığına salırdı.  Həyatı boyunca o hər kəsi - başqalarını düşünmüşdü, heç vaxt özünə fikir varməmişdi, hələ indiyə qədər gözəllik salonuna ayağı dəyməmişdi, halbuki, sahibi olduğu şadlıq evinin böyük geyim mağazası və geniş gözəllik salonu var idi. O, yaşadığı həyatı dəyişdirə bilməmişdi. Sağlamlığı da əldən getmişdi. Lili hələ diplomunu almasa da, savadlı qız idi, geniş tibbi biliyi vardı .  Gülünü gözləyən ciddi xəstəliyin əlamətlərini görürdü və bu barədə hər gün Gülüyə deyirdi.

Nəhayət ki, Rizo ilə Lili onu klinikaya aparıb, geniş müayinədən keçirtdilər. Lilinin dediyi kimi, ürək fəaliyyətində ciddi çatışmazlıqların olduğu, qan-damar sisteminin pozulduğu aşkar olundu. Gülü xəstəxanada qalmaq istəmədi, evdə müalicə olunmağa razılıq verdi:
-Gəlinim həkimdir, özü müalicə eləyər.
Dərmanlarını alıb evə gəldilər.
Rizo da anasının belə ciddi xəstə olduğundan çox məyus olaraq:
-Mama, qurban olum, bax, başısoyuqluq eləmə, Liliyə qulaq as, ağır iş görmə, allaha şükür imkanımız da var, sənə də bir köməkçi götürək.
-Yooox, köməkçi –zad lazım deyil, evimdə ayrı adamın iş görməyi ürəyimə yatmaz, tay da əsəbiləşərəm. Müalicəmi edin, bəsimdir.
Lili:
-Müalicəni özüm edəcəm, vaxtı-vaxtında dərmanları atacaqsan, yazdığım yeməkləri yeyəcəksən. Bir də sakitlik...onun – bunun işinin dalınca qaçmaq qurtardı.
Gecə evə gələndə Qərib də onun diaqnozlarına baxaraq:
-Özünə diqqət eləməlisən. Insan özü öz həkimi olmalıdır, sağlamlığını özü qorumalıdır. Qulaqardına vurma, müalicəni elə, heç nəyin qalmaz, inşallah...
Amma Gülünün ürəyinə düşən yaradan heç kimin xəbəri yox idi. Onun son zamanlardakı dalğınlığını,

susqunluğunu hər kəs xəstəliyi ilə əlaqələndirirdi. Bunu ən çox Qərib hiss edirdi. Gülü əvvəlki tək onun qulluğunda dursa da, həmişə fikirli olurdu, Qəriblə danışmırdı, dindirəndə cavab verir, dindirməyəndə susub otururdu. Gecə Rizonun otağında yatırdı. Qərib bu dəyişikliyin fərqində olsa da, üstünü vurmurdu. Bəzən fikirləşirdi ki, bəlkə, Süräyya ilə münasibətindən xəbər tutduğu üçün bu qədər

məyusdur. Sanki içinə çəkilərək yumuşub qalmışdı. Bilsə, belə sakit durardımı? Mütləq Rizoya bir söz deyərdi. Rizo da elə adamdır ki, onun bağlı-saxlı bir şeyi olmaz, ağlından keçən dilindədir. Bəlkə, elə bu səbəbdən, bilsə də, Rizoya heç nə söyləməz. Əslində, Qərib düz tapmışdı. Gülü, məhz, Rizo üçün hər şeyə qatlanardı. Tutaq ki, bu əhvalat doğrudur və Rizo bunu bilərsə, Qəriblə arasında olacaqları fikirləşəndə Gülü darıxdığından ayağa qalxıb:

-Allah, sən saxla!-dedi.

Bəs, şirkət necə olacaqdı? İkisi bir yerdə işləyir, araya düşmənçilik girsə, necə bir yerdə işləyərlər? Qərib ağıllı adamdır, belə şeyə yol verməz. Lap doğru da olsa, Rizo heç bir şey bilməməlidir. Nə olur- olsun, Rizonun xətrinə Gülü hər şey etməyə qadir idi.

Bu söhbət yayılsa, Gülü xəcalətindən adam içinə çıxa bilməzdi. Qonum- qonşunun yanında rəzil olmaqdansa, Gülü susmağı və bu işin üstünü açmamağı qərara aldı.

Əgər Almaz orda –burda bu barədə danışsaydı, mütləq onun qulağına çatardı. Xəstələndiyi zaman ona dəyməyə gələn Almaza da:

-Öyrəndim bu işin əslini, siz fikirləşdiyiniz şey yoxdu arada, qız birindən şikayətçi olub, Qərib də bu məsələ ilə məşğul imiş. Bizə aid deyil. Vəzifədə olmaq belədi, hər cür adamla görüşməli olursan. Hər gördüyündən bir məna çıxartmaq doğru iş deyil. İnşallah indi vəzifəsi lap böyüyəcək. Böyük başın bəlası da böyük olur,- deyiblər. Allah kömək olsun bizə, daha nə deyim...

***

Gözlənildiyi kimi, Qərib seçkidə, namizəd olduğu dairədən böyük səs fərqi ilə qalib oldu. Buna ən çox sevinən Süräyya idi. Qəribin dairəsi böyüdükcə, onunla birgə yaşamaq imkanına ümid edirdi. Hələ işləri çox olduğundan və sahmana düşmədiyindən son vaxtlar çox az görüşürdülər. Qərib gəldiyi zaman belə, çox qala bilmirdi. Ya nahar fasiləsində gəlir, ya səhər işə gedəndə, ya da gecə ayaqüstü dəyib çıxırdı. Telefon olmasaydı Süräyya dözə bilməzdi. Gündə bir neçə dəfə Qərib zəng edir, tapdığı dəqiqələri belə Süräyyaya həsr edirdi. Qərib :

-Bir az döz, səbrli ol, qoy işləri sahmana salım, mən də darıxıram sənsiz. Komissiyalar formalaşır, görək mən hansında olacam? Yaxında səfərimiz olacaq, bir yerdə gedəcəyik.

Dediyi kimi də oldu. Xarici əlaqələr kimissiyasında sədr seçildi. Bu, səfərlər üçün böyük imkanlar açırdı. Qərib ilk rəsmi səfərinə bir dəstə adamla getdiyinə görə, Sürəyya yenə də tək getməli oldu. Orda işdən sonra Qərib Sürəyyanın yanına gəlir, vaxtını onunla keçirirdi. Bu da Sürəyya üçün böyük bir sevinc idi. Bu sevinci aylarla, illərlə gözləməyə hazır idi. Bu qısamüddətli görüşlərdə o dünyanın xoşbəxti olurdu.

Qərib ona bir müddət sonra yanında iş verəcəyinə söz vermişdi.

-Elə iş ki, hər zaman yanımda olasan.

-Mən də onu istəyirəm. Gözlərim yollarda qalmasın. İstixarə etməkdən yorulmuşam, hardadır, nə edir, kiminlədir?

-Harda olacam?Ya işdəyəm, ya da burda. Evə də yatmağa gedirəm.

-Gülü necədir? Yaxşılaşırmı?

Sürəyya Gülünün xəstə olduğunu bilirdi.Qərib ona bu barədə danışmışdı.

-Müalicə edirlər, Lili olmasa, dərman da atmaz. Əvvəldən özünə fikir verən deyil. Mən gedim, sənə bir şey lazım deyil ki?

-Yox, işdən gələndə marketə dəyirəm. Hərdən darıxanda da gedirəm mağazalara. Sabah gələcəksən?

-Gündüz tədbirimiz var, axşam işdən çıxanda gələrəm. Zəng edəcəm.
-Bir az tez gəlsən, yaxındakı mağazadan kompyüter almağa gedərdik. Başım çıxmır mənim.
- Getmək lazım deyil, sabah işdən göndərərəm alarlar. Notbuuk?
-Hə.
-Yaxşı, gecən xeyirə qalsın.
-Xeyirə qarşı.
Sürəyya Qəribi ötürüb otağa qayıtdı. Stolun üstünü yığışdırıb mətbəxə apardı, qabları yuyub yerbəyer elədi. Televizoru yandırdı. Siyirmədən gündəliyini götürüb divanda oturdu. Dəftəri dizinin üstünə qoyub yazmağa başladı.

***

Səhər vacib işlərini qaydaya salandan sonra, Qərib işçilərindən birini çağırdı və ona pul verərək notbuuk almaq üçün göndərdi:
-“Apple” dən olsun, son model. Proqramları, nə lazımsa, yüklət.
İki saatdan sonra qutu Qəribin stolunun üstündə idi. Qərib telefonu götürüb, Sürəyyanı yığdı. Telefon bağlı idi. Qərib qalxıb iclasa girdi. Nahar fasiləsində yenə zəng etdi. Bu dəfə də telefon bağlı idi. Qərib artıq narahat oldu. Sürəyya Qəribə görə heç zaman telefonu bağlamazdı. Vacib bir

iclas-filan olanda uzaqbaşı yarım saat qapalı ola bilərdi.”Yadından çıxıb, yəqin, bağlayıb, açmağı unudub. Tədbirdə necə oturduğunu bilmədi. Tələsdiyi üçün vaxt elə bil ağır keçirdi. Tədbir bitən kimi,  kompyüteri götürüb çıxdı. Liftə minib yuxarı çıxdı, zəngi basıb gözlədi. İçəridən səs gəlmirdi. Qərib cibindən öz açarını tapıb qapını açdı. İçəri daxil olanda nəsə bir dəyişiklik hiss elədi. Sürəyya yox idi. Əlindəki qutunu stolun üstünə qoyub yenidən zəng etdi. Sürəyya ona deməmiş hara gedər axı? Qərib ona bir saat zəng etməyəndə narazılıq edirdi, necə ola bilər axı? Alnına tər gəldi. Burada bir iş var. Gözü divara sataşdı. Divardakı şəkil yox idi. Qərib ikisini bir yerdə çəkdiyi şəkli böyüdüb,  çərçivəyə salmış, bura köçən kimi divardan asmışdı. Mətbəxə, hamama, yataq otağına baxdı. Ev dağınıq deyildi. Plitənin üstündə qazan yox idi, demək , yemək bişirməyib, soyuducuya baxdı. Dünən  ayrılanda sonuncu kompyüter barəsində danışmışdılar, başqa şey olsa idi, mütləq deyərdi. Ya zəng edərdi . Qəribi ən çox narahat edən telefonun bağlı olması idi. Çarpayıda oturub fikirləşməyə başladı. Sürəyya ilə bağlı hələ indiyədək ona kimsə bir işarə vurmamışdı. Sürəyya bütün əvvəlki dostlarından uzaqlaşmışdı, qohumları uzaqda idi, təzə iş yerində kimsə ilə yaxınlıq etmirdi. Bunun səbəbi Qərib idi. Deyirdi, kimsə ilə yaxınlıq eləsəm, evə gələcək, ya mən gedəcəm, mütləq

nəsə ortaya çıxacaq. Sürəyya çox ehtiyatlı idi. Qəribə də ziyan dəyməməsi üçün bütün fədakarlıqları edirdi. Qəfil ağlına gələn fikirdən durub siyirməni açdı. Sürəyya zinət əşyalarını bəzəkli bir mücrüdə bu siyirmədə saxlayırdı. Mücrü yerində yox idi. O biri siyirmələrə baxdı. Gündəlik yazdığı qalın dəftər də yox idi. Sürəyyanın ən çox sevdiyi şey- gözü kimi qoruduğu çöl çiçəklərindən toxunan çələng idi. Qərib bütün siyirmələri açıb baxdı. Yox idi. Taqətsiz halda çarpayıda oturdu. Sürəyyanın öz istəyi ilə harasa getməsi tam imkansız idi.  Onu qorxudublar, məcbur ediblər. Nə zəng erməyə, nə də bir işarə qoymağa imkan verməyiblər. Məhz dünən gecə - Qərib gedəndən sonra. Olsun ki, güdürmüşlər, Qərib gedəndən sonra da içəri giriblər. Sürəyya kimi ehtiyatlı bir adam qapını açmaz heç vaxt tanış olmasa. Adi vaxt bir taqqıltı olanda, külək vıyıldyanda Qəribə zəng edirdi ki, qorxuram. İndi qapını döyürlər , Sürəyya da açır. Bu-heç ağlasığan bir məsələ deyil.  Hər gün səhər doqquzun yarısı evdən çıxırdı, piyada klinikaya 20 dəqiqəlik yoldur. Adətən,  bu vaxtları telefonla danışırdılar. Qərib də o vaxt yolda olurdu. Tərslikdən bu səhər bir az gec çıxdığı üçün zəng etmədi. Səhər klinakadan öyrənər, işə gedib-ya yox. İndidən aydındır ki, getməyib, yenə də əmin olmaq lazımdır. Şeyləri yığıb gedibsə, sağdır. Durub paltar dolabını açdı. Bütün paltarlar Qəribin yadında deyildi. Hansı burdadı,

hansı burda deyil, bunu bilmək üçün nə qədər vaxt lazım idi. Qəribin də burada bir neçə kostyumu və köynəyi, ev paltarları vardı. Onlar yerində idi. Dolabda yol çantasını axtardı. Çanta yox idi. Demək, sağdır, özü yığıb paltarlarını, yoxsa buralar dağınıq olardı. Sürəyya evdə pul saxlamırdı. Olanı çantasındakı idi. Artığını da siyirməyə qoyurdu. Qərib onun üçün ayırdığı pulları Sürəyyanın bank hesabına keçirdirdi. Sürəyyanın hesabında kifayət qədər iri məbləğ var idi. Oranı yoxlamaq lazımdır. Amma bu pulla bağlı məsələ deyil. Pul üçün olsaydı, Qəribə müraciət edərdilər. Bunu kim edə bilər? Nə məqsədlə?

Telefonu zəng çaldı. Açıb baxdı, Rizo idi.

-Hardasan, işdən çıxmamısan?

Qərib saatına baxaraq:

-Gələcəm bir azdan, bir az işim var.

-Yaxşı.

Qərib çarəsiz halda oturmuşdu, heç özü də bilmirdi nəyi gözləyir. O qədər sarsılmışdı ki, düşünə də bilmirdi. Qəribin bildiyi tək bir şey vardı: Sürəyya heç zaman Qəribi tərk eləməz. Belə bir görüntü yaratmaq kimə sərf edirdi? Niyə Qərib gizli düşmənlərindən xəbərsizdir. İndi sakitləşmək lazımdır. Bütün əlamətlərdən görünür ki, Sürəyya sağdır. Qərib mütləq onu axtarıb –tapacaq. Necə olur-olsun, tapacaq. Durub mətbəxə keçdi, əlləri titrəyə-

titrəyə su töküb içdi. Sanki boğazı taxta kimi olmuşdu. Su qurtumlarını güclə uddu. Bunu kimə desin? Kimdən soruşsun?

Qapını bağlayıb çıxdı. Piyada dayanacağa sarı getdi. Dayanıb, ətrafına baxdı, ona elə gəlirdi ki, kimsə onu izləyir, uzaqdan göz qoyur, nə etdiyini, nələr keçirdiyini bilmək istəyir. Maşını işə salıb, evə sürdü. Sürəyya ilə bağlı belə bir şeyin olacağı heç zaman ağlından keçməmişdi. Sürəyyadan tam arxayın idi, o, sevgisi ilə, qayğısı ilə Qəribdə heç bir şübhə yeri qoymamışdı. Axı, onun Qəribdən başqa, bir kimsəsi yox idi. O, bütün dünyadan əl çəkib Qəribə bağlanmışdı, cələcək üçün xəyallar qurur, bu xəyallarla yaşayırdı. Onun kimə zərəri vardı? İçində danışa-danışa evə necə çatdığını bilmədi. Gülü divanda oturub onu gözləyirdi. Qərib salamlaşıb otağa keçdi, paltarını dəyişdi, hamama keçib əl-üzünü yudu. Sonra çarpayıya uzanıb telefonu götürdü, Sürəyyanı yığdı. Sanki bir möcüzə olacaqdı, Sürəyya ona cavab verəcəkdi.”Aradığınız nömrə təyin olunmamışdır.” İndi də operator belə məlumat verirdi. Deməli, telefondan nömrəni götürüb atdılar.

Qərib içəri girəndə  Gülü mat qaldı. Rəngi kül kimi idi, elə bil gözləri sönmüşdü. Onun otaqdan çıxmadığını görüb narahat oldu. Nə olub, görəsən? Durub otağın

qapısından içəri baxdı. Gözü yumulu uzanmışdı, yatmadığı aydın idi.
-Qərib, çörək yeməyəcəksən?
Qərib ona baxmadan:
-Yox, ac deyiləm.
-Xəstə deyilsən?
-Yox, yorğunam.
-Bir şey lazımdı? Çay verim?
-Yox, istəmirəm, yatacam.
Gülü çəkilib qapını örtdü. Nə isə olduğu aydındır. Yoxsa bu, niyə bu günə qalır? Ah, Qərib, ah...sənin nə işin vardı, deputatdıqda-zadda, nəyin əskik idi, neynirdin ağrımaz başına dəsmal bağlayırdın? Allah bilir, nə deyiblər, nə olub ki, bu günə düşmüsən. Ürəyində deyinə-deyinə işıqları söndürüb yerinə getdi. Sabah açılsın, Rizodan öyrənərəm.

Səhər Qərib geyinib çıxanda saat səkkiz idi, 9-a qədər klinikaya çatmaq istəyirdi. Gülü səhər yeməyi, çay hazırlamışdı. Qərib:
-Tələsirəm,-deyib çıxdı.
Gülü mat-məttəl onun dalınca baxdı, Qəribi heç belə görməmişdi. Üzü bozarmış, gözləri şişib qızarmışdı. Anlaşılan, gecəni hec yatmamışdı. Gülü çay töküb içdi, könülsüz yeməyini yeyib, dərmanlarını atdı. Durub şalına bürünüb evdən çıxdı. Rizo işə getməmiş görüb danışsın,

Qəribə nə olduğunu öyrənsin. Rizo ona diqqətlə qulaq asıb, xəbəri olmadığını söylədi. O da narahatlıqla:
-Yanına gedib öyrənərəm. Yəqin, işlə əlaqədardır. Hökumət işi belədir də...
Qərib baş həkimin yanına gedib, dünən Sürəyyanın işə gəlib-gəlmədiyini öyrəndi. Ehtimal etdiyi kimi, dünən işə çıxmayıbmış, onlar da zəng ediblər, amma danışa bilməyiblər. Qərib tapşırdı ki, Sürəyya ilə əlaqədar hər nansı bir məlumat, xəbər olarsa ,ona mütləq bildirsinlər. Məlumat kartını baş həkimə verib, klinikadan işə yollandı.İşdə qəlyanaltı edib,vacib məsələləri nəzərdən keçirdi, lazımi göstərişləri verib, Sürəyyanın evinə getdi. Qapını açıb içəri girdi. Sanki Sürəyyanın yoxluğunu indi anladı. Əşyaları bir-bir nəzərdən keçirməyə başladı. Onu bu evə gətirəndə necə sevinmişdi, İlahi! Necə xoşbəxt idi! Qəribin boynuna sarılıb hıçqıra-hıçqıra ağlamışdı. Qərib də ona söz vermişdi- heç zaman ayrılmayacağıq,-demişdi. O, Qəribin toxunduğu hər şeyi sevirdi, hər şeyi əzizləyirdi. Sürəyya bilmirdi, bilmirdi ki, o, Qəribin keçmişinin qoxusunu yaşadan yeganə varlıqdır. Sürəyya Qəribin yaddaşının bu günə düşən yeganə işığı idi. Qərib yalnız Sürəyyanın yanında özü kimi olurdu. Onu canlı edən, hisslərini oyadan, duyğularını dirildən, var olduğunu, yaşadığını təsdiq edən - Sürəyya idi. Sürəyya onun üçün yalnız sevdiyi qadın deyildi, keçmişindən, yaddaşından

qopara bilmədiyi, gizli yaşatdığı bir xatirə idi. Qərib onu ovcunda sonuncu işiq, sonuncu od kimi qoruyurdu. Küncdəki kiçik mizin üstündə güldana qoyduğu quru çiçəklərə baxaraq:

-Səndən qalan elə bumu?

Əlləri ilə ehtiyatla çiçəklərə toxundu, gözlərinin önündə qucağı çiçəklərlə dolu Sürəyyanın siması canlandı. Həmin oteldə Sürəyya bu çiçəkləri sərmişdi ki, qurusun. Qəribin cəsarət edib deyə bilmədiklərini Sürəyya söyləmişdi. Ilk dəfə o gün açılmışdılar bir-birilərinə, o gecə yaxın olmuşdular. Səhər Sürəyya utana-utana mələfəni büküb götürmüş, görməsinlər deyə çantasında gizlətmişdi. Qəribin üzünə baxa bilmirdi, gözlərini gizlədirdi. Qərib əyilib onun üzünə baxaraq:

-Sən elə belə danışacaqsan mənimlə? Üzümə baxsana...

-Sürəyya qızarıb-pörtətək:

-Sən elə gərək hər şeyi biləsən?

Gözləri doldu, qəlbini böyük bir qüssə bürüdü, çarpayıya sərilib hönkürdü...

Saatların necə gəlib keçdiyindən xəbəri olmadı. Qaranlıq düşürdü. Telefonun açdı. Onu axtarıb tapmasınlar deyə, söndürmüşdü. Baxdı, Rizo dəfələrlə zəng etmişdi. Telefonu cibinə qoydu, işıqları söndürüb evdən çıxdı.

***

-Qərib, niyə belə eləyirsən? Mən yadammı sənə? Səni bu halda gördükcə, ölüb-ölüb diriləərəm. Nə dərdin var, söylə, bir yerdə çarəsini axtaraq.  Gücüm çatmayacaqsa, dostlarım var,  bir işarə ilə kimi desən, yox edərəm. Səni hədələyənmi var, təhdid edənmi, qorxudanmı- kim var, söylə!

Rizo Qəribin qarşısında oturub həyəcanla, əl-qolunu ölçə-ölçə danışırdı.

Qərib gözlərini qarşısındakı stəkana dikib oturmuşdu.

-Rizo, neçə dəfə soruşdun, cavab verdim. Yenə təkrar edirəm, heç nə yoxdur, siz boş yerdən səksəkəyə düşmüsüz, nə olacaq mənə, niyə qorxutsunlar, uşağam, nəyəm? İşim ağırdır, yoruluram . Nə iclası bitir, nə müzakirəsi. Bütün bunları adam asanlıqla daşıya bilmir. O dəstə bu dəstəylə vuruşur, heç bilmirsən kim-kimdi, kim kimin adamıdı, hər addımını güdürlər, nə qazandığının hesabını aparırlar. Adam bezir.

-Sən deməklə deyil, özündən xəbərin yoxdu, vağ kimi gəzirsən, iş adamı bu hala salmaz, sənin bir dərdin var. Demək istəmirsən, amma desən, həm özün yüngülləşərsən, həm də, nə bilmək olar, bir çıxış yolu taparıq bir yerdə. Bilirəm, sən məndən min dəfə ağıllısan, amma belə vaxtında sənə kömək edə bilməmək, səndən uzaq qalmaq məni çox üzür. Özümə yer tapa bilmirəm.

-Məncə, sən çox şişirdirsən, Gülü səni küyə salır, dedim, heç nə yoxdur, keçib gedən şeydir, birdən-birə bu ağırlığın altına girmək məni gicəlləndirir.

- Əgər bir düşmənin –filanın olsa, gizlətmə məndən. Sən mənə çox əziz insansan. Ən yaxın dostumsan. Ayağını qoyduğun yerə, başımı qoyaram. Səni belə fikirli görmək məni çox incidir.

-Yaxşı, yaxşı... eşidən də elə biləcək , məni asıb-kəsirlər. Bilirəm, arxam-dayağımsan. Sənə özüm kimi inanıram. Sən elə şirkətin başında  möhkəm dur, bu hər şeyə dəyər. Bir dəqiqə də nəzarətsiz buraxma onları, heç kəsə də inanma, ərinmə, hər sənədə özün bax, özün yoxla. Bir də ayılarsan, iraq-iraq birləşib torba tikiblər sənə.

-Yox, belə əhlikef olmağıma baxma, işdə ciddi oluram. Həm  şirkət sənin əmanətindi, gözüm kimi baxıram.

-Dur gedək evə, bir az Vasifi oynadım, gec-gec  gedəndə yadından çıxıram.

Qərib nə qədər çalışırdısa, özünü toplaya bilmirdi. Özündən asılı olmayaq, biixtiyar hər gün Sürəyyanın evinə gedirdi. Hər dəfə də elə bilirdi ki, qapını Sürəyya açacaq, onun boynuna sarılacaq, “darıxırdım sənin üçün,”-deyəcək. Burda Sürəyyanın xəyalı ilə danışırdı, qoxusunu alırdı, hərdən çay da dəmləyib içirdi. Soyuducudakı ərzaqları toplayıb sellafon torbaya yığdı,  düşəndə zibilə atdı.

Bir gün Sürəyyanın telefonundakı şəkillərinə baxmaq istədi. Albomu açdı. Alnına soyuq tər gəldi. Sürəyyanın şəkilləri telefonundan silinmişdi. Bu- necə ola bilər axı? Onun telefonun kimin əli çatır? Həmişə üstündədir, heç vaxt telefonunu başqasına vermir. Bunu kim edə bilr? Bunu tək Gülü edə bilər. Evdə yatarkən, ya hamamda olarkən, amma bu-inandırıcı deyil, Gülü telefonun funksiyalarını bilmir. Ona telefon alarkən, Qərib bir neçə ad yazdı-yalnız özlərinin.Telefonda altı nömrə var. Açıb-bağlamağı Qərib ona öyrədib. Zəng gələndə yaşıl, bitəndə qırmızı düyməni bas. Zəng edəndə də adlara bax, kimə zəng edəcəksənsə, onun adını seç, yaşıl düyməni bas. Gülü bunları da çətinliklə öyrənmişdi. Çaşanda və tələsəndə onu da unudurdu, yazığı tər basırdı, səhv edəndə. O, qalereyadan Sürəyyanın albomunu tapıb silə bilməzdi. Qərib Gülünü yaxşı tanıyırdı, o heç vaxt Qəribin telefonuna əlini vurmazdı, açıb baxmazdı.

Axırıncı dəfə Şəkillərə nə zaman baxdığını xatırlamağa çalışdı. Sürəyya itməzdən əvvəl gəzməyə- dənizə getmişdilər. Orda bir neçə şəkil çəkmişdi Qərib. Bu-seçkidən sonra olmuşdu. O vaxtdan Qərib heç açmamışdı qaleriyanı. Sürəyyanın çələngli şəklini də monitora qoymuşdu. Sanki başında ildırım çaxdı! Oteldə, əlbəttə, oteldə. Son dəfə xaricə gedəndə, Sürəyyadan sonra. O zaman imkan tapıb, içəri giriblər. Son səfərdəki hadisələri

xatırlamağa çalışdı. Xaricdəki ortaqları ilə gecə məclisində içmişdilər. Qərib sərxoş dönmüşdü otelə. Sürəyya olan zamanlar heç vaxt bir qədəhdən artıq içmirdi. Bax, elə o zaman olub bu! Demək, onu izləyirlər. Hər zaman- yatanda, duranda, gəzəndə, danışanda, telefola danışanda...hər zaman. Sürəyyanı da buna görə aradan götürüblər. Sürəyya bir maneə imiş!

Qərib yalnız indi anladı ki, nə qədər böyük və güclü dairənin içindədir. İstəyəndə bu dairəni açırlar, istəyəndə daraldırlar.

Qərib evə gəldi. Nahar edib bir az uzandı. Gülü mətbəxdə olanda onun telefonunu götürüb baxdı. Həmin adamlar idi, vəssalam!

Gülü otağa qayıdanda Qəribin əlindəki telefona baxaraq:

-Zəng etmək istəyirsən? Heç konturum yoxdu.

-Niyə vurmursan, birdən lazım oldu?

-Vura bilmirəm axı, Rizonu tapıram ki? Gərək alım, lili vursun. Qərib öz telefonundan onun nömrəsinə kontur göndərdi.

-Vurdum mən. Danışa bilərsən.

-Bıy, elə bir dəqiqədə?

Qərib gülümsəyərək:

-Bir saniyədə. Mən şirkətə gedirəm. Nə vaxtdır xəbərim yoxdur, görüm işlər necədir orda?

-Hə, getsən yaxşıdır. Onları boş buraxma, elə Rizonu da. Böyümədi bu oğlan, fikri-zikri qalıb futbolda.

- Elə futbolda qalsa yaxşıdır, başqa şeylər düşünməz.

Qərib geyinib çıxdı.Gülü sevinirdi.Qəribin qırışığı açılır, deyəsən. O, səssiz-səmirsiz, daş kimi olanda , Gülü çox qorxurdu.

Qərib şirkətdə 2-3 saata qədər sənədlərlə tanış oldu, Rizo ilə, Atabəy ilə söhbət elədi, göstərişlər verdi. Sonra qalxıb:

-Mənim getməyim lazımdır, saatına baxaraq, hələik, sonra görüşərik.

Atabəy onu maşına qədər ötürərək:

-Qərib, çox sıxıntılısan, nə olub, bir məsələmi var?

Qərib ona baxaraq düşündü ki, əslində, Atabəy ən münasib adamdır danışmaq üçün. Bu hadisəni Qərib tək çözə bilmirdi, içində gizli tutduqca, onu didim-didim edirdi.

- Burda olmaz, maşında da olmaz, kənar bir yerdə görüşək.

-O zaman mənim bağıma gəl, orda danışaq.

-Yox, kənar yer olsun.

-Yolun üstündə park var ha, dəmir qapılı, ora gözdən kənar yerdir.

- Yaxşı, axşam 10-da gəl ora.

Qərib getdi. Atabəy yuxarı qalxıb işinə davam etdi.

***

Qərib bağa bir az erkən gəldi. Maşınını dayanacaqların birində saxlayıb düşdü, piyada ətrafı müşahidə edə-edə bağa girdi. Bu bağ dəmir barmaqlıqlarla hasarlanmış, gündüz uşaqların oynaması və dincəlməsi üçün nəzərdə tutlmuşdu. Qərib bağda gəzərək, ağacların arasındakı skamyada oturdu. Qaranlıq olsa da, bağ çıraqban olduğundan yol aydın görünürdü. Havalar soyumuşdu. Qərib fəslin fəyişdiyinin də fərqində deyildi. Bir azdan Atabəy uzaqdan göründü, ətrafa baxa-baxa Qəribi axtarırdı. Gözü Qəribə sataşdıqda iti addımlarla ona tərəf gəldi.

-Axşamın xeyir,-deyib Qəribin yanında oturdu.

-Hər vaxtın xeyir. Havalar soyuyubmuş.

-Hə. Payızdı daha. Sakitlikdir buralar. Hə, Qərib, nə məsələdir,anlat.

Qərib bir az susdu, hiss olunan çətinliklə:

-Bir qız vardı...

-Sürəyyamı?

Qərib dikələrək təəccüblə ona baxdı:

-Sən bilirdin?

Atabəy özünəməxsus sakitliklə:

-Bilirdim.

Qərib səbrsizliklə:

-Daha kim bilirdi?

-Heç kim. Heç kim bilmir, nə Rizo, nə də Gülü.
-Bəs sən hardan bilirsən?
-Sənin tez-tez haraya yox olduğunu öyrənib- bilməliydim. Hesabda pullar da əskik gəlirdi...Narahat olma, səni özüm izlədim, adam göndərmədim.
-İndi o hardadır?
Atabəy susdu, dərindən köksünü ötürərərək:
-Qərib, qızı onlar aparıb, yəqin ki... xaricə, Sürəyyanı, çox ehtimal ki, səni öldürməklə hədələyiblər, o da səni qorumaq üçün səssizcə düşüb onların qabağına gedib.
-Bircə onun sağ olduğunu bilsəydim...daha heç nə istəmirəm.
-Onu öldürmək kimin nəyinə lazımdı? Onlar təhlükəli olanları öldürür. Bu qızın pulu var, heç kimə yük deyil, sakitcə oturacaq evində.
-Onun kimə ziyanı vardı?
-Sənin sevdiyin, vaz keçə bilmədiyin hər şey onlar üçün maneədir. Sən xaricə Sürəyya ilə gedirdin?
-Hə.
-Görürsən, demək maneədir.
-Atabəy, kimdir onlar? Mənim burnumun dibinə qədər gəliblər, telefonumda olanları siliblər, demək onlara hər şey məlumdur. Bizim hesablarımız, pullarımız, əlaqələrimiz.

-Qərib, onlar çox güclü təşkilatdır. Böyük şəbəkədir, dünyanı idarə edirlər. Boşunamı səni deputat elədilər? Sənin toxunulmazlığın lazımdır onlara. Gələcəkdəki mal dövriyyəsi üçün. İşlərini ehtiyatlı tuturlar. Özlərinə kadrlar hazırlayırlar.
-Gərək razı olmayaydım, çox peşmanam.
-Yox, sən doğru olanı seçdin, yoxsa sənin bütün karyeranı, qazandığlarını məhv edəcəkdilər.
-Nəyimə lazımdır, bu dövlət? Ətrafımdakı hər kəs təhlükədə olandan sonra mən pulu neynirəm?
-Bu-sənin seçimin deyil, onların istəyidir.
-Atabəy , onlar cəhənnəm olsun, sən mənə kömək elə, Sürəyya sağdırsa, onu tapım, heç olmasa sağ olduğunu öyrənim, əmin olum.
-Qərib, sən Sürəyyanın yaşamasını istəyirsənsə, qızdan əl çək. Onun təhlükəsizliyi üçün. Sən atdığın hər hansı addımda onu məhv edə bilərlər.
-Hesab nömrəsi də qapadılıb. Bəlkə, pulunu da alıblar əlindən
-Yəqin, dəyişiblər. Qərib, elə şeylər var ki, onlarla razılaşmaqdan, qəbul etməkdən başqa çıxış yolu yoxdur. Sən də qəbul et, vəziyyətə öyrən. Sürəyya qəbul edibsə, sən də qəbul et. Əgər kömək etmək mümkün olsa idi, inan ki, bunu canla –başla edərdim. Amma, səd heyf, mən səni də qorumağa məcburam. Qoy, o qız da həyatını yaşasın,

cavandır, nə qədər yalnış hesab eləsək də, razılaşmasaq da, arzularımızla uyğun gəlməsə də, həyat hər şeydən qiymətlidir.
Qərib dizlərinə dirsəklənərək başını aşağı salıb oturmuşdu. Atabəyin dediyi amansız gerçəkləri düşünürdü. Nəyə görə həyat ona qarşı bu qədər ədalətsizdir, amansızdır. Hər başını qaldırdığında, başından vurur, hər ayağı üstə durduğunda yerə çırpır. Nəyi özü qazanırsa, əlindən alır. Nəyə görə?
Ayağa qalxaraq:
-Gedək, gec oldu. Onsuz da, biz azdığımız yerdən çıxa bilməyəcəyik.
Atabəy da ayağa qalxaraq:
-Fikir eləmə, sən yolunu get, hara çıxar-çıxar. Həyat budur, heç kim öz cızdığı yolla gedə bilmir. Nə biz, nə də başqaları.

***

Son vaxtlar Gülü gündüzlər harasa gedir, xeyli gec qayıdırdı. Harda olduğunu soruşanda: hava almağa çıxmışdım, bazarlıq edəcəkdim, parkda gəzirdim,-deyə bəhanələr gətirirdi. Bir gün Qəribə zəng edib:
-Vaxtın varsa bir az tez gəl, bir yer var, ora getməliyik.
Qərib soruşsa da, söyləmədi. Gülü Qəribdən hələm-hələm bir şey xahiş etməzdi, zəng edibsə , deməli, vacibdir.

Qərib vaxtından tez gəldi, Gülü hazır idi, maşına minib , ünvan dedi. Qərib:

-Orda nə var ki? Kim olur orda?

-Gedəndə görəcəksən.

Qərib lap maraqlandı.Ürəyində:”Xeyir ola” dedi.

Gülü göstərdiyi ünvan şəhərə yaxın, yolun üstündə idi. Gəlib çatdılar. Gülü cəld maşından düşüb bəzəkli hasara alınmış, iri, dəmir darvazanı açdı. Qərib maşından düşüb baxdı. Bura təzə tikilmiş səliqəli və yaraşıqlı mülk idi. Gülünün ardınca həyətə girdi.

Kiçik bağı, gülləri, çarhovuzu olan həyətdə iki mərtəbəli, yeni üslubda tikilmiş evin qarşısında durub baxdı. Gülü evin qapısını da açıb içəri girərək:

-Gəl içəri.

Qərib onun dalınca evə girib təəccüblə Gülüyə baxaraq:

-Bura niyə gəldik? Kim var burda.?

Gülü keçib divanda oturaraq:

-Heç kim yoxdu. Mən bu evi almışam. Sənindir.

Qərib bir şey anlamayaraq:

-Necə yəni almışam? Niyə?

Gülü bir az susdu. Sonra sakit səslə:

-Gəl otur əvvəlcə. Sənə mühüm sözüm var.

Qərib oturaraq diqqətlə Gülüyə baxmağa başladı.

-Qərib, xeyli vaxtdır sənə demək istəyirəm, başın qarışıq olur, işlərin olur, mən də əlavə problem yaratmaq

istəmirəm. Mən çox xəstəyəm, bunun əlacı da yoxdur, sən indidən bunu bilsən, öyrəşsən yaxşıdı.
Qərib onun sözünü kəsib danışmaq istəyəndə Gülü əli ilə işarə verərək:
-Qoy, sözümü deyim qurtarım. Sən mənə yaxşı yoldaş olmusan. Oğluma atalardan yaxşı ata olmusan. Allah səndən razı olsun, mən səndən yerdən –göyəcən razıyam. Əksini söyləsəm, Allah mənə qənim olar. Sən cavan adamsan, vəzifə, iş sahibisən, dünyada ən yaxşı şeylərə layiqsən. Əgər əvvəldən desəydim, razı olmayacaqdın, mənə mane olcaqdın, odur ki, bu evi aldım. Amma mən burda qalmayacam, sən olacaqsan. Həyətin bağbanı da var, evin iş göräni də. Gözüm üstlərində olacaq. Sözümü kəsmə, mən belə vaxtımda rahat olmaq istəyirəm, hamınızdan bir istədiyim var, Allah nə möhlət veribsə, qoyun istədiyim kimi, rahat olum. Mən gələn həftə ziyarətə gedirəm, danışmışam artıq. Gedib-gəlmək qismət olarsa, yenə də əzizim, iki gözümsən. Amma sənin evlənməyin vacibdir.
Qərib səbrlə onun susmasını gözlədi:
-Bitirdin sözünü? Əvvəla, məndən xəbərsiz, məndən soruşmadan bu evi almağın heç xoşuma gəlmədi. Yaxşı, deyək ki, ürəyindən keçdi aldın, amma burda özün yaşayacaqsan. Sonrası, əgər bir kişinin arvadı xəstə olarsa, o kişi xəstə arvadını tərk edərsə, bu – ən böyük günahdır.

Sən məni bu günahamı batırmaq istəyirsən? Ziyarətə getmək istəyirsən, bunu təşkil edim, adam da qoşum sənə, tək getmə. Gələndən sonra da müalicəni edək. Burda yoxdur, xaricə gedək. İmkan olandan sonra niyə sağalmaq istəmirsən?

-Qərib, bilirəm, öz başımdan iş görməyim xoşuna gəlmədi, sən mənə yoldaş yox, həm görmədiyim, atam, anam olmusan, dostum olmusan. Sən mənim arxamda böyük dağ olmusan...amma mənim bu son arzumu yerinə yetir, nə olar, mən də dünyadan rahat gedim, rahat yatım.

Qərib ayağa qalxaraq:

-Gülü, sən nə danışdığının fərqindəsənmi? Sən hara gedirsən? Evdə tək oturub belə xəyallara düşmüsən. Sən allah, dur görüm, dur gedək evə... evi almısan , çox mübarək, sağlıqla oturaq. Amma sən Rizogili orda qoyub, bura gəlməzsən, mənə də bu ev lazım deyil, könlümdən təmtəraqlı ev keçsə idi, alardım. Mənə o ev rahatdır. Orda da qalacam. Olan-qalan pulunu vermisən bu evə, dur gedək.

-O mənim pulum deyil, bizimdir. Qərib, buraya mən fikirləşib, hər-şeyi götür-qoy edib gəlmişəm. Sənə nə qədər çətin olsa da, bununla razılaşmağa borclusan. Mən sənin üçün cavabdehəm bu dünyada, başa düşürsən, cavabdehəm. Deyək ki, oturduq ikimiz də o evdə, məndən sonra neyləyəcəksən, hə?

-Allahu-əkbər! Sən sağ ola-ola niyə ölü kimi danışırsan? Sən nə bilirsən sabah nə olacaq? Bəlkə, səndən qabaq mən öldüm? Sabah biri çıxdı, gülləni sıxdı başıma? Nə bilirsən? Sənin nə yaşın var ki,indidən özünü qocaldıb, xəstə edib oturursan?
-Qərib, mən özümü hamıdan yaxşı bilirəm, xəstəyəm deyirəmsə, nəsə bilib deyirəm. Başım itir hərdən, key kimi oluram.
-Bu, qan dövranının pozulmasındandır. Getmə ziyarətə, səni aparım Avropaya, müalicə olun, 20 gün qalacaqsan cəmi. Özümdə qalaram yanında. Ora bura kimi deyil, sənin kimi xəstələri üç günə sağaldırlar.
-Eh.. məni dinləyən yoxdur, hamınız məni incidirsiz.
-Gülü, sən bizim yerimizə qərar vermə. Mənim, Rizonun. Sən də belədə bizi incidirsən. Niyə mənim yerimə qərar verirsən? Sən hardan bilirsən ki, mən bu evi istəyirəm, burda yaşamaq mənim xoşuma gələr?
-Niyə, pis evdir, xoşuna gəlmədi? Sən heç baxmadın axı...
Qərib əsəbini boğaraq:
-Gözəl evdir, amma mənə lazım deyil. Mənim evim var.
-Qərib, mən sənin yaxşılığın üçün çalışıram, bəlkə, yerində eləmirəm, lazım olduğu kimi bilmirəm. Amma mən tək qalmaq istəyirəm. Mən səndən utanıram.
Qərib təəccüblə:
-Niyə?

-Çünki xəstəyəm. Elə şeylər olur, adam istəmir kimsə sənin vəziyyətini görsün. Heç istəmirsən, öz övladın bilsin, yaxın adamın görsün. Gülü kövrəldi, səsi titrədi, çənəsi əsdi. Özünü ələ alıb, davam elədi:
-Siz bilməzsiz, bu, necə olur...bunu ancaq xəstə olan adam bilir. Nə olar, məni də başa düş. Mən bundan əziyyət çəkirəm.
Qərib fikrə getdi. Bəlkə, Gülü, doğrudan da, tək qalmaq istəyir? Məsələ ayrılmaqda deyil, bəlkə, doğrudan, əziyyət çəkir?
-Gülü, mən sənə əziyyət vermək istəyərəmmi? Amma olmaz axı, bu necə ola bilər? Rizo nə deyər?
-Rizoya demişəm, bilir.
-Nəyi?
-Sənə dediyimi. Dedim ki, tək qalmaq istəyirəm.
-Daha sənə sözüm yoxdu.
Qərib onunla danışmağın mənasız olduğunu anlayaraq:
-Yaxşı, bu barədə danışarıq sonra. İndi dur gedək evə.
-Əvvəl evə baxaq, mən də qalıram burda.
Gülü hiss etdi ki, Qərib getsə, bir də bura gəlməyəcək. Onu bura alışdırmaq lazımdır. Odur ki özü də qalmalı oldu.
Otaqları gəzdikcə Qərib:
-Sən burda əməlli- başlı iş görmüsən ki, gizlicə.

-Dizaynı Rail edib də, mebelləri də o seçib alıb. Hər şeyi, elə evi də Rail tapıb.

Evin rahatlığına, bəzəyinə söz ola bilməzdi. Railin zövqü, təcrübəsi özünü göstərirdi. Yataq otaqları, qonaq otaqları, salon, hamamlar, iş otaqları, mebellər-hamısı son dəblə, müasir üslubla bəzənmişdi. Mətbəxə keçdilər. Ərzaq belə alınmışdı. Qərib gülərək:

-Tay sənə sözüm yoxdu, xörək də bişirmisən?

-İşçilər var də. Onlar hazırlayıb. İki nəfər işə götürmüşəm, həyətdə də bir kişi. Rizogildəki kimi. Etibarlı adamlardır.Tanıyıram.

Qərib iztehza ilə:

-Etibarlı...

-Otur, mən süfrə hazırlayım.

Qərib əlacsız qalıb oturdu. Düşündü ki, indi Gülünü fikrindən çəkindirmək müşkül məsələdir, sonra görək neynirik...

***

Rizo pəncərənin qarşısında dayanıb həyətə baxırdı. Qərib də əsəbi-əsəbi otaqda var –gəl edir, səsini qaldırmamağa çalışaraq söylənirdi:

-Adamın ağlı almır, bütün bunları hardan çıxardır, hardan xəyallanır, məni götürüb aparıb ki, sən bu evdə yaşa, tək qalmaq istəyirəm. Onun nə işi var xəstə-xəstə ziyarətdə?

Deyirəm, aparım Almaniyaya, orda müalicə olunsun. Özüm də qalaram orda, bir ay, iyirmi gün... Rizo, sən də desənə, sözümü dinləmir...
Rizo pəncərədən çölə baxmaqda davam edirdi.
Qərib ona tərəf:
-Niyə dinmirsən, sən də bir danış onunla...
Rizo ona tərəf dönərək:
-Nə deyim, Qərib...onu tanımırsanmı? Deyir, tək qalmaq istəyirəm, yanımda heç kim olmasın. Lili ilə deyirik, gəl bizimlə qal, gəlmir, on addımdı aramız, anlayıram, həyatı boyu öyrənib, öz evidir...bir az bərkini tutanda, ağlayır, deyir incidirsiz məni. Anamı istəmirəmmi? Mən onunla nəfəs alıram. Dünya bir yanadər, o bir yana...de, neyləyim? Lili deyir, bu- xəstəlikdəndi... sən də fikir vermə, qoy, neyniyir- eləsin.
-Necə fikir verməyim, Rizo? Onu tək qoyum, hara gedim? Adama nə deyərlər? Bəs ,mən özüm, necə rahat olaram?
Rizo sakit-sakit:
-Qoy, bir az tək qalsın, belə istəyir, sən də incitmə...qal orda, nə var ki, bunda? Özü səhər-axşam maraqlanacaq, gələcək-gedəcək, ona belə iş lazımdı. Onsuz da səndən ayrı qala bilməz.
Qərib oturub mat-mat baxdı, sonra:
-Dünən bütün paltarlarımı yığıb gətirib, asıb dolablardan.
Rizo qapıya tərəf gedə-gedə :

-Burax, nə istəyir –eləsin...
Qərib anladı ki, Rizoya bu barədə danışmaq çox çətindir. Əslində, Rizo Qəribin anası ilə münasibətinə həmişə qısqanclıqla yanaşmışdı, Gülü Qəriblə Rizonun arasında keçilməz bir pərdə idi. Bəlkə, bu səbəbdən Gülü Qəribdən ayrılmaq istəyirdi. Gülünün ağlından nə keçdiyini bilməkmi olur?

***

Gülünün ziyarətdən döndüyünü eşidən qonşular dəstə-dəstə onu görməyə gəlirdilər. Gülü hər gün süfrə açdırır, gələnlərin hər birinə gətirdiyi hədiyyələrdən verir, hər kəsin könlünü görürdü. İndiyədək evindən heç yerə getməyən Gülü üçün bu səyahət çox böyük görünürdü. Gördüyü yerlərdən, insanlardan ağız dolusu, yorulmadan danışırdı. O, burada olmadığı müddətdə Qərib təzə evdə yaşayırdı. Gülü qayıdandan sonra hər axşam gəlir, Rizo ilə gecə yarısınadək oturub söhbət edir, sonra da evinə gedirdi. Qərib üçün on ildən çox yaşadığı məhəllədən ayrılmaq çətin idi. O da bu məhəlləyə isnişmiş, adamlara öyrənmişdi. Təzə ev ona boş, yad görünürdü. Sanki hər gecə oteldə gecələyirdi. Sürəyya olan vaxtlar olsaydı, bəlkə də, Qərib buna sevinərdi də. İndi tamam tənha qalmışdı. Yaxşı ki, Rizo var idi. Başı nə qədər işə qarışsa da, içində böyük bir boşluq var idi. Bu boşluğu heç kim doldurmağa qadir deyildi. Qışın çoxunu Qərib xarici

ölkələrə səfərlərdə keçirdi. Bəzən  Sürəyya ilə getdiyi yerlərdə dolanır,, otellərdə, küçələrdə, restoranlarda  gözü hey onu  gəzirdi. Bəlkə, hardasa qarşısına çıxar, bəlkə, hansısa döngədə, liftə qarşılaşarlar. Qərib dünyada bu möcüzədən başqa heç nə istəmirdi. Yaşayırdı, gəzirdi, işləyirdi, yeyib- içirdi, amma ağlının, qəlbinin bir köşəsində Sürəyya var idi. Darıxdığından hərdən başını götürüb harasa getmək istəyirdi, amma getdiyi yerlərdə də onu Sürəyya deyil, onun ayrılığı, həsrəti gözləyirdi. Hərdən Sürəyyanın sözləri ildırım tək çaxırdı yaddaşında:”Sən də mənim üçün darıxarsan, onda bilərsən ,mən nələr çəkirəm...” Off... Sürəyya nələr çəkirmişsən sən... indi nələr çəkirsən, bir bunu biləydim. Tək Sürəyyanın evində qaldığı müddətdə sanki bir az rahatlanırdı.Onun nəfəsini,qoxusunu burda hiss edirdi. Sütəyyanın canlı olduğu yer təkcə bu ev idi.

Gülü onu yoluxmağa gələn qonşularına deyirdi:

-Allaha çox şükürlər olsun, ürəyimdə bir muradım qalmadı, oğlumu ev-eşik elədim, Allah onu min budaq eləsin, azdan-çoxdan yaşadım, qurbanolduğum nə qədər yazıb, öz məsləhətidi, tay insan nə qədər yaşamalıdı ki, nəvə gördüm, o biri də sağ- salamat gəlsin ,inşallah(Lili yenə hamilə idi, amma bir  borcum qalıb, onu da yerinə yetirim, gözüm arxada qalmasın.

Arvadlar bir-birnə baxıb:

-Nə borcu, ay Gülü?

-Bizim Qərib. Cavan kişidir, yaraşıqlıdır, vəzifə adamıdır, mən gedəndən sonra neyləyəcək?Mən xəstə qadınam, Allahın müqəddəs yerlərini ziyarət eləyib gəldim, mən daha bu günahı daşıya bilmərəm. Qəribi evləndirəcəm. Televizorda görürsüz də, onun kimi kişilər hər yerə yanında arvadı gedir, bu-qaydadır hər yerdə. Həm də baxanı olsun, qoruyanı olsun, mən tay heç... hay-hayım gedib, vay-vayım qalıb... beş gün ömrüm qalıb, onu da rahat yaşayım, arxayın ölüm...

Gülü bu sözləri danışmaqla qonum-qonşuda rəy yaratmaq istəyirdi, Qərib evlənərkən kimsə təəccüb etməsin.

Rizo bu sözləri eşidərkən:

-Arvadın başı xərifləyib e lap...ay ma, sən Allah, bizi biabır eləmə, sənin nəyinə lazımdır? Adam istəyər evlənər, istəməz subay qalar.

Gülü :

-Sən otur yerində, belə şeyləri nə başa düşürsən sən, onun bizdən başqa kimi var, mən dən başqa kim qalacaq onun qeydinə? Başı- gözü ağappaq olub, yazıqdır, onun da ailəsi olsun, övladı olsun. Bu-mənim borcumdur.

Rizo əsəbiləşib, deyinə-deyinə pencəyini götürüb çıxdı.

Lili həm Rizonu, həm də Gülünü sakitləşdirirdi.

Rizo gecə evə gələn zaman:

-Sən qarışma böyüklərin işinə. Mama hər şeyi ölçüb-biçən qadındı. Qəribi elə  qadınla evləndirmək istəyir ki, bizdən ayrılmasın. Axı şirkətiniz, işləriniz birdi...
Rizo təəccüblə:
-Biz niyə ayrılırıq ki?
Lili gülərək:
-Bax, görürsən, necə safsan... biz niyə ayrılırıq ki? Ayrılanlar niyə ayrılır? İndi Qərib təkdir, kimləsə evlənsə, arvadı, ya da arvadının qohumları sizi ayırmağa cəhd edəcəklər. Sən bilmirsən, insanlar həmişə maldan-puldan ötrü ən yaxın adamlarına xəyanət ediblər, yeri gələndə öldürüblər. Qərib dürüst insandır, yaxşı adamdır, amma sabah onu da ələ alanlar olacaq. Buna görə mama deyir, özüm evləndirim, arxayın gedim. Sən qarışma.
Rizo:
-Gülü xanım lap diplomat imiş ki, xəbərimiz yox.
Lili ona tərs-tərs baxaraq:
-Diplomat olmaq üçün oxumaq kifayət eləmir, əli ilə başını göstərdi, - bu olsun gərək ,bu! Sənin anan ağılı qadındır, nə elədiyini çox gözəl bilir.
  Gülü bilirdi, evlənmək məsələsini birbaşa Qəribə deyə bilməyəcək. Xeyli götür- qoy edəndən sonra Atabəylə görüşüb danışdı.
-Atabəy, bu məsələni yoluna qoy, mənim xətrimə. Əvvəl öyrən, gözaltısı- filanı varmı, yəni görüşdüyü, istədiyi?

Atəbəy başını bulayıb:
-Yooox, Gülü bacı, istədiyi nə gəzir?
-Nə bilim, qulağım çalmışdı bir dəfə, bir qız vardı, Sürəyya...
-Yooox, yoxdu... olsaydı , mən bilərdim.
-Yaxşı oldu, mən birini tapıb bəyənmişəm, sən razılığını al, qalanı mənim boynuma.
Atabəy də Gülüyə söz verib getmişdi. Uyğun bir vaxtda Qəriblə danışacağını söyləmişdi.

***

Atabəy düşündü ki, Gülü haqlıdır, Qəribin evlənməyi vacibdir. Onun həvəssiz-həvəssiz gəzib- dolanmağı Atəbəyi də narahat edirdi. O boyda mülkdə tək gecələyir, gecəyarıya qədər işdə ləngiyir, get-gedə bədbinləşirdi. Bəlkə, evlənsə, başqa bir qadın könlünü oxşayar, Sürəyya sevdasını başından çıxardar, onu həyata döndərərdi. Qəribin şuxluğu itmişdi, əvəzində ağır, oturuşmuş, qəmgin bir kişi peyda olmuşdu. Saçları sürətlə ağarmağa başlamışdı. Atəbəy hər görüşündə evlilikdən söhbət salaraq, onu razı salmağa çalışırdı. Qərib isə yola gəlmirdi ki, gəlmirdi:
-Atəbəy, sən də Gülü kimi, nə tutmusan evlənməkdən? Evlənmək mənim nəyimə lazımdır?
-Qərib, niyə də evlənməyəsən? Sənin tək yaşayan vaxtındı? Evlən, qoy evdə gözləyənin olsun, al birini,

arvadsız ev olmaz...dağılıb gedər. Əgər məsələ Süräyya isə, qismət olarsa, gələrsə, ayrılıb onunla evlənərsən.
Qərib:
-Oyuncaqdır sanki...
-Əslində, həyatın özü oyuncaqdır, insanlarla oyuncaq kimi oynayır...Vallah, mən onu- bunu bilmirəm, əgər bu fikri Gülü ağlına qoyubsa, sən evlənməyincə əl çəkməyəcək. Deyir, qız da tapıb, hər şeyi özü edəcək.
Qəribin dodağı qaçdı:
-Gülü də lap ağlını itirib son zamanlar, öz sağlamlığı ilə məşğul olmur, həyatı ilə oynayır, onun –bunun həyatını yerbəyer edir.
-Onu qınama, çox istədiyindən deyir, Qəribə çox borcum var –deyir.
-Onun mənə heç bir borcu yoxdur,əksinə, sağ qalmışamsa, yaşayıramsa, bu yerə gəlib çatmışamsa, mən ona borcluyam. Və həyatım boyu onun borcundan çıxa bilməyəcəm . Əgər bu borc olmasaydı, mən ondan ayrıla bilərdim, Süräyya ilə evlənərdim.
-Heç kim əvvəldən nə olacağını bilə bilməz. Bunun üçün heç kim başqasını günahlandıra bilməz. Bu-doğru deyil. Madam özünü borclu hiss edirdsən, o zaman onun dediyini elə- evlən!
-Görürəm, siz hamınız birləşib məni təkləmisiz. Mənim evlənməyim sizə bu qədər lazımdısa, o zaman evləndirin.

Atabəy kreslodan qalxaraq:
-Bax, bu oldu əsl kişi söhbəti...mən getdim, görüşərik, inşallah.
Qərib onun dalınca qəmli-qəmli baxaraq:
-Daha bir qurban,- dedi.

***

Kamilə

Gülü Qəribi Kamilə ilə tanış elədi. Qızla hər şeyi danışmışdı, razılığını almışdı. Konservatoriyada keçirələn bir konsertdə Qərib gedib Kamilə ilə tanış oldu. Kamilə konservatoriyada musiqi nəzəriyəsindən dərs deyirdi. Musiqi nəzəriyyəsindən müdafiə edib, doktorluq elmi adını almışdı, kafedranının dosenti idi. Xalq yazıçısı, xalq rəssamı olan,70-90 yaşlı bir neçə məşhur nənənin-babanın yeganə varisi idi. Atası neft mütəxəssisi idi, qəzada həlak olmuşdu, anası tibb elmləri üzrə professor idi. Bu qədər elmlə məşğul olan ailənin içində Kamilə bütün ömrünü kitaba bağlamış, ailə qurmamışdı. Bu- otuz iki yaşında, düzgün üz cizgiləri olan, hamar qara saçlarınını boynunun ardında yığmış, sadə, klassik üslubda kostyum geyinmiş yaraşıqlı bir qız idi. Ciddi bir görkəmi, ağıllı, qara gözləri, düz-uzun qaşları vardı. Baxan kimi, onun elitar təbəqəyə aid olduğu bilinirdi. Qərib –öz-özünə düşündü ki, Gülü bu qızı hardan tapıb? Kamilə elə yerdə işləyirdi ki, Gülünün heç əlaqəsi yox idi, bu haqda ondan soruşanda:

-Özünü yox, anasını tanıyıram, həkimimdir. Çox yaxşı, kübar qadındır. Oturub söhbət eləyirdik hərdən, bir subay qızı olduğunu dedi. Soruşdum ki, niyə ailə qurmur? Dedi, indiki zamanda dürüst insan tapmaq çətindir.İstəyən olanda da qorxuruq ana- bala , qərar verə bilmirik. Belə-belə gəldi çıxdı otuza. Get-gedə yaxınlaşdıq. Qonaq getdim evlərinə, qızı gördüm evdə, işinə-gücünə, davranışına baxdım Çox mərifətli qızdır. Ağıllı, gözəlliyinə də söz ola bilməz. Aktrisa var e, Odridi-nədi, bir suyu elə ona oxşayır, əsas da gözləri.

Qərib Kamilə üçün bir irad tapa bilmədi. Həqiqətən, hörmətə layiq qız idi. Onun indiyədək ailə qura bilməməsinin səbəbi qapalı mühitdə qalması və həddindən artıq ciddiliyi idi.

Qəribin razılığını alandan sonra Gülü bütün ailəni tanışlıq üçün Qəribin evinə qonaq dəvət etdi. Axşam ailə yeməyində bir-birləri ilə tanış oldular. Gülü Kamilənin anası Cəmilə xanımla danışıb üzük aldı və dar bir çərçivədə nişan eləyib, nigah gününü təyin etdilər. Qərib nigahın da ailə çərçivəsində olmasını xahiş etdi. Heç kəsin xəbər tutmasını istəmirdi. Gülü də bu barədə Kamilə ilə danışdı. Kamilə də toy-filan istəmədiyini , mümkün qədər sadə nigah arzuladığını söylədi. Gülü Qərib hirslənməsin deyə, hər şeyi onun dediyi kimi elədi.

Tez bir zamanda nigah oldu və Kamilə Qəribin evinə gəldi. Təbiətən mülayim xasiyyətli olan Kamilə tez bir zamanda evə, ailəyə qaynayıb qarışdı. İşə gedir, qalan vaxtlarını evə həsr edirdi. Qəriblə müəllimi kimi davranırdı. Gülünü də, Rizonu da, Lilini də Qəribin yaxınları kimi qəbul edirdi. Hər gün maraqlanır, zəng edir, imkan olan kimi onlara gedirdi. Hətta Qərib xaricdə olan zamanlar Gülü ilə qalırdı. Kamilənin ailəsi də çox mədəni idi. Onun işlərinə qarışmır, yalnız əlamətdar, təntənəli günlərdə görüşürdülər. Qəribə ən maraqlı gələn Gülü ilə Kamilənin münasibəti idi. Bu qədər fərqli qadının bir-birinə belə səmimi münasibəti onu təəccübləndiridi. Kamilə bir çətin işi olanda, anasından çox, Gülü ilə məsləhətləşirdi. Gülü də canıyanalıqla onun hər işinə kömək edir, məsləhət verirdi. Qərib bilmirdi, iki qadın eyni bir kişini sevərsə, bir-biri ilə çox yaxın olarlar. Xüsusən, bu kişi onların heç birini sevməyəndə. Son zamanlar Gülü evdən çox çıxa bilmirdi. Əli, ayağı daha çox şişkinləşmişdi, daimi həkim nəzarətində olmasına baxmayaraq, xəstəliyi irəliləyirdi. Cəmilə xanım da, Lili də hər gün ona baş çəkirdi, dərmanlarına, yeməyinə nəzarət edirdilər. Gülü üçün bir tibb bacısı da götürmüşdülər. Xeyli yüksək maaşla gecə də yanında qalır, yalnız pəhriz yeməklər bişirirdi. Qərib axşam evə tez gələn zaman Kamilə ilə Gülüyə dəyməyə gedirdi. Gülü

get-gedə dəyişirdi, Qərib fikir verirdi, sanki onun üzü şəffaflaşır, dərisi nazilib parlaqlaşırdı. Bunu Lilidən soruşanda:

-Xəstəlikdəndir. Qəbul etdiyi dərmanların təsiridir.

Bütün ağrılarına baxmayaraq , Gülü yenə də həyat dolu bir qadın idi. Oturmaq, yatmaq-nədir, bilmirdi. Gündüzlər bir az uzanır, dincəlir və yenidən ayağa qalxıb nə işləsə məşğul olurdu.Ona irad tutanda:

-Qəbirdə o qədər yatacağıq ki, birdəfəlik...

Qərib evlənəndən sonra Gülü onunla əvvəlki kimi danışmırdı. Arada pərdəli dolanırdı. Hərdən Qərib onunla oturub dərdləşmək istəyirdi. Kamilə çox nəzakətli və mədəni idi. Onun qüsursuz davranışlarına baxmayaraq, Qərib onunla açıq ola bilmirdi. Aralarında ər-arvad hörməti vardı. Bir-birilərini incitməkdən qorxduqları üçün məsafəli davranırdılar. Sanki arada keçilməz bir sərhəd var idi. Ailədə hər kəs etməli olduğunu edirdi. Bu gözəgörünməz müqaviləni pozmağı heç biri arzulamırdı. Qərib evlənmək lazım olduğu üçün, Kamilə ərə getmək lazım olduğu üçün evlənmişdilər. Gülü Kamiləyə məsləhət görürdü ki, tezliklə uşaq doğsun, uşaq hər şeyi dəyişir, deyirdi. Hətta onu həkimə aparmaq üçün dilə tuturdu. Kamilə də uşaq istəyirdi. Həkim dostlarının məsləhətlərinə əməl edirdi. Amma bu, mümkün

olmadıqda, Gülü ilə genekoloqa getdi. Bir xeyli iynə-dərman alıb müalicəyə başladı.
Kamilə Qəribin əvvəllər Gülü ilə yaşadığını bilirdi. Amma bu barədə Qəriblə aralarında heç vaxt söhbət olmamışdı. Son günlər Gülünün vəziyyəti lap ağırlaşmışdı. Hərəkətləri məhdudlaşmış, şişkinliyi artmışdı. Bədəni göy-göy ləkələrlə örtülmüşdü. Qərib son dəfə onu görəndə anladı ki, vəziyyəti yaxşı deyil. Gülü tez- tez təngnəfəs olurdu.
Bir neçə gün sonra Qərib işdə ikən Kamilə ona zəng edərək:
-Qərib, tez gəl, Gülünün halı pisdir.
Qərib tez maşına minib köhnə məhəllələrinə sürdü. Qapıya yaxınlaşanda həyətin adamla dolu olduğunu gördü. Onların arasından keçib pilləkənləri cəld addımlarla qalxıb içəri girdi.
Evin ortasında xalçanın üstündə üzü qibləyə yer salmışdılar. Gülü gözlərini yumaraq uzanmışdı. Rəngi bomboz idi. Üzündə həyat nişanəsi yox idi. Rizo onun yanında yerdə oturaraq başını anasının sinəsinə qoymuşdu. Gülünün bir əli Rizonun kürəyində idi. O biri tərəfində Lili və Kamilə oturmuşdu. Kamilə Qəribi görən kimi, yerindən qalxdı. Qərib gəlib Gülünün yanında oturdu.Onun əlini əlinə alaraq:
-Gülü... mənəm, Qərib...

Gülü Qəribin səsini eşitdi. Göz qapaqlarının titrəyişindən bilinirdi ki, gözünü açmaq istəyir. Dodaqları titrədi. Gözünü zorla açaraq Qəribə baxdı. Zəif səslə:

-Qərib...

Qərib üzünü bir az da ona yaxınlaşdırdı.

-Qərib... Rizo sənə əmanət...

Daha nəsə demək istədi, dodaqları titrədisə də, deyə bilmədi. Təkrar gözlərini yumdu.

Qərib Liliyə tərəf dönərək:

-Nə oldu, birdən belə oldu?

Lili gözünün yaşını silərək yavaşca:

-Başına qan sızdı, həkimlər bir şey eləyə bilmədi.

Qərib əyilərək onun alnından öpdü. Sonra tutduğu əlindən öpərək:

-Halal elə.

Gülünün göz qapaqları titrədi. Daha danışmağa taqəti yox idi. Rizonun yanında oturan Vasif ağlamağa başladı. Nərmin onu qucağına alaraq otaqdan çıxdı.

Qərib getdikcə onun əlinin soyuduğunu hiss etdi. Gülü qəfil gözlərini açıb Qəribə baxdı. Gözü onun gözlərinə sancıldı və eləcə donub qaldı. Rizo onu qucaqlayaraq hönkürdü.

***

Qərib hələ bələdiyyə sədri işləyərkən məhəllənin kənarında, dağın döşündəki açıq ərazidə qəbiristanlıq

üçün yer ayırmışdı. Bəzi işlər görülsə də, sonrakı seçki dönəmində işlər yarımçıq qalmışdı. Bu ərazidə əhali artdığından yeni qəbiristanlığa ehtiyac var idi. Camaat ölüsünü basdırmağa yer tapmırdı. Ya rayona, kəndə aparır, ya da çox baha qiymətə şəhərin köhnə qəbiristanlığında yer almağa məcbur olurdular. Qərib bələdiyyəyə gedərək sədri götürdü və həmin əraziyə gedərək məzar üçün yer ayırdı. Qəbiristanlığın planını yeni sədrə başa saldı. Məzarlar sıra ilə qazılmalı və aralarındakı yollara asfalt döşənməli idi. Hələlik, bu qəbiristanlıqda ilk məzar Gülünün olacaqdı. Qərib sədrə göstərişlər verdi, tez bir zamanda bura hasarlanmalı, su çəkilməli, ağaclar və gül kolları əkilməli idi. Lazım olan vəsait yaxın zamanda bələdiyyə fonduna keçiriləcəkdi. Qəbiristanda işləmək üçün beş işçi ayrıldı. Qəsəbədən qəbiristanlığa marşrut avtobusu təyin olundu. Qərib bu işləri qaydaya salıb, geri –evə qayıtdı. Gülünün cənazəsi məsciddə yuyulub kəfənlənmişdi. Mafəyə qoyub Qəribi gözləyirdilər. Evdə ağlaşma idi. Kişilər həyətdə və küçədə dayanmışdı. Qərib küçədə hüzür çadırı qurulmasına göstəriş verdi. Məscidin axundu gəlib oturmuş, Qəribin işarəsini gözləyirdi. Qərib onun yanına gələrək, hər şeyin hazır olduğunu bildirdi. Camaat cənazə namazına durdu. Axund dualarını oxuyandan sonra Qərib, Rizo, Atabəy və bir neçə yaxın adam mafəni küçəyə-maşına qədər çiyinlərində apardılar.

Sonra maşın karvanı qəbiristanlığa yola düşdü. Arvadlar ağlaşa-ağlaşa, ağı deyə-deyə küçəyə qədər gəlmişdilər. Gülünün keçmiş qonşusu olan Ayişə arvad hasara söykənib çənazənin ardınca baxaraq:

-Gülü kimi cüvanəzən də ölərmiş...şükür məsləhətinə, xudaya! Dağ idi, dağ... uçdu töküldü... offf ! Çarxın dönsün, fələk !!!

Qəbiristanlıqda Gülünü məzara qoyub, üstünü torpaqladılar. Rizo hələ də hıçqırıb ağlayırdı. Axund fatehə oxuyandan sonra camaat Qəriblə Rizoya baş sağlığı verib , yavaş –yavaş dağılmağa başladı. Qərib qəbirqazanlara göstəriş verdi ki, məzarın üstünə eşilməsin deyə dəmir setka çəksinlər. Sonra məzarın kənarında tək oturmuş Rizonun yanında oturdu. Onu qucaqlayaraq, başını başına söykədi.

-Qalx, qalx artıq, gedək...

Rizo bərkdən hönkürərək:

-Onu burda tək qoyub hara gedim?

Qəribin çiyinləri titrədi. İçindəki burulğan kəsik-kəsik Gülünün məzarına töküldü.

Hava küləkli idi. Qaş qaralırdı. Külək Rizonun saçlarını yellədirdi. Boş qəbiristanlıqda iki kişi baş- başa verib döyunca ağladı. Sanki Rizonun içi boşaldı. Hissiyyatı özünə qayıtdı. Nəhayət, Qərib dilləndi:

-Dur gedək, camaat bizi gözləyir. Onun məclisini layiqincə yola salaq.
Rizo bir söz demədən ayağa durdu. Səndələyə-səndələyə yola sarı getməyə başladı. Qəribgil məhəlləyə dönəndə çadır hazır idi. Qərib girib baxdı. Göstəriş verdi ki, xalçalar döşənsin, yumşaq stullar düzülsün. Məclisi yola vermək, nəzarət etmək üçün adamlar ayırdı. Rəhbərliyi Lilinin atasına tapşırdı. Artıq gec idi, bu gün ehsan verilməyəcəkdi. Molla gəlib otumuşdu. Qərib çay hazırlamağı tapşırdı. Üst-başı palçıq idi. Maşına minib evə getdi, paltarını dəyişdi, bir saatdan sonra gəlib məclisdə, Rizonun yanında oturdu. Rizo toxtamışdı. Boynuna düşən vəzifəni anlayaraq, sakitləşmişdi.
Qərib yeddi gün səhər gəlir, gecəyarısına qədər oturur, hər şeyə ağsaqqalıq edirdi. Gözündən heç nə qaçmırdı, heç bir əskiklik olmurdu. Başsağlına gələnlər çox idi. Az qala bütün şəhər gəlib başsağlığı verir, çay içib gedirdi. Ehsan üçün yeməklər şadlıq sarayının mətbəxində, peşəkar aşpazlar tərəfindən hazırlanırdı. Gülünün evində yalnız qadınlar otururdu. Lili ayının-gününün içində idi. Heç bir iş görə bilmirdi. Evi Nərmin və Kamilə idarə edirdi.
Hüzür bitəndən sonra Qərib qəbiristanlığa gedib, görülən işlərə baxdı. Böyük bir trestin rəhbəri olan dostuna zəng edib, texnika və əlavə işçilər istədi. Yaxınlıqdakı su

hövzəsindən buraya su çəkdirdi. Tez-tez nəzarət etdiyindən bələdiyyə sədri işi tez bitirmək, Qəribin nəzərində hörmət qazanmaq üçün dəridən- qabıqdan çıxırdı. Qərib karxanaya gedib usta ilə danışdı. Gülünün qırxına qədər üstünü götürmək istəyirdi. Hər cümə axşamında Rizo ilə bərabər qəbir üstünə gəlir, bir qədər oturub qayıdırdılar.

***

Gülünün ölümündən sonra Qərib hiss olunan dərəcədə sınıxmışdı. Axşam evə gəlib yeməyini yeyəndən sonra kabinetinə çəkilir, yatana qədər ordan çıxmırdı. Kamilə hərdən ona sinidə çay aparır, Qərib astadan təşəkkür edərək, yenə başını aşağı salıb işi ilə məşğul olurdu. Evdə ölü bir səssizlik hökm sürürdü. Gülü bu evdə heç zaman yaşamasa da, səsi, nəfəsi buranı da isidirmiş. Kamilə Qəribin kabinetə çəkildiyini görüncə, onu narahat eləmirdi. Gah elmi işi ilə məşğul olur, ya da saatlarla səssiz oturub düşüncələrə dalırdı. Anası və ya nənələri zəng edən zaman az qala pıçıltı ilə danışırdı. Qəriblə aralarındakı qısa söhbət də Gülü ilə, hüzürlə bağlı olurdu. Qırxa az qalmışdı. Bunu üçün hazırlıq görürdülər. Qərib ehsanı Gülünün özünə məxsus sarayda vermək istəyirdi. Bu barədə Rizo ilə məsləhətləşəndə Rizo:

-Orda toy edirlər axı.

-Ev kiçikdir. Havalar da soyuyub.

Rizo:
-Mənim evimdə olsa, olmazmı?  İki böyük salon var.
-O zaman gərək oranı indidən hazırlayaq. Amma Lili necə olacaq?
-O gedər mamanın evinə.
Lili də bu gün  –sabahlıq idi. Qərib istəmirdi ona əziyyət olsun.
-O zaman mən sabahdan adamları göndərim, hazırlığa başlasınlar.
Qəbiristanlıqda işlər tamamlanmışdı. Qərib Gülünün qəbrinin üstünü qara mərmərdən hazırlatmış, ətrafını dəmir barmaqlıqlarla çəpərlətmişdi. Böyük bir dairə ayırmışdı. Qırx günün içində bir neçə qəbir də peyda olmuşdu.Qərib qəti təlimat vermişdi. Sıra pozulmayacaq. Qəbiristanlığın içinə asfalt yol çəkilmişdi, hər tərəfdən barmaqlıqlarla hasarlanmışdı. Çoxlu ağaclar, güllər əkilmişdi.  İşçilər səhər –axşam onları sulayırdılar.

Qırx günü qəbir üstə gələnlər buradakı dəyişikliyə heyrət etdilər. Şəhərin heç bir yerində belə səliqəli qəbiristanlıq yox idi. Bəzi yerlərdə skamyalar da qoyulmuşdu.

Qəbir üstündə dualar oxunandan sonra,  geri qayıtdılar. Adətən, qırxa dəvətlilər gəlir, Gülünün qırxına isə çox adam gəlmişdi. Bunları evdə yerləşdirmək də çətin idi.

Qərib hər dəfə qapının ağzından keçəndə evə sarı boylanırdı. Bu- onun on ildən çox yaşadığı həyət, ev idi. Gülü sonradan buranı təmir edib dəyişdirsə də, yenə də eyni ilə əvvəlki istiliyi qalmaqda idi. Qərib yalnız indi fikirləşdi ki, o bu evə daha heç zaman gəlməyəcək. Bu ev də onun keçmişi kimi, artıq qaranlığa qərq olmuş amansız bir xatirədir. Artıq Gülü də, Sürəyya da özlərindən sonra bir boşluq buraxaraq, qeyb olmuşdular. Kamilə gecə ona çay gətirən zaman dayanmış, Qəribə baxaraq çəkinə-çəkinə:

- Səndən bir şey soruşmaq istəyirəm, olarmı?

Qərib ona baxaraq:

-Buyur.

-Sən niyə Gülüdən ayrıldın?

Qərib bir qədər fikrə gedərək astadan:

-O istədi.

-Niyə?

-Bilmirəm, belə lazım idi. Bir qədər sonra əlavə elədi:

-Yəqin, məni azad etmək istəyirmiş.

-Sən onu sevirdin?

Qərib əlindəki çayı stolun üstünə qoyaraq:

-O yaxşı insan idi. Mən onu çox istəyirdim. Hörmətə layiq qadın idi. Ruhu şad olsun.

Qərib kitabı götürüb vərəqləməyə başladı. Kamilə söhbətin bitdiyini anlayaraq, qapını örtüb çıxdı.

Kamilə çıxandan sonra Qərib əlindəki kitabı stolun üstünə qoyaraq gözlərini boşluğa zillədi. Ola bilsin, sevgi təkcə ehtiraslardan və duyğulardan ibarət deyil. Hər kəsin sevgisi fərqlidir. Sürəyya başqa, Gülü başqa...Amma Qərib hər ikisini sevirdi. Hər birinin ayrı-ayrılıqda yeri vardı. Gülü bu sevgini zərrə-zərrə, əlləri və dırnaqları ilə, yuxusuz gecələri, zəhməti və fədakarlığı ilə qazanmışdı, Sürəyya ürəyi ilə...onların hər ikisi özlərini Qərib üçün fəda etmişdi.
Bir neçə gündən sonra Rizonun ikinci oğlu dünyaya gəldi. Bu sevincli hadisə ailənin üzərindəki məyusluğu nisbətən azaltdı.
Rizo körpəni Qəribin qucağına qoyaraq:
-Mamam görmədi, adını sən qoy, Qərib.
Qərib uşağı əllərində ehtiyatla tutaraq:
-Vallah, bilmirəm heç, birdən-birə...bir az fikirləşim, yadıma salım. FFFuad...Fuad olarmı? Fuad - mənim çox sevdiyim addır, xoşunuza gəlməsə, başqasını fikirləşərik.
Qərib “ Fuad “ adını elə çətinliklə, yanğı ilə tələffüz etdi ki, Rizo təəccübündən bir an özünü iitirdi, sonra:
-Fuad... çox gözəl addır, sağ ol, əmisi...mənası nədir?
Qərib gözü dolmuş halda:
-Ürək...
Rizo sevincək:
-Nə gözəl... heç mən bilmirdim... çox sağ ol.

Lili də oturanlar da adı bəyəndilər. Hamısı:
-Adıyla böyüsün. Böyük kişi olsun,-deyib dualar etdilər.

***

Qış ötüb yaz gələn zaman təbiətlə birgə insanın içindəki sıxıntılar da əriyib gedirdi. Qəribi də, Rizonu da zaman və gündəlik qayğılar uğradıqları itkidən uzaqlaşdırırdı. Qərib bir neçə dəfə xaricə qısa səfərlər etmişdi. Hər dəfə səfərdən qayıdanda Rizo da , Lili də uşaqları götürüb Qəribgilə gəlirdilər. Belə anlarda ev sanki canlanırdı. Kamilə nə qədər müalicə qəbul etsə də, uşağa qala bilmirdi. Rizo ilə Liliyə baxanda istər-istəməz Qəriblə özünü düşünürdü. Onların səmimilikləri, zarafatları, bir-birilərinə hirslənmələri xoşbəxt, sevgi dolu həyatdan xəbər verirdi. Hərdən fikirləşirdi ki, yəqin onlar çox gəncdir, uşaqlıqları da bir keçib deyə, bu qədər yaxın, bu qədər səmimidirlər. Qəriblə onun arasında o qədər uzaqlıq var idi ki...Kamilə bu uzaqlığı keçməyə aciz idi, çox aciz idi. Qəribin dünyası bir qapalı sirr idi, özü açılmayınca heç kəsin onu açmağa gücü çatmazdı.

Bir gün Qərib işdə notbuukunu açan zaman poçtuna bir məktub gəldiyini gördü. İşlə əlaqədar bütün yazışmalar, rəsmi məlumatlar katibliyə daxil olurdu. Qəribin şəxsi poçtunu bilən tək-tək adamlar var idi. Qərib məktubu açdı. Məktubu göndərənin şəkli yaşı tamam olmamış, açıq,

qıvrım saçlarına çələng taxmış bir qızcığaz idi. Sanki Qəribin ürəyində bir tel qırıldı, dərindən nəfəs alıb, özünü topladı və məktubu birnəfəsə oxudu: ”Sevgilim, sənə xəbər verə bilmədən getmək məcburiyyətində qaldım. Səndən bir gün ayrı qala bilmədiyim halda, ömürlük həsrətlin oldum. Biliräm, sən çox incidin, kim bilir, ağlına nələr gəldi. Dəfələrlə sənə yazmaq istədim, amma qorxdum. Sənin üçün. İndi yazdım ki, bizdən bir xəbər biləsən. Mən sənin sevginlə yaşayıram. Ikimiz də səni çox sevirik. Bunu bilməyini istədim. Bu-vacibdir. Məni və sevgini unutma. Çölçiçəyi.”

Qanı başına vurdu. Nəfəsi kəsildi. Qalxıb pəncərənin önünə gəldi. Qalstukunu boşaldaraq, könəyinin düyməsini açdı. Əlləri əsə-əsə su töküb içdi. Yenidən oturub məktubu yavaş-yavaş oxumağa başladı. Sürəyya! Sürəyyadandır. Heç bir ad işlətməyib, bilməsinlər deyə. Çölçiçəyi. Əlbəttə, odur! Şəkli böyüdüb baxdı. Əlləri ilə toxuduğu çələngi tanımırmı? Bəs bu uşaq? Onun qızımı? Məktubu təkrar –tərar oxudu. “Bunu bilməyini istədim.” O, uşaq barədə yazır.”Biz” yazır, “Mən və sevgi “ yazır. Sevgini qəsdən kiçik hərflə yazır, deməli, hələ nəzarət altındadır, bunu bilir, təhlükəni bilir. Qəribə bu barədə yazıb bildirmək istəyir ki, bizim qızımız var.”Bunu bilməyini istədim, bu- vacibdir! “ Açıq-aydın yazır,

qızımız olduğunu!Yəqin, Sevgi- onun adıdır. Mən və Sevgi.

Qərib əlləri ilə üzünü örtdü. Gah gözləri dolur, gah da gülürdü. Şəkli böyüdüb diqqətlə baxmağa bağladı. Xəyalında Sürəyyanı dəfələrə kiçiltdi, uşaq vaxtı necə ola bilərdi? Oxşar cizgilər, əlamətlər axtarmağa başladı. Deyirlər, ilk uşaq anaya çəkir, qızdısa, anasına daha çox oxşayar. Dəfələrlə böyütdüyü şəklin hər nöqtəsinə qədər baxırdı. Oxşayır, özü də lap çox. Saçları, qaşları, alnı, üz quruluşu, gözləri, çənəsi...amma dodaqları, deyəsən, Qəribin dodaqlarına oxşayır. Bunu sonra ayırd edər. Tez məktubun göndərilmə tarixinə və imzasına baxdı. Həmin poçtu axtarışa verdi. Nəticə sıfır oldu.Təkrar-təkrar yoxladı. Eyni şey-sıfır. Təbii. Sürəyya bu məktubu hər hansı kompyütedən göndərib və maili silib. Görünür o telefonun izlənildiyini bilir. Həm özlərini, həm Qəribi qorumaq üçün heç vaxt yerini yazmaz. Qərib tez məktubu kompyüterinə köçürüb, parol yazdı və qıfılladı. Poçtdan da məktubu sildi. İndi bu şəkli və məktubu heç kəs tapa bilməzdi. O qədər həyəcanlı idi ki, durub otaqdan çıxdı, maşınına minib dənizin kənarına, izaq bir yerə sürdü. Doya-doya düşünmək və sakitləşmək istəyirdi. Ağlına da gəlməzdi ki, belə xəbər ala bilər. Eybi yoxdur, qoy harda olurlar –olsunlar, ən uzaq yerdə olsunlar, amma sağ-salamat olsunlar, yaşasınlar. Budur, ümidinin üzüldüyü bir

vaxtda bir məktub gəldi, kim bilir, nə zamansa şərtlər dəyişə bilər, qismət olarsa, görüşərlər. Qərib bilməsə də, Sürəyya onun yerini bilir, poçtunu necə də yadında saxlayıb, axı onun hər şeyini alıblar, tək yaddaşından başqa. Qəribin heç zaman Sürəyyadan bir şübhəsi olmayıb, o nə qədər ki, yaşayır, demək, Qərib  onunladır. Qəribin qızı! İlahi, nə qədər böyük xoşbəxtlik! Qollarını açaraq dənizi qucaqlamaq, külələri öpmək istəyirdi. Sütəyya sağdır və Qəribi də unutmayıb...kim bilir...kim bilir?

Qərib içində bir yüngüllük, bir dirilmə hiss edirdi. Burda saxta heç nə ola bilməz. Bütün cümlələr dəfələrlə olçülüb-biçilib. Çöl çiçəkləri də şahid kimi qoyulub. Onları Qəribdən başqa heç bir kəs tanıya bilməz. Həm də başqasının nəyinə lazım, onunla bu oyunu oynasın? Sadəcə,Sürəyya ona nişanə göndərib, sağ olduğu haqqında, qızı olduğu haqqında. Yəqin, Sürəyyanın özü də bilmirmş hamilə olduğunu, adətən, qızlar bunu ilk dövrdə  bilə bilmirlər yoxlanmasalar. Çox ehtimal ki, sonra bilmiş, uşaq doğulandan sonra  yazmağa qərar vermişdir. Qərib burda əziyyət çəksə də, təsəvvüründə Sürəyyanın uzaqda, kimsəsiz, tənha nələr çəkdiyini canlandırdı.  O, bütün bunlara necə tab gətirib, necə dözüb? Off, niyə həyat bu qədər ədalətsiz, bu qədər amansızdır? İnsanın bir gözü güləndə, o biri gözü mütləq ağlayır.

Bir qədər dolaşandan sonra yenə işə qayıtdı. Bayaqdan neçə dəfə zəng vurub axtarmışdılar. Təxirəsalınmaz işləri çox idi, adamlar onu gözləyirdi.

***

İşdən sonra, gecə notbuukunu da götürüb Sürəyyanın evinə getdi. Burada sakit-sakit düşünmək, yenə də məktubu oxuyub, şəklə baxmaq istəyirdi. Sanki bu evdə daha aydın, daha yaxın, daha təsirli olacaqdı onların qoxusu, həyəcan dolu duyğusu. Qərib bu isti duyğudan aralanmaq istəmirdi. Son ildə heç vaxt belə həyəcanlı və ümidli olmamışdı. Çarpayıda uzanaraq, şəkilə baxır, xəyallara dalırdı. Nə vaxt yuxuladığını bilmədi. Ayılanda səhərə yaxın idi. İndi yadına düşdü ki, evdə Kamilə onu gözləyir, xəbər verməyi belə unutnuşdu. İndi zəng eləmək faydasız idi, yəqin ki, daha gözləməyib yatıb.

Kamilə isə yatmamışdı.Gecə yarısına qədər gözləmiş, sonra daha gəlməyəcəyinə əmin olandan sonra yerinə girib uzanmıdı. Qəribin soyuqluğunun və uzaqlığının səbəblərini düşünürdü. Madam o, Gülünü də sevməyib, yəni sevib əslində, bir anası kimi, bacısı kimi, dostu kimi, nəhayət, bir evdə yaşadığı insana öyrəşdiyi kimi sevib, o zaman bunun səbəbi nədir? Bəlkə,o, duyğularını bəlli etməyən, soyuq adamdır, təbiətən elə belədir? O qədər təmkinli, qapalı insanlar var ki...Evləndiyi zamandan bəri, xarici səfərləri nəzərə alınmazsa, ilk dəfə idi gecə evə

gəlməməyi. Yəqin ki, bunun ciddi səbəbi var, Dövlət işidir, qəfil bir hadisə olar, gecə nəsə eləməli olarlar. Amma xəbər verməməsinə heç cür haqq qazandıra bilmirdi. Danışmaq imkanı olmaya bilər, bir mesaj yazmağa nə var? Kamiləni sıxan, incidən bu laqeydlik idi. “Onun gözündə heç kiməm, yoxam”...Saatlardan bəri göz yaşı toküb islatdığı balışı götürüb atdı. Mətbəxə gedərək, su tokdü, siyirmədən sakitləşdirici çıxarıb atdı. Başı möhkəm ağrıyırdı. Dolabdan yun şarf götürüb başını sarıdı, uzanaraq yorğanı üstünə çəkdi.

Səhər Qərib gələndə o yatırdı. Xidmətçi qız səhər yeməyi hazırlamışdı. Qərib yataq otağına girərək:

-Bağışla, sənə xəbər verməyə imkan olmadı.

Onun şişkin və qızarmış gölərinə baxaraq dinmədi. Dolabdan paltarlarını götürüb çıxdı. Kamilə qalxaraq geyindi, salona gəlib oturdu. Söhbəti təzələmədi. Nə mənası vardı? Daha da aralarını açacaq, daha da bir-birilərindən uzaqlaşacaqlar. Masa başında əhəmiyyətsiz gündəlik məsələlərdən danışdılar. Qərib səhər yeməyini yeyib çıxdı. Kamilə də geyinib işə getdi.

Həmin gecədən sonra Kamilə Qəribdə nəsə bir dəyişikli hiss etməyə başladı. Elə bil həmişə harasa tələsirdi. Evdə olanda da tez-tez saata baxırdı. Hətta Kamilə ilə maraqlanmağa başlamışdı. Evdə bir yerdə yemək yeyərkən qəfildən:

-Elmi işin nə yerdədi?-deyə , soruşanda Kamilə təəccübündən çeçədi. Stəkanı götürərək su içdi və astadan:

- Normal. Yazıram.

Gözü Qəribin üzündə qalmışdı. Qərib onun elmi iş yazdığını bilirmiş.

Qərib:

-Vaxtın varsa, gedək Fuada dəyək, darıxmışam. İki gün sonra səfərə gedirəm.

Kamilə:

-Nə qədər qalacaqsan?

-Azı on gün. Sən anangilə gedə bilərsən, ya o gəlsin bura.

-Baxarıq. O zaman mən hazırlaşım, çıxaq, çox gec olmasın,uşaqlar yatar.

***

Qərib komissiya üzvləri ilə bərabər getmişdi. Dövlət xətti ilə önəmli iclaslarda iştirak edəcək, müqavilələr imzalayacaq idilər. Başqa dövlətlərin nümayəndələri ilə hər gün iclaslar keçirir , danışıqlar aparırdılar. Gecələr otelə yorğun gəlirdi. Bəzi zənglər edib ,yatırdı. Telefonun açan zaman Rizonun bir neçə dəfə zəng etdiyini gördü. Rizo gündüz iclaslarda telefonunu söndürdüyünü bildiyi

halda , dalbadal zəng edibsə,deməli,vacib sözü var. “Xeyir ola “-deyib, Rizonu yığdı.

-Salam Rizo, indi açmışam telefonu.

-Axşamın xeyir, hə, gündüz zəng eləmişdim, iclasdaydın , yəqin.

-Hə, xeyir ola , salamatlıqdımı? Uşaqlar necədi?

-Yaxşıdılar. Qərib, bunu gecə vaxtı deyirəm, amma deməsəm də olmaz.

-De, nə olub?

-Atəbəy. Atabəy ölüb.

-Nə? Atabəy? Niyə, nədən ölüb?

-Deyirlər, səhər evində ölü tapılıb. Biz də televiziyada xəbərlərdə gördük.

-Dünən işə gəlmişdi?

-Hə. Axşama qədər bir olmuşuq. Gecə getdi evinə. Sağ-salamat. Xəstə-filan da deyildi.

Bu səhər də eşitdik ki, bəs ölüb.

-Səbəbi bilinmir?

-İşlə bağlı araşdırma aparılır ,-deyirlər.

-Dəfn nə vaxtdı, harda olacaq?

-Öz kəndlərində. Sabahdı dəfn.

-Hə, mən gələ bilməyəcəm, təəssüf ki. Sabah mühüm sənədlər imzalanacaq. Gələndən sonra gedərəm hüzürə. Sən bir şey öyrənə bilsən, zəng elə.

-Yaxşı. Salam deyirlər sənə burdakılar.

-Öpürəm hamısını. Salam de, sən də. Gecən xeyrə qalsın.
-Allah amanında.

Bu xəbər Qəribə çox təəccüblü gəldi. Atabəy yaşlı olsa da, sağlam bir adamdı. Onun öz əcəli ilə, birdən- birə ölməsi heç ağlasığan deyildi. Atəbəy bu şəhərdə tanış olduğu ilk adam idi. Hər zaman Qəriblə çox yaxşı münasibətləri olmuşdu. Çox təmkinli, səbirli, dünyagörmüş bir kişi idi. Onun gizlədikləri bildiklərindən çox idi. Qaranlıq işləri var idi, amma Qərib ona heç zaman qarışmazdı. Onun düşmənləri olsa da, heç zaman Atabəyə yaxın gələ bilməzdilər. Onlar Atabəyin keçmişi ilə bağlı adamlar idi. Qərib hələ də Atabəyin türmədə yatmasının səbəbini bilmirdi. Heç vaxt bunu soruşmamışdı, Atabəy də deməmişdi. Şirkəti qurandan sonra onu yanına işləməyə dəvət etdi. Qərib ona borclu idi, çox borclu idi. Faktiki olaraq, Atabəy şirkətə rəhbərlik edirdi. Bütün maliyyyə hesabları onun əlindən gəlib – keçirdi. Atabəy burda böyük pullar qazanmışdı. Bəlkə, bu səbəbdən onu öldürə də bilərdilər. İndi Rizo orda- şirkətdə təkdir. Qərib çox dilxor oldu. Uzaqdan-uzağa heç bir şey eləmək mümkün deyildi. Səfərin bitməsini gözləmək lazımdır.

Rizo onu qarşılamaq üçün hava limanına gəlmişdi. Yolda ətraflı danışdılar.
Qərib:

-Evə dəyək, gedək şirkətə.
Gecə səhərə qədər Qəriblə Rizo şirkətin son ildəki sənədlərini yoxladılar. Rizo dəfnin normal keçdiyini dedi. Atabəyin ölümü ilə bağlı ekzpertizanı Rizo bilmirdi. Camaat danışırdı , guya ürək tutmasında, qan sızmasından ölüb. Amma bu inanılmaz idi. Onun ölümü ilə bağlı iş açılmışdı, Rizonun ifadəsini almışdılar. Bəlkə, Qəriblə də danışdılar. Necə olsa, Atabəy bu şirkətin işçisi idi.
Qərib Rizodan soruşdu:
-Cəsədi görən olubmu? Kim görüb?
-Bilmirəm. Arvadı zəng edib həkimə. Onlar da artıq öldüyünü deyiblər.
-Bəs, sonra?
-Sonra ekspertlər baxıb, meyiti aparıblar məscidə. Kəfənləyib gətirdilər, biz də aparıb basdırdıq. Qərib, sən də inanmırsan, eləmi? Burda nəsə bir iş var. Nə oldu, o boyda kişi, yanımdan getdi, evdə ürəyi partladı? Öldürüblərsə də, niyə gizlədirlər, kim gizlədir?
Qərib fikirli-fikirli:
-Bilmirəm. Nə bilim?

***

Qərib Atəbəyin yalnız yeddisinə gedə bildi. Sonra Rizo ilə adamlara qoşulub qəbir üstə getdilər. Molla dualar oxudu, fatihə verdi. Qərib qara gözlüyün arxasından qəbir üstə gələnlərə göz qoyurdu. Gələnlər mərhumun

qohumları və həmkəndliləri idi. Qəbiristanlıqdan çıxanda Qərib Rizo ilə asta-asta adamların arasında gedirdilər. Qabaqda gedən iki kişi söhbət edirdi.
-Kiminin əvvəli, kiminin axırı...bu da, belə getdi.
-Canavar deyirdilər ona. Elə bu ləqəbə də yaraşırdı. Təhlükəli adam idi rəhmətlik.
-Axır zamanlar özünü yaman tumuşdu.
-Yəqin, əli gətiribmiş.
-Yox. Deyirlər, yaxşı yerdə işləyirmiş.
-Kim imiş o qurd ürəyi yeyən?
-Nə bilim...rüzgardı də... adamı gah qaldırır, gah endirir...
-Çərxi- fələk...

***

Rizo maşını işə saldı, kənd qəbiristanlığının əyri-üyrü, tozlu yolundan asfalt şosseyə çıxandan sonra:
-Qərib, Atabəy qumar oynayırdı? O kişi nə deyirdi elə?
-Atabəyi məndən qabaq sən tanıyırsan, sən eşitməmisənsə, mən hardan eşidəcəm? Mənə bax, Rizo, səni qorxutmaq istəmirəm, amma ürəyimə nəsə damıb, gəl belə edək... Hesabdakı nəqd pullara daşınmaz əmlak alaq, inşaat sektoru açaq, təzə şirkəti keçirək uşaqların adına, Lilinin, başqalarının adına. Sən indi futbol federasiyasının prezidentisən, keçirək fondun hesabına. Sür şirkətə, vəkilləri yığaq, bu işi təcili həll edək.
-Bəs indiki şirkəti nə edək?

-O sənin adınadır, qalsın. Müqavilələri sən imzalamısan. Amma hesabları dəyişək.
-Qərib , mən sənə demək istəyirdim, bina tikdirmək istəyirdim, çoxmərtəbəli. Bilirsən də, bizim futbolçuların hamısı kasıb uşaqlardır, çoxu heç yerdə işləmir.
-Sən hazır binalar da  ala da bilərsən. Bu, yaxşı fikirdir. Bunu da həll edərik bu günlərdə. Ümumiyyətlə, bir neçə hazır bina almaq lazımdır.
-Fikirləşirsən ki, bizi təhlükə gözləyir?
-Fikirləşmirəm. Pulu olan hər kəsi hər zaman təhlükə gözləyir.
-Rizo ona baxdı, Qərib də ona baxaraq gülümsədi:
-Dünyanın qanunu belədir.

***

Qərib gərgin iş rejimində işləyirdi. Gündüzlər milli məclisə gedir, iclaslar, müzakirələr, görüşlərdən sonra, şirkətdə gecə yarıdan ötənə qədər vəkillərlə işləyirdi. Qalan məsələləri Rizo həll edirdi. Qəribin hər gün verdiyi göstərişləri yerinə yetirirdi. Özünə dostlarından bir neçə köməkçi də götürmüşdü. Onların arasında təhsilini başa vurmuş sinif yoldaşları da var idi. Qəribin məsləhəti ilə, özünə etibarlı komanda hazırlamışdı. Bu qədər böyük biznes dairəsini idarə eləmək asan məsələ deyildi. Qərib dövlət qulluğunda çalışan, təcrübəli iqtisadçıları da işə dəvət etmişdi. Əmək haqqı dövlətin verdiyindən dəfələrlə

çox olduğundan, onlar iş yerlərini dəyişməyə həvəslə razılaşırdılar. Bir ayın ərzində Qərib tam bir müdafiə qatı qurdu. Sonda vəkillərdən biri soruşdu:

-Qərib müəllim, siz ixtisasca iqtisadçısız, ya hüquqşünas?

Qərib təbəssümlə:

-Hər ikisindən. Hüququ bilməyəndən iqtisadçı olmaz.

-Doğrudur,- vəkillər bir-birinə baxaraq gülümsədilər.

Bütün əməliyyatlar sona çatandan sonra, Qərib bir qədər rahat nəfəs aldı. İki-üç günlüyə də olsa, istirahət etmək lazım idi. İşləri Rizoya tapşırıb, Kamilə ilə bərabər bağ evinə getdi. Buranı alandan bəri gəlib qalmağa, dincəlməyə vaxt olmamışdı. Kamilə ilə o qədər az görüşürdü ki, onun da könlünü almaq istəyirdi. Qərib həmişə məşğul olduğundan Kamilə çox zaman tənha olurdu. Dəfələrlə təklif etmişdi, istədiyi zaman anası və qohumları ilə bərabər gedib bağda dincələ bilər. Kamilə isə həvəs göstərmirdi. Ailədə tək olduğundan, sanki tənhalığa alışmışdı. Amma Qərib onun gözlərində gizlənən kədəri görürdü. O, xoşbəxtliyə layiq bir qadın idi. Bütün bunları düşünsə də, Qəribin əlindən bir şey gəlmirdi. Havalar soyuq da olsa, dəniz, sakitlik, piyada gəzinti öz təsirini göstərdi. Qərib gümrahlaşmış halda, şəhərə döndü. Qarşıda onu xaricə yeni səfər gözləyirdi.

***

Bir neçə ay sakitliklə gəlib keçdi. Qərib hərdən Gülünün qəbrini ziyarət edirdi. Hər dəfə təzə-tər çiçəklər alıb-aparırdı. Oradakı səliqə-sahmana fikir verirdi. Rizo bütün işlərin öhdəsindən gəlməyə çalışır, Qəribə yardımçı olmağa cəhd göstərirdi. Qərib çox zamandan kənardan, hiss olunmadan onu izləyirdi, istəyirdi hər vəziyyətdə özü sərbəst qərarlar qəbul etməyi öyrənsin. Son hadisələrdən çox sıxılırdı, bu qədər gərginliklə yaşamaq istəmirdi. Bütün bu çarpışmalar ona mənasız görünürdü. Səlahiyyət müddəti bitdikdən sonra buradan köçməyi,hansısa avropa ölkələrindən birində məskunlaşmağı düşünürdü. Qazandığı pulları da xarici banklarda saxlayırdı. Bəlkə də, sərbəst, azad olduğu zaman Sürəyyanı axtarıb tapa bilərdi. Hələ ki, heç kimə zərər toxunmasın deyə, səbrlə gözləməyi qərara almışdı. Gələn seçkiyə qədər gözləməli idi. Bu qədər maneəyə rəğmən, Qərib hələ də ümidini itirməmişdi.

Rizo ilə görüşüb, təlimatlarını verdi, bu dəfə səfəri on gün çəkəcəkdi. Böyük bir qrupla xaricə yola düşdü. Ölkə rəhbərinin gələcək görüşü üçün zəmin danışıqlar aparılacaq, ikitərəfli müqavilələr üçün zəmin hazırlanacaq idi. İqtisadçılardan, hüquqşünaslardan, siyasətçilərdən ibarət dəstəyə Qərib rəhbərlik edirdi. Gündüzlər çoxsaylı görüşlər keçirilir, nəzərdə tutulan proqram çərçivəsində işləyirdilər. Bir gecə Qərib otelə dönəndə menecer Qəribə

bir zərf verdi. Qəribi hansısa bir təşkilat görüşə dəvət edirdi. Qərib zərfdəki məktubu oxudu, amma bunun kim tərəfindən göndərildiyini kəsdirə bilmədi. Otel rəhbərliyinə müraciət edib soruşdu. Kimsə məktubda göstərilən imzanı tanımadı. Hətta Qərib hiss etdi ki, otelin sahibi bu barədə könülsüz danışır. Dəvət sabah gecəyə idi. Qərib çox fikirləşdi,onu burada kimlər görmək istəyər? Nə üçün məktubda tək Qəribin adı yazılmışdı? Əgər rəsmi görüş olsaydı, səfirlik vasitəsi ilə müraciət edərdilər. Yorğun olduğundan yatdı, sabah bir qərara gələr.

Səhər işdən sonra otelə qayıtdı. Zərfi götürüb aşağı endi, taksiyə minib zərfin üstündəki ünvanı göstərdi. Sürücü başı ilə təsdiq edərək, maşını işə saldı. Məktubda Qəribin adı, soyadı yazıldığından, məlum idi ki, onu tanıyırlar. Burda bir qorxulu şey yoxdur, madam otelə məktub yazıb, ünvan bildiriblər, demək ki, gozli-saxlı bir şey də yoxdur. Göstərilən ünvan şəhərin mərkəzinə yaxın təmtəraqlı bir kazino idi. Qərib maşından düşüb, kazinonun qarşısında binaya, ətrafa baxmağa başladı. İçəri girmək lazım idi. Bu zaman ona qara kostyumlu, səliqə ilə geyinib- daranmış orta yaşlı, arıq bir kişi yanaşaraq ingiliscə:

-Qərib müəllim?

-Bəli, mənəm.

-Xoş gəlmisiz, buyurun içəri, sizi gözləyirlər.

Qərib onun arxasınca zala daxil oldu. Oradan pilləkənlə aşağı düşərək, geniş bir dəhlizə daxil oldular. Qərib sakitcə bu adamı izləyərək onun arxasınca gedirdi. Nəhayət, o, bir iri, naxılarla bəzədilmiş, ağır qapını açaraq:

-Buyurun, deyərək çəkildi.

Qərib içəri daxil olaraq, geniş, yarıqaranlıq, şamlarla işıqlandırılmış, divarlı şəkillərlə bəzədilmiş, xalçalar döşənmiş zəngin, təmtəraqlı salona göz gəzdirdi. Salon o qədər iri idi ki, orada olan adamlar uzaq, dumanlı pərdə arxasındakı kimi görünürdü. Qərib bir qədər irəlilədi. Bu zaman ona doğru bir şəxsin gəldiyini görərək gözlədi. Bu, hündür, xoş sifətli, sarışın saçlı adamı Qərib ilk dəfə görürdü. Yəqin, məktubu o göndərmişdi, adı yazılan şəxs də bu idi. O yaxınlaşdıqca gülümsəyirdi, əlini uzadaraq:

-Xoş gördük, Fuad bəy, xoş gəldiniz.

Qərib bir an duruxdu.Tanımağa çalışaraq, qarşısındakı adama zənlə baxdı.

-Yox, məni tanımırsız, heç zaman da görməmisiz, bizsə sizi yaxşı tanıyırıq. Ümid edirəm, tanışlığımıza şad oldunuz.

Qərib əlini uzadaraq:

-Məni haradan tanıyırsız?

- Sizi tanıyan çox adam var. On iki il çox uzun müddət deyil, həm də siz yaddan çıxası adam deyilsiz. Rahat olun, siz bizim qonağımızsınız.
Onlar salona bitişik kabinetə keçdilər. Qərib kresloda oturub ona viski süzən bu naməlum adamın kim ola biləcəyini təxmin etməyə çalışırdı.
-Buyurun...
Əlndəki qədəhi Qəribə verərək qarşı kresloda əyləşdi.
-Biz də sizin kimi bizneslə məşğuluq, böyük bizneslə. Siz də uğur qazanmış, hörmətə layiq bir iş sahibisiniz.
Qərib:
-Mən tikinti materialları,  maşın , ehtiyat hissələri alveri edirəm. İnşaatla məşğulam. Bu-kiçik, şəxsi şirkətdir. O qədər də böyütməyin.
- Təvazökarlıq etməyin, canım... bir neçə ölkə ilə sazişləriniz, geniş dairəniz var.
-Məndən nə istəyirsiz?
-Çox sadə bir şey. Vaqonlarınız ayda bir dəfə bizə mal daşıyacaq. Siz bizim tranzit hissəmizin  bir bağı olacaqsız.
-Bilmək olarmı bu- nə malı olacaq?
-Müxtəlif şeylər –deyək, bu- heç yerdə qeydə alınmayacaq, narahat olmayın, hər şeyin qayğısına biz qalacağıq.
Qərib danışığın artıq olduğunu bilirdi. Razılaşmaqdan başqa çarəsi yox idi:
-Bir şərtim var ...

-Biz şərt kəsmirik, amma deyin, nə məsələdir?
-Mən Sürəyyanın yerini bilmək istəyirəm. Onu mənə qaytarın və yaxınlarımın zərər çəkməsini istəmirəm.
-Fuad bəy, biz heç kimə zərər toxunmasını istəmirik. Sürəyya xanım və qızınız təhlükəsiz yerdədirlər.
-Qızımmı?
-Biz məktubda yazılanları anladığınızı düşünmüşdük.
Qərib bir an fikirləşdi:
-Lazım olan hər şeyi edəcəyəm, nə istəsəniz...amma yaxınlarıma toxunmayın.
Müsahibi gülümsəyib, qədəhi yuxarı qaldırdı:
-Anlaşdığımız üçün çox şadam. Uğurlar...
Qərib gecəyarı otelə gəldi, yuxarı qalxıb ötağa girdi. Pallı-paltarlı, üzüqoyulu çarpayıya sərildi.

***

Fuad və Zinət

Fuad ata-anasının yeganə övladı idi. Atası məşhur cərrah , anası ev qadını idi. Heç vaxt işləməmişdi, orta məktəbi bitirib öz qohumu olan Tofiqə ərə getmiş, tək oğlunun tərbiyəsi ilə məşğul olmuşdu. Fuadın uşaqlığı və gəncliyi ehtiyacsız, qayğı və məhəbbət içərisində keçmişdi. Atası bir gənc oğlanın bütün ehtiyaclarını hər zaman təmin etmiş, ona yaxşı təhsil verməyə çalışmışdı. Fuad da çalışqan və istedadlı olduğundan bu imkandan yararlanmağa çalışmış, dostları arasında öz şəxsi

keyfiyyətləri, səmimiliyi və istiqanlılığı ilə hörmət qazanmışdı. Universiteti bitirəndən sonra,əvvəlcə dövlət qulluğunda çalışmış, sonra atasının məsləhəti ilə şəxsi biznesini qurmağa başlamışdı. Bu sahədə əldə etdiyi uğurlarda atasının əməyi az olmamışdı. Fuadın yaşıdlarından fərqli olaraq, tez bir zamanda müstəqil sahibkar olması heç də hamı tərəfindən xoş qarşılanmırdı. Onu qısqananlar, paxıllıq edənlər də çox idi. İşi ilə əlaqədər xarici ölkələrə getdiyindən, xarici dilləri öyrənmək üçün xüsusu kurslara getmək zərurəti meydana çıxdı. Fuad elə bu zaman xarici dillər kursunda Zinətlə tanış oldu. Onun gözəlliyi və zəngin mənəvi aləmi Fuadı daha çox cəzb etməyə başladı. Az bir vaxtda onlar bir-birini sevdi. Bu böyük məhəbbət get-gedə dillərə düşdü. Fuad Zinətlə evlənmək ərəfəsində idi. Hər ikisinin aliləsi bu qərarı şadlıqla qarşıladı. Zinətin ailəsi uzaq dağ rayonunda yaşayırdı, özü də kirayədə qalıb ingilis və fransız dillərindən dərs deyirdi. Amma onların evlənmə qərarı ləngiməli oldu. Fuadın anası xəstələndi və müayinədən sonra məlum oldu ki, onun xəstəliyi qan xərçəngidir. Belə gənc qadının  çarəsiz xəstəliyə tutulması evdə də, Fuadın könlündə də hər şeyi alt-üst etdi. Atası həkim olduğundan bütün məşhur klinikalarla əlaqə yaradaraq,  xəstəliyi müalicə edə bilən  həkimlər axtarırdı. Nəyayət, onu  İsrailin məşhur xəstəxanalarından birinə

yerləşdirdilər. Bütün müalicə üsulları tətbiq edilsə də, heç bir nəticə vermədi. Bu qüssəli günlərdə Fuad yalnız Zinətlə təsəlli tapırdı. Zinət onların evinə gəlir, Fuadı tək qoymur, ona ümid və inam verirdi. İki aylıq müalicədən sonra valideynləri geri qayıtdı. Fuad atasının gözlərindəki məyusluqdan, çarəsizlikdən anladı ki , artıq heç bir ümid yoxdur. Anası da yorulmuşdu, çox yorulmuşdu. O da dincəlmək, ağlasığmayan qorxulardan, üzüntülərdən qurtulmaq istəyirdi. Fuad çox gərgin, iztirablı günlər keçirirdi. Heç kim taleyindən, alın yazısından qaça bilməz. Fuad anasını itirəndən sonra, xeyli müddət özünə gələ bilmədi. Atası da sütünu qırılmış kimi gəzirdi. Xoşbəxt bir ailənin acı günləri başlandı. Atası da, Fuad da işlərinin başına keçsələr də, evdəki hüzn davam edirdi. Fuadla Zinətin evlənməsi təxirə salındı. Belə ağır məqamda Zinət onlara dah çox yaxınlıq göstərirdi. Evlərinə gəlir, yır-yığışla məşğul olur, xörək hazırlayırdı. Artıq o, ailədən sayılırdı. Artıq onun nəfəsi qadınsız, boş qalmış evin soyuqluğunu isidirdi. Çox zaman axşamlar Fuad onu maşınla evinə aparırdı. Zinət başa düşürdü, onlar ən azından Fuadın anasının ilini gözləməli idilər. Bu yerlərdə yaxın admı ölən adamların şadlıq , toy etməsi ayıb sayılırdı. Hər kəs ölüsünə hörmət naminə, nişanı, toyu təxirə salırdı . Zinətgilin yerlərində bu adət daha da önəmli idi. Fuad son zamanlar Zinətin nədənsə narahat

olduğunu hiss edirdi. Bu barədə ondan soruşsa da, qız ona heç nə demədi. Nəhayət, Zinət özü dilə gələrək , Fuada bir oğlanın onu izlədiyini, yolunu kəsdiyini, telefonuna mesajlar göndərdiyini deməyə məcbur oldu:

-Bunu gizləyirdim, səni narahat eləmək istəmədim, amma bu adam sözdən anlamır, hardan olsa, qabağıma çıxır, bilmirəm nömrəmi hardan tapıb, söndürsəm də, cavab verməsəm də, mesajlar yazır. Mən həmişə gizlənə bilmərəm ki, sən yanımda olmayan vaxtlar da olur. Fuad, mən bu adamdan qorxuram. Sənə də demirdim , bilirəm ki, gedəcəksən üstünə, o da heyvərənin, alçağın biridir.

Fuadın hirsindən qanı üzünə vurdu:

-Nahaq deməmisən, əvvəldən yerində oturdulsa idi, belə qudurmazdı. Kimdir o? Tanıyırsanmı?

- Belə tanıyıram ki, hansısa məmurun harın oğludur, adı Rasimdir. Harda işlədiyini, harda oxuduğunu bilmirəm.

-O səni harda görüb, bəs?

-Tərcümə mərkəzinə getmişdim. Ordan tərcümə üçün materiallar götürürəm, tərcümə edib qaytarıram. O da bilmirəm, nə üçünsə, gəlmişdi ora. Çıxanda düşdü dalıma, o –bu - əl çəkmir. Hətta sən yanımda olan vaxtlar da görürəm uzaqdan, onda yaxın gəlmir.

-Nə vaxtandı bu məsələ?

-Aydan çoxdu, deyirdim, usanar, çıxıb-gedər işinin dalınca.

Fuad:
-Yaxşı, bu dəfə görəndə, mütləq de mənə. Mənsiz də heç yerə çıxma. Hara lazımsa, özüm aparacam. Maşın var. Səhər gəlib götürəcəm, işə də mənimlə gedəcəksən.
Fuad bir neçə gün izləyib , axır ki, onu Zinətin yaşadığı evin qarşısında tutdu:
-Rasim sənmisən?
Oğlan yekəxanalıqla:
-Mənəm, sən kimsən?
-Mən də Fuad. Zinətin nişanlısı.Yəqin, məni onun yanında görmüsən. Qızı niyə narahat edirsən? Telefonuna mesaj yazırsan, zəng edirsən. Madam, sənə cavab vermir, nə istəyirsən?
- Birincisi, o nişanlı deyil, sən də onun vəkili deyilsən. Özüm bilərəm, zəng edərəm, ya etmərəm. Bunun sənə dəxli yoxdu.
Fuad bir az da ona yaxınlaşaraq astadan, amma sərt tərzdə:
-Xeyr, dəxli var. Ona aid olan hər şeyin mənə dəxli var. Biz nişanlıyıq və mən səni onun ətrafında görmək istəmirəm. Bir daha ona yaxınlaşma və qarşıma çıxma!
Rasim sinəsini qabağa verərək ona kələzləndi:
-Əlini çək görüm, kimi hədələyirsən? Nə etdiyimi səndən soruşacam? Bir buna bax! Rədd ol qabağımdan!
Fuad onun yaxasından yapışaraq:

-Sənə söz dedim, sözdən anlamırsan, başqa cür danışaq!
-Burax yaxamı, it oğlu!
Fuad ona bir yumruq zərbəsi vurdu, oğlan əvvəl səndirlədi, sonra onun üstünə cumaraq:
-Sənin ananı...
Fuad qəzəblə onu yaxına çəkib, başı ilə başına möhkəm zərbə vurdu, sonra qamarlayıb ,altına basdı, başını asfalta çırpıb, harası gədi, yumruqlamağa başladı:
-Qanmaz heyvan, sən adam dilindən niyə anlamırsan, nə qudurub düşmüsən camaatın canına? Hə, alçaq oğlu alçaq, nə istəyirsən?
Oğlan onun altında çabalayır, əli-qolu dizlərinin arasında olduğundan tərpənə bilmirdi. Yoldan keçənləşir onları görüb başlarına yığışdılar və aralamağa çalışdılar. Kişilər Fuadı zorla tutub qaldırdılar. Hirsi gözünü tutmuş Fuad özündə-sözündə deyildi. Ağzı-burnu partlayıb qanı axan Rasim onu söyə-söyə, hədələyə-hədələyə maşınına minib getdi. Tanıyanlar Fuadı sakitləşdirməyə çalışdılar, bir azdan özünə gələn Fuad yuxarı- Zinətin yanına qalxdı.

Sonralar bu əhvalatı xatırlayan Fuad səbrsizlik edib səhv etdiyini, bu ərköyün və yekəxana oğlanı döyməklə Zinəti daha böyük təhlükəyə atdığını, gələcək faciələrə yol açdığını özünə etiraf edərək peşmanlıq çəkirdi. Əgər o zaman başqa cür hərəkət etsəydi, Zinəti evlərinə aparıb buraxmasydı, tezliklə evlənsəydi, hər şey başqa cür

olacaqdı. Fuad Zinəti tək qoymurdu, gecə də gətirib evinə qoyub gedirdi, atası da bu məsələni eşitmişdi, ili gözləmədən, gəlini gətirməyi düşünürdü. Bunu Fuada və Zinətə də söyəyib razılıqlarını almışdı. Yaxınlarda kiçik bir məclis düzəldib, nigah kəsdiriləcəkdi. Zinətin valideynlərinin gəlməyini gözləyirdilər.

Amma heysiyyətini təhqir olunmuş hesab edən Rasim dayanmadı, dəstə yığıb onun üstünə gəldi, neçə dəfə tutaşdılar və döyüldülər. Ərköyünlüklə başlayan dava böyük, qarşısı alına bilməyən düşmənçiliyə çevrildi. Qabağından yeməyən, məğlubiyyətdən daha qəzəblənən Rasimin gözlərini intiqam, nifrət elə tutdu ki, Fuadın acığını Zinətdən çıxmağı qərarlaşdırdı. Bir axşam döstları ilə birlikdə Zinət yaşayan blokda gizlənib, qızın evə qayıtmasını gözlədilər.

Fuad gecə Zinəti gətirib binanın qarşısında dayandı. Qız qapını açıb düşdü, ətrafa baxaraq, get,- dedi, lifti özüm çıxaram. Fuad da maşından enərək:

-Qoy, ötürüm qapıyadək.

Zinət arxayınlıqla gülümsəyib:

-Get, yorğunsan...nə var ki, evdəyəm daha.

Fuad dayanaraq, Zinətin içəri keçməsini gözlədi. Qız dönüb ona əl edərək, bloka girdi.

Fuad o tərəf –bu tərəfə baxaraq, maşına minib sürdü.

Rasimin namərdcəsinə pusqu qurmağı heç birinin ağlına gəlməzdi. Zinət liftdən çıxıb qapısını açan zaman üstünü alan qasırğadan bir an özünü itirdi. Adamlardan biri onun ağzını əli ilə qapadı, qız qışqıra da bilmədi. Onu sürükləyib içəri saldılar.

Səhər bütün şəhər dəhşətli bir mənzərənin şahidi oldu. Gənc qızın parçalanmış cəsədi evin qarşısına düşmüşdü. Bütün televiziya kanalları və qəzetlər bu barədə yazırdı. Fuad işdə eşitdiyi zaman, dəlicəsinə həyətə cumdu. İş yoldaşları onu maşına mindirib hadisə yerinə gəldilər. Cəsədi artıq aparmışdılar. Yer qan gölməçəsi idi. Fuadı tutub saxlaya bilmirdilər, nə etdiyini, nə danışdığını bilmirdi. Qışqırır, ağlayır, başını yumruqlayırdı. Dostlarının əlindən qurtulub yuxarı qaçdı. Ev möhürlənmişdi. Polis işçiləri heç kimi içəri buraxmırdılar. Onlar Fuadın qızın nişanlısı olduğunu öyrəndikdə, onu özləri ilə polis şöbəsinə gətirdilər. Az sonra Fuadın ifadəsi alındı. O, Zinəti görən sonuncu adam idi. Fuad müstəntiqə Rasimin və dostlarının adını verdi, onlardan şübhələndiyini bildirdi. Dəfələrlə qızın yolunu kəsib hədələdiyini, buna görə dalaşdıqlarını da söyləd. Amma hadisənin heç bir şahidi yox idi. Ekspertiza qıza təzavüz olunduğunu və 11 –ci mərtəbədən atıldığını təsdiq etdi. Binada, blokda yaşayanlar istintaq olundu. Onlar Fuaddan başqa, bir kəsi görmədiklərini deyirdilər. Hər axşam Fuad

Zinəti evə gətirirdi. Bu qətldə yeganə şübhəli Fuad olduğu üçün saxlanıldı. Fuad dəfələrlə istintaq zamanı əhvalatları danışır, şahidlər göstərirdi, amma müstəntiq gösrərilən şəxslərin həmin axşam başqa yerdə olduğunu və bunu təsdiq edən şahidlər olduğunu deyirdi. Atası Fuadın günahsız olduğunu sübut etmək üçün vəkillər tutdu. Nəyayət, binada Fuadın qızı həyətdə qoyandan sonra getdiyini təsdiq edən şahid tapıldı. Bu –küçə ilə üzbəüz marketin satıcısı idi. Həm Fuadı, həm də Zinəti tanıyırdı.Onlar tez-tez buradan ərzaqlar alırdılar. Görünür, Rasimgil bloka günorta saatlarında girmiş, damda gecəni gözləmişdilər. Yoxsa bu qədər adamdan birinin onları görməməsi heç inadırıcı deyildi. Başqa vaxt Rasimi burda görənlər olsa da, həmin gün heç kim görməmişdi. Onların tək-tək binaya girməsi də bir ehtimal idi. Başqa blokdan dama qalxıb, oradan da bu bloka keçə bilərdilər. Əgər bu hadisə qəsdən törədilmişdisə, demək, əvvəldən hər şey nəzərə alınmışdı. Məhkəmədə Fuad müttəhim kürsüsündə olarkən Rasim şit-şit irişərək gülürdü. Bununla o Fuada yanıq verir, onu daha da acıqlandırırdı. Bu qətlin ört-basdır edilməsində onun varlı məmur atası xüsusi cənfəşanlıq göstərir, Fuadın həbs olunmasına çalışırdı. Bu ərəfədə baş verən hadsilərin təsirindən, oğlunun günahsiz yerə həbs olunmasına, Zinətin başına gələn faciəyə dözməyən, onsuz da xəstə olan atası insult keçirərək

dünyasını dəyişdi. Bu hadisə Fuadı tamamilə düşkünləşdirdi, həyata olan sonuncu bağı da qırıldı. Baş verənləri dərk edə bilmirdi. Zinətin başına gələnlər, onun iztirabları, ağrılar, keçirtdiyi dəhşətli qorxunu təsəvvür elədikcə ağlı qıc olur, hissiyyatı itirdi. Sevdiyi insanların dalbadal faciəli ölümü onun bütün varlığını sarsıdaraq darmadağın edirdi. O özünə, yaşadığına, bütün bunlara dözə bildiyinə görə , özünə nifrət edirdi. Kamerada başını divara döyəcləyərək qışqırır, yeni müstəntiq tələb edirdi. Həbsxana həkimi müttəhimin psixoloji sarsıntı keçirdiyini söyləyirdi. Ədalətsiz, satqın məhkəmə əsas günahkarları böyük pullar hesabına gizlədirdi, cinayətkarları axtarıb həbs etmək əvəzinə, işi Fuadın üstünə atmaqda qərarlı idi. Hər şey buna hesablanıb düzənlənirdi. Onu tərk etməyən yalnız dostları idi. Onlar artıq bu cinayətdə kimlərin iştirak etdiyini dəqiqləşdirib Fuada demişdilər. Dəlillərin kifayət olmamaması səbəbindən, vəkil Fuadın müvəqqəti azadlığa buraxılmasına nail oldu. O, atasının dəfnindən sonra, evi və şirkətini satdı. Bütün pullarını bankda dostunun hesabına yatırtdı. Heç kimə bir söz demədən, atasının seyfindəki silahı götürdü. Gecə gizlincə Rasimi güdüb, evlərini yerini nişan elədi. Və hamısı evdə olarkən içəri girib, masa başında şam yeməyi yeyən bütün ailənin gözü qarşısında Rasimi və atasını güllələdi. Tapançadakı bütün gülləleri Rasimin başına boşaltdı. Sonra vaxt

itirmədən maşınını kazinoya sürdü. Zinətin qətlində iştirak edən Rasimin cinayət dostları hər gecə barda olurdu. Onları axtarıb taparaq, hamının gözü önündə güllələyib polis idarəsinə gəldi. Polis rəisinə:

-İndi qatil oldum, məni buna siz vadar etdiniz.

Artıq heç bir şeyin Fuad üçün əhəmiyyəti yox idi. Bütün sevdiklərini itirmişdi. Onlarsız bir ömür yaşamaq çox mənasız idi. İntiqamını almışdı, yüngülləmişdi. Vəkil ona edam hökmü kəsiləcəyini deyirdi. Fuad bunu çox sakit qarşılayaraq laqeydliklə:

-Belə daha yaxşı, - dedi.

İztirab içində yaşamaqdansa, ölüm ona çox asan görünürdü. Amma dostları onu buraxmaq istəmirdilər. Xüsusən, Talib inadından geri çəkilmirdi. Fuadı qaçırmaq üçün kriminal aləmin məşhur adamları ilə görüşür, işıq ucu axtarırdı. Fuad bunun mənasız cəhd olduğun deyir, onlar isə fikirlərindən əl çəkmirdilər.

Talib:

-Qardaşım, ən gözəl ölümdən, ən çirkin həyat qiymətlidir. Biz səni gözümüz baxa-baxa ölümün əlinə verə bilmərik. Deyək ki, sən öldün, bəs biz bu günahla necə yaşayaq, hə?

Fuad susurdu. O, dostlarını təhlükəyə atmaq istəmirdi.

Nəhayət,Talib türmə rəisinə yol tapa bildi. Fuadın bütün sərvətini ona verərək qaçışı təşkil etməsini istədi. Məlum idi ki, Fuad daha ölkədə qala bilməzdi. Rəis gecəyarı onu

istintaqa aparılarkən qaçışını təşkil etdi. Onu xaricə gedən bir yük gəmisinə buğda çuvalında yükləyərək gizlətdilər. Yanlız neytral suları keçəndən sonra, gəmi kapitanı Fuadı azad etdi. Havasızlıqdan və susuzluqdan az qala həyatını itirəcəkdi. Azad olduğuna inana bilmirdi. Tək-tənha oturaraq düşüncələrə dalır, götür-qoy edirdi. Baş verənlər ona pis yuxunu xatırladırdı. Azadlığa çıxsa da, içindəki kabusu söküb ata bilmirdi. İndi onun üstünə qara çəkilmiş keçmişi və naməlum bir gələcəyi var idi. Fuad arxasında tam bir xatirə cəsədi buraxaraq, yeni həyat yaşamaq üçün uzaqlara, qeyri-müəyyənliyə sarı gedirdi. O, artıq əvvəlki Fuad deyildi, ağlı, düşüncəsi, ürəyi dəyişmişdi. Üzdən sakit və təmkinli görünsə də, içində qurğuşun kimi bir ağırlıq var idi. Həmin anlarda –uzaq ulduzlara baxa-baxa elə sanırdı ki, uzaqlara getməklə özündən qaça biləcək, başqa bir adla, başqa bir ürəkə yaşaya biləcək. Göyərtədə dayanaraq işıqları bərq vuran şəhərə baxır, onu qarşıda nə gözlədiyini bilmədən limana sarı üzürdü.

***

## Çərxi-fələk

Qərib döndükdən sonra, şirkətin işinə yenidən baxmağı qərara aldı. “Yük” məsələsini özündən başqa kimsə biməməli idi. Buna görə də ilk növbədə Rizonu şirkətdən uzaqlaşdırmaq lazım idi. O, qətiyyən bu məsələyə

qarışmamalı idi. Qərib bunu Rizonun təhlükəsizliyi naminə etməli idi. Amma bunun üçün əsaslı bir səbəb tapmaq lazım idi. İnşaat sektorunu tamamilə Rizoya versə də, elə bir iş qurmaq, təzə bir sahə açmaq  lazımdır ki, Rizo kənarlaşdırıldığını hiss etməsin. Elə ilk görüşdən onun ağzını aradı:
-Rizo, bu dəfə orda olanda fikirləşdim, istəyirəm yeni sahə açım, ordakı kapitalı investisiya qoyum.
Rizo ona təəccüblə baxaraq:
-Qərib, neynirsən, biz bu işləri güclə çatdırırıq, niyə risq edirsən, var da yetərincə, neynirik?
-Nə bilim, şirkətin işi maraqlı deyil, sən çox yorulursan,uşaqlara da vaxtın qalmır. Son dəfə nə vaxt futbol oynamısan?
-Çoxdan. Az qalıb il olsun. Mamadan sonra heç oynamamışam.
-Görürsən, yaşamaq lazımdır, oğlum, illər su kimi gəlib keçir...bizsə səhər iş, axşam iş...yorulmuşam lap.
-Yorularsan də. Heç dincəlirsən ki? Təzə iş açacaqsan, o da bir tərəfdən udacaq vaxtımızı.
-Elə iş yox, məsələn, turizm.  Necədir?
-Yox , Qərib, mən istəmirəm, həm də şirkəti öyrənmişəm daha, indi ayrı şeyə həvəsim yoxdur. Bir dənə yaxşı milli yetişdirə bilsəm...

-Bax, bu olsun, milli klub, dur başında yetişdir, qalan vaxtına da inşaata bax.
-Bəs, şirkətin işi?
-Bir adam  tapıb qoyarıq da... işləsinlər. Relsə düşüb, nə çətinliyi var ki...
-Riskdir e,  o qədər pul qoy klub elə ...sonra da bir şey çıxmasın.
-Sən nə vaxtdan pul qədri bilən olmusan? Pulu mən qoyuram, batır –batsın, mənim pulumdu də.. bir də niyə batır komanda durub, sən durmusan, gətir bir neçə treneri, işləsinlər...
Rizo ona baxaraq üz-cözünü qırışdırdı:
-Nə bilim, baxarıq hələ, qoy bir az keçsin....
 Evə çatıb, maşından düşdülər. Vasif onları görüb, qabaqlarına yüyürərək Qəribin  qucağına atıldı. Qərib onu qucağına  götürüb, bağrına basdı. Fuad da təzə yeriməyə başlamışdı.
Qərib təəccüb qarışıq sevinclə:
-Buna bax, buna... haçandan yeriyir? Bəs mənə niyə demirsiz?
Oturaraq, Fuadı da dizinin üstünə aldı.
-Maşallah, kişi olub.
Lili Qəribin yaxınına gələrək onunla görüşdü:
-Xoş gəlmisiz.
Qərib onun saçlarından öpərək:

-Xoş gününüzə gəlim,-dedi.
Bir az uşaqları oynadıb, çay içərək qalxdı.
-Kamilə məni gözləyir, evdə qonaqlar var, deyəsən...gedib çatmaq lazımdır.
Rizo onu yola saldı. Gəlib oturaraq Qəribin dedikləri barədə düşünməyə başladı. Qəribin birdən-birə futbolla maraqlanmağı ona təəccüblü göründü. Bu barədə Liliyə də dedi. Sonra gülərək əlavə etdi:
-Deyəsən, Avropa təsirini göstərir, orda futbola böyük pullar qoyurlar.
Lili də təbəssümlə:
-Bəlkə, təsir səndən keçib? Avropa da bir bəhanədir.
-Yox, vallah, özü dedi, həm də hələ qərara gəlməmişik ki, sözdü də danışdıq. Bir də mən bunu eləsəm, öz puluma edərəm. Qərib min zəhmətlə qazanır o pulları, asan deyil, bir dəqiqə boş vaxtı yoxdur. Hökumət adamıdır, bir də gördün qəfil çox pul lazım oldu. Hələ inşaata qoyduğu pulların heç bir faizini də götürməyib. Adam elə bizə işləməlidir?
-Mən nə deyirəm ki? Necə məsləhətdi, elə et.
-Söhbətdi də, eləyirik. Uşaqların yatmaq vaxtı deyil? Sonra balacanın yenə yuxusu vuracaq başına, səhərəcən konsert verəcək...
Rizo xalçanın üstündə əllərini yerə dirəyib dizləri üstündə sürünən uşaqlara baxaraq gülə-gülə:

-Eyy, çəpişlər, gəlin, gerdik bay-bay eləməyə...

***

Qəribi tələsdirirdilər. Ona görə də Rizoya bildirmədən ilk partiyanı öz nəzarəti altında keçirməyə müvəffəq oldu. Bunu çox gizləyə bilməyəcəyini anlayırdı. Ona qədər mütləq bir şey fikirləşmək lazımdır. Hər dəfə Rizonu müxtəlif bəhanərlə kənardakı obyektlərə göndərir, əlavə yüklənmiş malı stansiyadan ötürürdü.

Kabinetinin qapısı elə bərk açıldı ki, Qərib diksinib başını qaldırdı. Rizonun üzü qızarmış, həyəcandan gözləri par-par işıldayırdı. Cəld yerişlə ona tərəf gələ-gələ:

-Qərib, bu nə deməkdir? Sən bilirdin?

Qərib yerindən qalxaraq:

-Gedək, Rizo, başqa yerdə danışaq.

Rizo qollarını ölçə-ölçə:

-Nə başqa yer? Qərib de görüm, bu- nə məsələdir?

Qərib onun qolundan yapışaraq:

-Gəl, çıxaq, sakit ol, gedək danışaq.

Rizo təəccüblə ona baxaraq, onunla otaqdan çıxdı.

Qərib liftə qədər onu buraxmadan sakitcə:

-Burda danışmaq olmaz. Gedək başqa yerə.

Onlar Rizonun maşınına oturdular. Rizo maşını işə saldı.

Qərib:

-Sür bağa, burda, yaxında bir bağ var.

Qərib ətrafa nəzər salaraq, Rizo ilə bağa daxil oldu. İrəliləyərək, skamyada oturdu. Rizo da onun yanında əyləşdi. Qərib:

-Rizo, sakit ol və məni dinlə. Mənim iş yerim, maşınım və evim dinlənilir. Nabadə, oralıqda mənimlə açıq danışma. Əmin deyiləm, bəlkə, elə sənin də. Çox xahiş edirəm , ehtiyatlı ol. Bunu mən özbaşıma etmirəm. Mən kiməm ki, bu vaqonlara o qədər mal vurum? Mən razı olsam da, olmasam da ,onlar bunu edəcəklər.

Rizo səbrsizliklə:

-Kim, Qərib, kimdir onlar?

-Onlar-dünyanın ağaları. Biznes- siyasət imperiyalarının sahibləri.

-Olsun, cəhənnəmə olsun, amma bizlə nə işləri var? Nə edirlər özləri etsin, bizdən əl çəksinlər.

-Mən sizləri qorumaq üçün bunu edirəm. Səni uzaqlaşdırmaq istəməyim də bundan ötrü idi. Rizo, mənim sizdən başqa heç kimim yoxdu, mən sizi təhlükəyə ata bilmərəm, sizə bir şey olarsa, məhv olaram. Çox xahiş edirəm, bunu anla. Sən çəkil şirkətdən, keç inşaata, mən şirkətə baxaram.

-Bəs sən? Sən təhlükədə deyilsən? Sən də çəkil! Cəhənnəm olsun şirkət,ver onlara, nə edirlər etsinlər.

-Rizo, anla, mən çəkilə bilmərəm, mən artıq onlarla bir qazanın içindəyəm, istəsəm də, çəkilə bilmərəm.  Bu- elə

bir şeydi ki, oyundan çıxmaq olmaz. Etiraz etmək olmaz. Məni artıq bu siyasətin içinə soxublar. Mənimlə bərabər, ətrafımı da nəzarətə götürüblər.

-Hər şeydən əl çək! Lazımsa, inşaatı da verək, hər şeyi verək, bizim nəyimizə lazımdır pul, bir dükanla da çörək qazanıb dolanarıq.Yetər ki, sən də aralan!

-Olmaz, Rizo, olmaz! Sən düşünürsən ki, mən istəyərəkdən bu yerdəyəm? Mən pulu neynirəm? Mənə heç nə lazım deyil, təki sevdiklərim salamat olsun!

-O zaman, bir şey düşün, bu bəladan özünü də qurtar, bizi də.

-Hər şey bildiyin kimi deyil...

-Nə? Nəyi bilmirəm?

-Mənim qızım, sevdiyim qadın onların əlindədir.

Rizonun gözləri böyüdü:

-Nə?  Nə qız?

Qəribə baxaraq sanki ayılmış kimi:

-Bu, necə olur?

Qərib susaraq kənara baxmağa başladı.

Rizo heyrətlə:

-Qərib...

Qərib onun gözlərinə baxaraq:

-İndi anladınmı? Anladınmı , mən heç nə edə bilmərəm. Mən daha heç kimi qurban verə bilmərəm.

Rizo handan-hana özünə gələrək, gözünü yerə dikib fikrə gedən Qəribdən soruşdu:
-Kimdir o? Onu tanıyırammı?
Qərib darıxmış halda:
-Bir dəfə aeroportda qarşılaşdıq səninlə, yanımda idi...
Rizo xatırlamağa çalışaraq:
-Yükünə kömək elədiyin ?
Qərib başı ilə təsdiqlədi.
Rizo Qəribi indi görürmüş kimi, ona baxa-baxa qalmışdı:
-Bəs nə edəcəyik?
-Heç nə. Sən uzaq dur, yetər. Çəkil kənara, şirkətlə bir əlaqən qalmasın. Qorxma, mən onlara lazımam, mənə heç nə eləməzlər. Bir xahişim də var, daha doğrusu, tələbim. Nəbadə , bu barədə dostlarından birinə, xüsusən də Liliyə bir kəlmə deyəsən. Hesab elə ki, bununla sən o adamı ölümə məhkum edirsən.
Rizo kədərli halda, başı ilə təsdiqlədi.
-Dur, get evə...mən də kuryerlə danışım, işi qaydasına qoyum.

***

Qərib düşünürdü ki, şirkəti öz adına keçirməklə, məsuliyyəti öz üzərinə götürməklə Rizonu qoruya biləcək. Sənədləri dəyişdirmək üçün vaxt lazım idi. Bu müddət ərzində Qərib hər işarə gəldikdə özü şəxsən nəzarət edərək gömrükdən qatarı keçirirdi. Hələ ki, ortada bir problem

yox idi. Qərib Rizonun futbol fedarasiyasında yeni qurum yaranması üçün bütün sənədləşmələrə kömək edir, tezliklə bu məsələni həll etmək istəyirdi. Belədə onun Rizo ilə heç bir iş əlaqəsi olmayacaqdı.

***

Qərib əlində telefon donub qaldı. Qəfil mədəsindən qalxan bulantıdan iki-üç dəfə möhkəm öyüdü. Səsə köməkçisi Rüfət qapını açıb içəri baxdı və onu ikiqat görüb yanına yüyürdü:

-Qərib müəllim, nə oldu sizə? Həkim çağırımmı?

Qərib gözləri hədəqəsindən çıxmış halda zorla:

-Yox, maşınımı çağır.

Həyətə enib maşına oturdu, sürücüyə:

-Tez sür, köhnə məhəlləyə.

Yolda sürücünü tələsdirir, rabitəsiz halda nəsə deyirdi. Küçədən dalana burulanda Gülü
nün qapısı ağzında bir topa adam gördü. Tez maşından düşüb yüyürdü .Qışqıran, ağlayan , çaş-baş qalan adamları aralayıb irəli keçdi. Rizo yerdə, qan içində uzanmışdı, uzun saçları qana bulaşaraq, yerə yayılmışdı. Gözləri açıq idi. Gözlərinə sanki göy üzünün rəngi çökmüşdü. Bozumtul rəngli kostyumu bir neçə yerdən deşilmişdi. Qərib dibindən kəsilmiş ağac kimi dizi üstə yerə çöküb silkələndi. Key-key gah Rizoya, gah da adamların üzünə baxdı. Sanki gördüyünü dərk eləmək, nə

baş verdiyini anlamaq istəyirdi. Qarşısındakı Rizo idi! Rizonun donmuş, hissiz cəsədi idi! Əlləri ilə onun üzünü , saçını sığalladı, sinəsini yoxladı. Nəfəsi boğazına tıxandı. Rizonun üstünə yıxılıb qışqıran Lilini qaldırmaq istədi. Lilinin vəhşiləşmiş gözlərini onun gözlərinə sancıldı.Onun açıq xalatından çılpaq bədəni görünürdü. Şampun köpüyü axan saçları alnına , sinəsinə dağılmışdı. Kimsə adyal gətirərək , onun çiynini bükdü. Lilinin Rizonun pencəyindən tutub dartan əlləri qıc oldu, dişləri bir –birinə keçdi, huşunu itirərək Rizonun üstünə sərildi. Adamlar onu götürərək kənara çəkdilər. Bu zaman həm polis, həm də təcili yardım maşını gəlib çıxdı. Polis işçiləri adamları kənarlaşdırıb cəsədə yanaşdılar. Qəribin qoluna girib qaldırdılar. Lilini təcili yardım maşınına qoyub apardılar. Polis rəisi Qəriblə danışmağa cəhd eləsə də, alınmadı. Kimsə stul gətirib Qəribi otuzdurdu. Onun başı sinəsinə sallanmışdı. Yanında danışılanları eşitmir, qulaqları küyüldəyirdi. Polislər Rizonun cəsədini götürüb maşına qoydular. Qərib özünü ələ alıb qalxdı, yanaşıb, onlarla bərabər getmək istədiyini bildirdi. Sürücü maşını gətirib, onun bərabərində saxladı. Qərib polis idarəsində rəislə danışdı. Fotolar çəkilib, sənədləşmədən sonra, Rizonun cəsədini yarılmağa qoymadı. Onun güllələnərək öldürülyü məlum idi. Heç kim hadisənin necə baş verdiyini görməmişdi, şahid yox idi. Yəqin ki, killer

yaxın evlərin birinin damında gizlənmiş, Rizo evdən çıxanda dalanda ona bir neçə dəfə atəş açmışdı. Qonşular atəş səsinə çıxaraq Rizonu yerdə görmüşdülər. Çətinliklə də olsa, polis rəisinin razılığını aldı. Rizonu məscidə aparanda, Qərib xəstəxanaya getdi. Lili reanimasiyada idi. Qəfil sarsıntıdan beyin insultu keçirmişdi. Həkim Qəriblə danışdı. Lilinin hamilə olması vəziyyəti çətinləşdirirdi. Qərib həkimdən uşağın saxlamağı təkid edərək:

-Bu ona daha bir zərbə olar. Son imkana qədər çalışın ki, uşaq qalsın.

Nərmin Lilinin yanında idi. Bir azdan Kamilə gəldi. Həyəcandan üz-gözü tər içində idi. Qəribə sarılaraq ağladı. Boğula-boğula:

-İndicə eşitdim , televiziya göstərirdi. Qərib, niyə axı?

Qərib başını buladı:

-Sən qal Lilinin yanında. Nərmin getsin evə, uşaqların yanına. Mən dəfnlə məşğul olmalıyam.

Qərib məhəlləyə qayıdanda küçə, dalan , həyət adamla dolu idi, içəri keçmək mümkün deyildi. Qərib çətinliklə evə daxil oldu. Ağsaqqallar, axund oturmuşdu. Rizonun cənazəsini məsciddən gətirəndə qıy qopdu. Qərib də qalxaraq həyətə düşdü. Qadınlar şivənlə ağlaşırdılar. Dalanda qopan hayqırtıdan Qəribin tükləri biz-biz oldu. Rizonun futbolçu dostları idi. Hamısı kəfən geyinib zəncir vururdu. Qərib çıxıb onların qarşısında dayandı. Hər dəfə

küräklərinə dəyən zəncirin səslərindən, hayqırtıdan qulaq tutlurdu. Qərib yerində səndirlədi. Yanında duranlar onun qolundan tutdu.  Kimsə onun çəkib içəri apardı. Qəribi divana uzadıb pencəyini soyundurdular. Həkim onun qoluna iynə vurdu və Qərib huşunu itirdi.

Bir xeyli keçəndən sonra naşatır qoxusuna ayıldı. Yanında həkimlər dayanmışdı.Axund irəli gələrək:

-Qərib müəllim, mərhumu basdırmaq gərəkdir. İcazənizlə, qaranlıq düşmədən bunu edək. Dəfn olunmasa, bu qədər insan küçədə qalacaq. Səhərəcən adamlar əziyyətdə qalmasın.

Qərib ona verilən stəkanı əlinə aldı, sudan bir neçə qurtum alaraq:

-Necə məsləhətdir, elə də edin.

Həkimin uzatdığı həbi alıb ağzına qoydu. Qalxaraq, pencəyini geyindi.  Dalanda camaat cənazə namazına durdu. Zəncir vuranlar keçib sırada dayandılar. Onların hamısı qana boyanmışdı, yaralarından qan axırdı. Qərib gözlərini yumdu.

Rizonu Gülünün yanında basdırdılar. Qəbiristan adamla dolu idi. Qərib başı sinəsində dayanmışdı. Dəfn mərasimi bitdi. Adamlar yavaş-yavaş dağılışmağa başladılar. Qərib tək-tənha məzarın yanında oturub qalmışdı. Gülünün baş daşına baxaraq:

-Əmanətini qoruya bilmədim. Çəkib gətirdin yanına.

Üzünü torpağa qoyub gözünü yumdu. Beyni dayanmışdı, heç nə fikirləşə bilmirdi.

Qaranlıq düşmüşdü. Qəbiristanlığın işçiləri uzaqdan bu mənzərəyə baxır, Qəribi seyr edir, amma qorxularından yaxına gəlmirdilər. Nəhayət, müdirləri özünü toplayaraq, yaxınlaşdı, ehtiyatla:

-Məlim, Allah rəhmət eləsün, Allah səbr versün süzə...ancaq gecədü, süz də gedün evə.

Qərib başını qaldırıb key-key ona baxdı. Ayağa durub ciblərini eşələməyə başladı. Döş cibindən qatlanmış bir dəstə pulu çıxarıb ona verərək:

-Al bu pulu, yaxşı bax bunlara... məni də burda basdırarsız. Əli ilə Rizonun yanını göstərdi.

-Allah gecinnən versün, məlim...irağ-irağ... süz gedün tay, çox sağ olun,-pulu alaraq cibinə qoydu, bizim borcumuzdu, allah rəhmət eləsün, Allah cibüzə bərəkət versün...

Qərib asta-asta qəbiristanlıqdan çıxdı, qapının yanında dayanmış işçilərdən biri:

-Allah bilir, kimin güdazına getdi...

O biri də köksünü ötürərək:

-Ehh...kimin olacaq, çərxi-fələk...

***

Qərib yeddi gün Rizogildə qaldı. Hüzürə gələnlərin-ardı arası kəsilmirdi. Çadır dolub-boşalırdı. Uşaqları Nərmin evinə aparmışdı. Kamilə də Lilinin yanında qalırdı. Gecələr

Qərib klinikaya gedir, Lilinin yanında oturурdu. Onun və uşağın vəziyyəti təhlükəni adlamışdı. Həkimlər yanından bir dəqiqə belə aralanmırdılar. Amma sağalmağına xeyli vaxt lazım idi. Belə vəziyyətdə bu- qeyri-mümkün idi. Bir tərəfi iflic olmuşdu. Üzü, ağzı əyilmiş, bir gözü qapalı idi. Çox zaman yatmış olurdu. Oyaq vaxtlarında çılğınlaşdığı üçün sakitləşdiri verirdilər. Uşağın vəziyyətini nəzərə alaraq, ehtiyatla müalicə edirdilər. Lili bir ay klinikada qaldı. Evə gələndə hüzürün heç bir əlaməti qalmamışdı. Onu evdə müalicə eləmək üçün həkim və tibb bacısı ayrılmışdı. Anası və atası da artıq onunla qalırdılar. Nərmin daha işə getmir, qızına və nəvələrinə baxırdı. Qərib də işə çıxmışdı. Yorğun və xəstə olsa da, işləri qaydaya salmalı idi. İnşaat sektoruna icraçı direktor təyin etdi. Şirkətin yalnız inşaat materialları hissəsini saxlamaqla, qalan başqa bölmələri ləğv etmək üçün tədbirlər gördü. Burda yüzlərlə işçi çalışırdı, onları inşaat şirkətinə keçirib işlə təmin etdi. Bu işdə ona vəkillər kömək edirdi. Şirkətin bütün vəsaitini futbol federasiyasına keçirtdi. Rizonun başladığı işi dostlarına tapşıraraq, idarə heyəti yaratdı, onlar da öz aralarında prezident seçdilər. Rizonun ölümündən sonra, daha burdan mal keçməmişdi. Kuryer bir neçə dəfə əlaqə yaratmaq istəsə də, Qərib görüşə getməmiş, zənginə cavab verməmişdi. Tədbirləri başa çatdıqmaqdan ötrü vaxt qazanmaq istəyirdi. Gecəyarısı evə gəlir, saatlarla dinməz-

söyləməz gözünü yumub uzanırdı. Zahirən çox dəyişmişdi. Qaməti əyilmiş, saçları ağappaq ağarmışdı. Yorğun, şişkin gözləri heç nə ifadə etmirdi.

Evə gələndə Kamiləni görmədi. Yəqin, anasıgildə və ya Lilinin yanındadır,deyə düşündü. Yatağına uzanıb gözlərini tavana dikdi. Səhər işə gedəndə də Kamiləni görmədi. Axşam qayıdanda xidmətçi qadından Kamiləni soruşdu.

-Xanım yoxdur, -deyib, işi ilə məşğul oldu.

Qərib paltarını dəyişib evdən çıxdı. Kamilənin Lilinin yanında olduğunu güman edərək, maşını ora sürdürdü. Həyətə girib ağır-ağır pilləkənləri qalxdı, zəngi basdı. Xidmətçi qız qapını açaraq:

-Buyurun, xoş gəlmisiz , -dedi.

Qərib içəri keçərək:

-Hardadılar? –deyə soruşdu.

-Buyurun, mətbəxdədilər.

Qərib mətbəxə keçdi. İçəridə Lili uşaqlarla oturmuşdu. Qərib salam verərək, stul çəkdi və oturdu.

Lili ona baxaraq başını aşağı saldı. Hələ yaxşılaşmamıdı. Daranmamış, vız kimi saçları kürəyinə, çiyninə tökülmüşdü. Yataq xalatında idi. Üzündə hələ əyrilik hiss olunurdu. Bir əli yanına sıxılı idi, o biri əli ilə Fuadı yedizdirirdi. Vasif də başını aşağı salıb qaşıqla sıyığını yeyirdi. Arabir gözaltı qorxa-qorxa gah Qəribə, gah anasına baxırdı. Qərib susaraq onlara göz qoyurdu.

-Kamilə burda deyil?
Lili:
-Yox.
-Nərmingil hanı bəs?
-Getdilər.
Bəs başqaları, həkim, o birilər?
-Qovdum onları.
Qərib uşaqların sükutunun səbəbini anladı.
Lili üzünü qapıya sarı tutaraq:
-Əsmər!
Qız qapıda peyda oldu.
-Apar bunları, yatızdır.
Əsmər salfetlə Vasifin ağzını təmizlədi. Fuadı qucağına götürüb çıxdı. Lili çətinliklə qalxaraq, beli əyilmiş halda , bir qolunu yanına sıxaraq, o biri əli ilə balaca, yumru qarnını tutaraq otaqdan çıxdı.
Qəribin ürəyi sıxıldı. Bir qədər oturub sinəsini sığalladı, sonra qalxıb həyətə düşdü. Telefonu çıxarıb Əkbərin adını axtardı. Zəng edərək salamlaşdı.
-Niyə getmisiz, uşaqlar təkdi...
-Səhər gələcəyik, Qərib müəllim. Lili bir az əsəbiləşdi, biz də sakitləşsin deyə çıxdıq.
-Heç olmasa, anası qalaydı.
-Narahat olmayın, dayə, xidmətçi qız da yanındadı. Səhər tezdən gedəcəyik. Bir az dincəlsin.

-Yaxşı... səhər gəlin, onu tək qoymayın.

***

Evə gəlib kabinetə keçdi. Kresloda oturub gözünü naməlum nöqtəyə dikdi. Nə işığı yandırmağa, nə də soyunub çarpayıya getməyə taqəti yox idi. Qaranlıqda xeyli beləcə oturub qaldı. Dəhlizdən yumşaq addım səsləri eşidilməyə başladı. Hənirindən hiss elədi ki, Kamilə qapıda dayanıb ona baxır.

-Qərib...

Qərib başını qaldırmadı. Ona tərəf baxmasa da, islanmış üzünü, yaşlı gözlərini, iztirablı dodaqlarını hiss etdi. Onun səsinə o qədər ağrı var idi ki, Qərib gözlərini yumdu.

-Qərib, mən getmək istəyirəm...

Onun dinmədiyini görərək:

-Amma səni bu halda qoyub...

Qəribin quyudan gəlirmiş kimi, zəif , yorğun səsi eşidildi:

-Get...get Kamilə...bir az susaraq, əlavə etdi:

-Məni bağışla...bağışla, sənə hər kəsdən çox haqsızlıq elədim...istəməzdim belə olsun...

Kamilə göz yaşları içində ona baxdı, baxdı...və sakitcə çəkilib gedərək, qapını qaranlığa qapadı.

Qərib gözlərini yumaraq, başını kresloya dayadı, boynundakı ağrı kürəyinə yayıldı:

-Off...deyərək, ağrıdan inildədi. Əli ilə boynunu ovxaladı. Qalxıb pencəyini soyundu, dolabın siyirməsindən ağrıkəsici

tapıb atdı, yataq otağına girib çarpayıya uzandı. Gözünün önündə qəfil Süräyya canlandı, onun işıqlı üzü, qıyılmış gözləri, təbəssümü...Qəribə sarı uzanan qolları...sanki səsini eşitdi:

-Qərib, fikir eləmə, özünü bu qədər üzmə, hər şey yaxşı olacaq.

Qəribin sanki nəfəsi genişləndi, sinəsini sıxan ağrı avazıdı. İlahi, onu bircə dəfə görməkdən ötrü nələrdən keçməzdi! Yol boyu uzanan rəngbərəng çöl çiçəkləri, Süräyyanın duyğu dolu gözləri, şıltaq gülüşləri...tərtəmiz, günəşli göy, onların sevgi qoxuyan cazibəsi...ahh, çöl çiçəyim, hardasan...gözlərində gilənən yaş axıb yastığa töküldü...

Hiss eləmədən yuxu onu apardı. Üzündə hənir hiss edib, qəfil gözlərini açdı. Ayılıb yerinin içində oturdu. Bura Gülünün daxması idi, Gülü taxta kətildə oturub gözlərini ona zilləmişdi. Qəribin bədənindən bir üşütmə keçdi:

-Gülü? Burda neynirsən?

Gülü gözlərini qırpmadan ona dikmişdi. Saçları uzanıb ağ örtük kimi onu dövrələmişdi. Qərib onun gözlərinə baxdıqca, daha da yaxınlaşırdı. Onun gözlərində yaş gilələnir, yumrulanaraq yanaqlarından üzüaşağı yuvarlanırdı. Sonra Qərib şırıltı eşidərək ətrafa baxdı, divarlardan, tavandan su sızırdı, qanlı iz qoyaraq döşəməyə tökülürdü. Gülü qanlı suyun içində otumuşdu. Qərib durmaq, buradan uzaqlaşmaq istədi, amma hər yer- bütün

ətraf su idi, keçib getməyə yol yox idi. Su getdikcə qalxırdı, Qəribin nəfəsi daralır, boğulurdu. Əl-qol atır, çırpınırdı. Sonra harasa, dərin bir boşluğa uçdu. Bu zaman hövlank, təngnəfəs yuxudan ayıldı. Qan –tərin içində idi. Ətrafa baxdı, qaranlıq idi. Durub işığı yandırdı, yaş köynəyini çıxarıb atdı. Dolabdan təmiz paltar götürüb geyindi, mətbəxə gedib su içdi. Ürəyi hələ də çırpınırdı. Əllərinin titrədiyini hiss elədi. Bir sakitləşdirici həb atıb yerinə uzandı.

Səhər işdə köməkcisi Rüfət:

-Qərib müəllim, yaxşı görünmürsüz, sizə həkim çağırımmı?

-Yox... de, mənə kofe gətirsinlər.

Qərib kofe içə-içə Rüfətin dəftərçədən oxuduğu günün iş rejiminə qulaq asırdı. Rüfət görüləcək işləri sayıb qurtarandan sonra, qapını örtərək çıxdı. Telefon çaldı, Qərib monitora baxaraq açdı. Xəttin o biri başındakı adam danışır, Qərib laqeyd halda, dinləyirdi. Sonra:

-Yaxşı, -deyib telefonu söndürdü və stolun üstünə atdı. Yerindən qalxıb pəncərənin önünə gəldi. Buradan şəhərin dənizə açılan hissəsi aydın görünürdü. Qərib dənizi, gəmiləri seyr etməyə başladı. Sahil bağında yüksələn "Şeytan çarxını" gördü. Bu şəhərə gəldiyi günü xatırladı. O zaman da gözləri uzaqdan "şeytan çarxını" almışdı. Çox qəribədir, bu on iki ildə bir dəfə də olsun bu çarx onun yadına düşməmiş, heç zaman əyləncə mərkəzinə getməmiş,

bu "şeytan çarxını " yaxından görməmişdi. Əlləri cibində dayanıb uzaqlara baxırdı.

Rüfət qapını açaraq, içəri girdi:

-Qərib müəllim, on dəqiqədən sonra komissiyanın iclasıdır.

Qərib ona baxmadan:

-İndi gəlirəm.

Gözünü "Şeytan çarxından" çəkib otaqdan çıxdı, liftlə düşüb küçəyə çıxdı və piyada sahildəki əyləncə bağına tərəf yollandı. Tez olduğu üçün bağda uşaqlar yox idi.Tək-tük piyada dəniz gəzintisinə çıxmış yaşlı adamlar gözə dəyirdi. Qərib yaxına gəlib "Şeytan çarxına" baxmağa başladı. Başını yuxarı qaldırıb onu yüksəkliyini, dairəsini müəyyənləşdirmək istəyirdi. Buranın işçisi olan cavan oğlan yaxına gəlib:

-Minmək istəyirsiz? –deyə soruşdu.

Qərib ona baxaraq gülümsündü:

-Hə... amma yüksəklikdən qorxuram.

Oğlan:

-Bunlar möhkəm bağlanır, tam təhlükəsizdir.

Qərib cibindən pul çıxarıb oğlana verdi. Keçib oturacaqda əyləşdi. Oğlan qapının dəstəyini və kəməri bağladı. Çarx hərəkətə gəlib yuxarı qalxmağa başladı.

***

Günorta və axşam televiziya kanalları və qəzetlər bu gün səhər baş vermiş dəhşətli faciə haqqında xəbərlər verirdi. Tanınmış iş adamı, milli məclisin üzvü, bir çox qurumların, layihələrin rəhbəri Qərib Qəribli qəza nəticəsində dünyasını dəyişmişdir...

Kənd bağında, otağında xəbərləri izləyə-izləyə çay içən Atəbəy necə çeçədisə, bütöv qənd böğazında qaldı. Öskürə-öskürə qəndi zorla boğazından ötürən Atabəy qəhərlənərək:
-Heyf səndən, Qərib...heyf...axır ki, başını yedilər... ehh, gidi dünya... ehhh, çərxi-fələk...

***

Sabirabad, 21 oktyabr, 2014. Saat 14.41